NAZİM ƏHMƏDOV

85

# N A X Ç I V A N
# İQTİSADİYYATININ PRİORİTETLƏRİ:
# İQTİSADİ ARTIM, DİNAMİK İNKİŞAF

BAKI – SABAH- 2008



*Redaktor*: i.e.n., dos. **N.R.Quliyev**

*Rəyçilər:* i.e.d., prof. **M.X.Meybullayev**
i.e.d., prof. **T.A.Quliyev**

**N.Əhmədov.** Naxçıvan iqtisadiyyatının prioritetləri:
iqtisadi artım, dinamik inkişaf.
Bakı, "Sabah", 2008, 452 səh. (şəkilli)

İSBN 5-86106-113-0

*Monoqrafiya müstəqillik dövründə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf yolunun tədqiqinə həsr olunmuşdur. Bugünkü inkişafın əsasları hələ XX yüzilliyin axırlarında Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Müstəqillik dövrünə həsr olunan əsərdə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişaf xüsusiyyətləri təhlil edilir. Ulu öndər Heydər Əliyevin və onun kursunu davam etdirən ölkə prezidenti İlham Əliyevin göstərdiyi qayğı və diqqət, Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun fədakarlığı – məhz bu 3 amil birləşməsi muxtar respublikada dinamik inkişafı təmin etmişdir.*

*Əsərdə Ali Məclisin məşğulluq problemlərinin həlli və quruculuq işləri sahəsində gördüyü işlər qiymətləndirilmişdir.*

*Tədqiqat zamanı müstəqillik illərində muxtar respublikanın dinamik inkişafı statistik materiallar əsasında sübuta yetirilmişdir.*

*Əsərdən elmi işçilər, aspirantlar, magistrlər, tələbələr və ümumiyyətlə iqtisadiyyatla maraqlananlar istifadə edə bilərlər.*

$\frac{0605010407}{029-2008}$ *qrifli nəşr*

© N.Əhmədov, Bakı

downloaded from KitabYurdu.org

***Monoqrafiya Ulu Öndər Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr olunur***

## MÜƏLLİFDƏN

Müstəqil Azərbaycan Respublikası artıq 17 ilə yaxındır ki, dünya xalqları birliyində öz layiqli yerini tutmaq, inkişaf etmiş dövlətlər sırasına qoşulmaq yolunda böyük inam və qətiyyətlə addım-addım irəliləyir. Ulu Öndər Heydər Əliyevin uzaqgörən daxili və xarici siyasəti nəticəsində qısa bir müddətdə Azərbaycanın beynəlxalq imici yeniləşmiş, ölkəmiz dünya siyasi arenasının fəal subyektlərindən birinə çevrilmişdir.

Azərbaycan ziyalıları uzun illər ittifaqın tərkibində olan respublikamızda görülən işləri, xüsusilə Ümummilli liderimiz H.Əliyevin hakimiyyətinin birinci dövründə respublikamızda baş verən dəyişiklikləri, iqtisadi sahədə aparılan dərin islahatları, Azərbaycanın indiki siyasi və iqtisadi müstəqilliyinin, beynəlxalq münasibətlər sisteminə və dünya iqtisadiyyatına inteqrasiyasının bünövrəsi kimi qiymətləndirirlər.

Azərbaycanın ikinci dəfə öz müstəqilliyini bərpa etməsi ölkənin ictimai-siyasi həyatında çox mühüm hadisə olmuşdur. Lakin 1991-ci il oktyabrın 18-də «Azərbaycanın Dövlət Müstəqilliyi haqqında» Konstitusiya Aktının qəbul edilməsi ilə xalqımız yenidən öz müstəqilliyini bərpa etdi. Lakin elə o vaxt hakimiyyətin səbatsız və qətiyyətsiz adamların əlində



olması milli dövlətçiliyimizin taleyini təhlükə altında qoyurdu. Respublikamızın ədalətsiz müharibəyə sürüklənməsi, torpaqlarımızın işğalı, daxili çəkişmələr və vəzifə davası, dərin sosial-iqtisadi böhran, hakimiyyət çevrilişləri və s. bütün bunlar müstəqilliyin ilk illəri üçün ağrılı bir mənzərə yaratmışdır. Ulu öndərimiz Heydər Əliyevin 1993-cü il iyun ayında xalqın təkidi və tələbi ilə hakimiyyətə qayıtması, müstəqilliyimiz uğrunda qətiyyətli və cəsarətli mübarizəyə başlamasından sonra həmin mənzərə tamamilə dəyişdi. Heydər Əliyev dühası xalqı öz ətrafında birləşdirməyə, demokratik, dünyəvi, hüquqi dövlət quruculuğunun əsasını qoymağa nail oldu. Ümummilli liderimizin zəngin dövlətçilik təcrübəsi və idarəçilik məharəti müstəqil dövlətimizi ağır bəlalardan xilas etdi, sabitlik yaratdı, davamlı inkişafa yol açdı. Heydər Əliyev – xalq birliyi daxili və xarici qüvvələrin 1994-1995-ci illərdə planlaşdırdığı dövlət çevrilişləri cəhdlərini puça çıxardı.

Bir sözlə, Ulu Öndərimiz Heydər Əliyev dövlət müstəqilliyinin ilk illərində zülmətə bürünərək uçuruma yuvarlanmaq təhlükəsi ilə üzləşən Azərbaycan cəmiyyətini qaranlıqdan xilas edib işığa qovuşdurdu. Onun bəşəri ideyaları müstəqil dövlətimizin gələcək inkişaf yollarına işıq saldı.

Müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu, Ümummilli liderimiz Heydər Əliyevin yürütdüyü iqtisadi siyasət nəticəsində 1996-cı ildə ölkədə makroiqtisadi sabitlik əldə olundu və inkişaf başladı.

downloaded from KitabYurdu.org

Qətiyyətlə deyə bilərik ki, bu gün Ulu Öndərimizin siyasi kursu onun layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xalqımızın böyük dəstəyi ilə ölkə prezidenti seçilən İlham Əliyev bu çətin və şərəfli vəzifəni çox uğurla yerinə yetirir. Elə buna görə də ölkəmiz nəinki regionda, habelə bütün dünyada liderlik səviyyəsinə yüksəlmişdir. Bu gün Azərbaycan dövlətçiliyinin gücü, ölkəmizin siyasi, iqtisadi qüdrəti qarşıya çıxan hər bir problemi həll etməyə imkan verir. Bütün bunlar isə sözsüz ki, Ulu Öndərimiz Heydər Əliyevin yaratdığı möhkəm bünövrəyə əsaslanır.

Möhtərəm Prezidentimiz İlham Əliyev çox haqlı olaraq demişdir: «Azərbaycanda Heydər Əliyevin siyasəti yaşayır, möhkəmlənir, yeni formalarla zənginləşir… Azərbaycan rəhbərliyinin siyasəti, xalqın bizim siyasətimizi dəstəkləməsi təbii ki, mövqelərimizi daha da gücləndirir. Ölkədə həm siyasi, həm də iqtisadi sahələrdə islahatlar cəsarətlə aparılır».

Ölkədə və onun tərkib hissəsi olan Naxçıvan MR-də aparılan islahatlar öz nəticəsini verir və bizi sevindirir.

Naxçıvan MR Ali Məclisinin sədri çox haqlı olaraq deyir ki, Naxçıvan tarixi, mədəniyyəti, iqtisadiyyatı, ədəbiyyatı və digər sahələrdə hələ ciddi araşdırmalar aparılmır.

Mən bir iqtisadçı kimi xüsusi qeyd etmək istəyirəm ki, Naxçıvan iqtisadiyyatının müxtəlif sahələrini əhatə edən məqalələr yazılmışdır. Lakin indiyə kimi müstəqillik dövründə Naxçıvan iqtisadiyyatında



baş verən dəyişikliklər, əldə olunan nailiyyətlər kitab şəklində ilk dəfədir ki, çap edilir.

Kitabın «Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf» kimi adlandırılması təsadüfi deyildir. Aparılan araşdırmalar və təhlillər göstərir ki, doğrudan da, Naxçıvan iqtisadiyyatında artım baş verir və dinamik inkişaf edir. Bu iqtisadi inkişaf bir çox göstəricilər üzrə bütövlükdə ölkənin və iqtisadi rayonların iqtisadi göstəricilərini xeyli qabaqlayır. Bu məsələləri biz iqtisadçılar, müəllimlər nə üçün elmi cəhətdən əsaslandıraraq geniş oxucu kütləsinə təqdim etməyək?

Ümummilli liderimiz Heydər Əliyev ali məktəb müəllimlərinin əməyini yüksək qiymətləndirərək demişdir: «…ali məktəbdə hər bir müəllim bilməlidir ki, onun üzərinə düşən vəzifə, onun dövlət üçün, millət üçün, Azərbaycan xalqı üçün gördüyü iş bütün başqa sahələrdə fəaliyyət götərən insanların hamısının işindən ən gərəklisidir, ən lazımlısıdır».

Elə bu məqsədlə də mən öz üzərimə düşən vəzifəni yaxşı dərk edərək belə bir işin altına girdim və öz vəzifəmin öhdəsindən necə gəldiyimi isə, yəqin ki, oxucular deyəcəklər. Çünki Ümummilli liderimiz H.Əliyevin biz ali məktəb müəllimləri qarşısında qoyduğu vəzifələr təkcə gələcəyin mütəxəssislərini yetişdirməklə bitmir. Həm də elmi fəaliyyətlə məşğul olmaq, yeni əsərlər yazmaq bizim ümdə vəzifəmizdir.

Axı nə üçün də yazmayaq. Dövlət bizi hər cür qayğı ilə təmin edir. Həyat şəraitimizi yaxşılaşdırır. Stimullaşdırıcı tədbirlər görür. Elə bu yaxınlarda (17

downloaded from KitabYurdu.org

oktyabr 2007-ci il) Naxçıvan Dövlət Universitetinin 40 illiyi münasibətilə bir qrup əməkdaşın, o cümlədən 2 nəfərə prezident təqaüdünün, 1 nəfərə şöhrət ordeni, 1 nəfərə əməkdar elm xadimi, 3 nəfərə Azərbaycanın əməkdar müəllimi, 9 nəfərə tərəqqi medalı və bir çox əməkdaşlara muxtar respublikanın yüksək mükafatlarının verilməsi bizi sevindirir və daha yaxşı işləməyə ruhlandırır.

Bu mükafatlar üçün mən də sevinirəm, ona görə sevinirəm ki, 9 nəfər «Tərəqqi» medalı alanlar içərisində mənim də adım vardır. Bu yüksək mükafatı mənə təntənəli iclasda ölkə Prezidenti möhtərəm İlham Əliyev cənabları təqdim etdi.

Mən bu kitab vasitəsilə Ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyevə və Naxçıvan MR Ali Məclisinin Sədri çox hörmətli Vasif Talıbova dərin minnətdarlığımı bildirirəm. Sizi əmin edirəm ki, gələcəkdə də yeni tədqiqat əsərlərinin meydana gəlməsi üçün öz qüvvə və bacarığımı sərf edəcəyəm.

Beləliklə, dövlət, vətən bizim hər birimizin qayğısına qalır. Bunun müqabilində bəs biz vətən üçün nə edə bilərik? Bəzən vətən haqqında ağız dolusu danışanlar konkret işə gələndə susurlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun vətənin parlaq sabahları ilə bağlı qarşımıza qoyduğu vəzifələr hamımızı fədakarlığa çağırır. O çıxışlarının birində demişdir: «Vətən, Vətən deməklə olmur. Vətən alın təri ilə Vətən olur.



Hər kəs üçün ümumi Vətən evimiz gündə bu möhtəşəm divara bir kərpic qoymaqla başa gəlir».

Hesab edirəm ki, hər bir Azərbaycan vətəndaşı: alimi də, şairi də, mədəniyyət işçisi də, müəllimi də – ümumiyyətlə, harada və hansı sahədə işləməsindən asılı olmayaraq muxtar respublikanın çiçəklənməsi naminə öz bacarığını sərf etməlidir.

1992-1993-cü illərdə Ümummilli liderimiz H.Əliyev tərəfindən aqrar islahatların başlanması ilə əsası qoyulan və bu gün Naxçıvan MR Ali Məclisinin Sədri V. Talıbov tərəfindən çox uğurla davam etdirilən iqtisadi siyasət getdikcə öz bəhrəsini verməkdədir.

Müstəqillik dövründə Naxçıvan MR-da iqtisadi artım və dinamik inkişaf məsələləri elmi cəhətdən əsaslandırılaraq, təhlil edilərək, araşdırmalar aparılmışdır. Hesab edirəm ki, müəllif tərəfindən hazırlanmış bu monoqrafiya Ulu Öndərin anadan olmasının 85 illiyinə bir töhfə olacaqdır.

downloaded from KitabYurdu.org

# GİRİŞ

Qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı – qədim türk-oğuz yurdu, əzəli və əbədi Azərbaycan torpağı, bəşər sivilizasiyasının beşiklərindən biri olub, tarixən Şərqin ticarət, sənətkarlıq, elm və mədəniyyət mərkəzlərindən hesab olunmuşdur. Naxçıvan ərazisində aşkar edilən daş və metal dövrünün abidələri, Gəmiqayada sərt qayalıqlarda aşkar olunan çoxsaylı müxtəlif təsvirlər, öz sənətkarlığı ilə seçilən boyalı qablar mədəniyyəti, qədim şəhərsalma mədəniyyətinin izləri və s. nümunələr bu yurdun məhz bəşər mədəniyyətinin ilk beşiklərindən biri olduğunu sübut edir.

Naxçıvanın əlverişli geostrateji mövqeyi, mühüm karvan yollarının, o cümlədən «İpək Yolu»nun üzərində yerləşməsi, zəngin ticarət və sənətkarlıq mərkəzi olması, həmçinin ətraf bölgələrin malik olduqları məhsuldar torpaqlar hələ çox əvvəldən qonşu dövlətlərin diqqətini cəlb etmişdir.

Müasir dövrdə isə Naxçıvan Muxtar Respublikası Azərbaycanın özünəməxsus yüksək inkişaf xüsusiyyətlərinə malik olan regionlarından biridir.

XX əsrin sonlarında Azərbaycan ikinci dəfə öz müstəqilliyini əldə etdikdən sonra Naxçıvan MR-də nəzərəçarpacaq müvəffəqiyyətlər əldə edilmişdir. İqtisadiyyat daim inkişaf etmiş və təkmilləşmişdir.

Lakin indiyə kimi Naxçıvan Muxtar Respublikasının əldə etdiyi nailiyyətləri, xüsuilə müstəqillik



dövründə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafını əks etdirən bircə kitab da olsun nəşr edilməmişdir. Tərtib olunan bu kitab oxuculara 3 bölmə və 8 fəsildə təqdim olunur.

I bölmə «İqtisadi artım sürətinə və dinamik inkişafa malik respublika» adlanır. Bu bölmə bir fəsildən ibarətdir. Bu fəsildə muxtar respublikanın inzibati ərazi bölgülərinin qısa xarakteristikası verilir.

II bölmə «Müstəqillik illərində iqtisadiyyatın inkişaf xüsusiyyətləri» adlanır və bu bölmə 5 fəsildən ibarətdir.

II fəsildə sənaye sahələri təhlil edilir. İlk növbədə keçən əsrin 90-cı illərinin əvvəllərində ölkəni bürüyən iqtisadi böhran, onun səbəbləri və bu böhrandan çıxış yolları verilir. Bu fəsildə sənayenin müasir vəziyyəti, inkişaf perspektivləri araşdırılır. Naxçıvan MR Ali Məclisinin rəqabət qabiliyyətli məhsullar istehsalının artırılması sahəsində apardığı sənaye siyasəti tədqiqat obyektinə çevrilir.

«Aqrar sektorun iqtisadiyyatı və inkişaf problemləri» adlanan III fəsildə muxtar respublikada kənd təsərrüfatının müasir vəziyyəti və inkişaf xüsusiyyətləri verilir. Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin sədri işləyərkən ilk dəfə olaraq aqrar islahatlara Naxçıvanda başlaması və sonra ölkənin digər regionlarına yayılması və onun ilkin nəticələri qiymətləndirilir.

IV fəsildə ölkənin nəqliyyat sektoru haqqında məlumatlar verilir, beynəlxalq əlaqələrdə onun rolu qiymətləndirilir, ölkənin iqtisadi rayonlarında, o

downloaded from KitabYurdu.org

cümlədən Naxçıvan MR-də nəqliyyatın ayrı-ayrı sahələrinin inkişafı və perspektivləri təhlil edilir.

V fəsildə müstəqillik illərində Naxçıvan MR-də gedən tikinti-quruculuq işlərindən geniş söhbət açılır. Muxtar respublikada son illərdə yüzlərlə məktəblərin, səhiyyə obyektlərinin, inzibati binaların, körpülərin, yol qovşaqlarının, su artezian quyularının, sənaye, ticarət və digər obyektlərin tikilib istifadəyə verilməsi qeyd edilir.

VI fəsil isə muxtar respublikada demoqrafik proseslər, məşğulluq və gender probleminə həsr edilmişdir. Bu fəsildə Naxçıvan MR-də demoqrafik proseslərin müasir vəziyyəti, burada məşğulluğun təmin olunma imkanları və gender probleminin həlli istiqamətləri geniş tədqiqat obyektinə çevrilir.

III bölmə «Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın dövlət tənzimlənməsinin müasir vəziyyəti və perspektivləri» adlanır. Bu bölmə VI və VII fəsilləri əhatə edir.

VII fəsil «Naxçıvan gömrüyü inkişaf yollarında» adlanır. Bu fəsildə Ümummilli liderimiz Heydər Əliyevin müstəqil gömrük xidmətinin yaradılması sahəsində gördüyü işlər, Naxçıvan MR-də gömrük sisteminin müasir vəziyyəti və onun xarici iqtisadi əlaqələrin tənzimlənməsindəki rolu qiymətləndirilir.

VIII fəsil «Ölkənin ərzaq təhlükəsizliyi və onun regional aspektləri» adlanır. Bu fəsildə Naxçıvan regionunun ərzaq təhlükəsizliyi üzrə Dövlət Proqramının reallaşdırılması imkanları və ölkə Prezidenti İlham Əliyevin yoxsulluğun azaldılmasına yönəldilmiş iqtisadi və sosial siyasəti araşdırılır.

downloaded from KitabYurdu.org

# I BÖLMƏ

# İQTİSADİ ARTIM SÜRƏTİNƏ VƏ DİNAMİK İNKİŞAFA MALİK RESPUBLİKA

downloaded from KitabYurdu.org

# I FƏSİL

## NAXÇIVAN MR VƏ ONUN İNZİBATİ ƏRAZİ BÖLGÜLƏRİ

### *Regionun qısa xarakteristikası:*

### *1.1. Naxçıvan Muxtar Respublikası*

1924-cü il fevral ayının 9-da Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (Nax.MSSR) yaradılmış və 1990-cı ilədək fəaliyyət göstərmişdir. 1990-cı ildə adı dəyişdirilərək Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikası – muxtar dövlət elan olunmuşdur. Özünün konstitusiyası vardır.

Naxçıvan MR üç dövlətlə, o cümlədən 246 km sərhədlə Ermənistan Respublikası ilə, 11 km qardaş Türkiyə ilə və 204 km sərhədlə İran İslam Respublikası ilə həmsərhəddir.

Ərazisinin üçdə ikisi dağlıq sahələrdir. Elə iqlimin sərt kontinental olması da ərazisinin dağlarla əhatə olunması və iri su hövzələrindən uzaqda yerləşməsi ilə əlaqədardır. Naxçıvan MR ərazisi faydalı qazıntılarla çox zəngindir. Mineral su bulaqlarının rəngarəngliyinə görə Naxçıvan MR dünyanın ən diqqətəlayiq bölgələrindəndir. İndiyə kimi burada 250-dən artıq mineral su mənbəyi qeydə alınmışdır. Naxçıvan MR ərazisi zəngin floraya və rəngarəng bitki örtüyünə malikdir.



Muxtar respublikanın ərazisi 5,5 min kvadrat kilometr olmaqla bütövlükdə Azərbaycan Respublikası ərazisinin 6,4 faizini təşkil edir.

Naxçıvan MR əhalisi 1 yanvar 2008-ci il tarixə 384,5 min nəfərdir ki, bunların da 99,1 faizi azərbaycanlılardan, qalan hissəsi isə ruslar, kürdlər, gürcülər və s. xalqların nümayəndələridir.

Bəzi mənbələrə görə 5000 ilə yaxın yaşının olması iddia olunan Naxçıvan inkişaf etmiş iqtisadiyyata malikdir. Naxçıvan MR inkişafda olan çoxsahəli sənaye və aqrar-sənaye respublikasıdır. Sənayedə yerli kənd təsərrüfatı məhsullarının emalı və faydalı qazıntı ehtiyatı xüsusi yer tutur. Elektronika, metal emalı, tikinti materialları və yüngül sənayesi vardır. Kənd təsərrüfatı əsasən taxılçılıq, heyvandarlıq, tərəvəzçilik və bağçılıq sahəsində ixtisaslaşmışdır.

Muxtar respublikada iqtisadi islahatlar ardıcıl olaraq həyata keçirilmiş, torpaq islahatları başa çatdırılmış, azad sahibkarlığın, xüsusi mülkiyyətin və kiçik biznesin inkişafı üçün geniş imkanlar yaradılmışdır. 2006-cı ildə muxtar respublikada 405,7 milyon manatlıq Ümumi Daxili Məhsul (ÜDM) istehsal olunmuşdur ki, bunun 109,0 milyon manatını, yaxud 26,3 faizini kənd təsərrüfatı məhsulları, 70,4 milyon manatını və yaxud 17,3 faizi sənaye məhsulları, 191,8 milyon manatını və ya 47,3 faizini əsas kapitala yönəldilən investisiyalar təşkil etmişdir.

Naxçıvan MR Statistika Komitəsinin məlumatına görə 2005-ci ilə nisbətən 2006-cı ildə ÜDM istehsalı 26,6 faiz, sənaye məhsulunun ümumi həcmi 64,2

downloaded from KitabYurdu.org

faiz, əsas kapitala yönəldilən investisiyalar 52,1 faiz və kənd təsərrüfatının ümumi məhsulu 4,7 faiz artmışdır.

Muxtar respublikada, habelə 2005-ci ilə nisbətən 2006-cı ildə xarici ticarət dövriyyəsi (milyon ABŞ dolları) 71,9 faiz, büdcə gəlirləri 34,1 faiz, adambaşına düşən pul gəlirləri 28,2 faiz, bir işçiyə hesablanmış orta aylıq əmək haqqı isə 28,1 faiz artmışdır.

2007-ci ildə də Naxçıvan MR iqtisadiyyatının bütün sahələrində artım müşahidə edilmişdir. Muxtar respublikanın dinamik inkişafı göz qabağındadır. Belə ki, əsas makroiqtisadi göstəricilərə nəzər saldıqda məlum olur ki, 2007-ci ildə muxtar respublikada ÜDM istehsalı 24,7 faiz, sənaye məhsulu istehsalı 66,0 faiz, əsas kapitala yönəldilən investisiyalar 16,3 faiz, kənd təsərrüfatının ümumi məhsulu 2,0 faiz, nəqliyyat sektorunda yük daşınması 7,1 faiz, adambaşına düşən gəlirlər 38,6 faiz, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 40 faizə qədər artmışdır. Bütün bunlar onu göstərir ki, muxtar respublikada iqtisadi artım və dinamik inkişaf bir meyar kimi qəbul edilmişdir.

### *1.1.1. Naxçıvan şəhəri*

Naxçıvan şəhəri Naxçıvan Muxtar Respublikasının paytaxtıdır. İri sənaye, elm və mədəniyyət mərkəzi olan Naxçıvan şəhəri Naxçıvan çayının sahilində yerləşir.



Ərazisi 0,036 min km$^2$, əhalisi isə 71,2 min nəfərdir (1 yanvar 2008). Əhalinin 48,7%-ni kişilər, 51,3 %-ni isə qadınlar təşkil edir. Milli tərkibi azərbaycanlılardan ibarətdir. Sərt kontinental iqlimə malikdir.

Qədim rəvayət və miflərə əsaslanan bir sıra antik və orta əsr tarixçi və coğrafiyaşünasları Naxçıvanın eramızdan əvvəl 1539-cu ildə salındığını göstərərək 3500 ildən çox yaşı olduğunu qeyd edirlər. Lakin aparılan tədqiqatlar göstərir ki, bir çox tədqiqatçılar Naxçıvanın 3500 il yox, 5000 ilə yaxın yaşı olduğunu iddia edirlər və sübut etməyə çalışırlar (24, s.14).

Naxçıvan şəhəri karvan yolu üzərində yerləşdiyindən qədim ticarət mərkəzi kimi də şöhrət qazanmışdır. Naxçıvan şəhərində sənayenin inkişafı muxtar respublikanın digər rayonlarına nisbətən üstünlük təşkil edir. XX əsrdə Naxçıvan şəhərində yeni sənaye müəssisələri tikilsə də özünün əsl inkişafına 1970-ci illərdən başlamışdır. Ümummilli liderimiz Heydər Əliyevin birinci hakimiyyəti dövründə Naxçıvan şəhərində ittifaq əhəmiyyətli iri sənaye müəssisələri, o cümlədən Xalça kombinatı, Alt trikotaj malları fabriki, Şüşə qablar zavodu, Alümunium qablar zavodu və digər iri sənaye müəssisələri tikilib istifadəyə verildi.

2004-cü ildə muxtar respublikada sənaye məhsulunun 42,9 faizi, kapital qoyuluşunun 59,1 faizi, istifadəyə verilmiş əsas fondların 79,1 faizi, cəmi əmtəə dövriyyəsinin 48 faizi Naxçıvan şəhərinin payına düşmüşdür.

downloaded from KitabYurdu.org

Naxçıvan şəhəri muxtar respublikanın paytaxtı kimi Azərbaycanın elm, təhsil və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir. Naxçıvan şəhərində 13 orta məktəb, 12 məktəbəqədər müəssisə, 3 ali məktəb (Naxçıvan Dövlət Universiteti, Naxçıvan Özəl Universiteti, Naxçıvan Müəllimlər İnstitutu), 4 orta ixtisas məktəbi, Azərbaycan MEA-nın Naxçıvan bölməsi (tərkibində 5 elmi-tədqiqat institutu), 4 klub və mədəniyyət evi, 8 kitabxana, 6 uşaq musiqi məktəbi, 3 teatr, filarmoniya, 10 muzey, Naxçıvan Dövlət Şəkil Qalereyası və Rəssamlar Birliyinin sərgi salonu fəaliyyət göstərir. Bundan əlavə şəhərdə fəaliyyətdə olan 2 qəzet, 2 nəşriyyat, 1 jurnal, radio və televiziya mərkəzləri, müstəqil radio kanalı, Kanal-35 və s. diqqəti cəlb edir.

Səhiyyə sistemi böyük inkişaf yolu keçmişdir. İndi Naxçıvan şəhərində respublika xəstəxanası, şəhər mərkəzi xəstəxanası, doğum mərkəzi, yoluxucu xəstəliklər mərkəzi, göz, uşaq, duzdağ fizioterapiya xəstəxanaları, kardeologiya, vərəm, psixo-nevrologiya, onkologiya, ahıllar üçün ev, uşaq bərpa mərkəzi, dəri-zöhrəvi, endokrinologiya, poliklinikalar, təcili yardım stansiyası və mərkəzləri və s. səhiyyə ocaqları fəaliyyət göstərir.

Bir sözlə, Naxçıvan şəhərində geniş abadlıq və quruculuq işləri gedir, şəhər gözəlləşir və gündən-günə öz simasını dəyişir.



### *1.1.2. Şərur rayonu*

Şərur rayonu Naxçıvan MR-da inzibati rayondur. Bu rayon XX əsrin 30-64-cü illərində Noraşen rayonu, 64-91-ci illərində isə İliç rayonu adlandırılmışdır. Ümumiyyətlə, rayon 1930-cu ildə təşkil edilmişdir. Rayon şimaldan və şimal-şərqdən Ermənistan Respublikası, cənubdan və cənub-qərbdən isə İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 0,81 min km$^2$, əhalisi isə 1 yanvar 2008-ci ilə 99,0 min nəfərdir. Rayon mərkəzi Şərur şəhəri olmaqla 1 şəhər və 65 kənd yaşayış məntəqəsindən ibarətdir. İri yaşayış məntəqələri Şərur şəhəri, Dəmirçi və Püsyan kəndləridir.

Şərur rayonu Naxçıvan MR-ın ən böyük tütünçülük, üzümçülük, heyvandarlıq, taxılçılıq və tərəvəzçilik rayonudur. Rayonda kənd təsərrüfatına yararlı torpaqlar 31,5 min hektardır ki, bunun da 13,8 min hektarında əkin aparılır. Təsərrüfatlarda əsas etibarilə, arpa, buğda, qarğıdalı, tütün, meyvə-tərəvəz bitkiləri, kartof və s. bitkilər becərilir.

Son illər Şərur rayonunun iqtisadiyyatı inkişaf etmiş və mühüm nailiyyətlər əldə edilmişdir. Belə ki, təkcə 2007-ci ildə rayonda 23,2 min ton taxıl, 9,4 min ton kartof, 18,6 min ton tərəvəz, 17 min ton meyvə və 1200 ton üzüm istehsal edilmişdir.

Şərur rayonu həm də muxtar respublikanın ən böyük heyvandarlıq rayonlarından biridir. Burada heyvanların baş sayı ildən-ilə çoxalmaqdadır. Bunun nəticəsində də heyvandarlıq məhsulları istehsalı daim artmaqda davam edir.

downloaded from KitabYurdu.org

Şərur rayonunda sənaye də inkişaf etmişdir. Sənaye əsas etibarilə kənd təsərrüfatı məhsullarının emalı və tikinti materialları istehsalı üzrə ixtisaslaşdırılmışdır. Rayonda konserv zavodu, 3 şərab zavodu, quşçuluq fabriki, sənaye kombinatı, Gümüşlü dağ mədəni, Şahtaxtı daş karxanası və s. rayonun əsas sənaye müəssisələridir.

Son illər geniş tikinti-quruculuq işləri gedir və rayon öz simasını dəyişir.

Rayonun sosial infrastrukturunun möhkəmləndirilməsi, əhalinin güzəranının yaxşılaşdırılması, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Onlarla kənddə yeni məktəblər tikilmiş və əsaslı təmir edilmiş, inzibati binalar, səhiyyə obyektləri tikilib istifadəyə verilmişdir.

### *1.1.3. Babək rayonu*

Babək bölgəsinin təbii-coğrafi mövqeyi əkinçi-maldar tayfaların bu ərazidə qədim dövrlərdən məskunlaşmasına və uzun müddət yaşamasına şərait yaratmışdır. Təsadüfi deyil ki, I Kültəpə və II Kültəpə kimi dünya miqyaslı abidələr məhz bu ərazidədir. Burada yaşamış qədim tayfalara məxsus zəngin mədəniyyət, arxeoloji abidələr də qorunub saxlanmışdır. Naxçıvan ərazisində elmə məlum olan ilk arxeoloji tapıntılar 1870-ci ildə Babək rayonu bölgəsində qeydə alınmışdır. 1895-ci ildə Qızılburun adlı yerdən tapılmış boyalı qablar alimlərdə böyük maraq doğurmuşdur. Babək rayonu ərazisində elmi əhəmiyyətə malik Eneolit, Tunc, Dəmir dövrlərinə və Antik dövrə aid arxeoloji abidələr, qədim duzdağ yatağı və digər maddi-mədəniyyət qalıqları aşkara çıxarılmış və tədqiq edilmişdir.



Naxçıvan MR-də inzibati rayon kimi 1930-cu ildə təşkil olunan Babək rayonu 1978-ci ilə kimi Naxçıvan rayonu adlandırılmışdır. Babək rayonu şimal-qərbdə Ermənistan Respublikası, cənubda İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 0,9 min km$^2$, əhalisi isə 1 yanvar 2008-ci ilə 68,8 min nəfərdir. Rayonda 1 qəsəbə, 39 kənd var. Mərkəz Babək qəsəbəsidir. İri yaşayış məskənləri Nehrəm və Cəhri kəndləridir.

Babək rayonunun iqtisadiyyatında üzümçülük, taxılçılıq, bostançılıq, tərəvəzçilik mühüm yer tutur. Burada kənd təsərrüfatına yararlı torpaqlar 34533 hektar təşkil edir. Babək rayonu böyük rayon olmaqla məhsul istehsalında da böyük xüsusi çəkiyə malikdir. Belə ki, 2004-cü ildə muxtar respublikada istehsal olunan taxılın 38,3 faizi, tərəvəzin 31,9 faizi, bostan bitkilərinin 69,5 faizi, üzümün isə 69,7 faizi məhz bu rayonun payına düşmüşdür.

2007-ci ildə Babək rayonunda bitkiçilik məhsulları istehsalı artmışdır. Adı çəkilən ildə rayonda 28,6 min ton taxıl, 4,5 min ton kartof, 17,4 min ton tərəvəz, 5,3 min ton meyvə və 5,0 min tona yaxın üzüm istehsal edilmişdir.

Heyvandarlıq sahəsində də inkişaf var. Heyvanların baş sayı artamqla məhsul istehsalı sahəsində də ildən-ilə artım dinamikası müşahidə edilməkdədir.

downloaded from KitabYurdu.org

Rayonda sənaye sahələri də yenidən qurulur. Burada daş emalı, üzüm emalı və yeyinti sənaye sahələri fəaliyyət göstərir.

Babək rayonunda tikinti-quruculuq işlərinə də xüsusi diqqət yetirilir. Son illər aparılan quruculuq tədbirləri nəticəsində rayonda sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində böyük irəliləyişlərə nail olunmuşdur. Rayon mərkəzində və kənd yaşayış məskənlərində yeni inzibati və ictimai obyektlər tikilmişdir. Məktəblər, səhiyyə və mədəniyyət obyektləri tikilmiş, su xətləri, yeni avtomobil yolları çəkilmiş və yenidən bərpa edilərək istifadəyə verilmişdir. Görülən tikinti-abadlıq işləri rayonun simasını kökündən dəyişmişdir.

### *1.1.4. Culfa rayonu*

Culfa rayonu ərazisində aparılan arxeoloji tədqiqat işləri nəticəsində e.ə. III minilliyin ortalarından başlayaraq son orta əsrlərədək xeyli abidə qeydə alınmışdır. Tapıntılar bölgənin qədim sakinlərinin əkinçilik, maldarlıq, ovçuluqla məşğul olduğunu göstərir.

E.ə.III-II minilliklərdə bu ərazidə (Ərəfsə, Bənəniyar, Göydərə və s.) boyalı qablar mədəniyyəti yayılmışdır.

Culfa şəhərinin salındığı tarix dəqiq məlum olmasa da, buradan e.ə.XIII-IX əsrlərə aid maddi mədəniyyət nümunələri tapılmışdır. Orta əsrlərdə Culfa, nəinki Naxçıvan bölgəsinin, eləcə də Azərbaycanın iqtisadi həyatında mühüm rol oynamışdır. XVI-XVII əsrlərdə burada sənətkarlıq inkişaf etmişdir. Culfa şəhəri qədim İpək yolu üzərində yerləşdiyindən Naxçıvanın ticarət mərkəzi kimi şöhrət tapmışdır.



Culfanın bir rayon kimi yaradılması isə XX əsrə aiddir. 1930-cu ildə yaradılan Culfa rayonu Naxçıvan MR-ın inzibati rayonlarından biridir. Rayon şimal-şərqdə Ermənistan Respublikası, cənubdan isə İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 1,0 $km^2$, əhalisi isə 1 yanvar 2008-ci il tarixə 39,6 min nəfərdir. Rayonda 1 şəhər, 24 kənd və başqa yaşayış məntəqələri vardır. İri yaşayış məskənləri Culfa şəhəri, Yaycı, Əbrəqunus və Bənəniyar kəndləridir. Mərkəzi Culfa şəhəridir.

Culfa rayonu təbii sərvətlərlə zəngindir. Burada faydalı qazıntılar: mərgümüş filizləri, gips, kəc və s., mineral sulardan isə Darıdağ, Nəhəcir və s. çıxır.

Culfa rayonu əsasən, üzümçülük və heyvandarlıq rayonudur. Burada kənd təsərrüfatına yararlı torpaqlar 29,8 min hektar, suvarılan torpaqlar isə 5,2 min hektardır. Culfa rayonu müstəqillik dövründə geniş inkişaf yoluna qədəm qoymuşdur. Son illərdə bu inkişaf özünün yüksək mərhələsinə qədəm qoymuşdur. 2007-ci ildə rayonda 11,9 min ton taxıl, 4,8 min ton kartof, 8,3 min ton tərəvəz, 3,2 min ton meyvə və bütün rayonlardan çox 5,5 min ton üzüm istehsal edilmişdir.

Culfa rayonunda 2004-cü ildə 1970-ci illə müqayisədə heyvandarlıq məhsullarının hamısında artı-

downloaded from KitabYurdu.org

ma nail olunmuşdur. Bu artım indi də davam etməkdədir.

Rayonda mədən sənayesi, karbon qazı zavodu, gəc sexi, kənd təsərrüfatı texnikası təmiri müəssisəsi və s. vardır. Əgər 1970-ci ildə muxtar respublikada sənaye məhsulunun 4,5 faizi Culfa rayonunun payına düşürdüsə, 2004-cü ildə bu rəqəm 5,6 faiz olmuşdur.

Rayonda geniş tikinti-quruculuq işləri aparılır. Müstəqillik illərində onlarca yeni məktəb binası, səhiyyə obyektləri, inzibati binalar tikilib istifadəyə verilmiş və yol təsərrüfatı yenidən qurulmuşdur.

### *1.1.5. Ordubad rayonu*

1930-cu ildə yaradılmış Ordubad rayonu Naxçıvan Muxtar Respublikasında inzibati rayonlardan biridir. 1963-cü ildə bu rayon ləğv edilərək ərazisi Culfa rayonu ilə birləşdirilmiş və 1965-ci ildə yenidən müstəqil rayona çevrilmişdir. Ordubad rayonu cənubdan İran, şimal və şərqdən isə Ermənistanla həmsərhəddir. Sahəsi 0,97 min km$^2$, əhalisi isə 43,6 (2008, 1 yanvar) min nəfərdir. Rayonda 1 şəhər, 3 qəsəbə, 43 kənd vardır. Rayon mərkəzi Ordubad şəhəridir.

İri yaşayış məntəqələri Ordubad şəhəri, Vənənd, Dəstə və Yuxarı Əylis kəndləridir.

Rayon əhalisi 1969 təsərrüfatdan ibarətdir. Ordubad rayonu əsasən kənd təsərrüfatı rayonudur. Kənd təsərrüfatında meyvəçilik və maldarlıq mühüm yer tutur. 2004-cü ilin məlumatına görə kənd təsərrüfatına yararlı torpaqlar 19,2 min hektar təşkil edir ki,



bunun da cəmi 3 min hektarında əkin aparılmışdır. Rayon 4,7 min hektar suvarılan torpaqlara malikdir. Dənli və dənli-paxlalı bitkilər (buğda, apra və s.), tərəvəz-bostan bitkiləri və kartof, yem bitkiləri əkilir. Ordubad rayonu respublikanın mühüm meyvəçilik rayonlarından biridir. Ordubadın meyvəçilik diyarı olması haqqında hələ I və II minilliklərdə yaşayıb-yaradan bir çox alimlərin əsərlərində qiymətli materiallar vardır. Yeniskop Sebeos, İran tarixçisi Həmdullah Qəzvini və xüsusilə etnoqraf və tarixçi, mənşəcə fransız olan İ.İ.Şopen Qafqazın, o cümlədən İrəvan və Naxçıvan xanlıqlarının tarixinə və coğrafiyasına həsr etdiyi əsərində Ordubad haqqında maraqlı məlumatlar vermiş, əla meyvələri – üzümü, əriyi, şaftalısı, albuxarası, heyvası olan Ordubad bağlarının Qafqazda, hətta Şərqdə şöhrət tapdığı, həmçinin sağlam iqlimi haqqında yazır: «…Dağlarla əhatə olunmuş Ordubad al-əlvandır, sağlam iqlimə malikdir, şəhər sudan boldur. Ordubadı, mübaliğəsiz, bütün Qafqazın ən şairanə, ən dilbər guşələrindən biri adlandırmaq olar».

Hesab edirəm ki, Ümummilli liderimiz Heydər Əliyev «Ordubad Azərbaycanın incisidir» adlandırmaqda yanılmamışdır.

Ordubad qədimdə olduğu kimi indi də özünün dadlı meyvələri ilə öyünə bilər. Rayon inkişaf edir və kənd təsərrüfatı məhsulları istehsalı isə ildən-ilə artır. 2007-ci ilin məlumatlarına görə Ordubad rayonunda sahələrdən 4342 ton taxıl, 7830 ton kartof, 4471 ton tərəvəz, 1174 ton meyvə yığılmışdır ki, bu da 2004-cü illə müqayisədə xeyli çoxdur.

downloaded from KitabYurdu.org

Ordubad rayonunda həm heyvanların baş sayında, həm də heyvandarlıq məhsulları istehsalında əvvəlki illərə nisbətən xeyli artım vardır.

Rayonda iqtisadiyyatın bütün sahələri inkişaf edir, quruculuq işləri gedir, rayon öz simasını dəyişir, gözəlləşir.

### *1.1.6. Kəngərli rayonu*

Kəngərli rayonu ərazisi qədim yaşayış məskənlərindən biridir. Burada insanların əmək fəaliyyətini və həyat tərzini əks etdirən maddi-mədəniyyət qalıqları ilə zəngin xeyli arxeoloji abidə var. Arxeoloji qazıntılar nəticəsində Kəngərli rayonu ərazisində aşkar olunmuş son Tunc və ilk Dəmir dövrünə aid Qalacıq yaşayış yeri, şimalda orta və son Tunc dövrünə aid I Qarabağlar qəbiristanı, Qarabağlar Gavurqalası, cənubda son Tunc və ilk Dəmir dövrünə aid II Qarabağlar qəbirstanı, Çalxanqalada Tünc dövrünə aid yaşayış yeri, indiki Şahtaxtı kəndindən şimal-qərbdə Tunc, ilk Dəmir dövrünə aid Şahtaxtı Gavurqalası, I və II Şahtaxtı nekropolları bu ərazinin insanların ən qədim yaşayış yerləri olduğunu sübut edir.

Naxçıvan MR-də yeni inzibati rayon olan Kəngərli rayonu 19 mart 2004-cü ildə yaradılmışdır. Kəngərli rayonu Şərur və Babək rayonları əraziləri əsasında qismən dəyişiklik etməklə yaradılmışdır. Ərazisi şimal-şərqdə Ermənistan Respublikası, cənub və cənub-qərbdə İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 0,7 min km$^2$, əhalisi 26,5 min (1 yan-



var 2008-ci il) nəfərdir. Rayonda 1 qəsəbə, 10 kənd vardır. Rayon mərkəzi Qıvraq qəsəbəsidir. İri yaşayış məntəqələri Qıvraq qəsəbəsi, Qarabağlar, Xok və Şahtaxtı kəndləridir.

Kəngərli rayonu əsasən kənd təsərrüfatı rayonudur. Burada 2004-cü ildə 7,6 min ton taxıl, 1,4 min ton kartof, 2,7 min ton tərəvəz, 2,7 min ton bostan bitkiləri, 0,4 ton üzüm və heyvandarlıq məhsullarından 1,5 min ton ət, 7,0 min ton süd, 6181 min ədəd yumurta, 125,4 min ton isə yun istehsal olunmuşdur. Bitkiçilik məhsulları istehsalı sonrakı illərdə də artaraq 2007-ci ildə taxıl istehsalı 7,9 min tona, kartof 2,2 min tona, tərəvəz 1,7 min tona, meyvə 4,4 min tona və üzüm istehsalı isə 435 tona çatmışdır.

Kəngərli inzibati rayonu yeni rayon olduğuna görə burada inzibati binaların tikintisinə üstünlük verilmişdir. Rayonda bir çox təhsil, səhiyyə, mədəniyyət və digər obyektlər tikilmiş və ya yenidən qurulmuşdur.

### *1.1.7. Şahbuz rayonu*

1930-cu ildə təşkil olunan Şahbuz rayonu Naxçıvan Muxtar Respublikasında inzibati rayondur. Şahbuz rayonu 1963-cü ildə ləğv edilərək ərazisi Naxçıvan (1978-ci ildən Babək) rayonuna verilmiş və 1965-ci ildə yenidən bərpa edilmişdir. Şimalda və şərqdə Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 0,8 min kvadrat kilometr, əhalisi isə 1 yanvar 2008-ci il tarixə 22,0 min nəfərdir. Rayon mərkəzi Şahbuz şəhəridir.

downloaded from KitabYurdu.org

İri yaşayış məntəqələri Şahbuz şəhəri, Badamlı qəsəbəsi, habelə Kolanı, Kükü və Keçili kəndləridir. Rayonun relyefi, əsasən dağlıqdır. Rayon ərazisində ən yüksək zirvə Zəngəzur silsiləsində Şapuq zirvəsidir ki, bunun da hündürlüyü 3204 metrdir. Faydalı qazıntılarla zəngindir. Burada kükürd, torf, tikinti daşı, məmulat daşları və s. çıxır. Rayon ərazisi mineral su mənbələri ilə zəngindir (Badamlı, Biçənək, Batabat, Karvansara və s.).

Şahbuz rayonunda son illər iqtisadi və mədəni həyatın bütün sahələrində böyük nailiyyətlər əldə edilmişdir. Rayon əsasən heyvandarlıq rayonudur. Burada cəmi 28,1 min hektar əkinə yararlı torpaq sahələri vardır ki, bunun da 2,7 min hektarını suvarılan torpaqlar, 2,5 min hektarını biçənəklər, qalan hissəsini isə otlaqlar təşkil edir. Möhkəm yem bazasının yaradılmasının nəticəsidir ki, burada heyvanların baş sayı ildən-ilə artır, hevandarlıq məhsulları istehsalı və məhsuldarlığı da artan xətlə gedir. Heyvandarlıq məhsulları ilə yanaşı bitkiçilik məhsulları istehsalı da artmaqdadır. Təkcə 2007-ci ildə rayon təsərrüfatlarından 2,9 min ton taxıl, 4,5 min ton kartof, 4,5 min ton tərəvəz və 5,3 min ton meyvə məhsulları yığılmışdır.

Muxtar respublikada olduğu kimi Şahbuz rayonunda da tikinti-quruculuq işləri geniş vüsət almışdır. Kükü, Mahmudoba, Qızıl Qışlaq kəndlərində, Batabat yolu üstündə Zərnətün körpüsü tikilmişdir. Rayonun Türkeş, Şada, Biçənək, Keçili, Külüs, Badamlı qəsəbə, Sələsüz, Güney Qışlaq və bir



sıra digər kəndlərdə müasir tipli məktəblər tikilmiş və inzibati binalar istifadəyə verilmişdir. Neçə-neçə tibb müəssisəsi, mədəniyyət ocaqları, kitabxanalar və s. obyektlər də tikilmiş və yenidən qurularaq xalqın istifadəsinə verilmişdir. Batabat rəsədxanası da Şahbuz rayonu ərazisində yerləşir. Bu rəsədxana Sankt-Peterburqdan sonra dünyada ən iri dairəli teleskopu olan rəsədxanadır. Təsadüfi deyil ki, 1975-ci ildə dünyanın 65 ölkəsindən gələn alimlər günəşin tutulmasını Batabat rəsədxanasından müşahidə etmişdilər. Rayonda yerləşən Batabat yaylası da buraya gələn qonaqları özünün füsunkar gözəlliyi ilə heyran edir.

### *1.1.8. Sədərək rayonu*

Naxçıvan Muxtar Respublikasının inzibati rayonlarından biri də Sədərək rayonudur. Bu sərhəd bölgəsinin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək və gücləndirmək, habelə ərazinin geostrateji mövqeyi nəzərə alınaraq 28 avqust 1990-cı ildə yaradılmışdır. Sədərək rayonu iki xarici dövlətlə, o cümlədən 11 km. məsafə ilə Türkiyə və 24 km. məsafə ilə isə Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 0,15 min km$^2$, əhalisi isə 13,5 min nəfərdir (1 yanvar 2008-ci ilə). Mərkəzi Heydərəbad qəsəbəsidir. Rayonda 1 qəsəbə və 3 kənd yaşayış məntəqəsi vardır.

Sədərək təkcə sərhəddə yerləşən bölgə, rayon deyil, o həm də qərbə – Avropaya açılan qapıdır.

Sədərək qədim yaşayış məskənidir. Sədərəyin cənubunda e.ə.IV-III minilliyə aid yaşayış yeri aşkar

downloaded from KitabYurdu.org

olunmuşdur. Rayon ərazisində tarixi-memarlıq abidələrindən 3 məscid, orta əsrlərə aid qala xarabalığı, müdafiə istehkamı, karvansara, Ağoğlan piri, XIX-XX əsrin əvvəllərində tikilmiş hamam binası və s. indiyə kimi mühafizə olunmuşdur.

Rayon iqtisadiyyatını əsas etibarilə üzümçülük, taxılçılıq və heyvandarlıq təşkil edir. Müstəqillik dövründə Sədərəyin iqtisadiyyatında mühüm nailiyyətlər əldə edilmişdir. 1998-2004-cü illərdə bütün təsərrüfat kateqoriyaları üzrə istehsal olunan bitkiçlik və heyvandarlıq məhsullarının hamısında artım olmuşdur. Təkcə 2007-ci ildə Sədərək rayonunun təsərrüfatlarından 2172 ton taxıl, 2612 ton şəkər çuğunduru, 518 ton kartof, 4212 ton tərəvəz, 458 ton meyvə və 1215 ton üzüm toplanmışdır ki, bu da əvvəlki illərə nisbətən xeyli çoxdur.

Ümummilli liderimiz H.Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra sabitlik yaranmış və ölkənin bütün bölgələrində olduğu kimi Sədərək bölgəsində də tikinti-quruculuq işlərinə başlanmışdır. Sərhəd bölgəsinin sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi və gücləndirilməsi sahəsində həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, Sədərək öz simasını büsbütün dəyişmiş, bu gün özünün inkişaf dövrünü yaşayır. Rayonda təhsil və səhiyyə obyektləri, inzibati binalar, sənaye müəssisələri tikilir, su qurğuları, rabitə xətləri çəkilir və s. bütün bunlar həm əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırır, həm də bu sərhəd bölgəsinin daha da inkişafına xüsusi görkəm verir.

downloaded from KitabYurdu.org

# II BÖLMƏ

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ İQTİSADİYYATIN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

downloaded from KitabYurdu.org

# II F Ə S İ L

## SƏNAYE MUXTAR RESPUBLİKA İQTİSADİYYATININ APARICI SAHƏSİDİR

### *2.1. 1992-1995-ci illərdə ölkəni bürüyən iqtisadi böhran, onun səbəbləri və çıxış yolları*

Azərbaycan xalqı bütün tarix boyu kəskin sosial-iqtisadi çətinliklərlə üzləşmiş və hər dəfə bu çətinliklərin dəf olunmasında özünün nəyə qadir olduğunu bir daha sübut etmişdir.

Ölkəmiz öz müstəqilliyini əldə etdikdən sonra dərin böhran içərisinə düşmüşdür. Deməк olar ki, böhran respublika həyatının bütün sahələrini (iqtisadi, siyasi, ideoloji və mənəvi) əhatə etmişdir. Böhranın aradan qaldırılması isə uzun dövr, çoxlu qüvvə və maliyyə vəsaiti tələb edir.

Respublikanın böhrandan çıxması üçün elmi baxımdan prinsipial hesab edilən əsas məsələ düşdüyümüz vəziyyətin düzgün dərk edilməsi, onun səbəblərinin obyektiv izah edilməsi, qiymətləndirilməsi və düzgün inkişaf yolunun müəyyənləşdirilməsi olmuşdur.

Hesab edirik ki, sosializm sistemindən digər bir iqtisadi sistemə, o cümlədən bazar iqtisadi sisteminə keçməsi, mülkiyyət münasibətlərinin dəyişməsi, idarəetmə sistemində olan dəyişkənliklər və s. böhranın daha da dərinləşməsinə səbəb olmuşdur. Bütün bu çətinliklər və ziddiyyətlər respublikamızda xüsu-



silə kəskin formada özünü göstərmişdir. Bu çətinlikləri aradan qaldırmaq və düzgün inkişaf yolu seçmək üçün əvvəlcə çətinliklərimizin xarakterini, düşdüyümüz vəziyyəti, onu doğuran səbəbləri düzgün qiymətləndirmək lazım olmuşdur.

Respublikamızın sosial-iqtisadi inkişaf səviyyəsinə görə nisbətən geriliyi tarixi xarakter daşıyır. Tarixən biz elə inkişaf yolu keçmişik ki, onilliklər ərzində xalqlarımızın milli mənafeyi tapdalanmış, iqtisadiyyatımız və iqtisadi əlaqələrimiz yerli imkanlara və mənafeyimizə uyğunlaşdırılmadan inkişaf etdirilmişdir. XX əsrin 20-ci illərindən başlayaraq sənayemiz bütün tarix boyu özünün bir tərəfli sahə quruluşu, çox fond tutumunu və az səmərəliliyi ilə fərqlənmişdir. Bu isə respublikanın iqtisadi inkişaf səviyyəsinin tarixən keçmiş SSRİ-nin digər respublikalarının orta səviyyəsindən geri qalmasına gətirib çıxarmışdır.

Ümummilli liderimiz H.Əliyevin birinci hakimiyyəti dövründə baxmayaraq ki, biz sənayenin və kənd təsərrüfatının inkişafında və səmərəliliyin artması istiqamətində müəyyən nailiyyət qazanmışıq, eyni zamanda həmin dövrdə iqtisadiyyatın inkişafında müəyyən mənfi meyllər də yaranmışdır. Kənd təsərrüfatının inkişafında birtərəfli ixtisaslaşma güclənmiş, üzüm, pambıq, tərəvəz respublikanın hər yerində inkişaf etdirilməyə başlanmış və qalan sahələrin inkişafı isə zəifləmişdir.

Bütün bunlarla əlaqədar respublika iqtisadiyyatı MDB-nin digər respublikaları ilə müqayisədə ən

downloaded from KitabYurdu.org

acınacaqlı vəziyyətə düşmüş, hətta ayrı-ayrı sahələrdə 10-15 il geri atılmışdır.

Beləliklə, 1991-1992-ci illər ərzində iqtisadi böhran daha da dərinləşmişdir. Vəziyyət həm də onunla mürəkkəb, anlaşılmaz, qorxulu xarakter almışdır ki, əvvəla bütün iqtisadi zəifləmə prosesi minlərlə hektar əlavə torpaq sahələri istifadəyə verildiyi, yüzlərlə fermer təsərrüfatları, kooperativlər, xırda müəssisələr, birjalar yaradıldığı, bir sözlə, yeni təsərrüfat formaları geniş inkişafa başladığı şəraitdə baş verir.

İkincisi və ən başlıcası xalqımız zorla müharibəyə cəlb edilmişdir.

Azərbaycan-Ermənistan-Dağlıq Qarabağ müharibəsinin başlanması nəticəsində iqtisadiyyatımız ciddi sarsıntılara məruz qalmışdır. 1988-1992-ci illəri əhatə edən dörd il ərzində Azərbaycanın ümumi ərazisi 31,6 min kv. km olan (bu Ermənistanın ərazisindən çoxdur) 26 inzibati rayonunda müharibə getmişdir. 1988-ci ilin məlumatına görə Azərbaycan əhalisinin 26,8 faizi, istehsal olunan sənaye məhsulunun 11 faizi, kənd təsərrüfatı məhsulunun isə 40 faizə qədəri müharibə bölgəsi rayonlarının payına düşmüşdür.

Bundan əlavə müharibə gedən əraziyə yaxın olan bir sıra rayon və şəhərlərin də təsərrüfatı durğunluq vəziyyətinə düşmüşdür.

Düşdüyümüz dərin böhran vəziyyətindən çıxmaq üçün belə bir həqiqəti aydın dərk etmək lazımdır ki, bu böhranın ana xətlərinin uzun illərdir ki, düz-



gün aparılmayan daxili və xarici iqtisadi siyasət, müharibə, dağıntı və tənəzzül, xalqın ideya siyasi birliyinin parçalanması təşkil etmişdir.

İqtisadiyyatın dağılması və tənəzzülə son qoymaq üçün möhkəm və intizamlı ordu, düzgün daxili və xarici siyasət, xalqın ideya-siyasi birliyinə nail olmaq və bu birliyi böhran vəziyyətindən çıxarmaq üçün vahid mərkəzdən idarə olunan fəaliyyət birliyinin yaradılması, hər şeydən əvvəl respublika üçün düzgün inkişaf yolu seçilməsindən, xalqı parçalayan deyil, birləşdirən iqtisadi siyasət yeridilməsindən asılıdır. Məhz bu məsələlər alimləri, ziyalıları daim düşündürürdü. Xalqa elə bir lider lazım idi ki, bu qeyd olunan məsələləri tez bir zamanda həll edə bilsin. Ona görə də xalqın təkidi və tələbi ilə Ümummilli liderimiz H.Əliyev 1993-cü ildə ikinci dəfə Azərbaycana hakimiyyətə gətirildi.

Dövlətin iqtisadi inkişafına nail olunması uzun illər alimləri düşündürmüş və müxtəlif təkliflər verilmişdir. Lakin iqtisadi inkişafın bazar sistemi özünü doğrultmuş və 200 ildən artıq bir dövr ərzində fəaliyyət göstərir. Dünyanın inkişaf etmiş dövlətlərinin təcrübələri və iqtisadçı alimlərin verdikləri nəzəriyyələr əsasında inkişaf edən bazar iqtisadiyyatı dünya dövlətləri ilə bazar münasibətləri şəraitində iqtisadi inteqrasiya yaratmaqla geniş inkişaf etmişdir. Bazar iqtisadi sistemi yaranandan indiyə kimi ölkəmiz bir çox problemlərlə üzləşmişdir. Lakin indi dövlət qanunlarının qəbul edilməsi ilə bu problemlər yoluna qoyulmuşdur.

downloaded from KitabYurdu.org

Qeyd edək ki, ümumiyyətlə keçid dövrü çox çətin, ağır və təzadlı olur. Bu baxımdan keçid dövrü respublikamız üçün də çox təzadlı olmuş və ölkəni acınacaqlı vəziyyətə salmışdır.

Ölkəmizin müstəqillik qazanması və bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq keçmiş ittifaq respublikaları ilə əlaqələr pozulmuş və xalq təsərrüfatının bütün sahələrində istehsalın aşağı düşməsi müşahidə olunmuşdur. Təkcə bir faktı gostərmək kifayətdir ki, xalq təsərrüfatının ən mühüm sahəsi olan maşınqayırma müəssisələri 1990-cı ilə qədər istehsal etdiyi məhsulların 75 faizini dünyanın 20 ölkəsinə ixrac edirdi. Lakin 1992-1996-cı illər ərzində bu sahə öz fəaliyyətini tam dayandırmaqla böhran içərisində olmuşdur. Bu vəziyyət özünü demək olar ki, bütün sahələrdə göstərmişdir. Bundan əlavə keçmiş müttəfiq respublikalarla bir sıra maliyyə-gömrük sənədlərinin meydana gəlməsi, onlarla nəğdsiz hesablamaların dayandırılması qiymətlərin liberallaşdırılması, onsuz da iqtisadiyyatın inhisarçı olduğu bir şəraitdə qiymətlərin ölçüsüz dərəcədə artması, ağır vəziyyətdə olan iqtisadiyyatı tam iflic vəziyyətinə saldı.

Bazar iqtisadiyyatına keçən bütün ölkələrdə qiymətlərin tənzimlənməsi də, planlaşma da olmuşdur. Yəni bunlarsız model olmamışdır. Real gerçəklikdən çıxış etməklə mərkəzləşdirilmiş planlaşdırma və idarəetməklə onun tamam dağıdılması, ləğv edilməsindən başlanmamalıydı. Fikrimizcə, burada yalnız dünya ölkələri təcrübəsində tətbiq edilən yenidən



qurmaq, yeniləşdirmək üsulu seçilməliydi. Həm də yenicə müstəqilliyə qədəm qoymuş respublikada hakimiyyətin müxtəlif dairələrinə rəhbərlik edən adamların səriştəsizliyi, savadsızlığı əsas rol oynamışdır.

Əlbəttə ki, idarəetmənin, akademiyanın nə olduğunu bilməyən adamların bu təşkilatları ləğv etməsi ideyaları təbiidir. O dövrdə hakimiyyətdə olanların belə bir ideyası hakim kəsilmişdir: «Sosializmdən nə qalırsa məhv etməli və yenisini qurmalı».

Bax o zamankı idarə edənlərin səriştəsizliyi və buraxdıqları kobud nöqsanlar son nəticədə ölkəni dərin böhran vəziyyətinə saldı. Nəticə nə oldu? 1994-cü ildə ölkədə infilyasiya səviyyəsi 1800 faizə çatdı.

İqtisadiyyatın başqa sahələrindən fərqli olaraq kənd təsərrüfatı və xüsusilə onun torpaqdan məhsul istehsalı sahəsi bəşər tarixi boyu çatışmazlıqlarla qarşılaşmışdır. Bu bir tərəfdən açıq hava, yağışlı, qarlı-çovğunlu qış aylarında və isti qızmar günəş altında, çətin şəraitdə məhsul becərilməsi olmuşdursa, başqa bir səbəbi bu sahəyə ögey münasibət, texnika və avadanlıqların çatışmaması olmuşdur.

Belə ciddi nöqsanlarla böhran vəziyyətində keçid mərhələsinə qədəm qoyan ASK-nın qayğıları, keçmiş qanunların işləmədiyi, yeni qanunların fəaliyyətə başlamadığı özbaşınalıq və əhalinin bu sahədə maddi cəhətdən vəziyyətinin ağırlaşdığı dövrdə böhranı bir daha dərinləşdirmişdir.

Regionlar arasında əlaqələr pozulduğundan iqtisadi münasibətlər pisləşmiş, avadanlıq, texnika və kimyəvi preparatlar alınması çətinləşmişdir.

downloaded from KitabYurdu.org

Məlum olduğu kimi islahatlar aparılmasına dair qanun verilməzdən hələ çox-çox əvvəl əksər təsərrüfatlarda torpaqlar onunla əlaqəsi olmayan şəxslər arasında bölüşdürülmüş, mal-qara texnika dağıdılmışdır.

O zamankı Azərbaycan rəhbərliyinin Naxçıvana göstərdiyi ögey münasibət iqtisadiyyatın bütün sahələrinə öz mənfi təsirini göstərirdi və böhran vəziyyətinə salmışdır. Bununla əlaqədar H.Əliyev Naxçıvan MR 75 illiyinə həsr edilmiş təntənəli mərasimdəki çıxışında demişdir: «…Naxçıvana ögey münasibət Azərbaycanda sovet hakimiyyəti vaxtında demək olar ki, həmişə olubdur. Hətta məlumdur ki, naxçıvanlılar burada çox hay-küy salanda Azərbaycanın bəzi rəhbərləri demişdilər ki, Naxçıvan bizim üçün bir appendisitdir, onu kəsib atmaq lazımdır. Yəni çoxları hazır idilər gəlib Naxçıvanı işğal etsinlər ki, onların canı qurtarsın. Çünki Naxçıvan onlara çox böyük narahatlıqlar verirdi. Belə ögey münasibət çox olubdur.

Mütəllibov hakimyyəti, Xalq Cəbhəsinin hakimiyyəti zamanı da bu, belə idi».

Yenidənqurma pərdəsi altında və xüsusilə ittifaqın dağıdıldığı və hakimiyyətə səriştəsiz adamların gəldiyi dövrdə bir sıra əsaslı səbəblər üzündən kənd təsərrüfatının bütün sahələrində məhsuldarlıq sürətlə azalmışdır.

Əvvəla, keçid dövründə kiçik müəssisələrin yarandığı və kooperativlərin inkişaf etməsilə onlara ticarət qiymətlərində tam sərbəstlik verilmişdir. Ancaq



kənd təsərrüfatının bütün sahələrində məhsullara qoyulmuş qiymət məhdudiyyətləri 1998-ci ilədək davam etmişdir.

İkincisi, səriştəsiz adamların hakimiyyətə gəlməsi, ardıcıl dövlət çevrilişləri, Qarabağa kömək adı altında müxtəlif çirkin əməllərlə məşğul olan hərbçi dəstələrin çoxalması və zəif hakimiyyətdən istifadə edən bir qrup adamların mal-qaranı və texnikanı oğurlayıb müxtəlif yerlərdə satmaları ictimai təsərrüfatları dağılmaq dərəcəsinə gətirdi.

Üçüncü, kənd əhalisinin nəqliyyat xərclərinin bahalığı üzündən öz məhsullarını vaxtında aparıb sata bilməmələri.

Dördüncü, islahatlar haqqında bir neçə il söhbət getməsinə baxmayaraq, bunun gecikməsi və 70 il ictimai mülkiyyətdə birgə çalışıb bir şey qoparmaq xatirinə işləməyi öyrənmiş və keçid şəraitində özbaşınalıqla qarşılaşmış xalqda inam itmişdir və s.

Bütün bunlar islahatların keçirilməsi üçün əvvəlcə hüquqi bazanın yaradılmasını, sonra isə ləngimədən onun həyata keçirilməsini tələb edirdi.

Ona görə də bu ağır vəziyyətdə ölkəni böhrandan çıxarmaq, xalqın itmiş inamını özünə qaytarmaq və onu inkişaf etdirərək qabaqcıl ölkələr sırasına çatdırmaq üçün fenomenal biliyə, güclü idarəetmə bacarığına, habelə xalqı arxasınca aparmaq qabiliyyətinə malik olan bir lider lazım idi. Xalq öz seçimində yanılmadı. Onların təkidi və tələbi ilə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana ikinci dəfə hakimiyyətə gətirildi.

downloaded from KitabYurdu.org

Lakin onu xüsusilə qeyd etmək lazımdır ki, hələ Ümummilli liderimiz H.Əliyev Ali Məclisin sədri olarkən Naxçıvan iqtisadiyyatının inkişafı üçün çox işlər görmüşdür. Bütövlükdə Azərbaycanı bürüyən böhran öz dağıdıcı təsirini Naxçıvanda xüsusilə büruzə verirdi. O dövrü yaşadığımıza görə hamının yadındadır. Naxçıvan tamamilə Azərbaycandan təcrid olunmuş şəkildə yaşayırdı. Dəmir yolu qaniçən Ermənistan dövləti tərəfindən kəsilmiş Naxçıvan tam blokada vəziyyətinə düşmüşdü. Başqa yerlərlə əlaqələr tamamilə kəsilmişdi. Çörək, elektrik enerjisi, yanacaq və s. çatışmırdı. Bax belə bir şəraitdə mən deyərdim ki, sutkanın 24 saatını, 20 saatını, lampa işığında Ali Məclis binasında keçirən H.Əliyev blokada vəziyyətindən çıxmaq, əhalini çörəklə təmin etmək və ümumiyyətlə böhranın MR-ya vurduğu ziyanı azaltmaq üçün yollar axtarırdı.

Heydər Əliyev tez-tez Türkiyə Cumhuriyyəti və İran İslam Respublikası rəhbərliyi ilə danışıqlar aparır və problemlərin aradan qaldırılmasına çalışırdı. Heydər Əliyev Ali Məclisin sədri olmasına baxmayaraq onun Azərbaycana birinci rəhbərliyi dövründə və sonra isə keçmiş SSRİ-nin rəhbərliyindən biri olduğu dövrdə qazandığı hörmət və hər şeydən əvvəl bütün dünyada qazandığı nüfuz problemləri həll etməkdə ona kömək edirdi.

Ümummilli liderimiz H.Əliyev ikinci dəfə rəhbərliyə qayıdanda da Naxçıvana olan köməyini, qayğısını və yardımını əsirgəmirdi.



Naxçıvan Azərbaycandan təcrid olunmuş şəkildə olduğuna görə H.Əliyev Naxçıvan iqtisadiyyatının inkişafına xüsusi diqqət yetirilməsinə bir çox çıxışlarında qeyd edirdi. Ayrı-ayrı Nazirliklərə tapşırıqlar verirdi. Buraya hər bir nazirin xüsusi diqqət yetirməsini tələb edirdi.

H.Əliyev Naxçıvanın vəziyyətini həmişə diqqət mərkəzində saxlayırdı, buraya xüsusi qayğı olmalıdır deyirdi və dediklərini də əməli işi ilə yerinə yetirirdi.

XX yüzilliyin axırlarında Naxçıvana gələn və burada böyük dəyişikliklərin olmasını görən H.Əliyev deyirdi: «Naxçıvanın siması gündən-günə dəyişir. Amma bunlar hələ azdır… Görüləsi işlər çoxdur və görüləcəkdir. Güman edirəm ki, siz bu qayğıdan, köməkdən, yardımdan səmərəli istifadə edəcəksiniz».

## *2.2. Naxçıvan MR-da sənayenin müasir vəziyyəti və inkişaf perspektivləri*

Uzun müddət inzibati-amirlik sistemi çərçivəsində fəaliyyət göstərmiş Azərbaycan iqtisadiyyatının bazar münasibətlərinə keçidi çətin və mürəkkəb prosesdir. Bu baxımdan dövlət müstəqilliyinin bərpasından sonra iqtisadiyyatın bazar münasibətlərinə keçidi ilə əlaqədar yeni siyasi, hüquqi, iqtisadi, sosial, psixoloji xarakterli problemlərin meydana çıxması, keçmiş SSRİ-nin kortəbii şəkildə dağılması, mərkəzdənqaçma meylləri, respublikalar arasında münasibətlərin pisləşməsi, 1991-ci ilə qədər müəssisələr ara-

downloaded from KitabYurdu.org

sında mövcud olmuş ünvanlı əlaqələrin qırılması, regiondakı qeyri-sabitlik və s. məsələlər iqtisadiyyatda ciddi geriləmələrə səbəb olmuşdur. Belə ki, 1996-cı ildə ÜDM 1990-cı ilə nisbətən təqribən 2,5 dəfə, sənaye məhsulu isə təqribən 3,0 dəfə azalmışdır. Xüsusilə emal sənaye müəssisələrində istehsalın həcmi kəskin şəkildə aşağı düşmüşdür. Ona görə də iqtisadiyyatın böhran vəziyyətindən çıxarılması və sənaye istehsalında irəliləyişə nail olunması hökumət qarşısında mühüm vəzifə kimi dururdu.

Azərbaycan müstəqillik qazandıqdan sonra iqtisadi islahatların aparılmasında, sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsində, mülkiyyət çoxnövlüyünün meydana gəlməsində, habelə sosial və iqtisadi infrastrukturların yaradılmasında və inkişaf etdirilməsində mühüm irəliləyişlər əldə edilmişdir. Bu isə sənayenin inkişafı və istehsal güclərindən səmərəli istifadə üçün şərait yaratmışdır.

Bu baxımdan sovet dövründən qalmış müəssisələri yenidən təşkil etmək, yenidən formalaşdırmaq, strukturunu yenidən qurmaq, onların artıq bazar iqtisadiyyatı şəraitində modernləşdirilməsi və təkmilləşdirilməsi məqsədəuyğun sayılmalıdır.

Müasir dövrdə elmi-texniki tərəqqi nəticəsində əldə edilmiş nailiyyətlər və bol təbii sərvətlər iqtisadiyyatın bir çox sahələrində inkişafa imkan açır. İstehsalın həcminin və onun səmərəliliyinin yüksəldilməsi üçün sənaye müəssisələrində böyük imkanlar vardır. Odur ki, sənaye məhsulunun həcminin artırılması mümkündür və hazırkı dövr üçün aktual məsələdir.



İqtisadiyyatın mühüm sahəsi olan sənaye bütün müəssisələri texnika ilə silahlandırır. Ona görə də nəqliyyatın, kənd təsərrüfatının, tikintinin, rabitənin və s. texniki-iqtisadi səviyyəsi sənayenin inkişaf səviyyəsindən, sürətindən və xarakterindən asılıdır.

Bazar iqtisadiyyatına keçid dövründə sənaye iqtisadiyyatın mühüm sahəsi kimi ciddi dəyişikliklərə məruz qalır. Onun yeni keyfiyyətli inkişaf səviyyəsinə keçməsi ön plana çəkilir. Bu isə heç şübhəsiz ki, sahənin quruluşunun təkmilləşdirilməsi və bu prosesdə elmi-texniki tərəqqinin sürətləndirilməsi imkanlarının bazarın tələblərinə nə dərəcədə uyğun gəlməsindən asılıdır.

Bazar münasibətlərinə keçid şəraiti yeni iqtisadi sistemin formalaşmasını, sahibkarlıq fəaliyyətinin genişləndirilməsini və sənaye müəssisələrində struktur dəyişikliklərinin aparılmasını tələb edir.

Struktur dəyişiklikləri sosial-iqtisadi hadisə və proseslər sırasında əsas yeri tutur. Azərbaycanın iqtisadi dirçəlişi və iqtisadi inkişafına mane olan problemlərin həll edilməsi əhəmiyyətli dərəcədə sənayenin restrukturizasiyasının həyata keçirilməsindən asılı ola bilər. Təsadüfi deyildir ki, hazırda bilik və təcrübənin yeni sahəsi olan müəssisə və şirkətlərin restrukturizasiyası daha geniş vüsət alır. İnkişaf etmiş Qərb ölkələrinin biznes təcrübəsində istifadə olunan restrukturizasiya üsulları bizim real sektorda da tətbiq edilə bilər.

Restrukturizasiya dedikdə, müəssisənin strukturunun, idarə edilməsinin, mülkiyyət formasının,

downloaded from KitabYurdu.org

təşkilati-hüquqi formalarının dəyişilməsinə yönəldilmiş təşkilati-iqtisadi, hüquqi tədbirlərin həyata keçirilməsi başa düşülür.

Restrukturizasiya müəssisələrin yeni texnika və mütərəqqi texnologiyalar əsasında modernləşdirilməsini, istehsal-təsərrüfat fəaliyyətinin səmərəliliyinin artırılmasını və əmək məhsuldarlığını yüksəltməklə əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına nail olmağı nəzərdə tutur.

Hazırda real sektorun inkişafında müəyyən çətinliklərə baxmayaraq iqtisadiyyatın strukturunun yenidən qurulması istiqamətində mühüm addımlar atılır. Naxçıvan MR iqtisadiyyatında da aparıcı rol oynayan sənaye müəssisələrinin restrukturizasiyası da mühüm əhəmiyyətə malikdir. Məhz bu baxımdan regionların inkişafı da sənayenin inkişaf səviyyəsi ilə müəyyən olunur. Çünki sənayenin inkişaf etdirilməsi və onun sahə strukturunun təkmilləşdirilməsi ilə bir sıra problemlər: məşğulluq problemi həll edilir, sənaye sahələri üçün xammal bazası olan kənd təsərrüfatı inkişaf etdirilir, əhalinin sənaye məhsullarına tələbi ödənilir, regionlararası və regiondaxili, həmçinin xarici iqtisadi əlaqələr təkmilləşir və son nəticədə əhalinin həyat səviyyəsinin yüksəlməsinə nail olunur.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı Ümummilli liderimiz Heydər Əliyevin bütün hakimiyyəti dövründə özünün əsil inkişaf mərhələsinə qədəm qoymuşdur. 1969-1985-ci illərdə Naxçıvanda 22 sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Kənd təsər-



rüfatı inkişaf etdirilmişdir. Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikası inkişaf etməkdə olan sənaye və çoxsahəli kənd təsərrüfatına malikdir. Azərbaycanın sənaye məhsulunun 2,6 faizi, kənd təsərrüfatı məhsullarının isə 3,6 faizi Naxçıvan iqtisadi rayonunun payına düşür. Ölkə sənayesində Naxçıvan iqtisadi rayonunun payının cəmi 2,6 faiz olması nəzərə alınaraq gələcəkdə sənaye potensialını artırmaq və xüsusi çəkini yüksəltmək üçün regionlardakı sənaye müəssisələrinin fəaliyyətini bərpa etmək və yeni müəssisələr yaratmaq əsas məqsədlərdən biri olmalıdır.

Naxçıvan sənaye qovşağı muxtar respublikada olan digər sənaye qovşaqlarından fərqlənir. Belə ki, Naxçıvan Muxtar Respublikasında istehsal olunan sənaye məhsullarının yarıdan çoxu və sənaye-istehsal işçilərinin 35 faizə qədəri məhz Naxçıvan sənaye qovşağının payına düşür.

Naxçıvan şəhərində fəaliyyət göstərən sənaye sahələrinin sahə quruluşunun təhlili göstərir ki, bu qovşaqda sənaye məhsullarının 70 faizdən çoxu yeyinti sənayesində, 10 faizi isə yüngül sənaye sahəsində istehsal olunur.

1991-ci ildə SSRİ-nin dağılması ilə əlaqədar respublikalar arasında mövcud olmuş ünvan əlaqələrin qırılması, Ermənistanın respublikamıza qarşı elan olunmamış müharibəsi, bazar münasibətlərinə keçidlə əlaqədar meydana çıxan problemlər respublika iqtisadiyyatında olduğu kimi, Naxçıvan Muxtar Respublikasının da iqtisadi inkişafına ciddi şəkildə təsirini göstərmişdir. Bu amillərlə yanaşı muxtar respub-

downloaded from KitabYurdu.org

likanın blokada şəraitində olması onun sosial-iqtisadi inkişafına öz mənfi təsirini göstərir.

1990-cı ildə Azərbaycanda istehsal olunan daş duzun, molibdenin, sink və qurğuşunun hamısı, mineral suların əsas hissəsi, ipək xammalının, inşaat materiallarının, mərmərin, şərabın, meyvə-tərəvəz konservlərinin böyük bir hissəsi muxtar respublikanın payına düşmüşdür. Bütövlükdə regionun sənayesi yerli xammala əsaslanmış və onların əksəriyyətini yüngül və yeyinti sənayesi müəssisələri təşkil etmişdir.

1998-2003-cü illəri əhatə edən beş il ərzində muxtar respublikada sənaye istehsalının inkişaf dinamikası sabit olmamışdır. Muxtar respublikada 1991-ci ildə 47,3 mln. manat məbləğində sənaye məhsulu istehsal edilmiş, sənaye sahəsində yaranmış durğunluq və böhranlı vəziyyət 1995-ci ildən aradan qaldırılmış, 1996-cı ildən başlayaraq isə istehsalın həcmi artmışdır. 1996-cı il digər sahələrdə olduğu kimi sənaye sahəsində də sabitləşmə dövrü kimi xarakterizə olunur. 2003-cü ildə sənaye istehsalının həcmi 88,0 mlrd. manat olmuşdur ki, bu da 1996-cı ilə nisbətən 1,8 dəfə, 2001-ci ilə nisbətən 1,5 dəfə çoxdur.

Muxtar respublikada sənaye məhsulunun 2003-cü ildə 81,9 faizi (72034,3 mln. manat) məhsul istehsalının, 18,1 faizi (15967,2 mln. man.) isə xidmətlərin payına düşmüşdür. 2004-cü ildə isə istehsalın ümumi həcmində məhsul istehsalının payı 72,3 faiz, xidmətlərin payı isə 27,7 faiz təşkil etmişdir.

Muxtar respublikada sənaye məhsulunda qeyri-dövlət sektorunun payı artmaqdadır. Belə ki,


bu göstərici 1998-ci ildə 60,0 faizdən 2003-cü ildə 63,0 faizə qədər artmışdır.

2002-ci ildən sənayedə fondverimi artmağa başlamış və 2003-cü ildə 2000-ci ilə nisbətən 1,3 dəfə artmışdır. Bununla belə muxtar respublika sənayesində fondverimi göstəricisinin səviyyəsi aşağı olaraq qalır. Belə ki, 2003-cü ildə fondverimi orta respublika səviyyəsindən 2,3 dəfə aşağı olmuşdur. Bu da muxtar respublikada sənaye müəssisələrinin işləməməsi və ya istehsal güclərindən tam istifadə edilməməsi ilə əlaqədardır.

Naxçıvan Muxtar Respublikası Statistika Komitəsinin məlumatlarından aydın olur ki, 2003-2004-cü illəri əhatə edən iki ildə muxtar respublika sənayesində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Belə ki, 2003-cü ildə sənaye istehsalı 2001-ci ilə nisbətən 45,0 faiz, 2002-ci ilə nisbətən isə 27,6 faiz artmışdır. Bu artım 2004-cü ildə isə 2003-cü illə müqayisədə 29,7 faiz təşkil etmişdir. Təhlil göstərir ki, son dövlərdə həyata keçirilən tədbirlər nəticəsində bu inkişafın davamlılığı artırılmaqdadır. Qeyd etmək lazımdır ki, 2004-cü ildə sənaye sahəsində artım əsasən toxuculuq məmulatları istehsalı, mebel istehsalı, nəşriyyat işi, poliqrafiya sənayesi, çap materiallarının dərc edilməsi, habelə elektrik maşınları və cihazlarının təmiri sahələrində baş vermişdir.

2004-cü ildə muxtar respublikada sənaye məhsulunun 42,9 faizi Naxçıvan şəhərinin, 17,0 faizi Babək rayonunun, 5,6 faizi Culfa rayonunun, 6,6 faizi Ordubad rayonunun, 3,0 faizi Sədərək rayonunun,

downloaded from KitabYurdu.org

3,9 faizi Şahbuz rayonunun, 17,0 faizi Şərur rayonunun, 4,0 faizi isəı Kəngərli rayonunun payına düşmüşdür.

2004-cü ildə sənaye məhsulunun 0,8 faizi hasilat, 60 faizi emal sənayesi, 39,2 faizi isə elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi üzrə müəssisələrdə istehsal olunmuşdur. 2003-cü illə müqayisədə 2004-cü ildə məhsul istehsalı hasilat sənayesində 19,3 faiz, emal sənayesində 31,9 faiz, elektrik energisi, qaz və suyun istehsalı və bölüşdürülməsi sektorunda 25,8 faiz artmışdır.

Naxçıvan MR iqtisadiyyatında prioritet sahə kimi qəbul edilən sənaye aparıcı rola malikdir. Son illərdə olduğu kimi 2006-cı ildə də muxtar respublikada əhali tərəfindən daha çox tələb olunan əmtəələri istehsal edən sahələrdə bazara uyğunlaşa bilən yeni və müxtəlif formalı təsərrüfat subyektlərinin yaradılması davam etdirilmişdir.

Hazırda sənayenin yüksək templi inkişafının təmin edilməsində əsas diqqət sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulmasına yönəldilir. Çünki istehsalın texnoloji baxımdan yeniləşdirilməsi əmək məhsuldarlığının əhəmiyyətli artımını və yerli resurslardan daha səmərəli istifadəni təmin etməyə imkan verir.

Sənaye siyasəti iqtisadi siyasətin tərkib hissəsidir. Ölkə iqtisadiyyatının inkişafında sənayenin mühüm rol oynadığı haqda yuxarıdakı abzaslarda geniş məlumat vermişik. Ona görə də burada qısa da olsa sənaye siyasətinin modelləri haqqında məlumat



vermək istərdik. Dünya təcrübəsi göstərir ki, tarixin inkişaf mərhələlərində müxtəlif ölkələrdə sənaye siyasətinin 3 modelindən istifadə olunmuşdur:

1. İxracyönümlü sənaye siyasəti modeli.
2. İdxalı əvəzləmə modeli.
3. İnnovasiya modeli.

İxracyönümlü sənaye siyasəti modelində ixrac üçün nəzərdə tutulan məhsullar istehsalının hərtərəfli həvəsləndirilməsi tədbirləri üstünlük təşkil edir. İxracyönümlü rəqabət qabiliyyətli sahələrin inkişafı və dəstəklənməsi sənaye siyasətində başlıca istiqamətdir. Bu modelin üstünlüyü ondadır ki, bir tərəfdən güclü rəqabət qaliyyətli sahələrin inkişafı yolu ilə ölkə dünya təsərrüfatına inteqrasiya olunur, dünya bazarlarına və texnologiyalara çıxış əldə edir, digər tərfədən isə multiplikativ səmərə hesabına digər sahələrin inkişafına şərait yaranır. İxracyönümlü sənaye siyasəti modelini uğurla həyata keçirən ölkələr sırasına Yaponiyanı, Cənubi Koreyanı, Çilini, Malayziyanı, Sinqapuru, Tailandı və s. aid etmək olar.

İdxalı əvəzləmə modeli milli istehsalın inkişafı əsasında daxili bazarın tələblərinin təmin edilməsi strategiyasını əks etdirir. Bu model proteksionist (himayəçilik) siyasətinin yürüdülməsini və milli valyutanın kursunun sabit saxlanılmasını nəzərdə tutur. Bu model tədiyyə balansının quruluşunu yaxşılaşdırmağa, daxili tələbin ödənilməsinə və məşğulluğun təmin edilməsinə imkan verir. Çin və Şimali Koreya XX əsrin 80-ci illərində bu modelə üstünlük vermişlər.

downloaded from KitabYurdu.org

İnnovasiya modelinin tətbiqi zamanı ölkənin iqtisadi inkişafı yüksək texnologiyalı və kapitaltutumlu istehsallar əsasında texnoloji və ictimai inkişafın ən yeni meyllərinə söykənir. Sənaye siyasətinin innovasiya modeli ölkənin elmi-texniki potensialının inkişafına, onun beynəlxalq sahədə rəqabət qabiliyyətinin artmasına imkan verir; təhsilin inkişafını stimullaşdırır və daxili tələbin ödənilməsini təmin edir; iqtisadiyyatı yüksək keyfiyyətli məhsullar istehsalına istiqamətləndirir və s. innovasiya modeli ABŞ, Yaponiya və Cənubi Koreyada uğurla tətbiq edilmişdir.

İndiki şəraitdə Naxçıvan MR-da aşağıdakı sahələri sənayenin inkişaf prioritetlərinə aid etmək olar:

- Yerli kənd təsərrüfatı xammalının emalını və son məhsullar istehsalını təmin edən emal, yüngül və yeyinti sənaye sahələrinin öncül və sürətli inkişafı;
- İstehsal infrastrukturunun modernləşdirilməsi və inkişafı;
- Sahibkarların və müəssisələrin innovasiya fəaliyyətinin inkişafı və s.

Muxtar respublikamızda müstəqillik dövründə yeni iqtisadi sistem-bazar iqtisadiyyatı təşəkkül tapdıqdan sonra iqtisadiyyatın strukturunda mühüm dəyişikliklər baş verdi. Hələ inzibati-amirlik sisteminin mövcud olduğu dövrdə «planlı iqtisadiyyat» adı altında tələb və təklif tarazlığı gözlənilmədən, müttəfiq respublikalarda siyasi motivlər üzərində qurulan «sənaye müəssisələri şəbəkəsi» birlik üzvlərinin iqtisadi asılılığını təmin etmək məqsədi daşıyırdı. Məhz müstəqilliyimizin ilk illərində bu əlaqələrin kəskin qırılması öz mənfi təsirini muxtar respublika sənayesində də göstərdi. Belə ki, qurulmuş müəssisələrdə infrastruktur və istehsal xətləri müasir tələblər səviyyəsində deyildi. Eyni zamanda həmin müəssisələrin istehsalı olan əmtəələrlə yerli tələbat arasında ciddi uyğunsuzluqlar mövcud idi.



Son 10 ildə muxtar respublikamızda sənaye potensialının müntəzəm əsasda gücləndirilməsi, yeni təsərrüfat subyektlərinin formalaşdırılması və bu sahədə səmərəli idarəetmənin təşkili adı çəkilən problemlərin tam şəkildə aradan qaldırılması ilə yanaşı müasir standartlar səviyyəsində sənaye infrastrukturunun formalaşmasını şərtləndirmişdir. Artıq Naxçıvan Muxtar Respublikası sənaye məhsulu istehsalının artım tempinə görə, sənayenin ümumi məhsulunun tərkibində qeyri-dövlət sektorunun xüsusi çəkisinə və hazır məhsul qalığının minimum həddə olmasına görə Azərbaycan Respublikasının 10 iqtisadi rayonu arasında ilk yerdədir.

Muxtar respublikamızda son dövrlərdə yaradılan əlavə dəyərin tərkibində sənaye məhsulunun xüsusi çəkisi davamlı şəkildə artmaqdadır. Sənaye məhsullarının ixracında emal sənayesi məhsullarının xüsusi çəkisinin artırılmasının stimullaşdırılması, yüksək əmək məhsuldarlığına malik müasir müəssisələr şəbəkəsinin yaradılması, mövcud sənaye müəssisələrinin yenidən qurulması, analoji xarici şirkətlərlə iqtisadi əlaqələrin yeni müstəvidə formalaşması ilə bağlı əsaslı tədbirlər aparılmaqdadır. İlkin mərhələ üzrə bu sektorda özəlləşdirmə prosesinin inten-

downloaded from KitabYurdu.org

sivləşdirilməsi və satış bazarı olan, yenidən qurulması iqtisadi cəhətdən məqsədəuyğun sayılan sənaye müəssisələrinin fəaliyyətinin bərpası nəticəsində nəzərə çarpacaq irəliləyişlər əldə olunmuşdur.

2006-cı ildə ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 70 milyon 444 min manatlıq (78 milyon 875 min ABŞ dolları həcmində) məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2005-ci illə müqayisədə 64,2 faiz çoxdur. İstehsalın ümumi həcmində məhsul istehsalının payı 73,3 faiz (51652,1 min manat), xidmətlərin payı isə 26,7 faiz (18791,5 min manat) təşkil etmişdir.

Sənaye məhsulunun 0,4 faizi hasilat, 77,3 faizi emal sənayesi, 22,3 faizi isə elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi müəssisələrində istehsal olunmuşdur. Məhsul istehsalı mədənçıxarma sənayesində 8,1 faiz, emal sənayesində 69,7 faiz, elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi sektorunda 48,7 faiz artmışdır.

Muxtar Respublikada sənaye potensialının müntəzəm əsasda gücləndirilməsi məqsədilə həyata keçirilən sistemli tədbirlər öz bəhrəsini verməkdədir. Hazırda reallaşdırılmasına yeni başlanmış bir sıra mühüm layihələr yaxın gələcəkdə sənaye məhsullarının strukturunda müsbət meyilli ciddi dəyişikliklərə zəmin yaratmaqdadır.

Artıq keçən dövr ərzində Ali Məclis rəhbərliyinin və şəxsən Ali Məclisin sədri Vasif Talıbovun ya-



xından köməyi, qayğısı və diqqəti nəticəsində aşağıdakı müəssisələrin tikilib işə salınması mümkün olmuşdur:

- İstehsal edilən pasterizə olunmuş südün karton paketlənməsi üçün istehsal gücü saatda 1500 ədəd (250-500 ml taralar üçün) və 1200 ədəd (1000 ml taralar üçün) olan avadanlıqlar alınıb quraşdırılmış və məhsul istehsalına başlanılmışdır.
- Meyvə tədarükçülərinin fəaliyyətinin stimullaşdırılması istiqamətində Almaniya texnologiyası əsasında gündəlik istehsal gücü 5 ton yaş meyvə olan meyvə-qurutma sexi qurulmuş və istifadəyə verilMişdir.
- Naxçıvan şəhərində aylıq istehsal gücü 10 min qutu olan siqaret istehsalı sahəsi yaradılmış və istehsala başlanılmışdır.
- Çay istehsalı müəssisələrinin yaradılması istiqamətində gücü ayda 80-100 ton olan fabriklərin tikintisi başa çatdırılmış və məhsul istehsalına başlanılmışdır.
- Yeni texnologiya əsasında şərab emalı üçün İtaliya mənşəli avadanlıqlarla təchiz olunmuş müəssisələrin yaradılması üzrə layihə hazırlanmışdır. Layihə üzrə istehsal gücü ildə 500-600 ton xammal olan müxtəlif çeşidli (ağ və qara) üzümdən şərab istehsalı və qablaşdırılması üçün texnoloji avadanlıqların alınıb quraşdırılması və istehsal sahəsinin tikintisi üzrə imzalanmış müqavilənin icrası istiqamətində istehsal sahəsinin tikintisi başa çatdırılmış və avadanlıqlar quraşdırılaraq istifadəyə verilmişdir.

downloaded from KitabYurdu.org

• Digər bir layihə üzrə isə artıq Naxçıvan şəhərində Türkiyə və Yunanıstan mənşəli texnologiya əsasında balın süzülməsi və paketlənməsi üçün istehsal gücü sutkada 1250 kiloqram olan «Qızıl Pətək» müəssisəsi yaradılmış və yeni avadanlıqlar quraşdırılmaqla istehsal prosesinə başlanılmışdır.

• Naxçıvan «Alt Trikotaj» Açıq Səhmdar Cəmiyyətində 1600 kvadratmetr sahədə təmir işləri aparılmış və ayda 250 min cüt su keçirməz əlcəklərin istehsalının təmin olunması istiqamətində avadanlıqlar alınaraq quraşdırılmış və məhsul istehsalına başlanılmışdır.

• «Dizayn» Məhdud Məsuliyyətli Cəmiyyətində şüşə üzərində şəbəkələrin işlənməsi, asma tavan yığılması, plastik qapı və pəncərə istehsalı sahələrinin yaradılması istiqamətində işlər başa çatdırılmış və məhsul istehsalına başlanılmışdır.

• Naxçıvan şəhərində müxtəlif çeşidli dəmir elementləri və tikinti materiallarının istehsalına nail olunması istiqamətində işə başlanılmışdır, ilkin mərhələdə mebel, qapı, pəncərə, dizayn elementləri, məişət avadanlıqları istehsalı üçün yeni texnoloji avadanlıqlar alınaraq quraşdırılmış və istehsala başlanılmışdır.

• «Badamlı Mineral Sular Zavodu» Məhdud Məsuliyyətli Cəmiyyətində yeni avadanlıqlar quraşdırılmış və tələbata uyğun məhsul istehsalına başlanılmışdır. Müəssisədə əlavə avtomat və yarımavtomat avadanlıqlarla təchiz olunmuş yeni istehsal



sexinin yaradılması üçün gücü saatda 1500 ədəd olan xətt alınaraq quraşdırılmış və istifadəyə verilmişdir.

• Şahbuz rayonunun Daylaqlı kəndində müalicəvi əhəmiyyətli «Böyrək suyu»nun qablaşdırılması üçün mini-sex yaradılmış və məhsul istehsalına başlanılmışdır.

• Culfa rayonunda fəaliyyət göstərən «Ödər» kooperativində «Gülüstan»mineral suyunun qablaşdırılması üçün istehsal gücü saatda 3000 butulka olan xəttin avadanlıqları alınaraq gətirilmiş və yeni sexin tikintisi davam etdirilmişdir.

• Gündəlik istehsal gücü 3 ton olan halva istehsalına nail olunması məqsədilə avadanlıqlar muxtar respublikaya gətirilərək quraşdırılmış və məhsul istehsalına başlanılmışdır.

Statistik materialların təhlili göstərir ki, dövlət yardımı nəticəsində 2007-ci ildə də işlər davam etdirilmiş və onlarla yeni sənaye müəssisələri tikilərək istifadəyə verilmişdir:

1. «Gəmiqaya Meyvə Məhsulları Kompleksi» Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal gücü saatda 3 ton xammal olan (İtaliya mənşəli texnologiya əsasında) müxtəlif çeşidli (alma, şaftalı, ərik, armud, alça, gilənar, dərgül və s.) meyvələrin şirəsinin və püresinin (konsentrantının) istehsalı, meyvə şirəsinin şüşə və karton taralarda, meyvə püresinin (konsentrantının) 200 kiloqramlıq aseptik torbalarda qablaşdırılması üçün istehsal sahəsinin tikintisi başa çatdırılmış, texnoloji avadanlıqlar quraşdırılaraq məhsul istehsalına başlanılmışdır.

downloaded from KitabYurdu.org

2. «Gəmiqaya Meyvə Məhsulları Kompleksi» Məhdud Məsuliyyətli Cəmiyyətində yeni texnologiya əsasında şərab emalı müəssisəsinin (İtaliya mənşəli avadanlıqlarla təchiz olunmuş) yaradılması üçün layihə üzrə istehsal gücü ilə 500-600 ton xammal olan istehsal sahəsinin tikintisi başa çatdırılmış və avadanlıqlar quraşdırılaraq məhsul istehsalına başlanılmışdır.

3. «Gəmiqaya Meyvə Məhsulları Kompleksi» Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal gücü saatda 50 kq olan badam, 40-60 kq olan qoz qabıqayırma, qurutma və paketləmə sexləri üçün texnoloji avadanlıqlar gətirilib quraşdırılmış və məhsul istehsalına başlanılmışdır.

4. Naxçıvan şəhərində «Ləzzət Qida Sənaye» Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən istehsal gücü saatda 5 ton olan kənd təsərrüfatı məhsullarını təmizləmə, qovurma və paketləmə sahəsinin yaradılması başa çağdırılmış və məhsul istehsalına başlanılmışdır.

5. «Naxçıvan Kərpic» Açıq Səhmdar Cəmiyyətinin bazasında gündəlik istehsal gücü 100-150 kiloqram olan marmelad, gündəlik istehsal gücü 500 ədəd priket (kubik) və sifariş əsasında stul istehsalı sahəsi yaradılmışdır.

6. Dövlət maliyyə dəstəyi ilə Naxçıvan «Evtikmə» Açıq Səhmdar Cəmiyyətində istehsal gücü saatda 45 kvadratmetr olan (Türkiyə mənşəli texnologiya əsasında) çəpər istehsalı sahəsi yaradılmışdır.



7. Naxçıvan şəhəri, Babək və Şərur rayonlarında ümumi istehsal gücü saatda 70 kvadratmetr olan 3 yeni çəpər istehsalı sexləri yaradılmışdır.

8. Cahan Holdinq Kommersiya Şirkətlərinin İttifaqı tərəfindən istehsal gücü gündə 10000 metr olan elastik su boruları istehsalı sahəsi yaradılmışdır.

9. Cahan Holdinq Kommersiya Şirkətinin İttifaqı tərəfindən istehsal gücü saatda 500 metr və ya ayda 500 ton olan üzlük materialı (saydinq) istehsalı sahəsinin yaradılması başa çatdırılmış və məhsul istehsalına başlanılmışdır.

10. Cahan Holdinq Kommersiya Şirkətinin İttifaqı tərəfindən istehsal gücü saatda 150 kiloqram olan (Türkiyə mənşəli texnologiya əsasında) plastik və alüminium təbəqəli su borularının istehsalı üzrə layihənin icrası başa çatdırılmış və məhsul istehsalına başlanılmışdır.

11. «Naxçıvan Sənaye Kombinatı» Açıq Səhmdar Cəmiyyətinin bazasında istehsal gücü ildə 240 min ədəd priket və 960 kubmetr bardür olan yeni istehsal sahəsi yaradılmışdır.

12. Culfa rayonunda fəaliyyət göstərən «Ödər» kooperativində «Gülüstan» mineral suyunun qablaşdırılması üçün istehsal gücü saatda 3000 butulka olan xətt quraşdırılmış və istehsala başlanılmışdır.

13. Dövlət maliyyə dəstəyi ilə «Badamlı Mineral Sular Zavodu» Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal prosesinin avtomatlaşdırılması məqsədilə istehsal gücü saatda 3000 butulka olan etiketləmə

downloaded from KitabYurdu.org

və tarixvurma avadanlıqların quraşdırılması işləri başa çatdırılmışdır.

14. «Sirab» Açıq Səhmdar Cəmiyyətində istehsal həcmini artırmaq məqsədilə istehsal gücü saatda 6000 butulka olan yeni xəttin alınması istiqamətində işlər başa çatdırılmışdır.

15. İstehsal gücü saatda 60 ton asfalt olan yeni Naxçıvan Asfalt Beton Zavodu yaradılmışdır.

16. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin nəzdində Qum-Çınqıl Zavodunun quraşdırılması işləri başa çatdırılmışdır.

17. Dövlət maliyyə dəstəyi ilə «Seolit» Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən AZEO AGRO-1 adlı üzvü mineral gübrə istehsalı sahəsinin yaradılması başa çatdırılmışdır.

18. «Gülşən» Xarici İqtisadi Əlaqələr Assosiasiyasında dövlət maliyyə dəstəyi ilə gündəlik istehsal gücü 4 ton olan yağlı və yağsız boyalar istehsalı sahəsinin yaradılması başa çatdırılmışdır.

19. Dövlət maliyyə dəstəyi ilə Naxçıvan «Xalça» Açıq Səhmdar Cəmiyyətində (Çin mənşəli texnologiya əsasında) polipropilen kroşkadan parça toxunması, müxtəlif növ kisə, polietilen torba və stolüstü örtük istehsalı sexi yaradılmışdır.

20. İstehsal gücü ayda 200 min qutu olan karton taraların istehsalı müəssisəsinin yenidən qurulması istiqamətində tikinti işləri başa çatdırılmış, avadanlıqlar alınaraq quraşdırılmışdır.

21. «Növhəl» kiçik müəssisəsində dövlət maliyyə dəstəyi ilə (İran mənşəli texnologiya əsasında)



istehsal gücü saatda 200 metr olan yapışqanlı bantların və rəngli yapışqanlı kağızların istehsalı sahəsi yaradılmışdır.

22. «Prestij-Naxçıvan Pivəsi» Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən istehsal gücü ildə 3 milyon litr olan yeni pivə istehsalı zavodu yaradılmışdır.

23. «Gəmiqaya Dizayn Sənaye Kompleksi» Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən gündəlik istehsal gücü 2 ton olan mismar istehsalı sahəsi yaradılmışdır.

24. «Gəmiqaya Dizayn Sənaye Kompleksi» Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən dövlət maliyyə dəstəyi ilə (Amerika Birləşmiş Ştatları mənşəli texnologiya əsasında) istehsal gücü gündəlik 500 paqonometr olan dəmir vərəqədən yağış suyu boruları istehsalı sahəsi yaradılmışdır.

25.«Dizayn» Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən (Türkiyə və Çin mənşəli texnologiyalar əsasında) istehsal gücü saatda 1,5 ton olan metal, çuqun və əlvan metalların (latun, mis) emalı müəssisəsinin yaradılması istiqamətlərində işlər başa çatdırılmışdır.

26. Naxçıvan şəhərində «Oba Qrupp» müəssisəsinin nəzdində gündəlik istehsal gücü 5 ton olan plastik tullantıların təkrar emalı sahəsi yaradılmışdır.

27.«Palitra-7» Məhdud Məsuliyyətli Cəmiyyətində dövlət maliyyə dəstəyi ilə (Türkiyə mənşəli texnologiya əsasında) istehsal gücü saatda 14 kvadratmetr olan çərçivə və baqetlərin hazırlanması, cildləmə və tərtibat işləri sahəsi yaradılmışdır.

downloaded from KitabYurdu.org

28. «Şərur Özəl Çörək Zavodu» Məhdud Məsuliyyətli Cəmiyyətində dövlət maliyyə dəstəyi ilə istehsal gücü gündə 3000 ədəd olan çörək zavodu yaradılmışdır.

29. Dövlət maliyyə dəstəyi ilə Culfa rayonunda «Həqiqət» Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən istehsal gücü saatda 20 kiloqram olan yeni çörəkbişirmə sexinin yaradılması istiqamətində işlər başa çatdırılmışdır.

30. Dövlət maliyyə dəstəyi ilə «Dayaq» kooperativi tərəfindən istehsal gücü ayda 300 kvadratmetr olan qapı, pəncərə və 50 ədəd mebel dəstləri olan istehsal sahəsi yaradılmışdır.

31. «Naxçıvan» Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən gündəlik istehsal gücü 80 ədəd olan akrilit materiallardan santexnik avadanlıqları və su çənlərinin istehsalı sahəsinin genişləndirilməsi başa çatdırılmışdır.

32. Dövlət maliyyə dəstəyi ilə fiziki şəxs tərəfindən istehsal gücü ayda 7 ton olan ət məhsulları istehsalı sahəsinin genişləndirilməsi istiamətlərində işlər başa çatdırılmışdır.

33. Naxçıvan şəhərində «Babək» şirkəti tərəfindən karamel və şəkərli qənnadı məhsulları istehsalı sahəsinin genişləndirilməsi başa çatdırılmışdır.

34. «Gəmiqaya Meyvə Məhsulları Kompleksi» Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən tutumu 2500 ton olan kartof, meyvə və tərəvəzin saxlanılması üçün soyuducu anbar yaradılmışdır.



35. Şahbuz rayonunda istehsal gücü saatda 100 kiloqram olan balın pasterizasiyası və qablaşdırılması sahəsi yaradılmışdır.

36. «Vəfa» Məhdud Məsuliyyətli Cəmiyyətində dövlət maliyyə dəstəyi ilə itehsal gücü 45 gündə 50 ton quş əti olan quşçuluq təsərrüfatı yaradılmışdır.

37. Ordubad rayonunda «Quşçuluq» Açıq Səhmdar Cəmiyyətində istehsal gücü 45 gündə 30 ton quş əti olan quşçuluq təsərrüfatı yaradılmışdır.

38. «Pircüvar» Kooperativində ət, süd məhsulları istehsalı və qablaşdırılması sahəsi yaradılmışdır.

39. Culfa rayonunda «Əbrəqunus Şərab» Açıq Səhmdar Cəmiyyətinin bazasında kişmiş istehsalı sahəsinin yaradılması başa çatdırılmışdır.

40. Naxçıvan «Tikiş» Açıq Səhmdar Cəmiyyətində kişi kostyumu və köynəklərinin istehsalı sahəsinin yaradılması məqsədilə istehsal sahəsinin yenidən qurulması başa çatdırılmışdır.

Yuxarıda qeyd olunan müəssisələrdən başqa digər iri sənaye müəssisələrinin yaradılması da Muxtar respublikada sənaye məhsulu istehsalının həcmindəki dinamik artım tempini müəyyənləşdirmişdir.

downloaded from KitabYurdu.org

Cədvəl 1

**Naxçıvan MR-da 2004-2007-ci illərdə sənaye məhsulunun dinamikası**

| | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|
| Sənaye məhsuLunun həcmi (milyon manatla) | 25,6 | 41,2 | 70,4 | 122,7 |
| Artım templəri (əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə) | 29,7 | 56,2 | 64,2 | 66,0 |

Cədvəl məlumatlarından məlum olur ki, muxtar respublikada sənaye məhsulunun həcmi 2004-cü ilə nisbətən 2006-cı ildə 2,7 dəfə, artım tempi isə 2006-cı ildə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 64,2 faiz artmışdır.

Bundan əlavə aparılan təhlillər göstərir ki, Muxtar Respublikada son illər natura ifadəsində sənaye məhsulları istehsalı daim artmaqdadır. Bunu aşağıdakı cədvəldən daha aydın görmək olar:



Cədvəl 2

**Əsas sənaye məhsulları istehsalının natura ifadəsində dinamikası**

| Məhsul növlərinin adı və 2006-cı ildə istehsalın həcmi | 2004-cü ildə istehsalın həcmi ölçü vahidi | 2005-ci ildə istehsalın həcmi | |
|---|---|---|---|
| Daş duz, ton | 4884,5 | 5507,5 | 5806,1 |
| Üyüdülmüş duz, ton | 2370,6 | 2735,7 | 2834,8 |
| Qum-çınqıl, ton | 12641,4 | 24764,6 | 62303,2 |
| Gəc, ton | 2150,5 | 13560,8 | 15140,6 |
| Kərpic, min kubmetr | 2,3 | 9,7 | 15,4 |
| Plastmas lambir, ton | - | - | 9,9 |
| Plastmas profil, ton | - | - | 15,0 |
| Plastik qapı və pəncərə | | | |
| blokları, ton | 18,7 | 55,4 | 315,8 |
| Travertin piltə, ton | 2440,4 | 4280,9 | 4467,0 |
| Travertin blok, ton | 8321,2 | 9572,0 | 8943,6 |
| Travertin bardur, ton | 3220,8 | 3480,8 | 11840,7 |
| Karton tara, ton | 12,2 | 44,7 | 66,9 |
| Əlcək, cüt | 2430 | 200 | 83550 |
| Mebel, dəst | 7680 | 8530 | 10584 |
| Elektrik | | | |
| enerjisi, min kVt saat | 90686,0 | 91860,0 | 223431,1 |
| İstilik enerjisi, min Qkal | 32,7 | 33,8 | 66,2 |
| Alkoqolsuz içkilər, min dkl | 15,4 | 16,4 | 17,2 |
| Şərab, min dkl | 1,6 | 2,1 | 5,8 |
| Pivə, min dkl | 14,1 | 14,4 | 15,7 |
| Araq, min dkl | 2,2 | 2,5 | 7,5 |
| Siqaret, milyon ədəd | - | - | 60,0 |
| Mineral su, min dkl | 236,3 | 340,8 | 1069,7 |
| Kolbasa, ton | 24,4 | 05,1 | 208,4 |
| Peçenye, ton | 50,9 | 53,6 | 8,4 |
| Makaron, ton | 111,7 | 139,0 | 242,1 |

downloaded from KitabYurdu.org

| | | | |
|---|---|---|---|
| Qənd, ton | 521,3 | 558,4 | 607,2 |
| Şokolad, ton | 32,9 | 175,1 | 308,5 |
| Halva, ton | - | - | 5,3 |
| Qablaşdırılmış meyvə | | | |
| qurusu və | | | |
| mürəbbələr, ton | - | - | 7,1 |

Cədvəlin təhlili göstərir ki, Muxtar Respublikada son illər yeni texnologiyalar əsasında sənaye sahələrinin yaradılması istehsal olunan məhsulların həm çeşidirin artmasına, həm də keyfiyyətinin yaxşılaşmasına gətirib çıxarmışdır ki, bu da əhalinin bəzi ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi mümkün olmuşdur. Yeni müəssisələrin işə salınması nəticəsində 2006-cı ildə ilk dəfə olaraq muxtar respublikada 308,5 ton şokalad, 5,3 ton halva, 7,1 ton qablaşdırılmış meyvə qurusu və mürəbbələr istehsal edilmişdir.

Hesab edirik ki, sənaye potensialının artımı istiqamətində görülən işlər və alınan nəticələr gələcəkdə Muxtar Respublikada sənayenin aparıcı rolunu bir daha təmin edəcəkdir.

### *2.3 Sənaye siyasəti və rəqabətqabiliyyətliliyin yüksəldilməsinin regional problemləri*

Keçmiş SSRİ-yə daxil olan respublikalar kimi Azərbaycan respublikası da sosial iqtisadi sistemin transformasiyası dövrünü yaşayır.

İndi ölkədə aparılan iqtisadi islahatların əsas məqsədi dünya təcrübəsinin qabaqcıl nailiyyətlərinə,



elmi-texniki tərəqqiyyə və yüksək həyat səviyyəsinə əsaslanan səmərəli milli iqtisadiyyatın yaradılmasından ibarətdir. İnkişafın dünya təcrübəsinə əsaslanan Azərbaycan son illərdə öz dövlətini və onun iqtisadi sistemini xüsusi proqramlar əsasında qurur. Lakin XX əsrin 80-cı illərinin axırlarına diqqət yetirəndə məlum olur ki, 1986-1990-cı illəri əhatə edən beş il ərzində sənayedə bir sıra neqativ hallar baş vermişdir. Belə ki, ölkədə 1985-ci ilə nisbətən 1990-cı ildə fondla silahlanma 35,9 faiz artdığı halda, fondveriminin 22,6 faizə qədər azalması müşahidə edilmişdir. Sənaye müəssisələrinin sayının 3540-dan 3839-a qədər artmasına baxmayaraq məhsul istehsalının ümumi həcmi 0,9 faiz geriləmişdir (21. s.274).

Araşdırmalar göstərir ki, bu dövrdə respublikanın sənaye istehsalında başlanmış tənəzzülü sürətləndirən ən mühüm səbəblərdən biri keçmiş SSRİ-nin süqutu ərəfəsində müttəfiq respublikalar arasında onilliklər ərzində formalaşmış iqtisadi, istehsal-kooperasiya əlaqələrinin pozulması olmuşdur. Bu prosesdən ən çox ziyan çəkən isə Azərbaycan və onun tərkib hissəsi olan Naxçıvan MR oldu. Çünkü burada yerləşən sənaye müəssisələrinin 80-90 faizdən çoxu İttifaq Nazirliklərinin tabeliyində idi.

Bununla yanaşı, onu da qeyd etmək lazımdır ki, sənaye müəssisələri yeni şəraitə uyğunlaşmaqda böyük çətinliklərlə qarşılaşmışdılar. Bu onunla şərtlənirdi ki, planlı iqtisadiyyat şəraitində müəssisələr kapitalist firmalarından fərqli olaraq, iqtisadiyyatın tam müstəqil təsərrüfat subyektləri deyildi və daha

downloaded from KitabYurdu.org

çox ölkənin xalq təsərrüfatı kompleksinin baş strukturu çərçivəsində nisbi, müstəqil qurumlar idi. Onların fəaliyyətində prioritet kimi mənfəət əldə edilməsi deyil, planın yerinə yetirilməsi əsas vəzifə idi.

Lakin bazar münasibətlərinə keçəndən sonra ölkə iqtisadiyyatının seçdiyi ağır islahatlar yolu ilə rəqabətin gizli və ya sarsıdılmış formadan açıq formaya keçməsinə gətirib çıxardı və hər bir müəssisənin inkişafında həlledici amillərdən birinə çevrildi. Nümunəvi bölgü sistemindən bazar sisteminə keçilməsində rəqabət ən mühüm zəmin kimi çıxış edirdi.

Nəhayət keçmiş SSRİ-nin süqutu ilə müşayiət edilən destruktiv proseslər 1989-cu ildən başlayaraq, bütövlükdə postsovet məkanında olduğu kimi Azərbaycanda da istehsalın tənəzzülünə, sonralar, 1990-cı illərin əvvəlindən isə aparılan islahatların qeyri-ardıcıllığı, pul-kredit və büdcə siyasətinin sistemsizliyi, faktiki olaraq iki müxtəlif sistemin elementlərinin birgə mövcudluğu ölkədə inflyasiyanın daha da yüksəlməsinə və respublikada dərin iqtisadi böhrana gətirib çıxardı. 90-cı illərin əvvəllərində baş verən ictimai-siyasi böhran bu prosesləri daha da gücləndirmişdir ki, bu da dərin iqtisadi böhran şəraitində keçid dövrünün sosial və iqtisadi problemlərinin bütün spektrini dəfələrlə ağırlaşdırmışdır. 1991-1995-ci illərdə bütövlükdə Azərbaycanda olduğu kimi onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan MR-da da istehsal edilmiş sənaye məhsullarının həcmi kəskin dərəcədə azalmağa meylli olmuşdur. Belə ki, muxtar respublikada sənaye məhsulları istehsalının dinamikasının təhlili göstərir ki, beş il ərzində 1994-cü il istisna olmaqla sənaye istehsalı hər il özündən qabaqkı ilə nisbətən xeyli aşağı düşmüşdür. Belə ki, bu rəqəm 1991-ci ildə 1990-cı ilə nisbətən 6,3 faiz, 1992-ci ildə 1991-cı ilə nisbətən 63,2 faiz , 1993-cü ildə 1992-ci ilə nisbətən 36,5 faiz, 1995-ci ildə isə 1994-cü ilə nisbətən 57,7 faiz azalma ilə müşayiət olunmuşdur (42. s.106).



1995-ci ildən etibarən Ümumilli liderimiz Heydər Əliyevin misilsiz səyləri nəticəsində respublikada köklü iqtisadi islahatlar aparılması mümkün oldu. 1995-ci ilin noyabrında ümumxalq referendumu ilə qəbul olunmuş Azərbaycan Respubilkasının Konstitusiyası ölkədə əsaslı islahatların həyata keçirilməsində çox mühüm rol oynadı. Burada demokratik və bazar islahatlarının, xüsusi mülkiyyətin və ölkədə aşkarlığın legitimliyi təsbit olunmaqla, ilk dəfə Konstitusiya səviyyəsində hakimiyyət bölgüsü, insan, o cümlədən, sahibkarlıq fəaliyyəti hüquqlarının qorunması, həmçinin iqtisadiyyata dövlət müdaxiləsinin məhdudlaşdırılması kimi sivil normalar təsdiq edildi. Sahibkarlığın fəaliyyəti üçün əlverişli şərait yaratmaq məqsədi ilə Konstitusiya prinsiplərinə əsaslanaraq 120-dən çox qanun və qanunvericilik aktları qəbul olunmuşdur.

1995-1996-cı illərdə Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə razılaşdırılmış makro iqtisadi sabitləşmə və struktur dəyişiklikləri üzrə iqtisadi proqramların reallaşdırılması hesabına artıq 1996-cı ildən etibarən Ümum Daxili Məhsulun artımına nail olundu. Belə ki, 1996-cı ildə ÜDM-un artım sürəti

downloaded from KitabYurdu.org

1,3 faiz, 1997-ci ildə 5,8 faiz, 1998-ci ildə 10,0 faiz, 1999-cu ildə 7,4 faiz, 2000-ci ildə isə 11,1 faiz təşkil etmişdir.

Ölkədə istehsal olunan ÜMD strukturuna diqqət yetirdikdə məlum olur ki, burada sənaye üstün mövqeyə malik olmuşdur.

2000-ci ilin yekununa görə ÜDM-un strukturunda ayrı-ayrı sahələrin payı sənayedə 32 faiz, kənd təsərrüfatında 18,1 faiz, tikintidə 4,4 faiz, nəqliyyat və rəbitədə 14,5 faiz, ticarət və ictimai iaşədə 6,1 faiz, sosial və qeyri-formal xidmətlərdə 21,0 faiz, xalis vergilərdə isə 3,9 faiz olmuşdu.

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasında aparılan islahatlar artıq öz ilkin nəticələrini verməkdədir. Belə ki, ötən dövr ərzində makroiqtisadi sabitliyə nail olunmuş, mülkiyyət çoxnövlülüyünün yaradılması, o cümlədən dövlət mülkiyyətinin özəlləşdirilməsi, sahibkarlılıq və rəqabət mühitinin inkişafı, bazar infrastrukturunun formalaşdırılması və s. bu kimi istiqamətlərdə xeyli işlər görülmüşdür.

Odur ki, bu gün qarşıda duran ən mühüm vəzifə yerli istehsalın, o cümlədən sənaye istehsalının rəqabətqabiliyyətinin yüksəldilməsinə şərait yaratmaqdan ibarət olmalıdır, bunsuz milli iqtisadiyyatın inkişafına nail olmaq mümkün deyildir. Bu onunla şərtlənir ki, müasir dövrdə hər hansı bir ölkədə aparılan iqtisadi islahatların müvəffəqiyyəti, ilk növbədə, sənayenin böhran vəziyyətindən çıxarılması və normal fəaliyyətə başlamasından asılıdır. Belə ki, müasıir


dövrdə ölkənin iqtisadi gücü, hər şeydən əvvəl onun sənaye kompleksinin inkişaf səviyyəsi ilə ölçülür. Ona görə də bazar iqtisadiyyatına keçid şəraitində ölkənin sənaye kompleksinin qarşısında duran mürəkkəb məsələlərin həlli üçün hökumətin məqsədyönlü fəaliyyəti tələb olunur. Bu onunla izah olunur ki, uzun müddət inzibati-amirlik sistemində fəaliyyət göstərən və həddən artıq deformasiya olunmuş milli sənaye kompleksi özünütənzimləmə mexanizmlərinin köməyi ilə qısa müddətdə yeni iqtisadi şəraitə uyğunlaşa bilməz.

Buradan belə bir nəticəyə gəlirik ki, hazırkı şəraitdə Azərbaycan sənayesini düşdüyü çətin vəziyyətdən çıxarmaq üçün, bir tərəfdən azad rəqabətə meydan açılmalı, mülkiyyət və təşkilati-hüquq formasından asılı olmadan bütün müəssisə və təşkilatlara bərabər rəqabət mühiti yaradılmalı, digər tərəfdən isə, yerli istehsalın inkişafı üçün əlverişli şərait təmin olunmalıdır. Başqa sözlə, dövlətin sənaye siyasəti ölkənin sənaye potensialının səmərəli istifadəsi və inkişaf etdirilməsinə yönəlmiş məqsədyönlü tədbirlər sistemi olmaqla iqtisadi islahatların kontekstində baxılmalıdır. Dövlətin sənaye siyasətinin əsas məqsədi dünya standartlarına cavab verən çoxsahəli bu sənaye kompleksi ölkə iqtisadiyyatının dünya təsərrüfatı sisteminə səmərəli inteqrasiyasını, həmçinin iqtisadi müstəqilliyini və milli iqtisadiyyatın təhlükəsizliyini təmin etməlidir.

Aydındır ki, bu məqsədə nail olunması sənaye istehsalının inkişafına iqtisadi metodlara himayədar-

downloaded from KitabYurdu.org

lıq siyasəti yeridilməsi üçün sistemli tədbirlər görülməsini nəzərdə tutur. Bunun üçün, ilk növbədə, milli istehsalı, o cümlədən sənaye istehsalını uçuruma sürükləyən ucuz hazırkı dövrdə bir milyondan artıq qaçqın və köçkünü olan ölkədə əhalinin sosial vəziyyətini yüngülləşdirməyə xidmət edən müsbət cəhətləri ilə milli istehsalın inkişafına maneələr yaradan, dövlətin iqtisadi müstəqilliyi və təhlükəsizliyi üçün problemlərə səbəb olan mənfi cəhətləri müqayisə olunmalı, onlardan hansının uzunmüddətli milli mənafelərimizə cavab verdiyi müəyyən edilməli, iqtisadi inkişafa daxili stimulları gücləndirən yollar tapılmalıdır. Hazırkı dövrdə məlum obyektiv səbəblərdən rəqabət qabiliyyəti aşağı olan milli istehsalın, o cümlədən sənaye istehsalının müqəddəratını kortəbii fəaliyyət göstərən bazarın öhdəsinə buraxmaq ağır nəticələr verə bilər. Milli istehsal pul-kredit, büdcə-vergi, qiymət siyasəti ilə himayədarlığı gücləndirmədən iqtisadi inkişafa nail ola bilmərik. Başqa sözlə, səmərəli olması üçün sənaye siyasəti elmi-texniki, struktur, investisiya, maliyyə, pul-kredit, institusional və təşkilati-təsərrüfat, regional, xarici iqtisadi və s. siyasətlərin konkret cəhətlərini özündə birləşdirməlidir.

Digər prinsipial müddət isə ondan ibarətdir ki, sənaye siyasəti ayrı-ayrı sahələrin və yaxud da onların mexaniki cəmlərinin problemlərinin həllinə yönələ bilməz. Sənaye siyaətinin obyekti kimi vahid sənaye kompleksi çıxış etməlidir. Bu zaman sənaye kompleksinin dövlət tənzimlənməsi sistemi sənaye obyekti kimi 3 tip müəssisələrin fəaliyyət göstərməsini nəzərə


almaqla transformasiya edilməlidir: a) dövlətin birbaşa tabeliyində olan tamamilə dövlət və büdcə təşkilatları; b) dövlətin iştirakı ilə kommersiyalaşdırılmış müəssisələr; c) yalnız birbaşa iqtisadi metodlarla tənzimlənən tamamilə qeyri-dövlət müəssisələri.

Bu müəssisələrə münasibətdə dövlət idarəetmə orqanlarının əsas funksiyaları-sənaye kompleksinin fəaliyyətinin tənzimlənməsi, sənaye siyasətinin prioritetlərinin reallaşdırılması və dövləti mülkiyyətinin idarə olunması, məqsədli dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi, dövlət ehtiyaclarının ödənilməsi və s. olmalıdır.

Sənaye müəssisələrinə birbaşa dövlət yardımı prinsipləri yenidən nəzərdən keçirilməlidir. Bu yardımları yalnız iqtisadi cəhətdən səmərəli qəbul edilən proqram və layihələr əsasında həyata keçirmək lazımdır.

Bu zaman əsas məsələlərdən biri də müəssisələrin fəaliyyət göstərdiyi iqtisadi mühitin sağlamlaşdırılmasından ibarətdir. Məlumdur ki, bu problem sənaye siyasəti çərçivəsindən kənara çıxır. Lakin bunu həll etmədən əmtəə istehsalçılarının normal fəaliyyətini təmin etmək mümkün deyil. Buna görə də, dövlət sənaye siyasətinə büdcə, vergi, qiymət, kredit, amortizasiya, antiinhisar siyasəti və maliyyə intizamının möhkəmləndirilməsi ilə bağlı məqamlar da daxil edilməlidir.

İqtisadi mühitin sağlamlaşdırılması və maliyyə intizamının möhkəmləndirilməsi də prinsipal əhəmiyyət kəsb edir.

downloaded from KitabYurdu.org

Dövlətin sənaye siyasəti ölkə sənayesinin inkişafı üçün əlverişli şərait yaratmağa yönəldilməlidir.

Azərbaycanın müasir çoxsahəli sənaye potensialı nisbətən böyük əhatəliliyi, olduqca aşağı səmərəliliyi, ağır struktur və köhnəlmiş bazası ilə xarakterizə olunur. Bununla yanaşı, onun üstünlüyü ondan ibarətdir ki, o başlanğıcdan məhsulun 70-80%-ni ölkənin hüdudlarından kənara çıxaracağı (ixrac) nəzərə alınmaqla formalaşmışdır. Bu əhəmiyyətli amil yaxın və uzaq gələcək üçün sənaye siyasətinin əsas istiqamətlərini müəyyən edir. Eyni zamanda əvvəlki illərdə yaradılmış texnoloji potensialın saxlanılması və inkişaf etdirilməsi məsələsinin əhəmiyyəti də nəzərə alınmalıdır.

Sənayedə struktur islahatları məhsul həcminin ümumi artımında hasilat sahələrinin payının azalmasını və bununla yanaşı, emal sahələrinin xüsusi çəkisinin artırılması zərurətini şərtləndirir. Bu strateji vəzifə zəruri xarici və daxili investisiyaların cəlb edilməsi hesabına növbəti 10-15 ildə yerinə yetirilə bilər.

Eyni zamanda, hesab edirik ki, sənaye siyasətinin reallaşdırılması üçün aşağıdakı tədbirlər həyata keçirilməlidir:

- sənayedə pozitiv struktur dəyişiklikləri, mülkiyyət hüququnun qorunması, müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi, informasiya aşkarlığı və təbii inhisar məhsulları qiymətlərinin tənzimlənmə metod və sistemlərinin yaxşılaşdırılması üçün təşkilati və hüquqi bazanın yaradılması;



- vergi sistemində islahatların aparılması (onun əsasını istehsalın, o cümlədən kiçik və orta sahibkarlığın inkişafının, həmçinin yerli və xarici investorların stimullaşdırılmasına yönəldilmiş tədbirlər təşkil etməlidir);

- xarici iqtisadi fəaliyyətin dövlət tərəfindən himayə edilməsi: yerli istehsalçıların himayə edilməsini daxili bazarda sağlam rəqabət şəraitinin yaradılmasını təmin edən idxal tariflərinin müəyyənləşdirilməsi; ixracın kreditləndirilməsi və sığortalanması sisteminin yaradılması; ixracyönümlü məhsulun beynəlxalq sertifikatlaşdırılmasının təşkili və s.;

- daxili bazarda yerli sənaye məhsuluna tələbin gücləndirilməsi; əmtəələrin reklamı, bazar infrastrukturunun və lizinqin inkişaf etdirilməsi, tələbin marketinq təhlili və s.;

- idarəetmə sisteminin təkmilləşdirilməsi (sahibkarların və menecerlərin hüquqlarını və məsuliyyətini müəyyən edən hüquqi mexanizmin və menecerlərin fəaliyyətinə nəzarət mexanizminin yaradılması; idarəetmə heyətinin daim təlimləndirilməsi).

Sənaye siyasətinin müvəfəqiyyəti üçün əlverişli iqtisadi və maliyyə sistemi yaradılmalı, müəssisələrin və əhalinin vəsaiti hesabına sənaye potensialının modelləşdirilməsini stimullaşdıra bilən liberal kredit və vergi rejimlərinin yaradılması üzrə tədbirlər həyata keçirilməlidir.

Sənaye siyasətinin mühüm elementi olan xarici ticarət fəaliyyəti sahəsində strateji məqsəd ixracın strukturunun maşın-texniki və elmtutumlu məhsul-

downloaded from KitabYurdu.org

ların xeyrinə (yüngül və yeyinti sənayesinin və aqrar-sənaye kompleksinin son məhsulun ixracının artması ilə yanaşı) təkmilləşdirilməsindən ibarət olmalıdır.

Xarici iqtisadi fəaliyyət sahəsində əsas vəzifə əmək bölgüsündə milli iqtisadiyyatın üstünlüklərindən maksimum istifadə etməklə, ölkənin dünya təsərrüfat sisteminə daha sıx inteqrasiyasını keçməkdən ibarətdir.

Xarici ticarət siyasətinin ən mühüm vəzifələrindən biri də Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv qəbul olunmasıdır. Belə ki, ÜTT-yə üzv qəbul olunmaq Azərbaycan üçün əhəmiyyətli olan ixrac bazarına sərbəst çıxış imkanı deməkdir.

Azərbaycanın həmin təşkilata daxil olması üçün iqtisadiyyat və xarici iqtisadi fəaliyyətin tənzimlənməsi sahələrində ÜTT Sazişinə uyğun olaraq bir sıra qanunvericilik aktları, o cümlədən normativ sənədlər qəbul edilməlidir.

İxracın inkişaf etdirilməsi onun yeni istiqamətlərinin axtarılmasına, bazasının genişləndirilməsinə və ixracatçılar üçün əlverişli şəraitin yaradılmasına kompleks yanaşma tələb edir. Burada səmərəli ticarət və onun himayə edilməsi siyasətinin işlənib hazırlanması çox mühüm rol oynayır. Təcrübə göstərir ki, ixraca sistematik olaraq yardım tədbirləri həyata keçirən və ona himayə edən inkişaf etməkdə olan ölkələr nəinki ixracın, həm də bütövlükdə iqtisadiyyatın inkişafına asanlıqla müvəffəq olurlar. Başqa sözlə, ixracı stimullaşdıran amillərin düzgün seçilməsi və



ona effektiv yardım təsisatlarının yaradılması-müvəffəqiyyətin rəhnidir.

Təhlil göstərir ki, Azərbaycan Respubilkasında xarici ticarətin əmtəə tərkibi qənətbəxş deyildir. İxracın çox böyük hissəsi enerji daşıyıcılarının və xammal təyinatlı məhsulların payına düşür. İdxalın xeyli hissəsini isə istehlak malları, o cümlədən ərzaq məhsulları təşkil edir. Belə vəziyyət beynəlxalq əmək bölgüsü sistemində Azərbaycanın mövqeyinin heç də yaxşı olmasına dəlalət etmir.

Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabətqabiliyyətliliyinin təmin olunması dünya təsərrüfat sisteminə daxil olmaq üçün mühüm şərtdir. Bu, hər şeydən əvvəl ixracın canlandırılması zərurətini ifadə edir ki, bu da zəruri idxalın, xarici borcların və onlara faizlərin ödənilməsinə imkan verəcəkdir. Odur ki, daxildə istehsal olunan mal və xidmətlərin Azərbaycan bazarında artmaqda olan xarici mal və xidmətlərlə rəqabətə girməsi üçün müvafiq tədbirlər görülməlidir.

Tədqiqatlar göstərir ki, Azərbaycanın iqtisadi potensialı onun iqtisadiyyatının dünya miqyasında çox böyük rəqabətqabiliyyəliliyini təmin edə bilər. Bunun reallaşdırılması üçün, hər şeydən əvvəl, rəqabət qabiliyyətinin artırılması proqramı işlənib hazırlanmalıdır.

Bu proqram uzaq perspektiv üçün effektiv xarici ticarət, daha ümumi xarici iqtisadi fəaliyyət strategiyasının işlənib hazırlanması ilə tamamlanmalıdır.

downloaded from KitabYurdu.org

Burada, emaledici sahələrdə (məsələn, sənayenin baza sahələrində) müasir texnologiyaların işlənib hazırlanması üçün elmi-tədqiqat işlərinə investisiya qoyuluşlarının artırılması, «insan kapitalı»nın modernləşdirilməsi, elmin və yeniliklərin inkişafına yönəldilmiş iqtisadi mühitin məqsədyönlü təkmilləşdirilməsi əsas istiqamətlər kimi çıxış etməlidir. Bunun üçün informasiya texnologiyalarının inkişaf etdirilməsi və informasiya strukturunun formalaşması xüsusi əhəmiyyətə malikdir.

Respublikanın ixrac potensialının genişləndirilməsinin ən əsas şərtlərindən biri emal sahələri məhsulunun və onun keyfiyyətinin dünya standartlarına və rəqabət şərtlərinə uyğunlaşdırılmasından və sənayenin öyrənilən bazar sahələri kimi yüksək ixrac potensialına malik prioritet sahələrin inkişaf etdirilməsindən ibarətdir.

Ölkədə olduğu kimi onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan MR-da da ixracyönümlü mallar istehsalının artırılması sahəsində çox mühüm işlər görülməkdədir. Elə bunun nəticəsidir ki, 2007-ci idə muxtar respublikada rəqabətqabiliyyətli mallar istehsalı 18,5 dəfəlik inkişaf tempinə malik olmuşdur.

Ümumiyyətlə, muxtar respublika iqtisadiyyatının dinamik inkişafı sənayenin inkişafına da öz müsbət təsirini göstərməkdədir. Əhalinin yerli sənaye məhsullarına tələbatı artdıqca çeşidi də getdikcə artır. Qeyd etmək lazımdır ki, muxtar respublikada fəaliyyət göstərən sənaye sahələri icərisində emal sənayesi özünün tutuğu yerə və xüsusi çəkisinə görə fərqlənir.



Belə ki, 2007-ci ildə bütövlükdə Naxçıvan MR-da istehsal olunan ümumi sənaye məhsulunun 12,5 faizi məhz emal sənayesinin payına düşür. Emal sənayesində məhsulun çeşidi də artmaqdadır. İndi muxtar respublikanın sənaye sahəsində istehsal olunan 192 adda məhsulun 60-can çoxu və ya 30 faizi məhz emal sənayesinin payına düşür.

Naxçıvan MR-da yeni emal sənaye müəssisələrinin yaradılması əhalinin istehlakında mühüm yer tutan qida məhsullarının yerli istehsal hesabına təmin olunmasına və idxaldan imtina olunmasına gətirib çıxarmışdı. Məhz bu səbəbdən də son bir ildə muxtar respublikada idxalın həcmi 23,7 faiz azalmışdır.

Keçən əsrin 90-cı illərində demək olar ki, qida məhsullarının əsas hissəsi xaricdən idxal olunurdu. Lakin son 10 ildə Naxçıvan MR Ali Məclisinin bu istiqamətdə gördüyü məqsədyönlü tədbirlər nəticəsində bir cox qida məhsullarının istehsalı təşkil olunmuşdur. Bunu aşağıdakı cədvəldə daha aydın görmək olar.

Cədvəl 3

**Naxçıvan MR emal sənayesində mühüm növ qida məhsullarının istehsalı**

| Məhsulun növlərinin adı və ölçü vahidi. | 2007-ci ilin yanvar-sentyabr aylarında istehsal edilmişdir | 2006-cı ilin müvafiq dövrünə nisbətən, faiz |
|---|---|---|
| **Ət və ət məhsullarının istehsalı** | | |
| Ət (quş əti də daxil | 3455,2 | 103,7 |

downloaded from KitabYurdu.org

| | | |
|---|---|---|
| olmaqla ) | | |
| Kolbasa məmulatları, ton | 150,3 | 133,0 |
| Hisə verilmiş balıq, ton | 11,8 | 125,5 |
| **Süd məhsulları istehsalı** | | |
| Üzlü süd, ton | 25338,4 | 102,7 |
| Qaymaq, ton | 83,6 | 102,8 |
| Pendir, kəsmik , ton | 1728,3 | 102,7 |
| Kərə yağı, ton | 724,8 | 102,8 |
| Qatıq, ton | 1485,8 | 102,7 |
| Dondurma, ton, | 88,2 | 135,7 |
| **İçki istehsalı** | | |
| Alkoqolsuz içkilər, min dkl | 41,8 | 4,0 dəfə |
| Brendi (konyak), min dkl | 1,9 | 3,2 |
| Şərab, min dkl | 7,4 | 132,1 |
| Araq, min dkl | 10,8 | 6,8 dəfə |
| Pivə , min dkl | 17,1 | 108,9 |
| Mineral su, min dkl | 1943,8 | 2,0 dəfə |
| Ətirli maddələr əlavə edilməmiş sular, min dkl | 140,3 | 147,1 |
| **Tütün məmulatlarının istehsalı** | | |
| Siqaret, milyon ədəd | 5,3 | |
| **Sair qida məhsullarının istehsalı** | | |
| Qənd, ton | 1230,8 | 2,5 dəfə |
| Şokolad, ton | 276,2 | 133,2 |



| | | |
|---|---|---|
| Makaron, ton | 193,2 | 2,7 dəfə |
| Peçenye, ton | 28,7 | 3,2dəfə |
| Tortlar və şirniyyat məmulatları, ton | 172,4 | 149,9 |
| Çörək və çörək-bulka məmulatları, ton | 21220,8 | 101,1 |
| Konfet, kq | 11420 | 146,3 |
| Qablaşdırılmış təbii çay | 2,4 | |

Cədvəl məlumatlarının təhlili göstərir ki, 2006-cı ilə nisbətən 2007-ci ildə bir çox qida məhsulları üzrə istehsal 2 dəfədən 7 dəfə arasında artmışdır.

Zənnimizcə, hökumət səviyyəsində rəqabət qabiliyyəti üzrə milli orqanın təsis edilməsi əhəmiyyətli olardı. Onun vəzifələrinə müxtəlif istehsalçı qrupların ixrac maraqlarının uyğunlaşdırılması, ixrac siyasətinin iqtisadiyyatın struktur islahatları və konversiya ilə əlaqələndirilməsi, xarici bazarlarda strateji sahələrin fəaliyyətinin müdafiə etdirilməsi və kiçik biznesin ixrac aktivliyinin stimullaşdırılması kimi məsələlər daxil edilə bilər.

Xarici iqtisadi fəaliyyətdə iştirak edən müəssisələrin informasiya himayəsinə götürülməsi, satış bazarı və investisiyalar, partnyorlar və rəqiblər, layihələr və təkliflər haqqında operativ informasiya daşıyıcılarının – telekommunikasiya şəbəkələri və məlumat banklarının inkişaf etdirilməsi məsələləri hökümətin diqqət mərkəzində olmalıdır.

Mövcud potensialdan istifadənin yaxşılaşdırılması, daxili və xarici bazarların tələbatının ödə-

downloaded from KitabYurdu.org

nilməsi üçün yerli xammal resursları əsasında yeni istehsalların yaradılması bu sahələrin inkişafının strateji istiqamətlərindən hesab olunurdu. Aktual vəzifə isə məhsulun keyfiyyəti və onun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, həmçinin mütərəqqi texnologiyaların tətbiqi və xarici kapitalın iştirakı ilə yeni, o cümlədən müştərək müəssisələrin yaradılması əsasında dünya bazarına çıxmaqdan ibarətdir.

Beləliklə, bu qənaətə gəlirik ki, dövlətin maliyyə imkanlarının son dərəcədə məhdud olması nəzərə alınmaqla, indiki vəziyyətdən rəqabət qabiliyyətinin yüksəldilməsinin stimullaşdırılması üzrə iqtisadi siyasət aşağıdakı tədbirlərin həyata keçirilməsinə yönəldilməlidir:

- kapital axını və resursların yenidən bölüşdürülməsi üçün əlverişli şəraitin yaradılması, həmçinin xüsusi mülkiyyətin toxunulmazlığının təmin edilməsi yolu ilə istehsala yönəldilən investisiyalara qarşı süni maneələrin aradan qaldırılması;

- gömrük siyasəti vasitəsi ilə sənayenin ayrı-ayrı sahələrində rəqabətin tədricən güclənməsini təmin edən və eyni zamanda onun dağıdıcı prosesə çevrilməsinin qarşısını alan optimal rəqabət rejiminin yaradılması;

- iqtisadi stimullar kompleksində ixrac yönümlü istehsalın stimullaşdırılması üçün perspektivdə xususi iqtisadi (ticarət) zonalarının yaradılması (bunun üçün respublikada zəruri ilkin şərtlər mövcuddur);



- ixrac yönümlü sahələrin rəqabət qabiliyyətinin möhkəmləndirilməsi üçün dövlət tərəfindən onlara güzəştli kreditlərin verilməsi, idxal olunan xammala və sənaye avadanlığına rüsumların ləğv edilməsi və yerli xammaldan istifadə edən firmalara maliyyə yardımları və güzəştlərin göstərilməsi;

- xarici bazarın genişləndirilməsi üçün yeni məhsulun yaradılması və ixrac yönümlü malların keyfiyyətlərinin yüksəldilməsinin stimulaşdırılması üzrə tədbirlərin işlənib hazırlanması, ixrac-idxal əməliyyatları üçün inzibati qaydaların asanlaşdırılması;

Bununla yanaşı, hesab edirik ki, perspektivli sənaye müəssisələrinin indiki ağır vəziyyəti nəzərə alınaraq, ilk dövrlərdə onların problemlərini yüngülləşdirmək məqsədi ilə aşağıdakı tədbirlərin həyata keçirilməsi də məqsədəuyğun olmalıdır.

Ümumiyyətlə, aparılan təhlillər göstərir ki, son illərdə respublikamızda iqtisadi potensialın regional baxımdan hərtərəfli inkişafının təmin edilməsi və yekun nəticədə iqtisadiyyatın, xüsusilə də qeyri-neft sektorunun dinamik inkişafına yönəldilmiş tədbirlərin əlaqələndirilmiş şəkildə reallaşdırılması əsasında regionların müxtəlif makroiqtisadi göstəriciləri üzrə xüsusi çəkisinin artması, sahibkarlıq fəaliyyətinin daha da sürətləndirilməsi, yerli istehsal və emal müəssələrinin fəaliyyətinin bərpası və genişləndirilməsi, iqtisadi və sosial mədəni infrastuktur obyektlərinin yaradılması və yenidən qurulması, regionlarda yoxsulluğun azaldılması, yüksək məşğulluq səvviyyəsinin

downloaded from KitabYurdu.org

təmin edilməsi istiqamətlərində mühüm nailiyyətlər əldə edilmişdir.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və ölkə başçısı İlham Əliyev tərəfindən davam etdirilən iqtisadi müstəqillik strategiyasına uyğun olaraq aparılan struktur islahatları, iqtisadiyyatın beynəlxalq iqtisadi münasibətlərə və təsərrüfat əlaqələrinə uğurla inteqrasiyası Naxçıvan Muxtar Respublikasında da sosial iqtisadi inkişafın dinamik artımına səbəb olmuş, bütün iqtisadi fəaliyyət sahələrinin inkişafına etibarlı zəmin yaratmışdır.

Son illərdə olduğu kimi 2007-ci ildə muxtar respublikanın iqtisadi həyatında xüsusi mərhələyə çevrilmişdir. Aparılan təhlillər göstərir ki, 2007-ci ildə də sosial iqtisadi sahələrdə irəliləyişlər davamlı xarakter almışdır.

Muxtar respublikanın inzibati ərazi bölgüləri üzrə mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixrac yönümlü məhsulların istehsalının stimullaşdırılmasına və s. müəssisələr də daxil olmaqla bütövlükdə iqtisadiyyatın dinamik inkişafına nail olunmuşdur. Son illər bütün ölkədə olduğu kimi Naxçıvan MR-da da investisiya prosesləri nəzərə çarpacaq dərəcədə canlanmışdır. Bu isə ümumi daxili məhsulun artmasına müsbət təsir göstərmişdir. Təkcə bir faktı göstərmək kifayətdir ki, 2006-cı ildə 2005-ci ilə nisbətən əsas kapitala yönəldilən investisiyalar 52,1


faiz artmışdır. Bu vəsaitin isə əsas hissəsi istehsal təyinatlı obyektlərə yönəldilmişdir. Bu proses 2007-ci ildə də davam etmişdir. Belə ki, 2006-cı ilə nisbətən 2007-ci ildə sənaye məhsullarının həcmi 66 faiz artmışdır. Həmin ildə respublikada istehsal olunan sənaye məhsullarının say tərkibi 192-yə çatmışdır.

Sənaye sahəsində əsas istiqamət bu müəssisələrin fəaliyyətinin bərpasına və yeni müəssisələrin yaradılmasına yönəldilmişdir. 2007-ci ildə muxtar respublikada təsərrüfat subyektlərinin fəaliyyətini gücləndirmək məqsədi ilə dövlət maliyyə kredit təşkilatları tərəfindən sənaye sahibkarlığının inkişafına 6,6 milyon manat kredit verilmişdir.

2007-ci ildə də muxtar respublikanın investisiya siyasəti davam etdirilərək dövlət investiyalarının proporsional qaydada yerli istehsal potensialının gücləndirilməsinə yönəldilməsi əsas istiqamət olaraq qalmaqdadır. 2007-ci il ərzində bütün maliyyə mənbələrindən əsas kapitala 259,5 milyon ABŞ dolları həcmində investisiya yönəldilmişdir ki, bu da 2006-cı ildəki göstəricidən 16,3 faiz çoxdur. Qeyd etmək lazımdır ki, bazar münasibətlərinə keçidin təmin edilməsinə yönəldilmiş kompleks tədbirlər arasında iqtisadiyyatda və ilk növbədə sənayedə struktur islahatların aparılması məsələsi mühüm yer tutur. Bu da öz növbəsində iqtisadi müstəqilliyin təmin edilməsində əsas rol oynayır.

Məlumat üçün göstərmək olar ki, 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması yalnız iqtisadi əhəmiyyət daşımır. Bağlanmış müqavilələrin əhəmiy-

downloaded from KitabYurdu.org

yəti həm də onunla müəyyən edilir ki, bu kontraklar Azərbaycanın beynəlxalq iqtisadi əməkdaşlıq sisteminə qoşulmasını təmin etdi və ölkənin geosiyası mövqeyinin möhkəmləndirilməsində mühüm rol oynadı.

1990-cı illərin ortalarından başlayaraq Azərbaycanda aparılan iqtisadi islahatların ən mühüm istiqamətlərindən biri də dövlət mülkiyyətinin özəlləşdirilməsi olmuşdur. Bu proses 1995-ci il sentyabrın 29-da «1995-1998-ci illərdə Azərbaycan Respublikasında Dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı» qəbul edildikdən sonra başlanmışdır.

2001-ci il yanvarın 1-nə qədər bütövlükdə ölkədə 32395 müəssisə və obyekt özəlləşdirilmişdir ki, bunun da 605-i sənaye müəssisələrinin payına düşmüşdür. Naxçıvan Muxtar Respublikasının timsalında araşdırmalar göstərir ki, özəlləşdirmə prosesləri başlayandan 2004-cü il yanvarın 1-i vəziyyətinə ümumi dəyəri 11,6 milyard manat olan müəssisə, obyekt və avadanlıqlar özəlləşdirilmişdir.

Muxtar respublikada təkcə 2003-cü ildə ümumi dəyəri 0,6 milyard manat olan 240 kiçik müəssisə və obyekt özəlləşdirilmişdir ki, bunun da 2-si sənaye müəssisəsi, 201-i nəqliyyat vasitələri, 1-i ticarət, 2-si ictimai iaşə, 1-i kommunal təsərrüfatı, 33-ü isə digər obyektlər olmuşdur.

Özəlləşdirmə haqqında Dövlət Proqramının ikinci mərhələsində əsas məqsəd iri və orta sənaye müəssisələrinin özəlləşdirilməsi olmuşdur. 2004-cü il



1 yanvar vəziyyətinə 25 iri və orta sənaye müəssisəsı səhmdar cəmiyyətə çevrilmişdir.

Muxtar respublika büdcəsinə özəlləşdirmə prosesləri başlayandan 1 yanvar 2004-cü il tarixinə kimi dövlət müəssisələrinin özəlləşdirilməsindən 7,7 milyard manat, o cümlədən özəlləşdirilmiş dövlət müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin özəlləşdirilməsindən 0,3 milyard manat vəsait daxil olmuşdur (42.s.55-56).

Ölkəmiz öz müstəqilliyini əldə etdikdən sonra mülkiyyət çoxnövçülüyü yaranmış və özəl sektor inkişaf etməyə başlamışdır. Bu özünü regionlarda da büruzə vermişdir. Muxtar respublika iqtisadiyyatının başqa sahələrində olduğu kimi sənaye sahəsində də qeyri-dövlət sektorunun payı ildən-ilə artır. Belə ki, 2007-ci ildə muxtar respublikada sənayenin dövlət sektorunda 28,7 milyon manatlıq, qeyri-dövlət sektorunda isə 73,5 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir. 2006-cı ilə nisbətən məhsul istehsalı dövlət sektorunda 2,5 dəfə, qeyri-dövlət sektorunda isə 38,8 faiz artmışdır. Muxtar respublikada qeyri-dövlət sektoru dövlət sektoruna nisbətən özünün xüsusi çəkisini saxlamaqla ildən-ilə artmaqda davam etməkdədir. Bunu aşağıdakı cədvəl məlumatları daha aydın göstərir.

Azərbaycanın səkkiz iqtisadi rayonu üzrə aparılan təhlil göstərir ki, Naxçıvan iqtisadi rayonu sənaye məhsulunun həcmində qeyri-dövlət sektoru 71,8 faiz xüsusi çəkiyə malikdir. Naxçıvan iqtisadi

downloaded from KitabYurdu.org

Cədvəl 4

**Sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi**

| İqtisadi rayonlar | Faiz |
|---|---|
| Naxçıvan | 71,8 |
| Abşeron | 30,1 |
| Gəncə-Qazax | 31,5 |
| Şəki-Zaqatala | 28,4 |
| Lənkəran | 47,9 |
| Quba –Xaçmaz | 32,1 |
| Aran | 41,2 |
| Dağlıq-Şirvan | 68,5 |

rayonundan sonra ikinci yeri Dağlıq-Şirvan iqtisadi rayonu tutur ki, bu rayonda qeyri-dövlət sektorunun xüsusi çəkisi 68,5 faiz təşkil edir. Sonrakı yerləri Lənkəran 47,9 faiz, Aran 41,2 faiz, Quba-Xaçmaz 32,1 faiz, Gəncə-Qazax 31,5 faiz, Abşeron 30,1 faiz, Şəki-Zaqatala 28,4 faiz xüsusi çəki ilə axrıncı yerlə kifayətlənir.

Ümumiyyətlə, aparılan təhlillər və araşdırmalardan bu qənaətə gəlmək olar ki, ölkə sənayesinin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirərkən yadda saxlamaq lazımdır ki, hazırda keçid dövründə yaşayan bu sahə sosialist təsərrüfatı bazasında yaradılmışdı. Odur ki, yaranmaqda olan rəqabətli bazar münasibətlərinə hələ uzun müddət, onilliklərlə təşəkkül tapmış təsərrüfatçılıq ənənələri təsir göstərəcəkdir.

downloaded from KitabYurdu.org

# III F Ə S İ L

## AQRAR SEKTORUN İQTİSADİYYATI VƏ İNKİŞAFINI TƏMİN EDƏN AMİLLƏR

### *3.1. Naxçıvan aqrar islahatların beşiyidir*

Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən, xüsusən də 1993-cü il siyasi dönəmindən sonra ölkənin siyasi və iqtisadi sferalarını yeni şəraitə uyğunlaşdırmaq üçün qlobal və radikal islahatlar həyata keçirilməyə başlandı. Torpaq islahatları bu islahatlar arasında öz xüsusi və müstəsna mövqeyi ilə seçilir.

1993-cü ildə yenidən Azərbaycanda hakimiyyət başına gələn Ümummilli Liderimiz Heydər Əliyev köklü islahatlara başladı. Bu sırada aqrar islahatlara xüsusi əhəmiyyət verən ümummilli liderimizin şəxsi qayğısı sayəsində bu islahatlar uğurla həyata keçirildi.

Qeyd edək ki, aqrar islahatlar respublikamızda ilk dəfə olaraq Naxçıvan MR-da həyata keçirilməyə başlamışdır. Elə buna görə də təsadüfi deyil ki, Naxçıvanı aqrar islahatların beşiyi adlandırırlar.

Naxçıvan MR-da aqrar islahatlar hələ Ulu Öndərimiz Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsində işlədiyi dövrlərdən başlanmışdır. Ali Məclisin 1992-ci il aprel sessiyasında «Naxçıvan MR-da zərərlə işləyən kolxoz və sovxozlar haqqında» və



«Rentabelli işləməyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında» qəbul edilmiş qərarlar burada islahatların aparılmasının təməlini qoymuşdur. O zaman bu qərarların misilsiz əhəmiyyəti oldu. Qəbul edilmiş həmin qərarlardan sonra təsərrüfatlarda olan mal-qara bütünlükdə özəlləşdirilərək əhaliyə verildi və bu, o zamankı ağır şəraitdə mal-qaranın tələf olmasının və kütləvi qırılmasının qarşısını aldı, mal-qara itirilmədi, salamat saxlanıldı.

Bunu xüsusilə qeyd etməyi vacib bilirik ki, əsası 1992-ci ildə qoyulmuş bu ənənə sonralar da davam etdirilmiş, aqrar islahatların aparılmasına gündəlik qayğı göstərilmiş, ona bilavasitə rəhbərlik edilmişdir.

Respublikamızda bir sıra digər məsələlər kimi torpaq islahatlarının həyata keçirilməsi ulu öndər H.Əliyevin adı ilə bağlıdır.

Hələ 1992-ci ilin əvvəllərində Naxçıvan MR-da Heydər Əliyevin rəhbərliyi altında Culfa rayonunun Şurut və Gal kəndlərində torpaq islahatları həyata keçirildi. Lakin təəssüf ki, ulu öndərimizin atdığı bu mütərəqqi addım Azərbaycanın o zamankı rəhbərliyi tərəfindən qısqanclıq hissi ilə qarşılanaraq qəbul edilmədi. Yalnız 1993-cü ildən sonra Azərbaycanda bu sahədə əməli iş görülməyə başlandı.

Respublikada 1996-cı ildən torpaq islahatı aparılır. Bu islahatı aparmaq üçün yenə də H.Əliyevin təşəbbüsü ilə torpaq islahatı proqramı hazırlandı və bu proqram əsasında torpaq islahatını təmin edən onun hüquqi bazası yaradıldı. Torpaq

downloaded from KitabYurdu.org

Məcəlləsi də daxil olmaqla qəbul edilmiş 40-a qədər qanun və digər hüquqi normativ aktlar respublikamızda torpaq islahatlarına əsaslı zəmin yaratdı. Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisin müzakirəsinə verilmiş «Torpaq islahatı haqqında» Azərbaycan Respublikası Qanununun 1996-cı ilin 16 iyulunda qəbul edilməsi və 13 avqust 1996-cı ildə həmin qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə respublikada torpaq islahatlarının həyata keçirilməsi prosesi başlanmış oldu. Bundan sonra «Torpaq vergisi haqqında», «Torpaq icarəsi haqqında», «Torpaq bazarı haqqında», «Torpaq kadastrı, monitorinqi və yerquruluşu haqqında» Azərbaycan Respublikası qanunları, Azərbaycan Respublikası «Torpaq Məcəlləsi» «Aqrar islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı və digər 40-dan artıq fərman və hüquqi-normativ aktların qəbul olunması ilə torpaq islahatlarının möhkəm hüquqi bazası yarandı. Bu sahədə qanunvericilik və onun icrası prosesi indi də davam edir.

Qeyd edək ki, Heydər Əliyevin torpaq islahatları MDB məkanında analoqu olmayan bir prosesdir. Respublikanın kənd təsərrüfatının inkişafında mühüm nailiyyətlər əldə edilməsinə səbəb olan bu islahatların digər dövlətlərdə həyata keçirilən analoji islahatlardan 3 mühüm fərqini göstərmək olar.

Birincisi, Azərbaycanda torpaq ulu öndərin təşəbbüsü ilə vətəndaşlara pulsuz olaraq əvəzsiz ve-



rilir. Nəticədə 3 milyon 300 mindən çox insan torpaq mülkiyyətçisinə çevrilir. Bu isə güclü mülkiyyətçilər sinfi yaratmaqla yeni torpaq əkinçi münasibətləri formalaşdırır, torpaqdan səmərəli və məhsuldar istifadəetməni şərtləndirir, torpağa qayğı və doğma münasibəti zəruri edir.

İkincisi, torpaqların ən yararlısı və keyfiyyətlisi özəlləşdirilir. Başqa sözlə, MDB məkanının digər ölkələrindən fərqli olaraq, vətəndaşa yararsız və ya az yararlı torpaqlar deyil, keçmiş kolxoz və sovxozların ən yararlı və münbit torpaqları verilir. Eyni zamanda, Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinə öz mülkiyyətlərindəki torpaq sahələri üzərində müstəsna hüquqlar, alqı-satqı, bağışlama, icarəyə və ya istifadəyə vermə, vərəsəlik, girov qoyma və s. kimi hüquqlar verilir ki, bu da Azərbaycanda torpaq islahatlarının keçmiş SSRİ-nin digər respublikalarında olduğu kimi formal deyil, əsaslı zəmində və fundamental şəkildə həyata keçirildiyini sübut edir.

Üçüncüsü, respublikamızın ərazisində yaşayan bütün vətəndaşlara harada yaşamasından və kimliyindən asılı olmayaraq, torpaqlardan istifadə və icarə hüququ verilir, eyni zamanda, Azərbaycanın hər bir vətəndaşı torpaq alqı-satqısı prosesində, torpaqla bağlı müxtəlif müqavilə və əqdlərin bağlanmasında iştirak edə bilər. Başqa sözlə, əmlakçısına çevrilmiş 3 milyon 300 min nəfər subyektdən başqa respublika əhalisinin yerdə qalan hissəsi də torpaq-vətəndaş münasibətlərindən kənarlaşdırılmır. Hər bir Azərbaycan

downloaded from KitabYurdu.org

vətəndaşı respublikamızda formalaşan torpaqla bağlı yeni mülkiyyət münasibətlərində birbaşa iştirak edə bilir.

Xüsusilə qeyd etmək lazımdır ki, məhz Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda ölkə vətəndaşı olmayan fiziki və hüquqi şəxslərə torpağa mülkiyyətçilik hüququ verilməmişdir ki, bu da nəinki mühüm iqtisadi, həmçinin ciddi siyasi əhəmiyyət daşıyır.

Torpaq islahatlarından söhbət gedərkən belə bir vacib məsələni də qeyd etmək yerinə düşər. Respublikamızda adambaşına 0,18 hektar torpaq sahəsi düşdüyündən Azərbaycan aztorpaqlı ölkələr siyahısına daxil edilir. Belə vəziyyət həm də torpaqlardan istifadəyə və onların mühafizəsinə ciddi nəzarət tələb edir. Ona görə də mülkiyyət növündən asılı olmayaraq bütün dövrlərdə torpaqlara qayğı çox aktual bir məsələ kimi qarşıda durmuşdur. Məlumdur ki, sərbəst və münbit torpaq sahələri ilbəil tikintilər, yollar, kanallar, qurğular altına salınması, habelə digər amillərin təsiri nəticəsində azalır və bunun əksinə olaraq əhalinin sayı isə ildən-ilə artır. Belə olan halda torpaqların mühafizəsinin hüquqi-normativ sənədlər əsasında tənzimlənməsi zərurəti ortaya çıxır.

Aqrar islahatlarla bağlı Ümummilli liderimizin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilmiş bir sıra qanunlar və normativ aktlarla yanaşı «Torpaqlardan istifadəyə və onların mühafizəsinə Dövlət nəzarəti haqqında Əsasnamənin təsdiq edilməsi barədə» verdiyi Fərman aparılan aqrar siyasətin yeni təzahürü


kimi qiymətləndirilməlidir. Bu Fərman tarixi bir zərurət kimi respublikada torpaq ehtiyatlarının azlığı, müxtəlif amillərin təsiri nəticəsində münbit torpaqların azalması, əhalinin ilbəil artması və digər səbəblər üzündən verilmişdir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Azərbaycanda həyata keçirilən torpaq islahatları aqrar sahənin inkişafına, ölkə iqtisadiyyatının bazar iqtisadiyyatı şəraitinə uyğunlaşdırılaraq inkişaf etdirilməsinə, kənd təsərrüfatı məhsullarının istehsalında ciddi dönüş yaradılması ilə bərabər torpaqdan səmərəli istifadənin, torpaq münbitliyinin və ekoloji təmizliyinin qorunmasının təşkilində, habelə əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında və nəhayət torpağın əsl sahiblərinə verilməsində mühüm addım oldu.

Bir məsələni xüsusi xatırlamaq yerinə düşər ki, Ümummilli liderimiz Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri seçildiyi gündən iqtisadi islahatların işlənib hazırlanmasını və ardıcıllıqla həyata keçirilməsini öz fəaliyyətinin əsas amalı hesab etmişdir. Ona görə də o bütün inkişaf etmiş dünya ölkələrinin keçdiyi yolu təhlil edərək belə bir nəticəyə gəlmişdir ki, nicat yolu yalnız ictimai təsərrüfatları ləğv etmək və onları xüsusi mülkiyyətə çevirməkdən ibarətdir. Ulu öndərimiz iqtisadiyyatın başqa sahələrində olduğu kimi kənd təsərrüfatının da perspektiv inkişafını məhz islahatların aparılmasında görürdü. Tarix göstərdi ki, o, öz seçimində yanılmamışdır.

Ümummilli liderimiz Heydər Əliyev Naxçıvan MR-nın 75 illiyi münasibətilə keçirilən yubiley təntə-

downloaded from KitabYurdu.org

nələrində çıxış edərək demişdir: «İndi deyəndə ki, ət, süd, yağ, pendir artıqlaması ilə istehsal olunur, başına qalıb, satmağa imkan yoxdur, çünki çıxarıb başqa yerdə satmaq mümkün deyildir, mən buna nə qədər sevinirəm. Nə qədər sevinirəm ki, o vaxt biz özəlləşdirməni Azərbaycanın hər yerindən tez başladıq və Naxçıvan bu işlərə hamıdan qabaq nail oldu. Muxtar Respublikanın o qara günləri qurtardı».

2001-ci ildə muxtar respublikanın 201 kəndində torpaq islahatı başa çatmışdır. 74 min 538 ailənin və ya 246 min 902 nəfərin xüsusi mülkiyyətinə 55 min 92 hektar torpaq sahəsi verilmişdir. «Torpaq mülkiyyəti hüququna dair» Dövlət aktları hazırlanaraq 70 min 873 ailəyə (və ya 240 min 514 nəfərə) verilmişdir ki, bu da xüsusi mülkiyyətinə torpaq sahəsi verilmiş ailələrin 99,2 faizi deməkdir. Muxtar respublika üzrə orta hesabla hər ailəyə 7 min 400 kvadratmetr, hər nəfərə isə 2 min 239 kvadratmetr torpaq sahəsi düşmüşdür.

Torpağın xüsusi mülkiyyətə verilməsi ilə aqrar sahədə əmlakın özəlləşdirilməsi də başa çatdırılmışdır. İslahat aparılmış təsərrüfatlarda əmlakın ümumi dəyəri 80 milyard 189 milyon manat olmuş, bundan bələdiyyə mülkiyyətinə 64 milyard 973 milyon manat, xüsusi mülkiyyətə 15 milyard 216 milyon manat dəyərində əmlak özəlləşdirilib verilmişdir.

Hesabat ilində vətəndaşların qanuni istifadəsindəki (fərdi yaşayış evlərinin, həyətyanı sahələrinin, fərdi, kollektiv bağların) torpaqların onların mülkiyyətinə verilməsinə dair Şəhadətnamələrin hazırlanması və qeydiyyatın həyata keçirilməsi işləri davam etdirilmişdir.



1 yanvar 2002-ci il tarixə Naxçıvan MR-in Şərur rayonu üzrə 23 min 971 ailəyə, Babək rayonu üzrə 10 min 860 ailəyə, Ordubad rayonu üzrə 4 min 575 ailəyə, Culfa rayonu üzrə 7 min 854 ailəyə, Şahbuz rayonu üzrə 4 min 118 ailəyə və Naxçıvan şəhəri üzrə 31 ailəyə – cəmi MR üzrə 51 min 409 ailəyə «Torpağın mülkiyyətə verilməsinə dair» Şəhadətnamələr hazırlanmışdır. Bu, nəzərdə tutulan Şəhadətnamələrin 71,9 fazini təşkil edir. Hazırda bu iş davam edir. İlin sonunadək MR-nın 30 min hektar qış otlaq sahəsində inventarizasiya işləri aparılmış, qışlaqların istifadə vəziyyəti dəqiqləşdirilmişdir.

Aqrar islahatların həyata keçirilməsi öz bəhrəsini vermiş, kənd təsərrüfatı məhsullarının artımı meyli xeyli güclənmişdir.

Əgər 2000-ci ildə kənd təsərrüfatında istehsal olunan məhsulun 99,8 faizi özəl sektorun payına düşürdüsə, 2001-ci ildə kənd təsərrüfatı məhsullarının hamısı özəl sektorda istehsal edilmişdir.

İqtisadi təhlil göstərir ki, muxtar respublikada həyata keçirilən islahatlar aqrar-sənaye potensialından səmərəli istifadə edilməsi üçün zəmin yaratmışdır. İslahatların müsbət nəticələri göz qabağındadır. Muxtar respublikada təkcə 2003-cü ildə 359,1 milyard manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir. Bu isə 1998-ci illə müqayisədə 42, 9 faiz, 1999-cu illə müqayisədə 51,3 faiz, 2000-ci illə müqa-

downloaded from KitabYurdu.org

yisədə 29,6 faiz, 2001-ci illə müqayisədə 11,7 faiz çoxdur.

2003-cü ildə bütün təsərrüfat kateqoriyaları üzrə 81,4 min ton taxıl, 14,2 min ton kartof, 53,4 min ton tərəvəz, 41,7 min ton bostan məhsulları, 28,6 min ton meyvə və giləmeyvə və 129 min ton şəkər çuğunduru istehsal edilmişdir.

Naxçıvan MR Dövlət Statistika Komitəsinin verdiyi məlumatlardan aydın olur ki, kənd təsərrüfatının başqa sahələrində olduğu kimi heyvandarlıq sahəsində də çox böyük irəliləyiş vardır. Muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın, qoyun və keçilərin sayı islahatlardan sonra ilbəil artmağa doğru gedir.

Mal-qaranın baş sayının artması MR-da bütövlükdə əsas heyvandarlıq məhsullarının istehsalına və adambaşına düşən istehsala öz təsirini göstərmişdir.

Statistik materialların təhlili göstərir ki, 2003-cü ildə 1993-cü illə müqayisədə ət istehsalı 77, 5 faiz, süd istehsalı 3 dəfədən çox, yumurta istehsalı isə 48,3 faiz artmışdır.

Artıq bəzi məhsullar üzrə ölkənin ərzaq təhlükəsizliyi təmin edilmişdir. Ərzaq təhlükəsizliyi proqramının həyata keçirilməsinin əsas ağırlığı aqrar sektorun üzərinə düşür. Məhz bu sektorda son illər həyata keçirilən köklü islahatlar Azərbaycanda aqrar sahənin inkişaf etməsinə, iqtisadiyyatın ziyanla işləyən bir hissəsindən aparıcı sahəyə çevrilməsinə şərait yaratmışdır.



Muxtar respublikada digər sahələrlə yanaşı aqrar sektorun inkişaf etdirilməsinə xüsusi önəm verilməsi heç də təsadüfi deyildir. Bu baxımdan tikintisinə 1983-cü ildə başlanılmış və sonradan məlum səbəblər üzündən yarımçıq qalmış, yalnız Ümummilli Liderimiz Heydər Əliyevin 2002-ci ildə Naxçıvana səfərindən sonra tikinti işləri bərpa olunmuş Vayxır su anbarında aparılan inşaat işlərinin Dövlət Proqramına uyğun olaraq 2005-ci ilin sonuna kimi başa çatdırılmasının nəzərdə tutulması olduqca əhəmiyyətlidir. İstismara verildikdən sonra 16800 hektar əkin sahəsinin suvarılmasını təmin edəcək su anbarı Naxçıvanda kənd təsərrüfatının daha intensiv inkişafına təkan verəcək və bununla da əhalinin məşğulluğunun artırılmasında, həyat səviyyəsinin yaxşılaşmasında ciddi dönüş yaranmasına səbəb olacaqdır.

Bu gün artıq ölkə iqtisadiyyatının mühüm sahəsinə çevrilmiş aqrar bölmədə aparılan islahatların, xüsusən də onun mühüm tərkib hissəsi olan torpaq islahatlarının parlaq nəticələri göz qabağındadır.

Aparılan islahatlar nəticəsində son illər aqrar sektor xeyli güclənmiş və nəinki respublikanın daxili ehtiyatlarını tam ödəmək, hətta bir sıra kənd təsərrüfatı məhsulları ixrac etmək qabiliyyəti əldə etmişdir

Aqrar sahədə dövlət mülkiyyəti əsasında bazar tələblərinə uyğun yeni təsərrüfatçılıq formalarının yaradılmasına, kolxoz və sovxozların torpaq və əmlakının iddiaçılar arasında bölüşdürülməsinə, daxili bazarın yenidən qurulması və xarici investisiyaların bu sahəyə cəlb edilməsinə, kənd təsərrüfatı məhsulları is-

downloaded from KitabYurdu.org

tehsalını stimullaşdıran qiymət, vergi və kredit mexanizmlərinin tətbiqinə cəhdlər göstərilmişdi. Nəticədə artıq 1996 – cı ilin sonuna kolxoz və sovxozlar tamamilə ləğv olunmuş, onların malik olduğu torpaq sahələri və əmlak kəndlilər arasında bölüşdürülmüşdü. İslahatların birinci mərhələsinin başa çatması sayılacaq bu dövrdə respublikada fəaliyyət göstərən 5605 kənd təsərrüfatı müəssisənin 86, 5%-i özəl müəssisə, onların 76,8%-i kəndli-fermer təsərrüfatlarından ibarət idi.

Aqrar islahatların həyata keçirilməsi Azərbaycanda bu gün mövcud olan aqrar əhali artıqlığını aradan qaldırmalı, kənd əhalisinin gəlirlərini artırmaqla onların yoxsulluq səviyyəsini azaltmalı, özəl təsərrüfat subyektlərinin kəndin sosial infrastrukturunun inkişafına vəsait qoymasına imkan yaratmalı idi.

1997-ci ilin əvvəlindən başlayan ikinci mərhələdə isə mövcud olan dövlət və kollektiv kənd təsərrüfatı müəssisələrinin daha sürətlə özəlləşdirilməsi ilə müşayiət olunmuşdur. Əsaslı islahatların gedişində bütövlükdə aqrar bölmənin, həmçinin onun müxtəlif sahələrinin qarşılıqlı əlaqələrinin bazar mexanizmləri əsasında yenidən qurulması sürətləndirilmişdir.

Hazırda kənd təsərrüfatı istehsalçıları və emal müəssisələri arasında əlaqələrin gücləndirilməsi kooperasiyaya əsaslanan səhmdar cəmiyyətlərinin, istehsal kooperativlərinin yaradılması yolu ilə həyata keçirilə bilər. Kəndli təsərrüfatları və istehsal kooperativləri, aqroservis xidmətləri, ilkin və təkrar emal müəssisələrinin öz hüquqi müstəqilliyini saxlamaqla şaquli kooperasiya əlaqələri ilə birləşən yeni aqrar – sənaye kooperativləri yaratması da kifayət qədər aktualdır.



Aqrar islahatların ən mühüm nəticələrindən biri dövlət mülkiyyəti ləğv edilərkən onun respublika və bələdiyyə mülkiyyətinə ayrılmasıdır. Bələdiyyələr yerli idarəçiliyin daha mütərəqqi və demokratik forması olsa da bu imkanlardan bütün rayonlarda tam istifadə olunmur.

Bütövlükdə ölkədə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan MR-da aparılın aqrar islahatlar kənd təsərrüfatının inkişafında mühüm rol oynamışdır. Fikirimizcə, aqrar islahatların ölkə iqtisadiyyatına təsir dairəsi müəyyənləşdirilərkən onun ilkin nəticələrini aşağıdakı kimi qiymətləndirmək olar:

- Aqrar sahənin bazar iqtisadiyyatı münasibətlərinə uyğun qanunvericilik bazası yaradılmışdır və bu proses ardıcıl davam edir;
- iqtisadi böhranın qarşısı alınıb, 1996-cı ildən başlayaraq kənd təsərrüfatı məhsulları istehsalında yüksək artım yaranıb;
- aqrar bölmədə tam bazar iqtisadiyyatına keçmiş mülkiyyətçilər yaranıb, sahibkarlar formalaşıb;
- ölkənin kənd təsərrüfatı məhsullarının 99%-i özəl bölmədə istehsal olunur;
- əvvəlki illərdən fərqli olaraq, bazarın tələbi əsasında istehsalın yeni quruluşu formalaşmağa başlayıb.

downloaded from KitabYurdu.org

Torpaqların özəlləşdirilməsi nəticəsində son illərdə kənd təsərrüfatında müəyyən uğurlar əldə edilsə də bu sahələrin becərilməsində kifayət qədər problemlər qalmaqdadır. Belə ki, özəlləşdirilən torpaqların sahəsi çox da böyük olmadığından (hər ailəyə orta hesabla 1, 6 ha) belə xırda sahələrdə mexanizasiyanın və yeni texnologiyaların tətbiqi baha başa gəlir. Kiçik ərazilərə bölünmüş sahələrin sərhədlərində xeyli istifadəsiz ərazilər qalır, bir torpaq payından digərinə keçmək, müasir su və drenaj sistemi çəkmək çətin olur. Eyni zamanda, ayrılmış torpaq payının eni, uzunu kimi parametrləri də müasir tələblərə cavab vermir. Buna görə də hesab edirik ki, torpaq mülkiyyətçilərinin kooperasiya əlaqələrinin formalaşdırılması və inkişafı stimullaşdırılmalı, torpaq sahələrinin ölçüləri nəzərə alınmaqla onların kooperativ birlikləri yaradılmalıdır. Bu məsələdə inkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsi və nəzərə alınması çox vacibdir. Belə kooperativ və ya birliklər yeni maşın və avadanlıqlar almaq və texnologiyalar tətbiq etmək, istehsal və emal xərclərini azaltmaq, daxili və xarici bazara çıxmaq üçün daha geniş imkanlara malik olacaqdır.

Son illərdə respublikanın kənd təsərrüfatında narahatlıq doğuran problemlərdən biri də bir sıra strateji məhsul növləri (məsələn, pambıq, tütün, üzüm, çay və s.) becərilən əkin sahələrinin kəskin surətdə azalmasıdır. Kənd rayonlarında torpaqların əksəriyyətinin özəlləşdirilməsi ilə burada əkiləcək bitki növünün seçilməsi fermerlərin ixtiyarına veril-



miş, faktiki olaraq yuxarıda göstərilən bitkiçilik məhsullarının becərilən xərclərinin çox yuxarı olması, kənd təsərrüfatı texnikasının yoxluğu, suvarma kanallarından, mineral gübrələrdən istifadənin bahalaşması, becərilmiş məhsullara satış məntəqələrində bir neçə il ərzində ardıcıl olaraq maya dəyərindən də aşağı qiymət qoyulması fermerləri müflisləşdirmişdir.

Respublika ərazisinin xeyli hissəsini dağlıq və dağətəyi ərazilər təşkil edir. Dağ rayonlarının joğrafi və təbii iqlim şəraiti burada heyvandarlığın inkişafına daha münasibdir, lakin burada otlaq və örüşlərdən istifadə mexanizmi tənzimlənmədiyindən müxtəlif rayonlar, kəndlər və ijmalar səviyyəsində vaxtaşırı ziddiyyətlər, konfliktlər yaranır. Həmçinin heyvandarlığın inkişafında baytarlıq xidmətindən, müxtəlif tibbi preparatlardan istifadə imkanları da hələ günün tələblərinə uyğun deyildir. Düzdür, son illər bu sahədə çox işlər görülmüşdür. 2006-cı ildə 97771 baş iribuynuzluda, 575251 baş xırdabuynuzluda, 1576 baş tək dırnaqlıda qarayara xəstəliyinə qarşı, 268293 baş xırdabuynuzluda çirək xəstəliyinə qarşı, 101705 baş cavan və 607800 baş yaşlı quş nyukası xəstəliyinə qarşı, 56758 baş iribuynuzlu emkar xəstəliyinə, 26209 baş xırdabuynuzlu brodzot xəstəliyi əleyhinə, habelə heyvanlarda brusselyoz və dabaq xəstəliyinə qarşı da peyvəndlər edilmişdir. Lakin gıorцlən işlər hələ günün tələbləri səviyyəsində deyildir. Naxçıvan MR Ali Məclisinin baytarlıq xidməti yaradılarkən onun qarşısına qoyduğu vəzifələr geniş təhlil edilməli və dönmədən yerinə yetirilməlidir.

downloaded from KitabYurdu.org

Dağ kəndlərində əhalinin yeganə gəlir mənbəyi maldarlıq olduğundan, son illərdə mal-qaranın sayı xeyli artmış, otlaq problemi və yem çatışmazlığı ortaya çıxmışdır.

Bütün baş verənləri nəzərə alaraq yaxın keçmişdə pambıq, üzüm, çay, tütün becərilən regionlarda bu məhsulların bərpasına başlanılmalı, fermerlər müvafiq aqrotexniki servis xidmətləri ilə təmin olunmalı, kənd təsərrüfatı maşın və avadanlıqlarının lizinqi ilə məşğul olan qurumların yaradılmasına yardım edilməlidir.

Qeyd etmək lazımdır ki, texniki xidmət sahəsində ölkə regionları içərisində Naxçıvan regionunda görülən işlər ürəkaçandır. Belə ki, son illərdə aqrar sektorda texniki xidməti həyata keçirən təsərrüfat subyektləri şəbəkəsinin yaradılması işi davam etdirilmişdir. «Naxçıvan Muxtar Respublikasında aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında» Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin 2005-ci il 28 yanvar tarixli sərəncamı ilə yaradılmış «Naxçıvan Aqrolizinq» Açıq Səhmdar Cəmiyyəti ona məxsus olan kənd təsərrüfatı texnikasının hüquqi вə fiziki şəxslərə lizinq verilməsi və ya müddətli satılması sahəsində səmərəli fəaliyyət göstərir. Bu işlərin davamı olaraq 2007-ci ildə «Haxçıvan Aqrolizinq» Açıq Səhmdar Cəmiyyəti tərəfindən əlavə olaraq 138 ədəd yeni texnika muxtar respublikaya gətirilmişdir.

Aqrar sahənin dövlət tənzimlənməsinə münasibət aqrar islahatların gedişinə, onun son nəticələrinə təsir edən əsas amillərdəndir. Belə ki, digər sahələr-



dən fərqli olaraq istər məhsul istehsalında və məhsul satışında, istərsə də artıq istehsal şəraitində aqrar sahənin dövlət himayəsi və yardımına ehtiyacı vardır. Burada dövlət tənzimlənməsi əsasən kənd təsərrüfatına olan tələb və təklifin stimullaşdırılması, kəndli-fermer təsərrüfatları və kooperativlərinin gəlirlə işləməsinin təmin olunması, infrastrukturun inkişafı, ətraf mühitin mühafizəsi və s. tədbirlərindən ibarətdir. Kənd təsərrüfatında iqtisadi və hüquqi fəaliyyətin bütün istiqamətlərini əhatə edən və onu tənzimləyən qanun və normativ aktların mövcudluğu da zəruri şərtlərdən biridir. Məhz belə qanunların əsasında kənd təsərrüfatının inkişafı, ayrı-ayrı kənd təsərrüfatı məhsullarının istehsalı və satışı müxtəlif iqtisadi mexanizmlər: vergi, kredit, büdcə təxsisatları, dotasiya və s. vasitəsilə stimullaşdırılır.

Yuxarıda qeyd edildiyi kimi, respublikamızda aqrar sahənin inkişafına dair xeyli qanunlar olmasına baxmayaraq, kənd təsərrüfatında aqrar islahatların daha da dərinləşməsi, kənd təsərrüfatı məhsulları istehsalının stabilliyinə və inkişafına nail olunması üçün bütöv bir iqtisadi mexanizm kimi fəaliyyəti təmin edən «Kənd təsərrüfatı istehsalının dövlət tənzimlənməsi haqqında» qanunun qəbul edilməsi də məqsədəuyğundur.

Aqrar bölmə ölkəmizdə və muxtar respublikamızda iqtisadiyyatın digər sahələrinin də inkişafına zəmin yaradan sahələrdən hesab olunur. Bu gün beynəlxalq münasibətlərin, eləcə də xarici iqtisadi əlaqələrin inkişafında bu sahənin əhəmiyyəti danılmazdır.

downloaded from KitabYurdu.org

Lakin Azərbaycanın müstəqillik əldə etdiyi ilk illərdə iqtisadiyyatın digər sahələri kimi aqrar sahə də dərin tənəzzülə uğramış, kənd təsərrüfatı məhsullarının, demək olar ki, hamısının istehsalı kəskin surətdə azalmış, həmin məhsulları emal edən sənaye müəssisələri də müvafiq olaraq ya işini dayandırmış, ya da istehsalı xeyli ixtisara salmağa məcbur olmuşdu.

Lakin Umummilli liderimiz H. Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı və ölkədə strateji xəttin müəyyən edilməsi başqa sahələr kimi kənd təsərrüfatına da öz müsbət təsirini göstərmişdir.

Kənddə radikal aqrar islahatların həyata keçirilməsi, xüsusən sovet quruluşu üçün ənənəvi təsərrüfat və idarəçilik forması olan sovxoz və kolxozların ləğvi, onlara məxsus torpaq, mal-qara və əmlakın özəlləşdirilməsi, kənd təsərrüfatı istehsalı sahəsində mərkəzi planlaşdırma sistemi və məhsul alışı üzrə dövlət sifarişinin ləğv edilməsi, məhsulun alış qiymətinin sərbəstləşdirilməsi və s. bu kimi köklü tədbirlər kənd təsərrüfatının sosial və iqtisadi inkişafına, həmçinin aqrar sahənin idarə olunma prinsiplərinə ciddi təsir göstərmişdir. Keçmiş kolxoz və sovxozların yerinə yeni özəl təsərrüfat formaları, fermer və digər sahibkar təsərrüfatları yaradılmışdır.

Kəndlərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi, aqrar sektorda çoxsaylı əmtəə istehsalçılarının formalaşması kənd təsərrüfatı məhsulları istehsalının qismən stabilləşməsinə şərait yaratmışdır. Belə ki, 1992-1995-ci illərdə kənd təsərrüfatında ümumi məhsul istehsalı hər il orta hesabla 12% aşağı düşdüyü



halda, 1996-cı ildən başlayaraq (1997-ci il istisna olmaqla) daim artmağa başlamışdır.

Naxçıvan MR iqtisadiyatında kənd təsərrüfatı mühüm yer tutduğundan bu sahəyə diqqət artır ki, bu da öz bəhrəsini verir. Son 17 ildə Muxtar Respublikada bitkiçilik məhsulları istehsalının dinamikası aşağıdakı cədvəldə verilib:

Cədvəl 5

**Naxçıvan MR-da bitkiçilik məhsulları istehsalı (min ton)**

| Bitkilərin adı | 1990 | 1993 | 1998 | 2000 | 2001 | 2002 | 2003 | 2005 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Taxıl | 32,2 | 20,0 | 55,2 | 54,4 | 63,1 | 73,7 | 81,4 | 93,2 | 81,6 |
| Şəkər çuğunduru | — | 1,5 | 39,1 | 45,5 | 41,3 | 115,8 | 129,0 | 23,5 | 19,0 |
| Kartof | 2,6 | 1,8 | 10,3 | 13,5 | 15,2 | 13,6 | 14,2 | 26,3 | 33,7 |
| Tərəvəz | 20,0 | 14,8 | 22,7 | 42,7 | 47,8 | 50,2 | 53,4 | 56,4 | 59,8 |
| Bostan məhsulları | 5,3 | 1,0 | 15,7 | 33,6 | 37,2 | 39,9 | 41,7 | 39,8 | 38,5 |
| Meyvə və giləmeyvə | 8,3 | 8,2 | 22,8 | 28,4 | 28,7 | 28,8 | 28,6 | 36,4 | 37,1 |
| Üzüm | 110,9 | 33,0 | 24,3 | 14,0 | 13,8 | 12,6 | 11,4 | 13,3 | 13,7 |

Cədvəl məlumatlarından aydın olur ki, üzümdən başqa digər bütün məhsullar цzrə 3-10 dəfə arasında artım mцşahidə olunmuşdur. Məhsuldarlıq xeyli artmışdır.

Mal-qaranın baş sayının dinamik artması heyvandarlıq məhsullarının istehsal həcmini artırmağa imkan vermişdir. Bunu aşağıdakı cədvəldən görmək olar.

downloaded from KitabYurdu.org

Cədvəl 6

**Naxçıvan MR-də əsas heyvandarlıq məhsullarının istehsalı (min ton)**

| Illər üzrə | 1990 | 1993 | 1998 | 2000 | 2001 | 2002 | 2003 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|
| Ət (kəsil-miş çə-kidə) | 7,1 | 4,0 | 4,6 | 5,3 | 6,4 | 6,9 | 7,1 | 16,0 |
| Süd | 30,7 | 17,0 | 47,7 | 54,2 | 55,3 | 58,9 | 59,5 | 70,0 |
| Yumurta (milyon ədəd) | 57,7 | 29,2 | 56,8 | 45,8 | 42,2 | 42,3 | 43,3 | 52,3 |

Cədvəl 6-dan aydın olur ki, 2007-ci ildə muxtar respublikada 16 min ton ət, 70 min ton süd və 52,3 min ədəd yumurta istehsal olunmuşdur ki, bu da 1993-cü illə müqayisədə ət 4 dəfə, süd 2,3 dəfə və yumurta üzrə isə 1,8 dəfə çoxdur. İribuynuzlu mal-qaranın sayı 1 yanvar 2008-ci ildə 94 min başa çatmişdır ki, bu da 1991-ci illə müqayisədə 1,5 dəfə çoxdur. Qoyun və keçilərin sayı isə həmin dövrdə 2,3 dəfəyə yaxın artmışdı.

Son illərdə muxtar respublikanın kənd təsərrüfatında əsaslı kapitala yönəldilən investisiyaların həcmi bir qədər artsa da bu məbləğ hələlik kənd təsərrüfatının problemlərini həll etmək iqtidarında deyildir.

Respublikada aparılan aqrar islahatlar 1995-ci ildən sonra daha da sürətlənmişdir. Qeyd etmək lazımdır ki, bu gün kənd təsərrüfatı məhsullarını emal edən müəssisələrin yaradılması, da sürətlə gedir.



Artıq muxtar respublikada aqrar sahənin müasir tələblərə cavab verən infrastrukturu təşəkkül tapmış və kənd təsərrüfatı müəssisələri arasında kooperasiya əlaqələrinin təşkili baş vermişdir

Bütün bu görülən tədbirlər nəticəsində kənd təsərrüfatı ilə emal sənayesi arasında sıx əlaqənin yaradılması nəticəsində bir çox qida məhsullarının xaricdən gətirilməsindən imtina edilmişdir.

Naxçıvan MR Ali Məclisi sədrinin birbaşa dəstəyi nəticəsində emal sənaye müəssisələrinin şəbəkəsi genişləndirilir. Xarici ölkələrdən gətirilən texnologiyalar əsasında yaradılmış müəssisələr nəinki yerli tələbatı ödəyir, hətta bu məhsullardan bir neçəsi xarici ölkələrə ixrac edilir.

Son illərin təhlili göstərir ki, istehsal olunan kənd təsərrüfatı məhsullarının maya dəyəri baha başa gəlir. Buna görə də dövlət kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq məqsədilə bir çox stimullaşdırıcı tədbirlər həyata keçirmişdir. «Kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyi haqqında» Azərbaycan Respublukası Prezidentinin müvafiq sərəncamına əsasən kənd təsərrüfatı məhsulları istehsalçılarına mineral gübrələrin güzəştlə satışı və hər hektara əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə 40 manat dövlət yardımının verilməsi ötən ilki məhsul bolluğunda, xususilə yığılan məhsulun məhsuldarlığında öz müsbət təsirini göstərmişdir. Ümumiyyətlə, götürsək muxtar respublikada əkinəyararlı torpaq sahələrinin məhdudluğu

downloaded from KitabYurdu.org

nəzərə alınmaqla bütün səylər məhsuldarlığın yüksəldilməsi istiqamətinə yonəldilir. İndi kənd təsərrüfatı maşınlarının, yanacağın, gübrənin və digər məhsulların qiyməti sürətlə bahalanmaqdadır.

Bütün bunlar onu göstərir ki, kənd təsərrüfatı məhsullarına məsrəflər onların satış qiymətlərindən daha sürətlə artmaqdadır və belə meyl respublikada fermer təsərrüfatlarının inkişafını ləngidən amil sayılmalıdır. Buna görə də kənd təsərrüfatı məhsulları istehsalına dövlət tərəfindən birbaşa yardımlar (subsidiyalar) verilməlidir. Hazırda bəzi xarici ölkələrdə aqrar sahənin xərclərinin yarıya qədəri, Finlandiyada 71%- i, Norveçdə 77% - i, İsveçdə 59% - i, Yaponiyada 66%-i, ABŞ-da 69% - i, Kanadada isə 73% - i dövlət subsidiyaları ilə ödənilir. Hesab edirəm ki, dünya təcrübəsi nəzərə alınaraq qarşıdakı illərdə ölkəmizdə bu məsələlərə xususi diqqət yetirilməlidir.

Hazırda aqrar siyasətin başlıca məqsədi ölkənin ərzaq təhlükəsizliyini təmin etməkdən ibarət olmaqla, həm də kənd yerlərində əhalinin yoxsul təbəqələrinin həyat şəraitini yaxşılaşdırmağa, onların daha tam məşğulluğunu təmin etməyə, daxili aqrar bazarın qorunmasına, əlverişli xarici əlaqələrin qurulmasına, emal sənayesi müəssisələrinin müxtəlif kənd təsərrüfatı xammalına tələbatın ödənilməsinə xidmət etməlidir. Buna görə də ilk növbədə, ödənilməyən ərzaq tələbatının səviyyəsi bərpa edilməli, istehsal və idxal olunan ərzaq məhsullarının keyfiyyəti, əhalinin istehlak etdiyi ərzaq məhsullarının strukturu yaxşılaşdırılmalıdır.



Azərbaycanın kənd təsərrüfatı bu gün əhalinin ərzaq məhsullarına olan tələbatını tam ödəməsə də, son illərdə həm bitkiçilik, həm də heyvandarlıq məhsullarının istehsalı artmışdır.

Əvvəlki yarımfəsildə muxtar respublika üzrə bitkiçilik və heyvandarlıq məhsulları istehsalı verildiyindən burada biz adambaşına düşən bitkiçilik və heyvandarlıq məhsullarının istehsalını göstəririk.

Cədvəl 7

**Naxçıvan MR-da adambaşına bitkiçilik məhsullarının istehsalı (kq)**

| İllər üzrə | 1990 | 1993 | 1998 | 2000 | 2001 | 2002 | 2003 | 2007* |
|---|---|---|---|---|---|---|---|---|
| Taxıl | 105 | 61 | 156 | 150 | 173 | 201 | 220 | 212 |
| Şəkər çuğunduru | — | 5 | 110 | 126 | 113 | 315 | 349 | 49 |
| Kartof | 8 | 6 | 29 | 118 | 131 | 137 | 144 | 156 |
| Tərəvəz | 65 | 45 | 64 | 118 | 131 | 137 | 144 | 156 |
| Bostan məhsulları | 17 | 3 | 44 | 93 | 102 | 109 | 113 | 126 |
| Meyvə və giləmeyvə | 27 | 25 | 64 | 79 | 79 | 78 | 77 | 97 |
| Üzüm | 361 | 101 | 69 | 39 | 38 | 34 | 31 | 36 |

*2007-ci ilin rəqəmləri statistik materiallar əsasında müəllif tərəfindən hesablanmışdır.

Cədvəl məlumatlarının təhlili göstərir ki, 1990-cı illə müqayisədə 2007-ci ildə muxtar respublikada üzümdən başqa digər bitkiçilik məhsulları istehsalında adambaşına artım baş vermişdir. Belə ki, göstərilən dövrdə adambaşına taxıl istehsalı 151 kq,

downloaded from KitabYurdu.org

kartof 80 kq, tərəvəz 91 kq, bostan məhsulları 109 kq, meyvə və giləmeyvə 70 kq artmışdır. Belə bir artım adambaşına heyvandarlıq məhsullarında da baş vermişdir. Bunu aşağıdakı cədvəldən aydın görmək olar.

Cədvəl 8

**Naxçıvan MR-da adambaşına heyvandarlıq məhsullarının istehsalı (kq)**

| İllər üzrə | 1993 | 1993 | 1998 | 2000 | 2001 | 2002 | 2003 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|
| Ət (kəsilmiş çəkidə) | 23 | 12 | 13 | 15 | 17 | 19 | 19 | 42,0 |
| Süd | 100 | 52 | 135 | 150 | 152 | 160 | 161 | 191 |
| Yumurta (ədəd) | 188 | 87 | 161 | 127 | 116 | 115 | 117 | 136 |

Cədvəldən görünür ki, adambaşına heyvandarlıq məhsulları istehsalı da artmaqdadır. Belə ki, 1990-2007-ci illərdə adambaşına ət istehsalı 19 kq süd istehsalı isə 91 kq artmışdır. Adambaşına yumurta istehsalı isə 1993-ci ilə nisbətən 49 ədəd artmasına baxmayaraq 1990-ci ilə nisbətən 52 ədəd azalmışdır. Hesab edirəm ki, bu azalmanın əsas səbəbi dövlətə məxsus iri quşçuluq fabriklərinin işini dayandırması olmuşdur. Yuxarıda qeyd edildiyi kimi artıq həm ölkədə, həm də muxtar respublikada bəzi məhsullar üzrə istehlak tələbatı ödənilməyə başlanmışdır.



Əvvəlki illərdə olduğu kimi yenə də bitkiçilik və heyvandarlıq məhsullarının əsas hissəsi əhalinin həyətyanı təsərrüfatında istehsal olunmuşdur.

Bütün bunlara baxmayaraq aqrar sahədə bazar münasibətlərinə əsaslanan ərazi və sahə idarəetmə strukturunun formalaşmaması, tədiyə balansında mənfi saldonun yaranması, iqtisadi subyektlərin tədiyə qabiliyyətinin aşağı düşməsi, daxili bazarın qorunmasındakı çətinliklər əksər hallarda kənd təsərrüfatı müəssisələrinin maliyyə – təsərrüfat fəaliyyətinin zərərlə başa çatmasına gətirib çıxarmışdır. Məhz belə şəraitdə aqrar istehsalın və bazar özünütənzimləmə imkanlarının müasir reallıqlara adekvat olmaması, yerli əmtəə istehsalçılarının stimullaşdırılmasında çoxsaylı problemlərin mövcudluğu, bazarda tələb və təklif səviyyəsində tarazlığın pozulması və s. bu sahəyə dövlət müdaxiləsini obyektiv zərurətə çevirmişdir.

Hazırda aqrar sahə bazarın çox az bir hissəsini ödədiyindən, tələbatın qalan hissəsi idxalın hesabına ödənilir. Digər tərəfdən iqtisadiyyatın bütün sahələrinin, xüsusən kənd təsərrüfatı məhsullarını emal edən sahələrin dirçəldilməsi üçün də görüləcək bir sıra tədbirlərlə yanaşı, külli məbləğdə investisiya qoyuluşları tələb edir. Həm də ərzaq bazarının stabilliyi, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi kənd təsərrüfatı məhsulları istehsalının, həm də onun reallaşma kanallarının çoxşaxəli tənzimlənmə mexanizmlərinin tətbiqini zəruri edir.

downloaded from KitabYurdu.org

Son illərdə kənd təsərrüfatının maşın və texnika ilə təminolunma səviyyəsinin aşağı düşməsi, eyni zamanda məhsul vahidinə əmək şərfinin artmasına, bu da öz növbəsində – onların qiymətinin bahalaşmasına gətirib çıxarmışdır.

Bu məsələlərə diqqət yetirən ölkə Prezidenti İ.Əliyev Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında demişdir:

«... indiki şəraitdə biz ərzaq təhlükəsizliyi məsələlərinə də böyük diqqət yetirməliyik. Bu məsələ dünyada çox ciddiləşir. Biz bunu görürük, bilirik və bütün hazırlıq işlərimizi görməliyik. Dünyada ərzaq məhsullarının qiyməti kəskin şəkildə artır. Bəzi yerlərdə- Afrikada, Asiyada bu artıq çox ciddi xarakter alır və aclıq təhlükəsi yaranır. ... çalışmalıyıq ki, bizim üçün strateji olan ərzaq məhsullarını maksimum dərəcədə Azərbaycanda yetişdirək. Əminəm ki, nəzərdə tutduğumuz bцtцn proqramlar imkan verəcək ki, biz ərzaq təhlükəsizliyi baxımından da özümüzü tam şəkildə sığortalayaq».

Beləliklə, bitkiçilik məhsullarına əmək sərfinin yüksək olması maya dəyərinin yüksəlməsinə, məhsulun rentabelliyinin azalmasına səbəb olur. Kənd təsərrüfatında maşın və texnikanın geniş tətbiq edilməməsi məhsul istehsalçılarının əldə etdikləri ehtiyat hissələrə, mineral gübrələrə, pestisidlərin, yanacaq – enerjiyə və s. məsrəflərin, bəzən məhsulun satış qiymətlərindən də çox olmasının nəticəsidir ki, bu



gün kənd təsərrüfatı müəssisələrinin bir hissəsi ziyanla işləyir.

Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını yüksəltmək üçün mineral gübrələr xususi rol oynayır. Həm ölkə rəhbərliyinin və həm də Naxçıvan MR Ali Məclisinin təsərrüfatlara güzəştli qaydada gübrələrin verilməsi təsadüfi deyildir. Xaricdən idxal olunan gübrələr isə bəzən təsərrüfatların tələbatlarını tam ödəmir.

Keçən əsrin 90-cı illərinin əvvəllərindən başlayan radikal islahatlar və kənd təsərrüfatının artım tempi hələlik əhalinin ərzaq məhsullarına olan tələbatını tam ödəmək iqtidarında deyildir. Bu baxımdan ölkə Prezidenti İ.Əliyev çıxışında demişdir: «Bazar iqtisadiyyatı prinsipləri ölkələri ərzaq çatışmazlığından qoruya bilmir. Ona görə biz əlavə tədbirlər görməliyik ki, özümüzü qoruyaq, daxildə kənd təsərrüfatı istehsalını artıraq, tam şəkildə əsas ərzaq məhsulları ilə təmin edək.

Hələ ki, biz bunu görmürük. Baxmayaraq ki, həm «Aqrolizinq» Səhmdar Cəmiyyəti yaradılıb və böyük həcmdə texnika gətirilir, kreditlər verilir, islahatlar aparılır, ancaq kənd təsərrüfatı istehsalı sahəsində artım bizi qane edə bilməz. Bu sahəyə daha da böyük diqqət göstərilməlidir. Əgər lazım olarsa, əlavə güzəştlər verilməlidir, əlavə vəsait ayrılmalıdır. Həm yanacaq almaq üçün, həm də gübrə ilə təmin etmək üçün. Biz bu barədə danışmışıq - Azərbaycanda gübrə istehsalı zavodları tikilməlidir. Əgər özəl sektor bunu edə bilmirsə və etmək istəmirsə, bəlkə, dövlət tərəfindən hansısa tədbirlər görülməlidir».

downloaded from KitabYurdu.org

Əkin sahələrinin su təchizatının yaxşılaşdırılması da vacibdir. Məlum olduğu kimi, ölkənin kənd təsərrüfatının əksər hissəsi suvarma və drenaj sistemindən asılıdır. Bu sistem onilliklər ərzində dəyişikliyə uğramışdir

Muxtar respublikada kənd təsərrüfatına yararlı torpaqların əsas həcmi düzənlik – aran rayonlarında yerləşir. Bu zonalar öz isti iqlimi, az atmosfer yağıntılarının olması ilə səciyyələnir. Yüksək və sabit məhsul götürmək üçün həmin sahələrdə irriqasiya – meliorasiya tədbirlərinin aparılması tələb olunur.

Hesab edirəm ki, muxtar respublikada su təchizatını yaxınlaşdırmaq üçün aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğundur:

* respublikanın umumi su ehtiyatı, onun mənbələrinin dəqiqləşdirilməsi, yararlılıq dərəcələrinin, ayrı – ayrı sahələr üzrə suya olan mövcud və gələcək tələbatın müəyyən edilməsi, ona uyğun su təsərrüfatı balansının aparılması;

* su ehtiyatlarının düzgün qiymətləndirilməsi, onlardan düzgün istifadə olunması, bu mütərəqqi suvarma sisteminin tətbiqi üçün tədbirlər planının hazırlanması;

* sudan istifadə sahələri və tələbatı nəzərə alınaraq su təsərrüfatının yenidən qurulması, Naxçıvançay üzərində su anbarlarının tikilməsi;

*sudan istifadə edənlər assosiasiyalarının yaradılmasına və fəaliyyətinə yardım göstərilməsi;



*əkin dövriyyəsinə yeni daxil edilən torpaq sahələrində, xususilə dağlıq və dağətəyi bölgələrdə irriqasiya sisteminin təşkil edilməsi.

Azərbaycan Respublikası Prezidentinin 1999-cu ildə imzaladığı «Aqrar sahə islahatlarının sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında» fərmanından sonra kənd təsərrüfatı istehsalçıları indiyədək cəlb edildikləri 9 vergi növündən azad olunmuş (torpaq vergilərindən başqa), bütün vergi növləri üzrə borcları silinmişdir. Artıq 7 ildən artıqdır ki, kənd təsərrüfatı istehsalçılarına yanacaq 40-50 faiz güzəştli qiymətlərlə satılır. Son illərdə kənd təsərrüfatı müəssisələrinin bir çoxunun gəlirlə işləməsini bunun nəticəsi hesab etmək olar.

Hazırda kənd təsərrüfatının istehsalı və emalı ilə məşğul olan sahibkarların ən böyük problemi maliyyə vəsaiti ilə təminatıdır. İlk növbədə, onlara əlverişli şərtlərlə, aşağı faizlə kredit verilməsi, bu sahəyə əlavə investisiya mənbələri tapmaq hesabına bu gün rayonlarda kifayət qədər bol olan ət, süd, meyvə, tərəvəz və s. məhsulların emalını və konservləşdirilməsini təşkil etmək, onları hətta ixraca yönəltmək mümkündür.

Son illərdə ölkədə sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsinə dövlət büdcəsindən də məqsədli maliyyələşdirmə həyata keçirilir.

Qeyd etmək lazımdır ki, 2004 2008-ci illər üçün qəbul olunmuş regionların inkişaf proqramından sonra böyük canlanma hiss olunmaqdadır. Yeni emal müəssisələri yaradılır, sahibkarlıq inkişaf edir. Ölkə-

downloaded from KitabYurdu.org

dəki bu böyük canlanma həm də güzəştli kreditlərin verilməsi və sahibkarlara dövlət dəstəyi ilə müşayiət olunur. Daxili bazarı ərzaq məhsulları ilə təmin etmək üçün hökumət tərəfindən çox mühüm tədbirlər görülür.

Ölkə Prezidenti İ.Əliyevin təbirincə desək, «Amma bütün bu tədbirlərə baxmayaraq hələ ki, bu, bizi qane edə bilməz. Baxmayaraq ki, hər il biz 100 milyon dollar həcmində güzəştli kreditlər veririk. ...Ancaq hələ ki, bunu təmin edə bilməmişik».

Bundan başqa, kənd təsərrüfatına yerli və xarici investorları cəlb etmək üçün stimullaşdırıcı əlavə tədbirlər görülməli, buraya yönəldilən büdcə vəsaitləri artırılmalı, bu sahədə dövlətin özünün sahibkarlıq fəaliyyəti gücləndirilməlidir.

Bütövlükdə respublikamızın müstəqillik dövründə həyata keçirdiyi aqrar islahatların aşağıdakı cəhətlərini qeyd etmək olar:

- aqrar sahənin inkişafı, onu bazar mexanizmləri vasitəsilə tənzimləmək üçün müvafiq qanunvericilik bazası yaradılmış, bu sahənin ən vacib problemlərini həll etmək üçün respublika prezidenti səviyyəsində bir neçə fərman imzalanmışdır;
- əvvəllər dövlət mülkiyyətində olan torpaq və əmlak kəndlilərə paylanmış, hazırda kənd təsərrüfatı istehsalı xidmət və emal sahəsində çalışan sahibkarlar formalaşmağa başlamış, onlara dövlət himayəsi gücləndirilmişdir;
- kənd təsərrüfatında bazar iqtisadiyyatının tələblərinə uyğun yeni iqtisadi sistemin təşəkkülü



üçün beynəlxalq maliyyə qurumları ilə əlaqələr yaradılmış, onların yardımı ilə fermerlərin ucuz kredit və s. məsələlərinin bir qismi həll edilmişdir.

Kənddə tədricən əhalinin torpağa münasibəti dəyişmiş, ondan daha səmərəli istifadə edilməsi üçün müəyyən tədbirlər görülmüş, son bir neçə ildə bitkiçilik və heyvandarlıq məhsullarının əksəriyyəti üzrə artıma nail olunmuşdur.

Əhalinin faraş məhsullara, emal sənayesinin xammala olan tələbatının ödənilməsində respublika kənd təsərrüfatının əvəzedilməz rolu var. Bu sahənin ümumi daxili məhsulda (ÜDM) xüsusi çəkisi 13-15% təşkil edir. Əmək qabiliyyətli əhalinin 1/3-i bu sahədə çalışır. Əhalinin təqribən yarısını təşkil edən kənd sakinlərinin maddi təminatı əsasən bu sahədən asılıdır. Sosial-iqtisadi böhranın aradan qaldırılmasında, əhalinin məşğulluğunun təmin edilməsində kənd təsərrüfatının əhəmiyyəti böyükdür.

Dövlətin aqrar siyasəti maddi-texniki təchizat, istehsal, tədarük və satış sahələrindəki problemlərin həllinə yönəlməklə əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatının təhlükəsiz səviyyədə ödənilməsini, emal sənayesinin xammalla təchizatının yaxşılaşdırılmasını, işsizlik və yoxsulluğun səviyyəsinin aşağı salınmasını və nəhayət, etibarlı, səmərəli kənd təsərrüfatı sistemi yaradılmasını təmin etməlidir. Bu sahədə daha səmərəli nəticələr almaq üçün aşağıdakı istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsini məqsədəuyğun sayırıq:

downloaded from KitabYurdu.org

• Ölkənin ümumi iqtisadi inkişaf strategiyasının tərkib hissəsi kimi aqrar siyasət, kənd təsərrüfatının kompleks inkişaf proqramı işlənib hazırlanmalıdır. Bu proqramda digər iqtisadi inkişaf sahələri ilə qarşılıqlı münasibətlər, istehsalın müasir tələblər səviyyəsinə uyğunlaşdırılması və səmərəli təşkili, əkin sahələrinin quruluşu, bitkiçilik və heyvandarlıq sahələri arasında optimal nisbətin gözlənilməsi, meliorasiya, irriqasiya və s. məsələlər öz əksini tapmalıdır.

• Kənd təsərrüfatı məhsullarının yeni bazarlara çıxarılmasına, həmçinin ənənəvi bazarlarda kənd təsərrüfatı istehsalçılarının mövqelərinin qorunmasına dövlət köməyi və himayəsi artırılmalıdır.

• Kənd təsərrüfatı məhsullarının tədarükü və satışı sahəsində problemlərin operativ həllinə nail olmaq məqsədilə tədarük – satış şəbəkələrinin yaradılması həvəsləndirilməlidir. İndiki şəraitdə istehsalçıların əksəriyyəti həm istehsal, həm tədarük, həm də satış məsələləri ilə məşğul olduqlarından, nəticədə ümumi işgüzarlıq əmsalı aşağı düşür. Bu istiqamətlərin hər biri üzrə ixtisaslaşmanın aparılması məqsədəuyğundur.

Dövlət mulkiyyətində olan və kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü və satışını həyata keçirən dövlət kənd təsərrüfatı müəssisələri Kənd Təsərrüfatı Nazirliyinin funksional tabeliyindən çıxarılmalıdır. Bu müəssisələr mövcud qanunlar çərçivəsində, öz nizamnamə və məramnamələrinə uyğun olaraq müstəqil dövlət kənd təsərrüfatı müəssisələri kimi fəaliyyət göstərməlidir. Nazirliyin kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü və satışı sahəsində tənzimləyici funksiyaları artırılmalıdır. Kənd Təsərrüfatı Nazirliyi ölkənin kənd təsərrüfatı sistemində dövlətin aqrar siyasətini həyata keçirməli, həm dövlət, həm də özəl sektora daxil olan müəssisələrin və təşkilatların qanunvericiliyə uyğun fəaliyyət göstərməsi sahəsində dövlət nəzarətçi funksiyasını həyata keçirməlidir. Bunlar aşağıdakılardır:



• Ölkədə mövcud olan kənd təsərrüfatı texnikası ciddi fiziki və mənəvi köhnəlməyə məruz qaldığından texniki məhsuldarlığını xeyli itirmişdir. Belə texnika və aqreqatlar vasitəsilə aparılan əkin, biçin, yığım və s. işlərin də məhsuldarlığı aşağıdır. Digər problem kənd təsərrüfatı maşın və avadanlıqlarının, nəqliyyat vasitələrinin çatışmamasıdır, ona görə də kənd təsərrüfatı texnikasının istehsalı və idxalı hər vasitə ilə həvəsləndirilməlidir.

• Kənd təsərrüfatı məhsullarının istehsalına, tədarükünə, emalına və satışına servis xidməti göstərən müəssisələrə dövlət köməyi həyata keçirilməli, belə müəssisələrin fəaliyyəti təşviq edilməlidir.

• Kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü və satışı sahəsində olan problemlərin həllini sürətləndirmək məqsədilə kənd təsərrüfatı istehsalçılarına dövlət tərəfindən faizsiz, uzunmüddətli ssudalar verilməli və bu sahəyə ayrılan dotasiyaların məbləği artırılmalıdır.

• Kənd təsərrüfatının inkişaf etdirilməsinə dair məqsədli, regional inkişaf proqramları hazırlanıb həyata keçirilməlidir.

downloaded from KitabYurdu.org

• Məhsuldar toxum sortlarının və damazlıqların yetişdirilməsi, rayonlaşdırılması və yaxşılaşdırılması üzrə dövlətin xüsusi siyasəti hazırlanmalı, yoluxucu xəstəliklərə qarşı sistemli mübarizə aparılmalıdır.

• Kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, qablaşdırlması sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi üzrə əhəmiyyətli tədbirlər hazırlanıb həyata keçirilməlidir.

Həyata keçirilməli tədbirlər və təkliflər:

1. Respublikada sahələrin növbəli əkin strukturunun qurulması üçün maraq yaradan tədbirlər proqramının hazırlanıb həyata keçirilməsi.

2. Bitkiçilik məhsullarının bölgələr üzrə optimal istehsal həcminin müəyyənləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi.

3. Respublika üzrə tələb olunan ərzaq məhsullarının istehsalı üçün kənd təsərrüfatı bitkilərinin optimal əkin strukturunun hazırlanması.

4. Heyvanların məhsuldarlığını artırmaqla, onun baş sayının optimal həddə çatdırılması üçün tənzimləyici tədbirlərin həyata keçirilməsi.

5. Sənaye quşçuluğunun inkişaf proqramının işlənib həyata keçirilməsi.

6. Balıq və balıq məhsullarının istehsalını qaydaya salmaq üçün bu sahənin maddi – texniki bazasının möhkəmləndirilməsi, balıq ovu, emalı, saxlanılması, satışı üzrə müəssisələr şəbəkəsinin yaradılmasına vəsaitin ayrılması, çay və göl balıqçılığının inkişafına köməklik göstərilməsi.



### *3.2. Naxçıvan MR-da keçid iqtisadiyyatı şəraitində aqrar sektorun vəziyyəti və inkişaf xüsusiyyətləri*

Kənd təsərrüfatı sahəsində istehsal vasitələri üzərində mülkiyyətin müxtəlif formalarına əsaslanan təsərrüfatlara – kolxoz və sovxozlar, kəndli (fermer) təsərrüfatları, icarə forması ilə işləyən kollektiv təsərrüfatlar, kooperativlər, şəxsi yardımçı təsərrüfatlar aid edilir. Bu təsərrüfatlar əsasən kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olmuşlar. 1993-cü ildə Azərbaycanda sovxozların sayı 910-a, kolxozların sayı isə 1148-ə çatmışdır. Lakin ölkəmiz müstəqillik əldə etdikdən sonra özəlləşdirilmə prosesləri başlamış və adı çəkilən təsərrüfatların fəaliyyətinə xitam verilmişdir.

Respublika ərazisinin 4118,3 min hektarı kənd təsərrüfatına yararlıdır. 1996-cı ildə qəbul olunmuş «Torpaq islahatı haqqında» Qanuna əsasən 8641,5 min hektar ölkə ərazisinin 3,8 min hektarı və ya 45%-i dövlət mülkiyyətində, 2,9 min hektarı və ya 33%-i bələdiyyə, 1,9 min hektarı və ya 22%-i xüsusi mülkiyyətdədir. Bütövlükdə ölkənin yararlı torpaq sahələrinin (4118,3 min hektar) 1536,9 min hektarını əkin yeri, 245,6 min hektarını çoxillik əkmələr, 2132,8 min hektarını örüş-otlaqlar, 110,5 min hektarını biçənəklər, 92,5 min hektarını isə dincə buraxılmış torpaqlar təşkil etmişlər (30. s.249.

Kənd təsərrüfatında torpaqların özəlləşdirilməsi başa çatmış və çoxukladlı kəndli (fermer) təsərrüfatları yaradılaraq sahibkarlıq fəaliyyətinə başlan-

downloaded from KitabYurdu.org

mışdır. Lakin özəlləşdirmə aparılanadək əvvəlki təsərrüfatların texniki-təmir vasitələri, maddi-texniki təchizat birlikləri, kimyəvi xidmət sahələri və s. dağıdılmış və qalanları da xidmət göstərmək iqtidarında olmamışdır. Elə buna görə də özəlləşdirilən torpaqların bir hissəsi imkansızlıq üzündən baxımsız qalmışdır.

XX əsrin 90-cı illərin əvvəllərində dərinləşməkdə olan böhran xalq təsərrüfatının bütün sahələrində olduğu kimi aqrar sahəyə də özünün mənfi təsirini göstərməkdə davam etmişdir.

Aqrar bölmədə uzun illər ərzində formalaşdırılmış maddi-texniki baza kifayət qədər zəifləmiş, istehsal infrastukturları dağıdılmış və yeniləri yaradılmış, meliorasiya və irriqasiya kanalları sıradan çıxmış, keçmiş sovet dönəmində respublika büdcəsinə iri həcmli maliyyə vəsaitlərinin gətirilməsinə xidmət edən üzüm, meyvə, çay və digər çoxillik plantasiyaların və pambıq kimi gəlirli istehsal xeyli azalmışdır. Son nəticədə isə 90-cı illərin əvvəllərindən şiddətlənən böhran daxili və xarici bazarlarda respublikamızın və yerli əmtəə istehsalçılarının milli maraqlarının zərbə altına düşməsinə gətirib çıxarmışdır.

Araşdırmalar göstərir ki, keçmiş ittifaqın dağılması və müstəqilliyin əldə olunması ərəfəsində respublika iqtisadiyyatının aqrar sektoru bir çox problemlərlə üzləşmişdir.

Əvvəla qeyd etmək lazımdır ki, ittifaq dağıldıqdan sonra meliorasiya və irriqasiya işlərinə, becərmə texnologiyalarına kifayət qədər vəsait mənbələrinin



tükənməsinə, bitki örtüyünün məhv edilməsinə, ətraf mühitin tullantılarla çirklənməsinə səbəb olmuşdur. Ölkənin əksər hissəsini dağlıq və dağətəyi ərazilər təşkil etdiyindən torpaq sahələrini əkin dövriyyəsinə cəlb etmək çətinləşmişdir. Müxtəlif iqlim tiplərinin mövcud olması isə hər bir iqlim qurşağı üçün spesifik sort və texnologiyalardan istifadə edilməsini tələb edir.

İkincisi, inzibati-amirlik sistemindən miras qallmış iqtisadiyyatın özünü doğrultmaması, keçmiş SSRİ bazarlarının itirilməsi, dövlət tərəfindən məhsul tədarükünün aradan qaldırılması, təchizat, kənd təsərrüfatı, sosial və xidmət müəssisələri arasında iqtisadi əlaqələrin pozulması, əkin sahələrinin dövriyyədən çıxarılmasına, işsizliyin artmasına və son nəticədə əhalinin maddi rifahının aşağı düşməsinə gətirib çıxarmışdır.

Üçüncüsü, aqrar sektorda tədiyə qabiliyyətinin aşağı düşməsi yeni texnologiyaların tətbiqini çətinləşdirmişdir. Daxili bazarın qorunmasındakı çatışmazlıqlar kənd təsərrüfatı məhsullarının istehsalını səmərəsiz etdiyindən istehsalçılar yeni texnologiyaları tətbiq etməkdə maraqlı olmamışdır.

Ümumiyyətlə, keçid dövründə hər bir ölkənin malik olduğu start şəraiti həlledici əhəmiyyətə malikdir. Ölkələr keçmiş dövrə nə qədər bağlı və ondan nə qədər asılı olursa, keçid prosesi də bir o qədər çətin və ağrılı keçir. Məhz bu baxımdan 1991-1995-ci illərdə ölkəni bürüyən dərin iqtisadi böhran makroiqtisadi göstəricilərin 1990-cı il səviyyəsindən

downloaded from KitabYurdu.org

xeyli aşağı düşməsinə gitirib çıxarmışdır. Təkcə bir faktı göstərmək kifayətdir ki, 1991-1995-ci illər ərzində respublikamız ümumi məhsulun 70%-ni, sənaye məhsulunun 75%-ni və kənd təsərrüfatı məhsulunun 55%-ni itirmişdi.

Bazar münasibətləri şəraitində fəaliyyət göstərən dövlətlərdə kənd təsərrüfatı məhsullarının istehsalçıları, eləcə də məhsulun emalı, satışı və xidmət sferalarının işçiləri öz fəaliyyətlərində tam sərbəstdirlər. Çünki bazar iqtisadiyyatına keçmiş ölkələrdə mülkiyyət üzərində dövlət inhisarçılığı götürüldüyündən kənd təsərrüfatı məhsulları istehsalçılarına məhsulun satışına dair heç bir sifariş verilmir. Bazar iqtisadiyyatına keçən ölkələrdə məhsulun istehsalı, saxlanması, emalı, satışı və xidmət işləri sahibkarların idarəçilik funksiyalarına aiddir və onlar bütün proseslərdə tam sərbəst fəaliyyət göstərirlər.

Yuxarıda qeyd edilənlərdən aydın olur ki, mərkəzləşdirilmiş idarəetmə sistemi ilə bazar münasibətləri sistemi arasında kifayət qədər fərqli məqamlar mövcuddur. Ona görə də bazar münasibətləri sisteminə keçidi şərtləndirən amillərin əvvəlcədən düzgün müəyyənləşdirilməsi və diqqət mərkəzində saxlanılması həm nəzəri və həm də praktiki əhəmiyyətə malikdir.

Bu baxımdan bazar münasibətlərinə keçidin ilk illərində bu keçidi şərtləndirən aşağıdakı amillər mütləq nəzərə alınmalı idi:

- ♦ kolxoz və sovxozların ləğv edilməsi;
- ♦ torpaq islahatının həyata keçirilməsi;



- ♦ bazar münasibətlərinin prinsiplərinə uyğun hüquqi bazasının yaradılması;
- ♦ çoxnövlü təsərrüfatçılığın inkişafı;
- ♦ sahibkarlığın inkişafı;
- ♦ tədarük, emal, satış və xidmət müəssisələrinin əmlakının özəlləşdirilməsi;
- ♦ idxal və ixrac əməliyyatları üzrə gömrük siyasətinin qurulması və təkmilləşdirilməsi;
- ♦ bank-maliyyə, kredit, vergi və sığorta siyasətinin yeniləşdirilməsi, qiymətlərin liberallaşdırılması və s.

Ölkə iqtisadiyyatının mühüm sahəsi olan kənd təsərrüfatında iqtisadi islahatların və özəlləşdirmənin həyata keçirilməsi ilə mülkiyyət münasibətlərinin dəyişilməsi, yeni çoxnövlü mülkiyyət formalarının yaradılması və onlara əsaslanan mütərəqqi təsərrüfat formalarının inkişaf etdirilməsinin tələb edir.

Aqrar islahatların həyata keçirilməsi üçün normativ-hüquqi əsaslar yaradılmış, bir sıra qanunlar qəbul edilmişdir. Bu normativ-hüquqi sənədlərdən ən əsasları «Aqrar islahatın əsasları haqqında», «Sovxoz və kolxozların islahatı haqqında» və «Torpaq islahatı haqqında» qanunlardır. Bu qanınlar aqrar bölmədə islahatın aparılmasının təşkilati-hüquqi və sosial-iqtisadi əsası olmaqla, əsas vəzifəsi aqrar sahənin inkişaf istiqamətlərini müəyyənləşdirmək, bazar iqtisadiyyatına uyğun müxtəlif təsərrüfat formaları yaratmaq, kənddə azad sahibkarlığı inkişaf etdirmək və torpaq üzərində yeni mülkiyyət münasibətlərini formalaşdırmaqdan ibarətdir. Həmin qanunların qəbul

downloaded from KitabYurdu.org

edilməsində məqsəd göründüyü kimi, aqrar bölməni böhrandan çıxarmaq, iqtisadiyyatı sabitləşdirmək, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaqdan ibarətdir.

Kənd təsərrüfatının iqtisadiyyatında bitkiçilik əsas yer tutur. Ona görə də yeni torpaqlar əkin dövriyyəsinə cəlb edilməklə bitkiçilik məhsullarının əkin sahələri genişləndirilir. Bunu aşağıdakı cədvəldən daha aydın görmək olar.

Cədvəl 9

**Naxçıvan MR-da kənd təsərrüfatı bitkilərinin əkin sahəsi (min hektarla)**

| Bitkilərin adı | 1990 | 1993 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Taxıl | 15,5 | 17,1 | 22,8 | 15,9 | 15,3 | 16,9 | 19,8 | 21,9 | 26,4 |
| Şəkər çuğunduru | | 0,4 | 2,6 | 2,2 | 2,4 | 1,9 | 2,6 | 3,6 | 1,3 |
| Kartof | 0,4 | 0,3 | 1,2 | 1,2 | 1,4 | 1,6 | 1,5 | 1,5 | 2,5 |
| Tərəvəz | 1,4 | 1,1 | 2,8 | 3,0 | 4,9 | 5,4 | 5,5 | 5,6 | 5,8 |
| Bostan bitkiləri | 0,6 | 0,2 | 1,4 | 1,4 | 2,5 | 2,7 | 2,9 | 2,9 | 2,8 |
| Meyvə və giləmeyvə bağları | 6,2 | 4,9 | 2,5 | 2,0 | 2,2 | 2,2 | 2,3 | 2,2 | 2,9 |
| Üzümlüklər | 10,4 | 8,6 | 1,8 | 1,5 | 1,5 | 1,5 | 0,9 | 0,9 | 0,9 |

Cədvəl məlumatlarından məlum olur ki, muxtar respublikada 1990-2007-ci illərdə bir çox bitkiçilik məhsullarının əkin sahəsi genişləndirilmişdir. Belə ki, son 17 il ərzində taxıl məhsullarının əkin sahəsi 10,9 min hektar, şəkər çuğunduru 0,9 min hektar, kartof



2,1 min hektar, tərəvəz əkini sahələri isə 4,3 min hektar genişləndirilmişdir.

Hesab edirəm ki, muxtar respublikada göstərilən dövrdə üzümlük və meyvə-giləmeyvə bağlarının əkin sahələrinin azalmasına baxmayaraq hökumət qərarlarına uyğun olaraq və həm də emal sənayesinin inkişafı ilə bağlı onların xammala olan tələbatını ödəmək üçün bu sahələrin də genişləndirilməsi gözlənilir.

Respublika üzrə kənd təsərrüfatı məhsullarının dəyərində bitkiçiliyin xüsusi çəkisi təqribən beşin birə nisbətidir. İstehsal prosesində bu iki sahə qarşılıqlı əlaqəyə girir və bir-birini tamamlayır. Emal sahələrinin təmin edilməsində hər iki sahə iştirak etməklə böyük əhəmiyyət kəsb edir.

Əhalinin ərzaqla təminatı əsasən kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq məhsulları hesabına ödənilməlidir. Bitkiçilik və heyvandarlıq məhsullarına olan tələbatın yerinə yetirilməsi üçün torpaqdan və əmək ehtiyatlarından səmərəli istifadə etmək tələb olunur.

Ərzaq məhsullarının artırılmasında bitkiçilik və heyvandarlıq sahələri yanaşı fəaliyyət göstərərək eyni dərəcədə əhəmiyyət kəsb edir. Ət, süd və digər heyvandarlıq məhsulları istehsalı prosesinin bitkiçilikdən alınan yemə əsaslandığını və bitkiçiliyin digər əlavə məhsullarından (qüvvəli yem, küləş, yaşıl gövdə, bağçılıq və tərəvəzçilik tullantıları və s.) heyvandarlıq sahəsində daha çox istifadə olunur.

Əkinçilikdə torpaq sahələrindən intensiv istifadə edilməsi təkcə bitkiçilik deyil, həm də heyvan-

downloaded from KitabYurdu.org

darlıq məhsullarının artırılması imkanlarını yaradır. Torpaqdan intensiv istifadə edilməsi prosesi əsasən meliorativ tədbirlərin aparılması, onun üzvi və mineral gübrələrlə zənginləşdirilməsi, elmi əsaslarla becərilməsi, toxum-əkin materiallarının yüksək səviyyədə olması və ümumiyyətlə, bu sahədə dünya təcrübəsindən istifadə edilməlidir. Torpağın intensiv üsullarla becərilməsi üçün kəndli (fermer) təsərrüfatlarına dövlət səviyyəsində kömək göstərilməlidir.

Aparılan təhlillər göstərir ki, 1996-cı ildə ölkəmizdə makroiqtisadi sabitlik əldə edildikdən sonra kənd təsərrüfatı məhsulları istehsalı da artan templə inkişaf edir.

Ümumiyyətlə, kənd təsərrüfatı muxtar respublikanın iqtisadiyyatında da mühüm yer tutur. Muxtar respublikanın iqtisadiyyatında tənzimlənən bazar iqtisadiyyatı prinsipləri bərqərar olduqdan sonra kənd təsərrüfatı sahəsində ciddi müsbət meyillər əmələ gəlmişdir. Muxtar respublikada qeyd olunan bu prozitiv meyilli prosesləri şərtləndirən məqsədyönlü fəaliyyət, işgüzar mühit və iqtisadi, institusional təmayüllü ciddi manevrlər mövcuddur. Belə ki, ən əsas şərt kimi ilk növbədə daxili bazarın qorunması təmin edilir, aqrar sektorda qeyri-mərkəzləşdirilmiş çevik strukturlar yaradılır, müxtəlif maddi-texniki təchizat və aqroservis müəssisələri, marketinq xidmətləri, yarmarkalar təşkil olunur, saxlama, qablaşdırma, emal müəssisələri yaradılır, baytarlıq və sanitar sahələrində dövlət siyasətinin həyata keçirilmə mexanizmləri təkmilləşdirilir, işlərin səmərəli təşkili



və idarəetmənin mobil mexanizmlərlə təminatı məqsədilə məsələlərə proqram xarakterli yanaşma üstün istiqamət kimi qəbul olunur.

Aqrar sahə iqtisadiyyatın digər sektorlarının xammalla təchiz edilməsində, ən əsası isə əhalinin gündəlik ərzaq məhsullarına olan tələbatının ödənilməsində mühüm yer tutur. Hazırda muxtar respublikada həyata keçirilmiş aqrar islahatların nəticəsində özəl mülkiyyətə əsaslanan aqrar münasibətlərin formalaşması prosesinin ilk mərhələsi başa çatmışdır. Qeyd olunan proseslərin keyfiyyətcə daha yüksək mərhələyə keçidini, müasir tipli aqrar-sənaye sektorunun formalaşmasını təmin etmək məqsədilə muxtar respublikada sistemli tədbirlər görülməkdədir. Bu mühüm tədbirlərdən mütəşəkkil ticarətin təşkilinin dövlət tərəfindən dəstəklənməsi, əsas ərzaq məhsullarının zəruri səviyyədə istehsal olunmasına şəraitin yaradılması, yerli və xarici mənşəli ərzaq məhsullarının keyfiyyətinə səmərəli nəzarət mexanizminin tətbiqi və ərzaq bazarında ekoloji, sanitar, baytar və bitosanitar tələblərinə cavab verməyən məhsul və xidmətlərin qarşısının alınması, kənd təsərrüfatı məhsullarının ixracına dövlət himayəsi və bu sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinə güzəştli kreditlərin, lizinq obyekti olan texnikaların verilməsi hazırda daha çox önəm verilən istiqamətlərdəndir.

Bitkiçilik məhsulları içərisində taxılçılıq mühüm pol oynayır. Taxıl məhsullarının xalq təsərrüfatı əhəmiyyəti haqda onu demək kifayət edər ki, buğda Adəmin – insanın yarandığı gündən onun ruzisi ol-

downloaded from KitabYurdu.org

muş və dünya əhalisinin, o cümlədən xalqımızın qidalandığı ərzaq məhsullarının 50 faizini taxıl məhsulları təşkil edir. Taxıl bitkilərinə əsasən buğda, arpa, qarğıdalı, çovdar, vələmir, düyü, darı, noxud, qarabaşaq, lobya, paxla və s. aid edilir. Çörək insanların əsas ərzaq məhsuludur. Taxıl elin sərvəti, bizim gücümüzdür, qüdrətimizdir, qələbəmizdir, həyatımızın əsasıdır.

Sov.İKP-nin Baş Katibi L.İ.Brejnev «Xam torpaqlar» əsərində yazırdı ki, «Çörək olarsa mahnı da olar»..

Çörək – Allahın bəşəriyyətə verdiyi həyatdır.

Taxıl həmçinin heyvandarlığın yem bazasını təşkil edir. Deməli, taxıl - ət, süd, yun, yumurta istehsalı üçün yemdir. Həmçinin beynəlxalq əlaqələr üçün strateji məhsul sayılır. Taxıl istehsalının artırılması ölkə iqtisadiyyatını möhkəmləndirir və ərzaq təhlükəsizliyinin təmin edir. Bu baxımdan ölkəmizdə və həm də muxtar respublikamızda taxıl istehsalının inkişafı istiqamətində önəmli işlər həyata keçirilir.

Statistik məlumatlardan aydın olur ki, 2006-cı ildə muxtar respublikamızda 26554 hektar dənli və dənli-paxlalı (qarğıdalı ilə birlikdə) bitkilərin əkin sahəsindən 94170,4 ton taxıl yığılmış, hər hektarın məhsuldarlığı orta hesabla 35,5 sentner olmuşdur.

Ümumiyyətlə, 2006-cı ildə adambaşına taxıl istehsalı 250 kq olmuşdur ki, bu da muxtar respublika əhalisinin taxıl məhsulları üzrə ərzaq təhlükəsizliyinin təmin olunması deməkdir.



Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafına xüsusi diqqət yetirilir. Kartof ikinci çörək sayılır. Çünki kartofun ikinci çörək kimi mühüm əhəmiyyət kəsb etməsi, ondan nişasta, spirt alınması və texnoloji tullantıları heyvandarlıqda yem kimi istifadə edilməsinin sosial iqtisadiyyat üçün böyük əhəmiyyəti vardır.

Muxtar respublikada iqlim şəraiti və torpaq xüsusiyyətləri, həmçinin daxili tələbat nəzərə alınmaqla kartofçuluğun inkişafına xüsusi yer verilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisini Sədrinin 11 aprel 2005-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş «Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)» torpaqlardan səmərəli istifadə, ilkin mərhələdə investisiyaların təşviqi, müxtəlif servis mərkəzlərinin yaradılması, daxili bazarın qorunması, tələbata uyğun keyfiyyətli məhsul istehsalının dəstəklənməsi kimi zəruri tədbirlərin görülməsini qarşıya qoymuşdur. Kartofçuluğun inkişafı üçün təbii şərait nəzərə alınaraq Şərur, Ordubad, Culfa, Babək, Şahbuz və Kəngərli rayonlarında sahibkarlara güzəştli kreditlər ayrılmış və avadanlıqlar verilmişdir. Stimullaşdırıcı təsirə malik olan bu tədbirlərin nəticəsi olaraq 2006-cı ildə 2461 hektar sahədə kartof əkini aparılmışdır ki, bu da2005-ci illə müqayisədə 23,7 faiz və ya 471 hektar çoxdur.

Kartof əkin sahəsinin 23,7 faiz və məhsuldarlığın isə 3,0 faiz artması hesabına 2006-cı ildə 33,5

downloaded from KitabYurdu.org

min ton kartof istehsal edilmişdir ki, bu da 2005-ci ilə nisbətən 7,2 min ton çox kartof deməkdir. 2006-cı ildə Naxçıvan MR-da adambaşına kartof istehsalı 89 kq təşkil etmişdir. Bu isə o deməkdir ki, muxtar respublika kartof üzrə də artıq özünün ərzaq təhlükəsizliyini təmin etmişdir.

Üzümçülük tarixən xalq təsərrüfatının mühüm sahələrindən biri olmuşdur. İqtisadi cəhətdən gəlirli sahə olmaqla üzümçülük həm də özünün yüksək qidalılığı və müalicəvi əhəmiyyəti ilə fərqlənmişdir.

Eramızdan əvvəl V əsrdə yaşamış yunan alimi Herodot qeyd edirdi ki, «Bu ölkə üzümçülüyün bolluğuna, keyfiyyətinə görə hətta qədim İran, Babilistan və Yunanıstandan da məşhur idi». Bu fikirlər Azərbaycan diyarının üzümçülük sahəsində çox qədim tarixə və ənənələrə malik olduğunu göstərir. Yazılı ədəbiyyatlarda bu ölkədə şəfeyi, kişmişi, sahibi, əsgəri, gəlinbarmağı, şanı, mələyi, misqalı, xəlili kimi üzüm sortlarının olması haqda məlumat verilir. Naxçıvan MR-da üzümçülük 3500 ildən çox tarixə malikdir. Zaqafqaziyada, xüsusilə Naxçıvanda kişmişin hələ eramızdan əvvəl XII əsrdə hazırlanmasını təsdiq edən sənədlər vardır.

XIX əsrin əvvəllərindən etibarən Azərbaycanda şərab emalının sənaye üsulu inkişaf etməyə başlamışdır.

XX əsrin 30-cu illərindən başlayaraq Azərbaycan şərabı artıq xarici qonaqların və tacirlərin maraq dairəsinə düşmüş nadir məhsullardan sayılırdı.



Naxçıvan Muxtar Respublikasında üzüm əkinləri 1981-ci ilə qədər genişləndirilərək 18 min hektara çatdırılmış, 1984-cü ildə isə 150 min ton üzüm istehsal olunmuşdur. İstehsal olunan üzümün 80 faizindən çoxu şərab istehsalına, 14,6 faizi təzə halda istehlaka, 5-6 faizi isə qurudulmaya göndərilmişdir.

1985-ci ilə qədər yüksələn xətlə inkişaf edən Azərbaycan üzümçülüyünün şöhrəti indii tarixə çevrilmişdir.

Ümummilli liderimiz H.Əliyevin hələ binici hakimiyyəti dövründə mərkəzi hökumətdən «Azərbaycan SSR-də kənd təsərrüfatının istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında»kı qərarın verilməsinə və keçmiş SSRİ dövlət büdcəsindən üzümçülüyün və şərabçılığın inkişafına xeyli vəsaitin ayrılmasına nail olması ölkədə üzüm istehsalını rekord səviyyəyə çatdırmışdır.

1984-cü ildə Azərbaycanda üzüm əkini sahəsi 280 min hektar, üzüm istehsalı isə 2 milyon tona çatmışdır. Beləliklə, Azərbaycan üzüm istehsalına görə bütün müttəfiq respublikaları qabaqlayaraq birinci yerə çıxmışdır. O dövrdə təkcə Cəlilabad rayonu 260 min ton üzüm istehsal edirdi ki, bu da bütövlükdə Ermənistan SSR-də istehsal onunan üzümdən 30 min ton çox idi.

Ölkənin başqa iqtisadi rayonları kimi Naxçıvan MR-da da üzümçülük və şərabçılıq inkişaf edirdi. Dövlət proqramına uyğun olaraq muxtar res-

downloaded from KitabYurdu.org

publikada yeni şərab emalı zavodları tikilir, köhnələr yenidən qurulur və genişləndirilirdi. Keçən əsrin 80-ci illərinin ortalarında muxtar respublikada 14 şərab emalı zavodu fəaliyyət göstərirdi. Şərab zavodlarını üzümlə təchiz etmək məqsədilə burada 30 ixtisaslaşdırılmış üzümçülük sovxozu yaradılmışdır.

Hər il demək olar ki, muxtar respublikadan ümumittifaq fonduna 1000 ton, o cümlədən respublika fonduna isə 500 ton süfrə üzümü göndərilirdi. Bundan əlavə 1981-1985-ci illərdə muxtar respublikadan Rusiyanın müxtəlif regionlarına 40 milyon 395 min dekalitrdən çox şərab məhsulları ixrac edilmişdir.

Lakin sonralar, xüsusilə 1980-ci ilin ortalarından sonra SSRİ-nin o vaxtkı ermənipərəst rəhbəri M.Qorbaçovun imzaladığı «Sərxoşluğu və alkoqolizmi aradan qaldırmaq tədbirləri haqqında»kı qərarından sonra Azərbaycanda və o cümlədən, Naxçıvanda üzümçülük və şərabçılığın tənəzzül dövrü başladı.

1988-ci ildən başlayaraq Qarabağ ətrafında baş verən hadisələr, sonra isə ittifaqın dağılması kənd təsərrüfatının digər sahələri kimi üzümçülüyün də tam tənəzzülə uğramasına səbəb oldu.

Ötən əsrin 90-cı illərinin əvvəllərində üzüm plantasiyaları tam dağılmış və üzüm emalı və şərab istehsalı müəssisələri öz fəaliyyətini dayandırmışdır.

Ümummilli liderimiz H.Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi və aqrar islahatların aparılması nəticəsində bu sahənin fəaliyyətində nisbətən canlanma baş vermişdir. 2002-ci ildə «Üzümçülük və şərab-



çılıq haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunun qəbulundan keçən dövr ərzində muxtar respublikamızda xeyli iş görülmüşdür və görülməkdədir.

Statistik məlumatların təhlili göstərir ki, indi muxtar respublikada 967 hektar üzüm bağı vardır və 2006-cı ildə bu sahələrdən 13,6 min ton məhsul toplanmışdır.

Hesab edirəm ki, aparılan aqrar islahatlar öz bəhrəsini verəcəkdir. Tarixən üzümçülüyün vətəni kimi tanınan Naxçıvan diyarı özünün keçmiş şöhrətini qaytarmalıdır. Keçmişdə özünün qara kişmişi və onlarca Naxçıvan markası ilə buraxılan şərabları, konyakları, kaqorları, araqları ilə fərqlənən Naxçıvan diyarı indi yeni proqramlar həyata keçirir.

Muxtar respublikada son vaxtlar dövlətin dəstəyi ilə yaradılmış «Babək Şərab-2», «Yeddilər» Aqrar Sənaye Kompleksi Məhdud Məsuliyyətli Cəmiyyəti, «Gəmiqaya Meyvə Məhsulları Kompleksi» Məhdud Məsuliyyətli Cəmiyyətində şərab istehsalı sexinin tikilib istifadəyə verilməsi və s. gələcəkdə əhalinin şəraba olan tələbatının yerli məhsullar hesabına ödənilməsinə gətirib çıxaracaqdır. Həm də nəzərə alsaq ki, indii tikilən müəssisələrdə avadanlıqlar xarici texnologiyalar əsasında quraşdırılır, demək gələcəkdə istehsal olunan şərab məhsulları nəinki muxtar respublikanın tələbatını ödəməyə, habelə ixrac potensialının da artmasına səbəb olacaqdır.

«Gəmiqaya Meyvə Məhsulları Kompleksi» nəzdində şərab istehsalı sexinin açılışında iştirak edən

downloaded from KitabYurdu.org

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri qeyd etmişdir ki, «İl ərzində 54 min dekalitr ağ və qırmızı üzüm şərabı istehsalı gücündə olan bu müəssisə muxtar respublikamızda üzümçülüyün inkişafında mühüm əhəmiyyətə malik olacaqdır, eyni zamanda fərdi təsərrüfatlarda üzüm bağlarının genişlənməsinə şərait yaradacaqdır».

Bitkiçilik məhsulları istehsalını artırmaq üçün kənd təsərrüfatında maddi-texniki bazanın yaradılmasına xüsusi diqqət yetirilmişdir. Bu məqsədlə aqrar sektorda istehsalçıların zəruri kənd təsərrüfatı texnikası ilə təchizatını yaxşılaşdırmaq, bu istiqamətdə çevikliyi və sistemliliyi təmin etmək məqsədilə Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinin nəzdində «Naxaqrolizinq» Açıq Səhmdar Cəmiyyəti və onun Şərur, Babək və Culfa rayon bazaları yaradılmışdır. 2006-cı ildə 77 adda kənd təsərrüfatı texnikası, o cümlədən 10 ədəd kombayn, 20 ədəd traktor, 14 ədəd kotan, 10 ədəd taxılsəpən, 10 ədəd rotorlu otbiçən, 3 ədəd çalaqazan, 5 ədəd gübrəsəpən, 5 ədəd hamarlayıcı muxtar respublikaya gətirilərək lizinq yolu ilə mülkiyyətçilərin istifadəsinə verilmişdir.

Bütün bu görülən tədbirlər və ümumiyyətlə, kənd təsərrüfatının texnika ilə silahlandırılması son nəticədə bitkiçlik məhsullarının artmasına səbəb olmuşdur.

Bazar iqtisadiyyatı şəraitində respublikamızda qarşıda duran ən mühüm vəzifələrdən biri də əhalinin heyvandarlıq məhsullarına olan tələbatının ödənilməsidir. Bu baxımdan muxtar respublikada heyvandarlığın inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir.



Muxtar Respublikamızın hər bir bölgəsində təbii-iqtisadi şərait və onun zəngin otlaq sahələrinin olması heyvandarlığı daha da inkişaf etdirməyə imkan verir. Ona görə də bu sahədə qarşıda duran ən mühüm vəzifələrdən biri də müxtəlif növlü təsərrüfatçılıq formalarında heyvandarlığı inkişaf etdirmək, məhsul istehsalını artırmaq və bu sahənin iqtisadi səmərəliliyini yüksəltməkdən ibarətdir. Bununla yanaşı, respublikamızın hər bir bölgəsində yaradılan müxtəlif növlü təsərrüfatçılıq formalarında heyVandarlığın baş sayının artırılması, onun cins tərkibinin yaxşılaşdırılması və məhsuldarlığın yüksəldilməsi bütün dövrlərdə, o cümlədən yeni iqtisadi münasibətlər şəraitində günün ən vacib məsələlərindəndir.

Muxtar Respublika ərazisinin əsas hissəsini dağlıq ərazi təşkil etdiyindən dağlıq regionların iqtisadiyyatında heyvandarlıq mühüm rol oynayır. İndii qarşıda duran ən mühüm vəzifə aqrar sahədə fəaliyyət göstərən müxtəlif təsərrüfatçılıq formalarında zərərlə işləyən və aşağı rentabelli müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin səmərəliliyini yüksəltməkdən ibarətdir.

Məlum olduğu kimi, aqrar islahatların aparılması ilə əlaqədar ictimai təsərrüfatlarda olan iri və xırda buynuzlu mal-qara əhaliyə verilmişdir. Bu baxımdan əhalidə olan damazlıq mal-qaranın saxlanılmasına, yemlənməsinə və xüsusi cinslərinin inkişaf etdirilməsinə ciddi diqqət yetirilməlidir. Aparılan

downloaded from KitabYurdu.org

araşdırmalardan belə qənaətə gəlmək olar ki, müxtəlif növlü təsərrüfatçılıq formalarında iri həcmli ixtisaslaşdırılmış heyvandarlıq istiqamətli fermer təsərrüfatlarının təşkil edilməsi və bu sahədə xarici ölkələrin qabaqcıl iş təcrübəsinin yayılması olduqca zəruridir.

Muxtar respublikamızda bitkiçiliklə yanaşı heyvandarlığın inkişafı sahəsində də bir sıra mühüm işlər görülmüşdür. Ümumiyyətlə, kənd təsərrüfatının ikinci bir əsas sahəsini təşkil edən heyvandarlıq sahəsi əhalini ət, süd, yumurta, yağ və s. həyati əhəmiyyət kəsb edən məhsullarla təmin etməkdən başqa, yeyinti və yüngül sənayeni qiymətli xammalla təmin etmişdir.

Heyvandarlıq bitkiçilik sahəsini üzvi gübrə ilə, bitkiçilik  sahəsi isə heyvandarlığı yemlə təmin edir. Ona görə də bu iki sahə bir-biri ilə sıx əlaqəli qurulmaqla yüksək məhsuldarlığa nail olunur. HeyVandarlığın yemlə təminatından danışarkən qeyd etmək lazımdır ki, heyvandarlıq məhsullarının istehsalı və onun artırılması ancaq etibarlı yem bazasının yaradılmasından asılıdır. Yem bazasının təşkili isə onun vəziyyəti və tərkib göstəriciləri – təbii otlaqlar, ot tarlalarından yem (quru və yaşıl kütlə), bitkiçilikdən alınan əlavə məhsullar (küləş, gövdə və yarpaqlar), dənlilər (arpa, vələmir, qarğıdalı, paxlalı və s.), şirəli (silos, yemlik bostan məhsulları, kökümeyvəlilər) təşkil edir. Həmçinin sənaye sahələrində istehsal olunan mikrobioloji yem qarışıqları və yem əlavələri, emal sənaye sahələrindən alınan tullantı yemlər də buraya daxildir.


Heyvanların məhsulvermə qabiliyyətinin yüksəlişi yem bazasının kəmiyyət və keyfiyyət göstəricilərindən asılıdır. Heyvanların məhsuldarlığının artırılması üçün yemlərin tərkibində zülalın artırılması və hər yem vahidində ən azı 105-110 qram həzmə gedən proteinin olması vacib sayılır. Bu göstəricinin yemdə nizamlanması qarışıq yemlərin – taxılın yemdə miqdarını azaldır ki, bu halda qənaət edilən taxıl məhsulları ərzaq kimi sosial-iqtisadi əhəmiyyət kəsb edir.

Yemçilikdə iqtisadiyyatın yüksəldilməsi onun istehsal mənbələrindən çox asılıdır. Birinci mənbə onun istehsalını təsərrüfatda təşkil etmək, ikinci mənbə onu kənardan almaqdır. Heyvandarlığın gəlirliliyi yemin təsərrüfatın daxilində istehsal olmasıdır. Hər ha otlaq sahəsi – biçənək 7 sentner yem vahidi təşkil edir. Hesablamalara görə respublikada hər baş qaramala 15,8 yem vahidi tələb olunur. Bunu nəzərə alsaq başqa yem mənbələri yoxdursa bir baş qaramala 2 ha otlaq sahəsi düşür. Belə halda təbii otlaq sahələri suvarılan olmalı və həmin sahələrdə gübrələmə, yaxşılaşdırma və s. tədbirlər aparılmalıdır. Aparılan tədbirlər iki ilə öz xərcini çıxarır, eyni zamanda otlaq şəraitində bəslənən mal-qara məhsulları yüksək keyfiyyətli olur və ucuz başa gəlir. Ancaq otlaqların azlığı buna imkan vermədiyindən hər baş qaramala düşən sahə 0,5 ha, ABŞ-da 1,16 ha, Almaniyada 0,36 ha təşkil edir. Belə halda heyvanların qüvvəli yemə olan tələbatının artırılması, taxıla olan tələbatın artırılmasına səbəb olur ki, bu da ərzaq qıtlığı yaradır və iqtisadiyyata mənfi təsir göstərir.

downloaded from KitabYurdu.org

Heyvandarlıqda qüvvəli yemə tələbat əsasən dənli və dənli paxlalı bitkilər hesabına ödənilir.

Yem ehtiyatı mənbələrindən biri də heyvandarlıq məhsullarının emalı tullantıları təşkil edir. Bitkiçilik məhsullarının emalı zavodların tullantıları da (əzinti, cecə və s.) yemçilikdə əsas rol oynayır.

Heyvandarlıqda yemlərin iqtisadiyyatını yüksəltmək üçün yem bitkiləri, yem növləri və yem normaları iqtisadi cəhətdən qiymətləndirilməlidir.

Bütövlükdə respublikamızda və konkret olaraq Naxçıvan MR-da heyvandarlığın yem bazasının möhkəmləndirilməsi və görülən digər tədbirlər nəticəsində mal-qaranın sayı ildən-ilə artır. Bunu aşağıda verilən cədvəl məlumatları daha aydın göstərir:

Cədvəl 10

**Naxçıvan MR-da mal-qaranın sayı (yanvarın 1-nə, min baş)**

| | 1991 | 1994 | 1999 | 2001 | 2002 | 2003 | 2004 | 2008 |
|---|---|---|---|---|---|---|---|---|
| İribuynuzlu mal-qara... o cümlədən: | 62,4 | 49,0 | 60,7 | 74,0 | 77,2 | 79,4 | 81,2 | 94,0 |
| İnək və camışlar | 26,2 | 28,3 | 35,1 | 43,4 | 45,0 | 46,1 | 47, | 56,0 |
| Qoyun və keçilər… | 249,7 | 254,4 | 360,6 | 425,4 | 441,5 | 461,7 | 474,9 | 564,0 |
| ondan: qoyunlar | 206,8 | 198,3 | 261,6 | 286,4 | 302,0 | 310,7 | 326,3 | 401,3 |



Cədvəl məlumatlarının təhlili göstərir ki, 2001-2007-ci illəri əhatə edən 7 il ərzində iribuynuzlu mal-qaranın sayı 20 min baş, o cümlədən inək və camışların sayı 12,6 min baş, qoyun və keçilərin sayı 138,6 min baş, o cümlədən təkcə qoyunların sayı isə 114,9 min baş artmışdır.

Qeyd etmək lazımdır ki, heyvandarlığın tamamilə özəlləşdirilməsi və dövlət təsərrüfatlarının fəaliyyətinə xitam verilməsi başa çatdığından bu sahə ancaq özəl təsərrüfatlarda öz inkişafını tapmışdır.

Heyvandarlıq sahəsində islahatlar tamamilə başa çatdığından demək olar ki, idxal olunan heyvandarlıq məhsullarının miqdarı xeyli azalmışdır.

Muxtar respublikanın kənd təsərrüfatında heyvandarlığın inkişafına xüsusi qayğının nəticəsidir ki, mal-qaranın baş sayının artım dinamikasında ciddi irəliləyişlərə nail olunmuşdur. Ölkənin 10 iqtisadi rayonu üzrə aparılan müqayisələr bunu deməyə əsas verir.

Cədvəl 11

**Azərbaycanın iqtisadi rayonları üzrə heyavndarlıqda baş verən artım dinamikası (2006-cı ildə 2005-ci ilə nisbətən faizlə)**

| İqtisadi rayonlar | İribuynuzlu mal-qara | Xırdabuynuzlu heyvanlar |
|---|---|---|
| Ölkə üzrə | 102,4 | 103,0 |
| Naxçıvan | 104,9 | 103,5 |
| Abşeron | 98,9 | 101,6 |
| Gəncə-Qazax | 107,4 | 107,4 |
| Şəki-Zaqatala | 100,7 | 100,9 |

downloaded from KitabYurdu.org

| | | |
|---|---|---|
| Lənkəran | 101,6 | 101,3 |
| Quba-Xaçmaz | 100,5 | 100,7 |
| Aran | 102,3 | 101,5 |
| Yuxarı Qarabağ | 104,5 | 101,1 |
| Dağlıq Qarabağ | 100,3 | 100,7 |

Cədvəldən göründüyü kimi 2006-cı ildə mal-qaranın baş sayının artım tempinə görə Gəncə-Qazax iqtisadi rayonu istisna olmaqla Naxçıvan iqtisadi rayonu ilk yerlərdə təmsil olunmuşdur. 2007-ci ildə də Naxçıvan iqtisadi rayonunda mal-qaranın baş sayının artım dinamikası təmin olunmuşdur. Bu dinamika həm də heyvandarlıq məhsulları istehsalında özünü göstərmişdir.

İribuynuzlu mal-qaranın tərkibində məhsuldar mal-qaranın xüsusi çəkisinin artırılması, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində baytarlıq orqanları təsərrüfatlarla birgə zəruri tədbirlər həyata keçirir. Baytarlıq xidmətini müasir tələblər səviyyəsində təşkil etmək məqsədilə Naxçıvan MR Ali Məclisi sədrinin 2005-ci il 30 noyabr tarixli fərmanına əsasən Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti yaradılaraq fəaliyyətə başlamışdır. Muxtar respublikada baytarlıq təbabəti xidmətinin səviyyəsini yüksəltmək məqsədilə bu sahənin maddi-texniki təchizatının yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər görülür. Bütün bunlar heyvandarlığın inkişafına öz müsbət təsirini göstərəcəkdir.



Bütün yuxarıda deyilənlərlə bağlı hesab edirik ki, aşağıdakı tədbirlərin həyata keçirilməsi həm vacib, həm də məqsədəuyğundur.

1. Dövlət ehtiyacları üçün kənd təsərrüfatı məhsullarının yerli istehsalçılardan sifarişlə alınması;
2. Kənd təsərrüfatı məhsullarını xarici bazarlara çıxarmaq üçün marağın yaradılması, ixrac üçün ticarət infrastrukturunun təşkilinə yardım göstərilməsi;
3. Dövlət tərəfindən respublikada və xarici ölkələrdə sərgilərin təşkili və kənd təsərrüfatı məhsullarının nümayişinin dəstəklənməsi;
4. Kənd təsərrüfatı məhsulları emal edən müəssisələrin rəqabətqabiliyyətli məhsul istehsalı imkanlarına uyğun dövlət köməyi proqramının hazırlanması;
5. Kənd yerlərində kiçik emal müəssisələrinin xüsusilə tez xarab olan ət, süd, meyvə, tərəvəz emalı şəbəkəsinin yaradılmasına yardım göstərilməsi;
6. Kənd təsərrüfatı məhsulları emalı ilə məşğul olan müəssisələrə güzəştli kreditlər ayrılmasının genişləndirilməsi, onlara müvəqqəti vergi güzəştlərinin tətbiq edilməsi;
7. Kənd təsərrüfatı məhsulları istehsalı, emalı, satışı bazarında antiinhisar siyasətinin gücləndirilməsi;
8. İstehsal olunan kənd təsərrüfatı məhsulunun tədarükü, satışı və kəndlərdə (rayonlarda) müvafiq tədarük anbarlarının yaradılması;
9. Sənaye quşçuluğunun inkişaf proqramının işləyib həyata keçirilməsi;

downloaded from KitabYurdu.org

10. Balıq və balıq məhsullarının istehsalını qaydaya salmaq üçün bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi, balıq ovu, emalı, saxlanması, satışı üzrə müəssisələr şəbəkəsinin yaradılmasına vəsaitin ayrılması, çay və göl balıqçılığının inkişafına köməklik göstərilməsi və s.



downloaded from KitabYurdu.org

# IV F Ə S İ L

# NƏQLİYYAT SEKTORU BEYNƏLXALQ ƏLAQƏLƏR VƏ İQTİSADİ İNKİŞAFDA ƏSAS AMİLDİR

## *4.1. Yolların yaranmasına dair tarixə qısa bir baxış*

Bəşər cəmiyyətinin inkişaf tarixində nəqliyyat mühüm rol oynayan amillərdən biridir. Nəqliyyatın inkişafı cəmiyyətin inkişafı ilə əlaqəli şəkildə istehsal sahələrinin inkişafında və məhsuldar qüvvələrin formalaşmasında təsiredici amillərdən biri olmuş, daim təkmilləşmiş və inkişaf etmişdir. Nəqliyyatın inkişafında və onun sahələrinin formalaşmasında tarixən yer kürəsinin ayrı-ayrı regionlarının, dəniz və okeanlarının öyrənilməsi nəticəsində və həmin ərazilərə gediş-gəlişin təmin olunması zərurətindən irəli gələrək nəqliyyatın ayrı-ayrı sahələrinin inkişafına daim diqqət artırılmışdır. Əgər cəmiyyətin inkişafında maddi nemətlər istehsalı üçün məhsuldar qüvvələrin inkişafı zəruri sayılırdısa, istehsal olunmuş məhsulların daşınması üçün nəqliyyatın sahələrinin inkişafı tələb olunurdu. Bu səbəbdən də istehsalın primitiv alətlərdən istifadə olunduğu dövrlərdə əsas daşıyıcı vasitə at, öküz, araba hesab edilirdisə, istehsal sahələrinin ən yüksək səviyyədə inkişaf etdiyi texnika əsrində istehsal olunmuş məhsulların ölkələr arasında daşınma tələbatına cavab verə bilən və dünya iqtisadiyyatının formalaşmasında daha aktiv iştirak edən



nəqliyyatın yeni mütərəqqi sahələri inkişaf etmişdir. Lakin qeyd etmək lazımdır ki, dünya nəqliyyatının formalaşmasında, ayrı-ayrı dəniz və quru yollarının müəyyən olunmasında görkəmli səyyahların çox böyük xidmətləri olmuşdur.

Aparılan təhlildən aydın olur ki, bütün əsrlərdə yolların hərtərəfli öyrənilməsi bəşər cəmiyyətini daima narahat etmişdir. Bütün tarixi dövrlərdə ayrı-ayrı ölkələrin öyrənilməsi istər nəqliyyat baxımından, istərsə də ölkələrin təbii sərvətlərin öyrənilməsi baxımından dünya ölkələrinin iqtisadi inkişafına təsir göstərən ən mühüm amillər hesab edilmişdir. Dünya ölkələrinin iqtisadi inkişafında tədqiq edilmiş hər bir ərazinin təbii iqtisadi şəraitinin müəyyən olunması və bu əsasda həmin resursların istehsal dövriyyəsinə cəlb olunması üçün məhsuldar qüvvələrin inkişafı dövrün tələblərinə cavab verəcək səviyyədə formalaşırdı. Dünya iqtisadiyyatının inkişafında XIX əsrin axırları və XX əsrin əvvəllərində məhsuldar qüvvələrin təsir dairəsi daha intensiv hal almağa başlamışdır.

Məhz bu baxımdan Azərbaycanın, o cümlədən Naxçıvan MR-nın nəqliyyat sisteminin inkişafı və iqtisadiyyatda oynadığı rol da mühüm əhəmiyyət kəsb edir. Araşdırmalardan məlum olur ki, ölkələrarası ticarət əlaqələrində yollar mühüm rol oynamışdır.

XVIII əsrin sonu – XIX əsrin başlanğıcında Qarabağ xanlığında digər ticarət yollarından əlavə, Şuşadan Gorusa və Naxçıvana, Mərəndə və Meğri

downloaded from KitabYurdu.org

mahallarından keçməklə Ordubada at və digər heyvanlarla yük daşımaq üçün cığırlar mövcud idi.

Bəhs olunan dövrdə İrəvan və Naxçıvan xanlıqlarına hücum edən rus ordusunun təchizini yaxşılaşdırmaq məqsədilə general İ.F.Paskeviç əmr etmişdir ki, Şuşa ilə Naxçıvan arasında Salvartı dağından keçməklə araba yolu çəkilsin. Lakin tezliklə aydın oldu ki, \Salvartı dağında çox kəskin eniş-yoxuşlar olduğu üçün arabaların hətta yay vaxtı da buradan keçməsi çətin olacaqdır. Ona görə də yolu Salvartıdan bir qədər aralı – Ağ karvansaradan keçməklə çəkmək qərara alındı. Rus əsgərləri yolun Naxçıvançay boyunca Qarababadan keçməklə dağlara doğru yuxarı qalxan hissəsini arabaların hərəkəti üçün yararlı hala saldılar. Lakin regionda hərbi əməliyyatların tezliklə başa çatması ilə əlaqədar, qeyd olunan istiqamətdə yol çəkilməsi davam etdirilmədi.

Bu yol qədim və orta əsrlərdə Avropanı İran, Mərkəzi Asiya və Hindistanla birləşdirən məşhur karvan yolunun bir hissəsi idi. Böyük coğrafi kəşflər, yüz ildən artıq davam etmiş Səfəvi-Osmanlı müharibələri, XVIII yüzillik boyu Qafqazda, İranda və Əfqanıstanda baş verən hərbi əməliyyatlar və daxili feodal çəkişmələri nəticəsində bu ticarət yolu öz əvvəlki əhəmiyyətini tədricən itirməyə başlamışdı. Artıq XIX əsrin başlanğıcında bu yoldan tranzit ticarət əməliyyatlarında çox az istifadə olunurdu. Həmin yoldan Dilican dərəsi vasitəsilə İrəvana, oradan da həm Naxçıvana, həm də Ərzuruma və Qarsa doğru karvan yolları uzanırdı. Bu yollarla Tiflisə və Qafqazın qərb hissəsinə Şəki, Şamaxı, Naxçıvan, Təbriz və Urmiyadan xam ipək, ipək və pambıq parçalar, pambıq və meyvələr aparılırdı.



Naxçıvan xanlığı ərazisindən keçən başlıca yol Təbrizlə Tiflis arasındakı karvan yolu idi. Ümumi uzunluğu 615 verst olan bu yol Araz çayı üzərində Culfa keçidindən Naxçıvan şəhərinə, oradan da İrəvan və Tiflisə tərəf uzanırdı. Bu karvan yolu Təbrizdən Şimali Azərbaycana doğru olan 4 yol içərisində (digər yollar Xudafərin körpüsündən keçməklə Gəncəyə, Qaradağdan keçməklə Biləsuvara və Ərbədildən keçməklə Lənkərana doğru – N.Ə.) ən rahatı və əlverişlisi idi. Bu çox mühüm ticarət arteriyasından Təbrizi Qara dəniz limanları vasitəsilə Avropa ölkələri ilə birləşdirən ən qısa yolun bir hissəsi kimi daha əvvəlki dövrlərdən istifadə olunurdu. Təbrizdən Mərəndi keçməklə Culfaya kimi yolun uzunluğu 147 verstə bərabər idi. Araz çayı üzərindəki Culfa keçidində bərə inşa edilmişdi və bir dəfəyə çayın əks sahilinə 30 puda qədər yük keçirmək mümkün idi. Culfadan Naxçıvana kimi 18 verst, Naxçıvandan İrəvana kimi isə 132 verst idi. Naxçıvan xanlığı ərazisində yol enli və hamar olub, araba və faytonların hərəkətinə yarayırdı.

Naxçıvan ərazisindən daha iki karvan yolu keçirdi. Onlardan biri Osmanlı dövləti və Cənubi Azərbaycanın şimal-qərb hissəsindən Naxçıvan xanlığına və buradan da Şuşaya və Xəzər dənizi sahillərinə tərəf uzanırdı. Bu yol çox kəsə olub, Culfadan Əlincə çayı boyunca çayın mənbəyinə tərəf, oradan da Qarabağ dağlarını aşaraq Şuşaya doğru idi. Yol üzərindəki

downloaded from KitabYurdu.org

çoxlu karvansara qalıqları, onun əvvəllər mühüm ticarət arteriyası olduğunu göstərirdi. Digər yol Naxçıvandan Naxçıvançay boyunca Qarababaya, oradan da Qarabağa doğru uzanırdı. Hər iki yol ensiz idi və bir neçə yerdə çınqıllıqdan keçdiyi üçün, onlarla yalnız yük heyvanlarının hərəkət etməsi mümkün idi.

Dərələyəz mahalı Naxçıvanın digər hissəsindən dağlarla ayrılmışdı və yalnız 4 dağ çığırı ilə Naxçıvanla əlaqə saxlaya bilirdi.

Ordubad mahalında iki rahat yol var idi. Onlardan biri Naxçıvana, digəri Qarabağ xanlığına doğru idi. Bu karvan yollarından əlavə, Ordubad mahalında şərqə tərəf, Zəngəzur dağlarından keçməklə 3 cığır da mövcud idi. Bir cığır Gilənçay dərəsi ilə Bist kəndindən yuxarı qalxırdı. İkinci cığır Ordubad çayı boyunca Nüs-nüs kəndinə, oradan da dağlara doğru idi. Üçüncü cığır isə Araz çayının sıldırımlı sahilləri ilə Qərcevana, Meğriyə və Cənubi Qarabağa aparırdı. Bu sonuncu cığırı yerli sakinlər sal qayaları çapmaqla qismən yararlı hala sala bilmişdilər.

Naxçıvan və Ordubad ərazisindən keçən ticarət karvanlarının hərəkətini asanlaşdırmaq üçün Culfa bərə-keçidindən əlavə Araz çayı üzərində bir neçə başqa bərə-keçidi də düzəldilmişdi. Onlardan ən mühümləri Dəhnə kəndi yaxınlığında (Şərur mahalında), Qarahəsənli kəndi qarşısında Makuya gedən yol üzərində, Şahtaxtı və Abbasabad kəndləri (Naxçıvan mahalında) qarşısında fəaliyyət göstərirdi. Ordubad mahalında isə Yaycı və Dəstə kəndləri yaxınlığında, həmçinin Ordubadın qarşısında Siari keçidində bərə-



keçidlər mövcud idi. Sonuncu bərə-keçidi Qaradağ xanlığına gedən böyük ticarət yoluna xidmət edirdi.

XIX əsrin başlanğıcında bu bölgədə ticarət karvanlarının digər su maneələri üzərindən keçməsini asanlaşdırmaq üçün daha əvvəlki dövrlərdə inşa edilmiş bir neçə körpüdən də istifadə edilirdi. Məsələn, İrəvandan Naxçıvana doğru yolun Zəngi çayından keçdiyi yerdə 4 tağlı möhkəm və yaraşıqlı körpü mövcud idi. Bundan əlavə, Naxçıvan şəhərinin içərisindən keçən çay üzərindən möhkəm körpü salınmışdı. Dərələyəz mahalında Şərur yaxınlığında Arpa çayı üzərindəki daş körpü də bəhs olunan dövrdə istifadə yararlı idi. Naxçıvan bölgəsinin şərq hissəsində isə memarlıq baxımından çox qiymətli sayılan Əlincə çayı üzərindən salınmış XV-XVI əsrlərə aid bir tağlı Daş körpü nəqliyyat əlaqələrində mühüm rol oynayırdı.

Naxçıvan xanlığından keçən başlıca karvan yolları tranzit ticarətdə mühüm rol oynayırdı. Azərbaycanın şimal torpaqlarına, Qərbi və Mərkəzi Qafqaza İran malları əsasən Naxçıvan vasitəsi ilə daxil olurdu. Eyni zamanda, xanlığın daxilində Naxçıvanı və Ordubadı ayrı-ayrı yerlərlə birləşdirən karvan yolları da ticarət əlaqələrinin inkişafında böyük əhəmiyyətə malik idi. XIX əsrin başlanğıcında burada daxili ticarətin illik dövriyyəsinin 160 min rubla çatması həmin yolların kifayət qədər işlək olduğunu göstərirdi.

XIX əsrin sonları və XX əsrdə də Azərbaycanla xarici ölkələr arasında ticarət əlaqələrinin genişlənməsində yollar mühüm rol oynamışdır.

downloaded from KitabYurdu.org

Sovet hakimiyyəti illərində respublikamızda geniş imkanlara malik yol-nəqliyyat infrastrukturu formalaşmışdır.

Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdikdən sonra böhran vəziyyətinə düşən ölkəmizi böhrandan çıxarmaq və onu inkişaf yoluna salmaq H.Əliyevə nəsib olumşdur.

Ulu Öndərin ikinci dəfə hakimiyyətə gəlməsi və iqtisadi böhrandan çıxmaq üçün radikal islahatlara başlaması nəticəsində çox qısa bir müddət ərzində ölkədə makroiqtisadi sabitlik əldə edildi və inkişaf başladı.

İnamla deyə bilərik ki, bu islahatlar sosial-iqtisadi həyatımızın çox mühüm sahəsi olan yol-nəqliyyat kompleksinə də gözəl bəhrələr verir.

Qeyd etmək lazımdır ki, yol-nəqliyyat kompleksinin yüksək inkişafı yenə də Ulu Öndərimizin respublika rəhbəri olduğu dövrə təsadüf edir.

Ümumiyyətlə, Ümummilli lidermizin Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyasında yol-nəqliyyat kompleksinin müasir beynəlxalq standartlar səviyyəsinə qaldırılmasına xüsusi yer ayrılmışdır. 1993-2003-cü illərdə bu sahədə qazanılmış nailiyyətlərin miqyası çox genişdir: yol-nəqliyyat sahəsində vahid dövlət siyasətinin istiqamətləri müəyyənləşdirilmiş, mükəmməl normativ-hüquqi baza işlənib hazırlanmış, irihəcmli layihələrin icrasına başlanmış, onlardan bəziləri Ulu Öndərin xeyir-duası ilə həyata



vəsiqə almışdır. Bu siyasət möhtərəm Prezident İlham Əliyev tərəfindən çox uğurla davam etdirilir.

Dövlətimizin başçısı ölkəmizdə yol-nəqliyyat kompleksinin yenidən qurulması istiqamətində görülən işləri daim nəzarətdə saxlayır. Azərbaycan prezidenti başqa sahələrdə olduğu kimi yol-nəqliyyat kompleksində də dəqiq və mükəmməl proqramların işlənib hazırlanmasının və icra edilməsinin təşəbbüsçüsüdür. «Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkişafına dair Dövlət Proqramı (2006-2015-ci illər)» kimi mühüm strateji sənədlərdə nəzərdə tutulmuş tədbirlər dövlət başçısının nəzarəti altında vaxtında və keyfiyyətlə yerinə yetirilir.

Ümumiyyətlə, yolların sosial-iqtisadi əhəmiyyəti nəzərə alınaraq muxtar respublikada da xeyli iş görülür. Naxçıvan MR Ali Məclisi sədrinin daimi diqqəti və qayğısı nəticəsində burada köhnə yollar bərpa edilir və yeni yollar tikilib istifadəyə verilir. 2006-cı ildə muxtar respublikada bütövlükdə 118 kilometrə yaxın qəsəbə və kənd yollarına asfalt-beton salınmış, əsaslı bərpa işləri aparılmışdır. Bu yolların 34 kilometri şəhər və qəsəbələrin, 84 kilometri isə kənd yollarının payına düşmüşdür.

Nəqliyyat kompleksinin inkişafı üçün hazırda muxtar respublikada nəqliyyat sisteminin təhlükəsizliyinin təmin edilməsi, avtomobil yollarının və yol infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən mövcüd yolların bazasında beynəlxalq əhəmiyyətli tranzit yolların salınması, nəqliyyat vasitələrinin rahat və təhlükəsiz hərəkəti tədbirlərinin həyata keçi-

downloaded from KitabYurdu.org

rilməsi, dəmir yolu infrastrukturunun müasir tələblər səviyyəsinə çatdırılması, şəhər nəqliyyatı işinin ekoloji təmizlik və sərnişin daşınmasında daha səmərəli nəqliyyat növlərinin istifadə prinsiplərini əsas götürərək müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində mühüm işlər aparılmışdır.

### *4.2. Dəmir yolu nəqliyyatı*

Dövlətin hərtərəfli inkişafında dəmir yolu mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan 120 ildən çox tarixi olan Azərbaycan dəmir yolunun son illər ölkənin iqtisadi inkişafında fəaliyyəti və dinamik işləməsi bir daha təsdiq edir ki, güclü infrastruktura malik olmayan, dövrün tələblərinə cavab verən yol-nəqliyyatı olmadan ölkə iqtisadiyyatında əsaslı dönüş yaratmaq mümkün deyil. Elə ona görə də hələ XIX əsrin ikinci yarısından başlayaraq dəmir yollarının çəkilişinə xüsusi diqqət yetirilirdi. Ölkə ilə yanaşı onun regionlarına dəmir yol xəttinin çəkilişinə də mühüm əhəmiyyət verilirdi.

Xüsusi komissiyanın 1873-cü il dekabrın 22-də keçirilmiş iclasında rus ordusunun istefada olan generalı A.D.Falgenhagenin Tiflisdən Culfaya kimi 441 verst uzunluğunda dəmir yolu xətti çəkilməsi və sonra da onun Təbrizə qədər uzadılması təklifi bəyənilmişdir. Komissiya hətta Tiflis-Bakı xəttinə nisbətən Tiflis-Culfa xəttinin çəkilməsinin daha vacib olduğunu, onun həm İranla tranzit ticarətin inkişafı, həm imperiyanın daxili rayonları ilə İrəvan və Gəncə



quberniyaları arasında etibarlı əlaqələrin yaradılması, həm də strateji mülahizələrə görə böyük əhəmiyyətə malik olduğunu qeyd etmişdir.

Hələ bu dəmir yolu çəkildiyi zaman Qafqazdakı rus qoşunlarının komandanlığı və İrəvan qubernatoru Aleksandop stansiyasından İranla sərhəddə yerləşən Culfaya dəmir yolu xətti çəkilməsinin hərbi-strateji və ticarət-iqtisadi mülahizərələ görə zəruri olmasını bildirmişdilər.

Nəhayət, 1907-ci ilin payızında Naxçıvanla Culfa arasında da dəmir yolu xətti çəkilməsi işi başa çatdırıldı. Həmin il noyabrın 24-dən 27-nə kimi bütövlükdə Uluxanlı-Culfa dəmir yolunun hökumət komissiyası tərəfindən yoxlanılması həyata keçirilmişdir. 1908-ci il yanvarın 20-də isə 178,37 verst uzunluğunda olan bu dəmir yolu xəttinin rəsmi açılışı olmuşdur. Çar xəzinəsinə 14,1 milyon rubla başa gələn bu dəmir yolu Qafqaz canişinliyinin mərkəzini İran sərhədi ilə birləşdirmişdir.

Dəmir yollarının istifadəyə verilməsi Naxçıvanda iqtisadiyyatın inkişafına səbəb olmuşdur.

Dəmir yollarının çəkilməsi Naxçıvan və Şərur-Dərələyəz qəzalarında pambıqçılığın və şərabçılığın inkişafına mühüm təsir göstərmişdir.

XIX əsrin 80-ci illərindən başlayaraq üzümçülük və bağçılığın inkişafı da nəqliyyat əlaqələrinin yaxşılaşması ilə birbaşa bağlı idi. Dəmir və şose yolları çəkildikdən sonra üzüm və digər meyvə məhsullarının Azərbaycanın və Qafqazın hüdudlarından kənara çıxarmaq imkanı yaranmışdır. Bu da öz növ-

downloaded from KitabYurdu.org

bəsində kənd təsərrüfatının bu perspektivli sahəsinin inkişafını sürətləndirmişdir.

Naxçıvan və Şərur-Dərələyəz qəzalarında 1901-ci ildə üzüm istehsalı 191 min pud, 1913-cü ildə isə 538 min pud olmuşdur.

Uluxanlı-Culfa dəmir yolu istifadəyə verildikdən sonra Naxçıvan qəzasından da meyvə və bostan-tərəvəz məhsulları, xüsusən quru meyvə ixracı kəskin surətdə artmışdır. Dəmir yolu stansiyasının məlumatına görə, Culfa stansiyasından 1908-ci ildə 409 min pud, 1909-cu ildə 745 min pud, 1913-cü ildə isə 1452 min pud kişmiş, qaysı və s. bu kimi məhsullar yola salınmışdır.

XIX əsrin sonu və XX əsrin ilk onilliklərində dəmir yolu nəqliyyatının inkişafı, dəmir yolu stansiyaları ilə qəza mərkəzləri, iqtisadi-ticarət əhəmiyyətinə malik digər yaşayış məntəqələri və şəhərlər arasında şose və torpaq yolların çəkilməsi Azərbaycanın sosial-iqtisadi həyatında da əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Sosial-iqtisadi həyatdakı əsas yeniliklər əmtəə-pul münasibətlərinin ən ucqar ərazilərə də yayılması və daxili bazarın əhəmiyyətli dərəcədə genişlənməsi, yaxın və uzaq xarici ölkələrlə ticarət əlaqələrinin yüksək sürətlə inkişaf etməsi, yolların qovuşuğundakı yaşayış məntəqələrinin, xüsusilə dəmir yolu stansiyalarının ölkə iqtisadiyyatında mühüm rol oynayan sənaye və ticarət ocaqlarına çevrilməsinə gətirib çıxarmışdır.

XX əsrin ortalarından başlayaraq Naxçıvan Muxtar Respublikasında nəqliyyat sistemi daha da



inkişaf edərək iqtisadiyyatın inkişafında mühüm rol oynamışdır.

Müstəqillik əldə etdikdən sonra bazar münasibətlərinə keçən ölkəmizdə nəqliyyat sektoru özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Demək olar ki, müasir bazar iqtisadiyyatı şəraitində istər daxili, istərsə də dünya ölkələrinin iqtisadi inkişafında nəqliyyat sektorunda inkişaf getdikcə yeni forma alır.

Nəqliyyat sektorunun formalaşmasını amerikan alimi Bilyam Xey xarakterizə edərək göstərir ki, «Nəqliyyat sistemi dövlətdir – bu əsas arteriyadır, ölkə iqtisadiyyatının qidalanma şirəsidir».

Nəqliyyatın inkişaf etdirilməsi müasir şəraitdə dünya ölkələrinin qarşısında duran vacib problemlərdən hesab edilir.

Ötən illər ərzində əsas nəqliyyat sahələrindən sayılan dəmir yolu nəqliyyatını dünya standartlarına uyğunlaşdırmaq üçün xeyli önəmli işlər görülmüş, Azərbaycan ərazisində mövcud yolların xeyli hissəsi yenidən qurulmuş, körpülər salınmış və bəzi tikinti-bərpa işləri həyata keçirilmişdir. Nəticədə yüklərin tranziti prosesində yaranan bu cür səmərəli şərait imkan vermişdir ki, Avropa ölkələrindən dəmir yolu ilə daşınacaq yüklər Transqafqaz nəqliyyat dəhlizi vasitəsilə Azərbaycan dəmir yoluna həvalə edilsin. Üstün cəhətlərdən biri də budur ki, yüklərin tranziti Avropadan Asiyaya və eyni zamanda Asiyadan da əks istiqamətdə Avropaya doğru həyata keçiriləcəkdir. Avropa və Asiya regionunda yerləşən maraqlı dövlətlər

downloaded from KitabYurdu.org

təbii bir prosesin axınına düşərək beynəlxalq münasibətlər sistemində qarşılıqlı şəkildə inteqrasiya olunacaqlar. Nəticədə, Transqafqaz nəqliyyat dəhlizinin mərkəzində yerləşən respublikamız dünya birliyinin bərabərhüquqlu üzvlərinə çevrilmə prosesində öz layiqli yerini tutacaqdır.

Hər bir ölkənin və regionun iqtisadi əlaqələrinin inkişaf etdirilməsi ərazinin yerləşdiyi coğrafi mövqedən, nəqliyyat sahələrinin inkişaf səviyyəsindən çox asılıdır. Naxçıvanın əlverişli strateji mövqedə yerləşməsi, İran və Türkiyə respublikaları ilə qonşuluq mövqeyində olması və nəqliyyatın bir çox sahələrinin inkişaf etdirilməsi xarici iqtisadi əlaqələrin inkişafına zəmin yaradan amillərdən biri kimi qiymətləndirilir. Digər tərəfdən muxtar respublikanın daxili rayonlararası iqtisadi əlaqələrdə yerli şəraitdə istehsal edilən bir sıra sənaye və kənd təsərrüfatı məhsullarının tədarükü zamanı əlaqələndirilməsi mühüm əhəmiyyət kəsb edir. Həmin iqtisadi əlaqələrin inkişafına təsir göstərən ən başlıca amil nəqliyyat hesab edilir. Muxtar respublikanın qapalı bir ərazi olmasına baxmayaraq, başqa iqtisadi rayonlarla müqayisədə istər daxili, istərsə də xarici iqtisadi əlaqələrin inkişafına təsir göstərə bilən nəqliyyatın bir çox sahələri fəaliyyət göstərir ki, burada dəmir yol nəqliyyatının rolu danılmazdır.

Zaqafqaziya dəmir yolunun tərkibində Culfa-Noraşen dəmir yolu kimi fəaliyyət göstərən bu xəttin uzunluğu isə 113 kilometr olmuşdur. Belə bir nəqliyyat növünün yaradılması nəinki muxtar respubli-



kamızın, eləcə də ölkəmizin bütün əhalisinin həyatında mühüm rol oynamışdır. Belə ki, 1918-ci il sentyabrın 15-də Nuru Paşanın komandanlıq etdiyi Qafqaz Türk Ordusu Culfa stansiyası vasitəsilə Azərbaycanda yerləşdirilmiş və bununla da Bakıda nahaq qan tökülməsinin qarşısının alınmasında fədakarlıq göstərmişdir.

Xalq təsərrüfatı yüklərinin və sərnişindaşıması işində dəmir yolunun danılmaz fəaliyyəti onun daha da inkişaf etdirilməsini tələb etdiyindən, sonralar Culfa-Bakı dəmir yolunun çəkilməsinə başlanılmışdır. 1924-cü il may ayının 30-da tam istifadəyə verilən bu dəmir yolu xətti Naxçıvan diyarı ilə Azərbaycan Respublikasının paytaxtını birləşdirib. 1969-cu ildə Ümummilli liderimiz Heydər Əliyevin respublika rəhbərliyinə gəlişi bütün ölkədə sənaye kompleksinin sürətli inkişafının başlanğıcı oldu ki, bu da öz növbəsində iqtisadiyyatın başqa sahələri ilə yanaşı, dəmiryolu nəqliyyatında da aparıcı rol oynadı. Əgər 1969-cu ilə qədər dəmir yolunda 129 stansiya vardısa, qısa müddətdə onların sayı 176-ya çatdırılmışdır. Bu dövrdə 482,8 kilometr uzunluğunda dəmir yolu xətti çəkilmişdir. Ələt-Astara, Naxçıvan-İmişli, Şərur-Culfa və digər sahələrdəki stansiyalarda yoldəyişdirici və idarəetmə qurğularının tam dispetçer mərkəzləşdirilmiş qurğusu təmin olunmuşdur. Azərbaycan dəmir yolunun böyük həcmdə elektrikləşdirilməsi də Ulu Öndərin respublikaya rəhbərliyi dövründə həyata keçirilmişdir. Elektrikləşdirilmiş sahənin uzunluğu 1284 kilometrə çatdırılmışdır ki, bu da ümumi uzun-

downloaded from KitabYurdu.org

luğun 61 faizini təşkil etmişdir. Azərbaycan Dövlət Dəmir yolunun Naxçıvan hissəsi də xalqımızın Ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ildə yaradılmışdır. Sarıcallar-Astara-Şərur sahələrini əhatə etmiş həmin dəmir yolunun uzunluğu 870 kilometr olmuşdur. Bu dəmiryolu vasitəsilə əsasən xalq təsərrüfatı yükləri, sərnişindaşımaları və hərbi yüklərin daşınması həyata keçirilmişdir. Eyni zamanda bu dəmir yolu vasitəsilə İran İslam Respublikası ərazisindən beynəlxalq səviyyəli yüklərin daşınması da təşkil olunmuşdur.

Sovetlər dönəmində ölkəmizin «qan damarları» sayılan dəmir yolunda xalq təsərrüfatı yüklərinin daşınması və sərnişinlərin mənzil başına vaxtında çatdırılması üçün əvvəllər paravoz, sonralar isə teplovozdan istifadə edilmişdir. 1988-ci ildə Culfa-Şərur sahəsinin elektrikləşdirilməsi ilə yanaşı, qatarların hərəkəti müasir VL-8 tipli elektrovozlar vasitəsilə həyata keçirilmişdir. Eyni zamanda, dəmir yolu sahəsində intensivliyi artırmaq məqsədilə avtobloklama işi başa çatdırılmış və mərkəzləşdirilmiş dispetçer məntəqəsi istismara verilmişdir.

Lakin erməni ekstremistlərinin başladıqları ədalətsiz müharibə Azərbaycan xalqının, xüsusən də Naxçıvan dəmir yolçularının dinc fəaliyyətini yarımçıq qoymuşdur. Bunun nəticəsində nankor qonşumuz dövlətimizin iqtisadiyyatına, xüsusən də muxtar respublikamızın dəmir yol nəqliyyatına böyük zərbə vurmuşdur. Hazırda Azərbaycan Dövlət Dəmir yolunun Naxçıvan hissəsinin Bartaz, Nüvədi, Astazur,


Mehri, Qərçivan, Zərəni stansiyaları daxil olmaqla, 47 kilometr uzunluğunda hissə ermənilərin işğalı altındadır. Həmin ərazilərdəki külli miqdarda dəmir yol texnikası avadanlığı və əmlakı ermənilər tərəfindən dağıdılaraq məhv edilmişdir. Erməni vəhşiləri Naxçıvan hissəsinə 30 milyon manata yaxın ziyan vurmuşlar. Bir faktı da qeyd edək ki, erməni terrorçularının günahı ucbatından ümumilikdə 20 mindən çox dəmir yolçu ailəsi qaçqına çevrilmişdir. Naxçıvan Muxtar Respublikası ərazisindəki dəmir yol magistralının hərəkətsiz olması regionun sosial-iqtisadi həyatına bu gün də öz təsirini göstərməkdədir. Belə ki, dəmir yolunun Naxçıvan hissəsi əsas fəaliyyət sahəsinin çox hissəsindən – Salamməlik-Əlibayramlı-Astara sahələrindən təcrid olunmuşdur.

On beş ildən çox bir dövr ərzində erməni işğalçıları tərəfindən Bakı-İmişli-Culfa dəmir yolunun ətrafında yerləşən bir sıra rayonların işğal olunması həmin dəmir yolunun dayandırılmasına və Naxçıvan MR-in blokada şəraitində qalmasına səbəb olmuşdur. Ona görə də muxtar respublika ərazisi daxilində dəmir yolu ilə yüklərin daşınması həyata keçirilməklə bərabər İran dövləti ilə Culfa dəmir yolu vasitəsilə iqtisadi əlaqələr inkişaf etdirilir, yükdaşıma əməliyyatları həyata keçirilir.

Ölkə nəqliyyatının əsaslı şəkildə yeniləşməsi, xüsusilə dəmir yolu şəbəkəsinin genişləndirilməsi və yenidən qurulması bu baxımdan diqqəti cəlb edir. Son 10 il ərzində bütün nəqliyyat növləri ilə yük daşınması orta hesabla hər il 13,4 faiz, o cümlədən də-

downloaded from KitabYurdu.org

mir yolu nəqliyyatında 12 faiz artmışdır. Ölkə nəqliyyatının arteriyası hesab olunan dəmir yolunun fəaliyyətində son illər müşahidə edilən yüksəliş 2006-2007-ci illərdə də davam etmişdir. Təkcə 2006-cı ildə dəmir yolu ilə 29,7 milyon ton yük daşınmışdır ki, bu da 2005-ci ilə nisbətən 11,9 faiz çoxdur.

Naxçıvan MR daxilində Qızılvəng, Şərur, Culfa, Ordubad dəmir yolu stansiyaları daxili və xarici yük daşımanın tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir. Əsas yük yaradan mənbələr muxtar respublikanın daxili yük axınları hesabınadır. Daşınan yüklərdən tikinti materialları və kənd təsərrüfatı məhsulları üstünlük təşkil edir. Son illər dəmir yolu ilə respublikanın müxtəlif regionlarına göndərilən yüklərin qarşısı alındığı üçün ümumi yük balansı aşağı düşmüşdür. Dəmir yolunun muxtar respublika daxilində yük və sərnişin daşıma əməliyyatlarını yerinə yetirməklə bərabər, sosial-iqtisadi inkişafın formalaşmasında müsbət təsiri vardır.

Əlverişli nəqliyyat şəraitinə malik olan ərazidə istehsal olunmuş məhsulun başqa rayonlara və ölkələrə göndərilməsi üçün daha əlverişli şərait vardır. Naxçıvan MR-da bir neçə stansiyalar vardır ki, onlar mühüm nəqliyyat mərkəzləri və nəqliyyat qovşaqları funksiyasını yerinə yetirir. Bu xüsusiyyətləri nəzərə alıb həmin stansiyaların iqtisadi əlaqələrdə olan mövqeyinin açılmasını məqsədəuyğun hesab edirik. Naxçıvan dəmir yolu stansiyası yük və səərnişin dövriyyəsinə görə Culfa dəmir yolu qovşağından sonra ikinci mühüm stansiya hesab edilir. Bu stansiya mər-



kəzləşdirilmiş qayda ilə Babək, Naxçıvan şəhəri və Şahbuz rayonlarının yük əməliyyatlarının yerinə yetirilməsində bilavasitə mərkəz rolunu oynayır.

Culfa dəmir yolu stansiyası muxtar respublika daxilində yük daşınma əməliyyatlarını yerinə yetirməklə bərabər, İran İslam Respublikasına dəmir yolu ilə yüklərin ötürülməsində tənzimləyici roluna malikdir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, beynəlxalq aləmdə hər bir bölgənin yüksək iqtisadi inkişaf əlamətləri ilk növbədə dünya bazarının təşəkkülündə onun nə qədər fəal rol oynadığı ilə ölçülür. Bu cəhətdən hələlik ərazicə Azərbaycandan təcrid olunmuş Naxçıvanın yüksək iqtisadi inkişafı üçün onun beynəlxalq ərazi-əmək bölgüsündə geniş inkişaf imkanları xeyli böyükdür. Muxtar respublika ilk növbədə dünya bazarına özünün əhəmiyyətli mineral şəfa sularını (bu suların müəyyən hissəsi dünya bazarına çıxarmasına baxmayaraq gələcəkdə istehlakçı dövlətlərin sayını artırmaq lazımdır), keyfiyyətli tikinti materialları (travertin, mərmər və s.), müxtəlif çeşidli konservlər, şərab və konyak məhsulları, Daş duzdan hazırlanan son dərəcə dəyərli və müalicə xüsusiyyətlərinə malik mətbəx duzu, yüksək xassələri ilə dünyada şöhrət qazanmış təzə üzüm, müxtəlif meyvələr və onların qurudulmuş məhsullarını çıxarmaqla dünya ölkələri ilə sıx iqtisadi əməkdaşlıq yarada bilər. Bunun üçün birinci növbədə Naxçıvan Muxtar Respublikasının Türkiyənin dəmir yolları şəbəkəsinə qoşulması və Avropa ölkələrinə çıxışı əldə edilməlidir.

downloaded from KitabYurdu.org

### 4.3. Avtomobil nəqliyyatı

Müasir dövrdə strateji inkişaf xətti kimi demokratik cəmiyyət quruculuğu və bazar iqtisadiyyatı yolunu seçən Azərbaycan Respublikası dünya təcrübəsində uğurla sınaqdan keçmiş ümumbəşəri dəyərlərdən faydalanmağa çalışır, özünün geniş iqtisadi potensialını hərəkətə gətirmək məqsədilə, inkişaf etmiş ölkələrin qabaqcıl texnologiyasını və maliyyə imkanlarını cəlb edir, onlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini inkişaf etdirir.

Hesab edirik ki, Azərbaycanın bu yolu strateji xətt kimi qəbul etməsi onun duzgun seçimidir. Məhz belə bir strateji xəttin seçilməsinin nəticəsidir ki, müstəqillik əldə etdikdən sonra ötən dövr ərzində Azərbaycan bir dövlət kimi öz suverenliyini möhkəmlətmiş, respublika daxilində ictimai sabitliyə nail olmuş, demokratiyanın inkişafı yolu ilə irəliləmiş və bazar iqtisadiyyatına tədricən isteqrasiyanı təmin etmişdir.

Bir sıra tədqiqatçıların qənaətinə görə, bazar iqtisadiyyatı şəraitində dünya ölkələri arasında gedən inteqrasiya proseslərinin inkişafında başqa amillərlə yanaşı, nəqliyyat faktoru da mühüm əhəmiyyət kəsb edir. Nəqliyyatın dünya ölkələrinin iqtisadi inkişafında «fəqərə» sütunu rolunu oynaması elmə artıq çoxdan məlumdur. Lakin XX əsrin sonunda və XXI əsrin əvvəlində dünya ölkələri arasında iqtisadi əlaqələrin daha geniş vüsət alması nəqliyyatın yeni qlobal problemlərinin aşkar olunmasına təsir göstərmişdir.



Reallıqlar bir daha deyilənlərin həqiqət olduğunu sübut edir ki, nəqliyyat yalnız sərnişin və yükdaşımaları yerinə yetirməklə kifayətlənmir. O, eyni zamanda təbii və əmək resurslarının istehsal dövriyyəsinə cəlb olunmasında, məhsuldar qüvvələrin inkişafında, istehsal sahələrinin ərazi üzrə təşkilində, əhalinin məskunlaşmasında, şəhər və kəndlərin əmələ gəlməsində əsas faktor rolunu oynayır. Buradan belə nəticə çıxır ki, nəqliyyat dünya ölkələrinin qarşılıqlı iqtisadi əlaqələrinin inkişafına müsbət təsir göstərir, dövlətlərarası beynəlxalq münasibətlərin tərəqqisini təmin edir. Ümumilikdə nəqliyyat-kommunikasiya əlaqələrinin səmərəli təşkili xarici əlaqələrə birbaşa güclü təsir göstərən amillərdəndir. Yaxın tariximizin statistik göstəricilərində də bu faktor real şəkildə özünü göstərir. Məsələn, XX əsrin sonunda bütün dünya ölkələri üzrə ümumi yük dövriyyəsinin 62 faizi dəniz nəqliyyatı, 16 faizi dəmiryolu, 11 faizi boru kəməri, 8 faizi avtomobil, 3 faizi isə daxili su yollarının payına düşür.

Hesab edirik ki, statistik göstəricilər nəqliyyat-kommunikasiya əlaqələrində müxtəlif nəqliyyat vasitələrinin rolunun nə qədər əhəmiyyətli olduğunu aydın şəkildə təzahür etdirir. Azərbaycanın mövcud potensialına istinadən, problemi elmi cəhətdən araşdırmağa çalışsaq, fikrimizi aşağıdakı kimi əsaslandıra bilərik.

downloaded from KitabYurdu.org

- XX əsrin sonunda dünyanın mühüm qlobal problemlərindən olan nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafı prosesində Azərbaycanın geopolitik cəhətdən əlverişli mövqe tutması;

- Qara dəniz hövzəsi, İran körfəzi, Aralıq dənizi ölkələrinin iqtisadi əlaqələrində mühüm rol oynayan dəniz nəqliyyatının respublika ərazisindən keçməsi;

- Avropa-Asiya dövlətləri arasında səmərəli iqtisadi əlaqələrin inkişafına şərait yaradan Avropa-Qafqaz-Asiya (Transqafqaz) nəqliyyat dəhlizinin birbaşa respublika ərazisindən keçməsi;

- Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşdığı tərzdə Azərbaycanın tranzit ölkəyə çevrilməsi;

- Azərbaycanın bütün növ nəqliyyat vasitələrinin normal hərəkəti üçün əlverişli mövqeyi;

- Respublikamızın Transxəzər nəqliyyat sistemlərinin mərkəzində yerləşməsi;

- Beynəlxalq əhəmiyyətli nəqliyyat-kommunikasiya vasitələrinin, o cümlədən dəniz, avtomobil, boru kəməri və hava nəqliyyatının inkişaf etməsi, daxili və xarici yükdaşımaların ən səmərəli yollarla həyata keçirilməsi üçün Azərbaycanda əlverişli iqtisadi şəraitin olması;

- Azərbaycan nəqliyyat sisteminin dünya nəqliyyat sistemi ilə əlaqələndirilməsinə daha əlverişli şəraitin reallığı;

- Azərbaycanda bütün növ nəqliyyat-kommunikasiya vasitələrinin hərəkətinin təhlükəsizliyinin təminatı və s.



Qeyd olunan amillər region dövlətləri ilə müqayisədə Azərbaycanın daha böyük üstünlüyə malik olduğunu açıq-aydın göstərir. Burada belə bir sual ortaya çıxa bilər. Dünya dövlətlərinin maraqlarının Azərbaycanda, eləcə də bu regionda cəmləşməsinə səbəb nədir?

Zənnimizcə, problemin açıqlanması bir amil üzərində qurula bilməz. Bunu zəruri edən bir neçə səbəb mövcuddur – siyasi, iqtisadi, hərbi, biznes, enerji təhlükəsizliyi və s. maraqlar.

Bu mənada Qərbin enerji təhlükəsizliyi maraqları və onun təmin olunmasında Asiyanın və Xəzərin karbohidrogen ehtiyatlarından yararlanmaq amili strateji mahiyyət daşıyır. Demək, həmin enerji resurslarının əldə olunmasında maraqlı olan həmin dövlətlər istəklərinə nail olmaqdan ötrü bu sahələrə investisiya qoymağa ciddi-cəhdlə səy göstərməyə məcburdurlar. Belə olan halda həm təbii ehtiyatların zənginliyi baxımından, həm də nəqliyyat-kommunikasiya baxımından əlverişli mövqeyinə görə Azərbaycan istər-istəməz regionun strateji mərkəzinə çevrilir.

Enerji resurslarının hasilatı və onların lazımi məntəqələrə çatdırılması zamanı nəqliyyat-kommunikasiya vasitələrinə tələbatın zəruriliyinə heç bir şübhə qalmır. Qeyd olunan tələbatı yerinə yetirmək üçünsə Azərbaycanın Milli maraqlarına uyğun olaraq, «açıq qapı» iqtisadi siyasəti yeritməsi, yəni yüklərin maneəsiz daşınmasının təmin edilməsi respublikanın bütün nəqliyyat sahələrinin dünya stan-

downloaded from KitabYurdu.org

dartlarına uyğunlaşdırılmasını zəruriləşdirir. Bu zərurəti reallaşdırmaq üçünsə xarici iqtisadi əlaqələr prosesində nəqliyyatın ayrı-ayrı strukturlarına yalnız xarici investisiya qoymaq metodlarından deyil, paralel olaraq, daxili imkanlar hesabına sərmayə qoyuluşundan da istifadə olunmalıdır.

Bazar iqtisadiyyatı şəraitində respublikamızın sosial-iqtisadi inkişafında, təbii və əmək resurslarının səmərəli istifadəsində mühüm rol oynayan amillərdən biri də avtomobil yollarının müasir tələblər səviyyəsində olmasıdır. Hər bir ölkənin iqtisadi inkişafının mühüm göstəricilərindən biri yol şəbəkəsinin inkişafıdır.

Son illər bütün dünya ölkələrində yükdaşımada avtomobil nəqliyyatından daha geniş istifadə olunur. Başlıca səbəb isə avtomobil nəqliyyatının daha çevik olmasıdır. Məhz buna görə dünya ölkələrində avtomobil yollarının inkişaf etdirilməsinə, texniki-iqtisadi göstəricilərin beynəlxalq normalara uyğun olmasına xüsusi fikir verilir.

XXI əsrin əvvəlində Avrasiya ölkələri arasında gedən inteqrasiya prosesləri yük və sərnişin axınlarının intensivləşdirilməsi zəruriliyini daha da artırır. Bu baxımdan istərsə Avrasiya ölkələri, istərsə də avtomobil yollarının birləşməsi baxımından həmin ölkələrin ayrılmaz tərkib hissəsi olan Azərbaycanın avtomobil yollarının texniki göstəriciləri müasir dünya standartlarına uyğunlaşdırılmağı tələb edir.

Azərbaycan Respublikasının Avrasiya ölkələri inteqrasiyasına qoşulması daxili yük axınları ilə yanaşı, tranzit yük axınlarının avtomobil nəqliyyatı ilə intensiv inkişafına şərait yaradan mühüm amildir. Şübhəsiz ki, xarici yük axınlarını tənzimləmək üçün respublikadaxili magistral avtomobil yollarında beynəlxalq standartlara uyğun tikinti işlərinin aparılması son dərəcə vacibdir.



Avropa-Qafqaz-Asiya magistral dəhlizinin, həmçinin «İpək yolunun» Azərbaycanda mərkəzi mövqe tutması yaxın gələcəkdə yükdaşımanın intensivliyini və yük gərginliyini daha da artırmış olacaqdır. Məhz bu baxımdan «İpək yolu»nun inkişafı bütün Avrasiya ölkələrində olduğu kimi, respublikamızın da daxili yol şəbəkəsinin təkmilləşdirilməsini tələb edir.

Avtomobil yollarının təkmilləşdirilməsi təkcə yük və sərnişin axınlarının intensivləşdirilməsi deyil, eyni zamanda respublikanın sosial-iqtisadi inkişafının, təbii və əmək resurslarının istehsal dövriyyəsinə cəlb olunmasında aktiv iştirak edən amillərdən biri kimi qiymətləndirilir. Xüsusilə respublikamızın ərazisi dağlıq olduğundan avtomobil nəqliyyatından daha geniş miqyasda istifadə olunur. Respublikamızın ərazisində fəaliyyət göstərən yollar quruluşuna görə respublika və yeri əhəmiyyətə malik yollara ayrılır. Ümumi avtomobil yolunun 37 faizi respublika, 63 faizi isə yerli əhəmiyyətə malikdir.

Azərbaycanda nəqliyyatın əsaslı şəkildə yeniləşməsi, magistral yolların müasir standartlara uyğunlaşdırılması, avtomobil yollarının genişlənməsi və yenidən qurulması mühüm əhəmiyyət kəsb edir.

downloaded from KitabYurdu.org

Son 10 il ərzində avtomobil nəqliyyatı ilə yük daşınması orta hesabla hər il 18,5 faiz artmışdır.

Ümumiyyətlə, özünün sabit inkişafı ilə fərqlənən avtomobil nəqliyyatı son illər ciddi inkişaf dövrünü yaşamaqdadır. Avtomobil nəqliyyatı sahəsində həyata keçirilən islahatlar uğurlu nəticələr verməkdədir. Ölkə Prezidenti möhtərəm İ.Əliyevin nəqliyyat sektorunun inkişafına yetirdiyi diqqət və qayğı da özünü layiqincə doğruldur. Təsadüfi deyil ki, 2006-cı ildə yol-nəqliyyat infrastrukturunun inkişafı geniş vüsət almış, bu məqsədlə 162,5 milyon manat vəsait ayrılmaqla müxtəlif rayonların ərazisində körpülərin inşasına başlanmış, 800 kilometrə qədər respublika əhəmiyyətli şəhərdaxili və kəndarası avtomobil yollarının tikintisi və əsaslı təmiri həyata keçirilmişdir. Bütün bunlar bir daha göstərir ki, infrastruktur sahələrin inkişafı, nəqliyyat sahəsinin ən müasir tələblər səviyyəsinə çatdırılması dövlət siyasətinin prioritet istiqamətlərindən və möhtərəm Prezidentimiz İlham Əliyevin iqtiadi doktrinasının ən mühüm prinsiplərindən biridir.

Ölkədə keyfiyyətli yolların çəkilməsi və bu yolların dünya standartlarına uyğun gəlməsi məsələlərindən bəhs edən Prezident İlham Əliyev Nazirlər Кabinetinin 2006-cı ilin sosial-iqtisadi yekunlarına və 2007-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: «Biz ən müasir sistemi burada tətbiq etməliyik. Yeni yollar, yol ötürücüləri, işıqforlar, nəzarət sistemi, tənzimləmə sistemi, şəhər nəqliyyatı sisteminin tənzimlənməsi – bütün bunlar vahid



bir mexanizmdir. Əgər biz sadəcə yolları, körpüləri tiksək, bu məsələnin həlli deyildir. Ona görə biz məsələyə əsaslı yanaşmalıyıq və dünyada mövcud olan ən müsbət praktikanı Azərbaycanda tətbiq etməliyik…».

Ölkədə olduğu kimi muxtar respublika iqtisadiyyatının inkişafında da nəqliyyatın xüsusi rolu vardır. Yeni yolların salınması, körpü tikintisi sahəsində əldə olunan nailiyyətlər ildən-ilə artmaqdadır. Blokada şəraitində olmasına, ölkələrin digər bölgələrindən təcrid olunmasına baxmayaraq muxtar respublika daxilində nəqliyyatın inkişafı öz dinamikası ilə fərqlənir.

Naxçıvan MR Ali Məclisi, onun Sədri nəqliyyat sektorunun, o cümlədən avtomobil yollarının və körpülərin tikintisinə, təmirinə və asfalt-beton salınmasına daima diqqət yetirir. Bu XX əsrin son illərində də, XXI əsrin əvvəllərində də belə olmuşdur. Əgər biz nəqliyyat sektorunun ölkənin əsas arteriyası olduğunu nəzərə alsaq, onda iqtisadiyyatın inkişafında onun nə qədər mühüm əhəmiyyətə malik olduğu məlum olar. Məhz bu baxımdan Naxçıvan MR Ali Məclisinin bu sahəyə nə qədər böyük önəm verdiyi təsadüfi deyildir.

Təkcə 2006-cı ildə Naxçıvançay üzərində yeni körpünün tikintisi, Culfa-Ordubad avtomobil yolunun asfalt-beton örtüyünün əsaslı təmiri başa çatdırılmışdır. Şahbuz rayonunun Nursu kəndində çınqıl yol əsasının tikintisi, Naxçıvan şəhəri Pişəvəri küçəsində və Culfa rayonunun Yaycı kəndində av-

downloaded from KitabYurdu.org

tomobil yolunun asfalt-beton örtüyünün, Naxçıvan şəhəri C.Məmmədquluzadə küçəsində avtomobil yolunun əsaslı təmiri, Şərur rayon Yol Təmir İstismarı İdarəsinin nəzdindəki asfalt-beton zavodunun yenidən qurulması, Şahbuz rayonunun Nursu kəndində, Babək rayonunun Qaraqala kəndində, Culfa rayonunun Qazançı kəndində və Şərur rayonunun Dizə kəndində körpülərin təmiri başa çatdırılmışdır.

Şahbuz rayonunun Külüs kəndinə giriş avtomobil yolunda istinad divarının tikintisi, Şərur-Kürkənd avtomobil yolunda asfalt-beton örtüyünün əsaslı təmiri, Ordubad rayonunun Aza-Biləv-Bist avtomobil yolunda su keçidinin təmiri aparılmışdır.

Şərur rayon Yol Təmir İstismarı İdarəsinin nəzdindəki asfalt-beton zavodunda qum-çınqıl karxanasının quraşdırılması və Şərur rayonunun Dizə kəndinə giriş avtomobil yolunda asfalt-beton örtüyünün bərpası başa çatdırılmışdır.

Naxçıvan Qaz Turbin Elektrik Stansiyasının ərazisində, Naxçıvan şəhəri Əziz Əliyev və N.Tusi küçələrində asfalt-beton örtüyünün əsaslı təmiri, Culfa rayonunun Teyvaz, Ləkətağ və Gülüstan kəndlərinə giriş avtomobil yollarında çınqıl əsasının tikintisi yekunlaşdırılmışdır.

Kəngərli rayonunun Böyükdüz, Babək rayonunun Qaraqala və Çeşməbasar kəndlərinin giriş avtomobil yollarında, Şərur rayonunda Cəlilkənddə giriş avtomobil yolunun və Şahbuz rayonunun Mahmudoba-Qarabba avtomobil yolunda afsalt-beton örtüyünün bərpası başa çatdırılmışdır.



Şahbuz rayonunun Qızıl Qışlaq-Güney Qışlaq-Kükü avtomobil yolunda çınqıl əsasının, Ayrınc və Külüs kəndlərinə giriş avtomobil yolunda istinad divarının tikintisi və Külüs-Keçili avtomobil yolunda istinad divarının əsaslı təmiri, Ordubad rayonunun Düylün-Çənnəb-Üstüpü avtomobil yolunda çınqıl yol əsasının tikintisi və Şahbuz qəsəbəsi daxili avtomobil yollarının təmiri aparılmışdır.

Kəngərli rayon mərkəzində avtomobil yollarının əsaslı təmiri, Şərur rayonunun Tənənəm kəndində, Culfa rayonunun Saltaq və Göydərə kəndlərində giriş avtomobil yollarında asfalt-beton örtüyünün əsaslı təmiri başa çatdırılmışdır.

Culfa rayonunun Kırna kəndinə giriş avtomobil yolunda çınqıl əsasının tikintisi, Ordubad rayonunda Ordubad-Kotam avtomobil yolunun asfalt-beton örtüyünün bərpası, Şərur və Culfa şəhərləri daxili avtomobil yollarının təmiri işləri aparılmışdır.

Şahbuz rayonunda Şahbuzkənd-Külüs avtomobil yolunda çınqıl yol əsasının tikintisi, ümumi gücü 87 mVt olan modul tipli elektrik stansiyasının ərazisində və Culfa gömrükxanasına gedən avtomobil yolunda yol yatağın bərpası başa çatdırılmışdır. Ümumilikdə, 2006-cı ildə 118 kilometrə yaxın qəsəbə və kənd yollarına asfalt-beton salınmış, əsaslı bərpa işləri aparılmışdır. Bu yolların 34 kilometri şəhər və qəsəbələrin, 84 kilometri isə kənd yollarının payına düşmüşdür.

2006-cı ildə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarının avtomobil yollarında 3237,5

downloaded from KitabYurdu.org

(əlavə dəyər vergisi istisna olmaqla) min manatlıq təmir və bərpa işləri yerinə yetirilmişdir.

Naxçıvan MR Şahtaxtı Sərhəd Keçid Məntəqəsində yeni inşa olunmuş körpünün istifadəyə verilməsi, Culfa (Azərbaycan Respublikası) – Culfa (İran İslam Respublikası) yeni avtomobil yolu körpüsünün inşa edilməsi haqqında anlaşma Memorandumunun imzalanması, «Bakı-Naxçıvan-Bakı» müntəzəm avtomobil marşurutunun açılması, sərnişin və yük daşınması sahəsində analoji xarici şirkətlərlə müvafiq müqavilələrin bağlanması və həyata keçirilməsi muxtar respublikada nəqliyyat sektorunun inkişafına əsaslı təkan vermişdir.

Görülən bu işlərin nəticəsidir ki, 1995-ci ildən keçən 12 il ərzində muxtar respublikada 2150 kilometr uzunluğunda yeni avtomobil yolları salınmış, 1202 paqonmetr uzunluğunda 50 körpü tikilmiş, 2009 poqonmetr uzunluğunda 43 körpü əsaslı təmir olunmuşdur. 1995-ci ildən ötən dövr ərzində nəqliyyat sektorunda yük daşınmalarının həcmi 11,2 dəfə, sərnişin daşımaları isə 1,9 dəfə artmışdır.

Muxtar respublika üzrə 12 ildə tikilən və əsaslı təmir olunan avtomobil yolları və körpülər haqqındakı məlumatları aşağıdakı cədvəldən görmək olar:



Cədvəl 12

**Naxçıvan MR-da 1995-2007-ci illərdə salınmış avtomobil yolları və körpülər**

| Göstəricilər | İllər | | |
|---|---|---|---|
| | 1995 | 2007 | artım |
| Avtomobil yolları salınmış və yaxud əsaslı təmir olunmuşdur (kilometr) | 15,6 | 185,7 | 11,9 dəfə |
| Körpülər tikilmiş və ya əsaslı təmir olunmuşdur (sayı).. | 1 | 8 | 8 dəfə |

Yol-nəqliyyat sistemində infrastrukturun yeniləşdirilməsi tədbirləri, magistral yolların əsaslı təmiri və yenidən qurulması, ümumilikdə nəqliyyat şəbəkəsinin genişləndirilməsi kimi tədbirlər muxtar respublikada həyata keçirilən iqtisadi islahatların tərkibində xüsusi yer tutur. Şübhəsiz ki, əlverişli nəqliyyat sisteminə malik olmayan bir inzibati ərazidə sahibkarlığın, o cümlədən xarici iqtisadi əlaqələrin yüksək templi inkişafından söhbət gedə bilməz.

Nəqliyyat muxtar respublikanın xalq təsərrüfatı sahələrinin əlaqələrini təmin edir, yük və sərnişin daşımalarına olan tələbatı ödəyir. İstehsal sahəsi kimi nəqliyyat ictimai istehsalın inkişafına, onun səmərəliliyinə də güclü təsir göstərir.

Muxtar Respublika Ali Məclisinin nəqliyyat sektoruna xüsusi diqqət ayırması burada sahibkarlığın inkişafı sahəsində də öz bəhrələrini verməkdədir. 2007-ci ildə avtomobil nəqliyyatı sahəsində fəaliyyət

downloaded from KitabYurdu.org

göstərən fiziki şəxslər tərəfindən yük və sərnişin daşınmasından bütövlükdə 18,9 milyon manat gəlir əldə edilmişdir ki, bu da 2006-cı ilə nisbətən 1,8 faiz çoxdur. Muxtar respublikada daşınan yüklərin 99,6 faizi, sərnişinlərin 95,4 faizi, əldə edilmiş pul gəlirlərinin 75,4 faizi qeyri-dövlət sektorunun payına düşür.

Statistik materialların təhlili göstərir ki, əvvəlki illərdə olduğu kimi 2007-ci ildə də nəqliyyat sektorunda iqtisadi artıma nail olunmuşdur. Belə ki, 2006-cı ilə nisbətən 2007-ci ildə muxtar respublikanın nəqliyyat sektorunda yük daşınması 10,0 faiz, sərnişin daşınması isə 11,3 faiz artmışdır.

Bütövlükdə, muxtar respublikanın nəqliyyat sektorunda göstərilmiş xidmətlərin tərkibində bu sektorda fəaliyyət göstərən fiziki şəxlər tərəfindən göstərilmiş xidmətlər daha üstün yer tutur.

Yuxarıda qeyd edildiyi kimi iqtisadi artım və dinamik inkişaf Naxçıvan MR iqtisadiyyatının prioritetlərindən sayılır. İqtisadi artım iqtisadiyyatın bütün sahələrində müşahidə olunmaqdadır.

Araşdırmalar göstərir ki, ölkənin iqtisadi rayonları içərisində Naxçıvan iqtisadi rayonu fiziki şəxslər tərəfindən yük və sərnişin daşınmasında artım tempinə görə birinci yeri tutur. Ölkənin iqtisadi Rayonları üzrə avtomobil nəqliyyatı ilə yükdaşımaların dinamikası aşağıdakı cədvəldə verilmişdir (bax: cədvəl 13).



Cədvəl 13

**2007-ci ildə ölkənin iqtisadi rayonları üzrə avtomobil nəqliyyatı ilə yük daşınmasının dinamikası**

| İqtisadi rayonlar | 2006-cı ilə nisbətən (faizlə) |
|---|---|
| Ölkə üzrə | 108,7 |
| Naxçıvan | 110,1 |
| Abşeron | 108,3 |
| Gəncə-Qazax | 107,0 |
| Şəki-Zaqatala | 104,9 |
| Lənkəran | 105,3 |
| Quba-Xaçmaz | 105,2 |
| Aran | 107,3 |
| Yuxarı Qarabağ | 108,3 |
| Dağlıq Şirvan | 106,3 |
| Kəlbəcər-Laçın | - |

Cədvəl məlumatlarının təhlili göstərir ki, Naxçıvan iqtisadi rayonu avtomobil nəqliyyatı ilə yük daşınmasının ölkə üzrə orta göstəricisini 1,4 faiz, iqtisadi rayonlar üzrə isə Abşeronu 1,8 faiz, Gəncə-Qazaxı 3,1 faiz, Şəki-Zaqatalanı 5,2 faiz, Lənkəranı 4,8 faiz, Quba-Xaçmazı 4,9 faiz, Aranı 2,8 faiz, Yuxarı Qarabağı 1,8 faiz, Dağlıq Şirvanı isə 3,8 faiz qabaqlayır.

Qeyd etmək lazımdır ki, avtomobil nəqliyyatı ilə sərnişin daşınmasında da Naxçıvan iqtisadi rayonu irəlidədir. Bunu aşağıdakı cədvəldən görmək olar (bax: cədvəl 14).

downloaded from KitabYurdu.org

Cədvəl 14

**2007-ci ildə ölkənin iqtisadi rayonları üzrə avtomobil nəqliyyatı ilə sərnişin daşınmasının dinamikası**

| İqtisadi rayonlar | 2006-cı ilə nisbətən (faizlə) |
|---|---|
| Ölkə üzrə | 106,6 |
| Naxçıvan | 111,0 |
| Abşeron | 104,3 |
| Gəncə-Qazax | 105,8 |
| Şəki-Zaqatala | 103,9 |
| Lənkəran | 103,8 |
| Quba-Xaçmaz | 103,3 |
| Aran | 103,5 |
| Yuxarı Qarabağ | 103,2 |
| Dağlıq Şirvan | 103,5 |
| Kəlbəcər-Laçın | - |

Təhlil göstərir ki, Naxçıvan iqtisadi rayonu avtomobil nəqliyyatı üzrə sərnişin daşımalarda da digər iqtisadi rayonlarla müqayisədə üstünlüyə malikdir. Belə ki, Naxçıvan iqtisadi rayonunda artım tempi Abşerona nisbətən 6,7 faiz, Gəncə-Qazaxa nisbətən 6,2 faiz, Şəki-Zaqatalaya nisbətən 7,1 faiz, Lənkərana nisbətən 7,2 faiz, Quba-Xaçmaza nisbətən 7,7 faiz, Arana nisbətən 7,5 faiz, Yuxarı Qarabağa nisbətən 7,8 faiz, Dağlıq Şirvana nisbətən isə 7,5 faiz təşkil edir. Bu artım bütövlükdə ölkə üzrə 4,4 faiz təşkil etmişdir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, yol-nəqliyyat sahəsində vahid dövlət siyasətinin əsası



Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur və 1993-2003-cü illərdə daha da inkişaf etdirilmişdir. Bu siyasət indi də möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən çox uğurla davam etdirilir.

Dövlətimizin başçısı ölkəmizdə yol-nəqliyyat kompleksinin yenidən qurulması istiqamətində görülən işləri daim nəzarətdə saxlayır. Cənab prezident bütün sahələrdə olduğu kimi, yol-nəqliyyat kompleksində də dəqiq və mükəmməl proqramların işlənib hazırlanmasının və icra edilməsinin təşəbbüsçüsüdür. «Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkişafına dair Dövlət Proqramı (2006-2015-ci illər)» və «Azərbaycan Respublikasının avtomobil yolları şəbəkəsinin yeniləşdirilməsinə və inkişafına dair Dövlət Proqramı (2006-2015-ci illər)» kimi mühüm strateji sənədlərdə nəzərdə tutulmuş tədbirlər dövlətimizin başçısının nəzarəti altında vaxtında və keyfiyyətlə yerinə yetirilir.

Möhtərəm Prezidentin «Azərbaycan Respublikasının yol-nəqliyyat kompleksində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında» 22 fevral 2007-ci il tarixli sərəncamı bu sahədəki fəaliyyətin yeni bir mərhələsinin başlanğıcı olmuşdur. Belə ki, sosial-iqtisadi inkişafın sürətləndirilməsi ölkənin avtomobil yolları şəbəkəsinin və yol infrastrukturunun bərpasına və yenidən qurulmasına güclü təkan vermişdir. Qəbul olunmuş proqramlar çərçivəsində Bakıda, habelə ölkənin digər şəhər və rayonlarında yeni avtomobil yollarının salınması, nəqliyyat qovşaqlarının və körpülərin tikintisi geniş vüsət almışdır. Döv-

downloaded from KitabYurdu.org

lətimizin başçısı bu məsələlərin həlli istiqamətində görülən işlərin səmərəliliyinin artırılması, habelə ölkənin yol-nəqliyyat kompleksində idarəetmənin təkmilləşdirilməsi məqsədilə Nəqliyyat Nazirliyinin «Yolnəqliyyatservis» Departamenti MMC-nin təşkilati-hüquqi forması dəyişdirilərək Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin tabeliyidə «Azəryolservis» ASC-nin yaradılmasına qərar vermişdir.

Bu qurum hazırda ölkənin avtomobil yolu təsərrüfatı sahəsində xidmətlər göstərən, ümumi istifadədə olan avtomobil yollarının, körpülərin, tunellərin və digər təyinatlı yol qurğularının istismarı, bərpası, yenidən qurulması və tikilməsini, müvafiq infrastrukturun inkişafı ilə bağlı digər işləri yerinə yetirir.

## *4.4. Hava nəqliyyatı*

Naxçıvan Muxtar Respublikasının iqtisadi əlaqələrinin inkişaf etdirilməsində hava nəqliyyatı xüsusi əhəmiyyət kəsb edir. Ümummilli liderimiz H.Əliyev 1969-cu ildə birinci dəfə hakimiyyətə gəldikdən sonra başqa sahələr kimi nəqliyyat-kommunikasiya sisteminin də inkişafına diqqət yetirmişdir. Ölkə regionları arasında nəqliyyat əlaqələrinin yaxşılaşdırılması ilə yanaşı Azərbaycanın ayrılmaz tərkib hissəsi olan və əsas ərazidən təcrid olunmuş şəraitdə yaşayan Naxçıvanın nəqliyyat problemlərinin həlli də Ulu Öndəri daim düşündürmüşdür. Bu qayğının nəticəsidir ki, 1974-cü ildə Naxçıvanda ilk hava limanı tikilib istifadəyə verilmişdir. 1800 metrlik uçuş-enmə zolağı-



na malik hava limanı o vaxt avtobus marşrutlarının, dəmiryol nəqliyyatının müntəzəm işlədiyi dövrün tələbləri baxımından ehtiyacların ödənilməsinə hesablanmışdı. Lakin Dağlıq Qarabağa əsassız erməni iddiaları nəticəsində başlanan müharibənin zərbə dalğaları Naxçıvana dəyəndən, regionu Azərbaycanın əsas hissəsi ilə bağlayan bütün nəqliyyat-kommunikasiya əlaqələri kəsiləndən, Naxçıvan Muxtar Respublikası Ermənistan tərəfindən blokadaya alınandan sonra sərnişin, yük daşınması kimi vacib məsələlər kiçik tutumlu təyyarələri qəbul etmək imkanı olan bu hava limanı vasitəsilə həyata keçirilmişdir.

Hələ o vaxt Ümummilli liderimiz Heydər Əliyevin çox uzaqgörənliklə tikdirib istifadəyə verdiyi və yerli əhali tərəfindən «həyat yolu» adlandırılan bu yeganə nəqliyyat-kommunikasiya xətti ölkə paytaxtı Bakı şəhəri ilə əlaqə yaradılmasında mühüm rol oynamışdır.

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra, hələ keçən əsrin 90-cı illərinin əvvəllərində ölkədə olduğu kimi Naxçıvanda da iqtisadi-siyasi vəziyyət çox ağır idi. İqtisadiyyat dərin böhran içərisində idi. Dəmir yolu işləmirdi. Avtomobil yollarının xarici aləmlə əlaqəsi tamamilə dayandırılmışdı və muxtar respublika Ermənistan Respublikası tərəfindən blokada vəziyyətinə salınmışdı. Naxçıvanda nəqliyyat-kommunikasiya sahəsində olan problemləri yaxşı xatırlayan ölkə Prezidenti İlham Əliyev demişdir: «Mən keçmişdə Naxçıvanda dəfələrlə olmuşam. Xüsusilə 1990-1993-cü illərdə Heydər Əliyev Naxçı-

downloaded from KitabYurdu.org

vanda işləyəndə, yaşayanda burada dəfələrlə olmuşam, o çətin şəraiti görmüşəm. Köhnə hava limanından böyük çətinliklərlə dəfələrlə istifadə etmişəm. Baxmayaraq ki, H.Əliyev Naxçıvanda Ali Məclisin Sədri idi, hava limanından hamı necə, biz də elə istifadə edirdik. Həmin o meydanda növbə gözləyər, növbə çatanda Bakıya balaca «YAK» təyyarəsi ilə gedərdik. Amma baxın, bu gün nə gözəl şərait yaradılıbdır. Bu şərait onu göstərir ki, ölkəmiz inkişaf edir, ölkəmiz yaşayır, ölkəmiz güclənir və bundan sonra da güclənəcəkdir».

Son illər ərzində Naxçıvanın blokada şəraitində olması hava nəqliyyatından daha səmərəli istifadə etmək zərurətini doğurmuşdur. İndiki şəraitdə MR-nın bir çox şəhərləri ilə əlaqəsini təmin edən hava yolları fəaliyyət göstərir, Naxçıvan-Bakı, Naxçıvan-Moskva, Naxçıvan-Gəncə şəhərlərarası hava yolları fəaliyyət göstərir. Muxtar respublikanın blokada şəraitində olması respublikanın daxili iqtisadi rayonları ilə əlaqələrin yaradılmasında hava nəqliyyatının rolunu artırmışdır. Yaxın gələcəkdə daha təkmilləşdirilmiş yük və sərnişin daşıyıcı hava laynerlərindən istifadə olunması iqtisadi səmərəliliyin yüksəldilməsinə təsir etmiş olacaqdır.

Ümummilli liderimiz Heydər Əliyev Naxçıvanda Ali Məclisin Sədri işləyərkən və hava nəqliyyatının yeganə nəqliyyat vasitəsi olduğunu görərək burada hava limanının genişləndirilməsi barədə iki dəfə qərar qəbul etmişdir. İlk dəfə olaraq hava limanının genişləndirilməsi məsələsini Ali Məclisin rəyasət heyə-


tinin iclasına çıxaran Ulu Öndər 1992-ci ilin fevral ayında qərar qəbul etdi.

Lakin Azərbaycanın regionda durmadan artan nüfuzu və ölkəmizə olan beynəlxalq maraq respublikamızda müasir tələblərə cavab verən yolların, hava və dəniz limanı komplekslərinin inşasını zəruri amilə çevirmişdir. Bu istiqamətdə son illər ərzində ciddi nailiyyətlər qazanılsa da, Naxçıvan kimi strateji əhəmiyyət kəsb edən bir yerdə müasir hava limanının olmaması və gücünün zəif olması ciddi narahatçılıq yaradırdı. Hələ Naxçıvan MR-ə rəhbərlik etdiyi dövrdə bütün bunları nəzərə alan Ümummilli liderimiz H.Əliyev 2002-ci ilin avqust ayının 11-də muxtar respublikanın Ali Məclisində keçirdiyi xüsusi müşavirədə demişdir: «Mən çoxdan bu fikirdə idim ki, Naxçıvan hava limanını yenidən quraq, yeni bir hava limanı tikək. Birincisi, gərək elə edək ki, təyyarələr burdan təkcə Bakıya, Gəncəyə yox, bir çox istiqamətlərə uçsun. İkincisi də, Naxçıvan öz coğrafi vəziyyətinə görə elə yer tutur ki, burada beynəlxalq standartlara uyğun hava limanının olması təkcə Naxçıvan üçün yox, bütün qonşu ölkələr üçün də çox əhəmiyətli olacaqdır. Bunları nəzərə alaraq, mən belə bir qərara gəldim».

Qeyd etmək lazımdır ki, nəhayət Ulu Öndərin Naxçıvanda müasir hava limanı yaratmaq haqqındakı fikirləri gerçəkliyə çevrilmiş və 2004-cü il mayın 12-də Naxçıvan beynəlxalq hava limanının təntənəli açılışı olmuşdur.

downloaded from KitabYurdu.org

Naxçıvan hava limanının yenidən qurulması layihəsinin ümumi dəyəri 193,5 milyard manatdır. Bu vəsaitin 115 milyard manatı dövlət büdcəsindən ayrılmışdır. 63,5 milyard manatı isə «Azərbaycan Hava Yolları» Dövlət Konserninin daxili imkanları hesabına ödənilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Naxçıvan hava limanına beynəlxalq status verilmişdir. Bu status Naxçıvandan dünyanın istənilən ölkəsinə uçuşlar yerinə yetirməyə imkan yaratmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin tövsiyəsi, tapşırığı sayəsində Türkiyənin «Eren port» şirkəti tərəfindən yüksək səviyyədə, beynəlxalq standartlara uyğun tikilmiş, muxtar respublikanın iqtisadi və sosial həyatında önəmli rol oynayacaq Naxçıvan beynəlxalq hava limanında eni 45, uzunluğu 3300 metr olan uçuş-enmə zolağı monolit betonla yenidən qurulmuş, müasir işıqlandırma sistemi ilə təchiz olunmuşdur. Mütəxəssislərin fikrincə, belə tikinti işləri MDB məkanında ilk dəfə burada tətbiq edilmişdir.

Aerovağzal binası saatda 300 sərnişinə xidmət göstərməyə imkan verəcəkdir. Hava limanında uçuşların idarəetmə məntəqəsi, sahəsi 2 min kvadratmetr olan yük terminalı, hərəsi 400 tonluq iki yanacaq anbarı, iki istilik mərkəzi tikilmiş, trasformatorlar, dizel generatorları quraşdırılmışdır. Aerovağzal binasının ikinci mərtəbəsi inzibati otaqlardan ibarətdir.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən başlanan belə bir möhtəşəm layihənin reallaşması ilə artıq Naxçıvan hava limanına beynəlxalq status verilmiş, ən böyük təyyarələrin qəbuluna imkan verən uçuş-enmə zolağı inşa edilmiş və müasir standartlara uyğun aerovağzal kompleksi istismara buraxılmışdır. Azərbaycanda digər sahələrlə bərabər nəqliyyat sektorunun da sürətlə inkişaf etməsini ölkəmizin ümumi sosial-iqtisadi tərəqqisinin təzahürü kimi dəyərləndirən Prezident İlham Əliyev Naxçıvan Beynəlxalq Hava Limanının açılış mərasimindəki nitqində demişdir: «Ümumiyyətlə, Azərbaycanda bütün nəqliyyat infrastrukturu yeniləşir, müasirləşir. Bu, bizi çox sevindirir. Bizim hava yollarının fəaliyyəti yüksək səviyyədədir. Xəzər Dəniz Gəmiçiliyi çox böyük mənfəətlə, uğurla işləyir. Azərbaycan Dəmir Yolu İdarəsi uğurla işləyir, yeni avadanlıq, qatarlar alınır, bərpa işləri gedir. Azərbaycanda böyük avtomobil yollarının layihələri həyata keçirilir, yeni yollar salınır və yaxın zamanlarda Azərbaycanı bütün istiqamətlərə aparan yollar ən yüksək dünya standartlarına cavab verəcəkdir. Bu, çox mühüm bir amildir. Nəqliyyatın inkişafı ölkənin ümumi, iqtisadi inkişafının göstəricisidir».



Qeyd edildiyi kimi, Naxçıvan MR-in başqa regionlarla nəqliyyat əlaqələri əsas etibarilə hava nəqliyyatı ilədir. Ona görə də bu nəqliyyat vasitəsilə həm sərnişindaşımaları, həm də yükdaşımaları ildən-ilə artır. Təkcə 2002-ci ildə MR-da hava nəqliyyatı ilə 206 min 300 nəfər sərnişin, 4 min 300 ton yük daşınmışdır. Bu isə 2001-ci ilin müvafiq dövrü ilə müqayisədə sərnişin və yük daşınmasından əldə olu-

downloaded from KitabYurdu.org

nan gəlir 3 dəfə artaraq 14 milyard manatdan çox olmuşdur.

Ona görə də Naxçıvanda hava limanının tikintisinə xüsusi əhəmiyyət verilirdi. Hava limanının çox qısa müddətdə tikilib başa çatdırılması ölkə rəhbərliyinin daim diqqət mərkəzində durmuşdur.

Naxçıvan Beynəlxalq Hava Limanı istifadəyə verildikdən sonra bu sahədə xidmətin səviyyəsi, daşınmaların həcmi və çatdırılma tezliyi xeyli yaxşılaşmışdır. Hava nəqliyyatı ilə 2004-cü il ərzində muxtar respublikada 266 min nəfər sərnişin, 5 min ton yük daşınmışdır. 2003-cü ilə nisbətən sərnişin daşınması 14 faiz, yük daşınması isə 31 faiz artmışdır. Əldə edilən gəlir isə əvvəlki illə müqayisədə 30 faiz artaraq 24 milyard manatdan çox olmuşdur.

Sonrakı 2006 və 2007-ci illərdə də hava nəqliyyatı ilə sərnişin və yükdaşımaları artmaqla xeyli gəlir əldə edilmişdir.

Ölkə prezidenti İlham Əliyev Naxçıvan MR 80 illiyinə həsr edilmiş təntənəli iclasda demişdir: «Artıq Naxçıvanın bütün beynəlxalq standartlara cavab verən hava limanı vardır. Deməliyəm ki, bu hava limanı çox yüksək səviyyədə tikilmişdir. Mən dünyanın bir çox ölkələrində olmuşam və təbii ki, hava limanlarını görmüşəm. Ona görə də deyə bilərəm ki, Naxçıvan hava limanı çox yüksək səviyyədədir və bəlkə də Avropada bir çox hava limanlarından daha keyfiyyətli və gözəldir».

Naxçıvan MR-in ərazisi yanacaq ehtiyatları cəhətdən olduqca zəifdir. Ərazidə yaşayan əhalinin


maye yanacağa olan tələbatını ödəmək məqsədilə Yevlax-Ağdam-Xankəndi-Şuşa-Laçın-Gorus-Şahbuz-Naxçıvan qaz kəməri çəkilmişdir. Lakin son on dörd il ərzində erməni işğalçıları tərəfindən boru kəməri keçən rayonların işğal olunması nəticəsində maye yanacağın nəqli tamamilə dayandırılmışdır. Yanacağa olan tələbatı ödəmək məqsədilə qonşu İran və Türkiyə dövlətləri vasitəsilə yanacağın daşınması həyata keçirilir. Şübhəsiz ki, yaxın gələcəkdə işğal olunmuş torpaqlar azad olunduqdan sonra bütün kommunikasiyaları fəaliyyət göstərməklə, normal şəraitdə yük və sərnişin daşınma əməliyyatının aparılmasına əlverişli şərait yaradılmış olacaqdır.

Əlbəttə nəqliyyat istehsal prosesinin təşkili formasında, istehsalla-istehlak arasında, həmçinin iqtisadi rayonlar arasında məhsul mübadiləsində özünü daha qabarıq şəkildə büruzə verir. Lakin nəqliyat özü-özlüyündə heç bir maddi məhsul istehsal etmir, daşınma prosesində səmərəsiz nəqliyyat xərclərini aradan qaldırmaqla, külli miqdarda iqtisadi sahələrdən gəlirin əldə olunmasına şərait yaratmış olur. Bu ilk növbədə bu və ya digər nəqliyyat sahəsində yüklərin vurulması eləcə də boşaldılması zamanı sərf edilən xərclərin nə dərəcədə səmərəli olub, yaxud olmamasından daha çox asılıdır. Nəqliyyat vasitəsilə məhsulun bir regiondan başqa bir regiona, yaxud iqtisadi rayona daşınması mühüm proses olub, nəqliyyat işçilərinin əməyi tərəfindən yaranan yeni, digər gəlir hesabı ilə müəyyən olunur. Bu baxımdan daşınma prosesi zamanı nəqliyyatın səmərəliliyinin seçilməsi,

downloaded from KitabYurdu.org

yük və sərnişin daşınma əməliyyatlarının nəqliyyat növləri arasında düzgün müəyyən olunması iqtisadi əlaqələrə təsir göstərən mühüm faktorlardan biri kimi qiymətləndirilir. İkinci iqtisadi əlaqələrin inkişafına təsir göstərən istehsal sahələrinin formalaşması üçün kifayət qədər təbii resurslara malik olmasıdır. İran və Türkiyə kimi dövlətlərlə qonşuluq mövqeyində olması iqtisadi əlaqələrin inkişafında mühüm amil hesab edilir. Eyni zamanda daxili və xarici iqtisadi əlaqələrin inkişafı məqsədilə daşınma prosesində məhsulların nəqliyyat sahələri arasında optimal bölüşdürülmə variantlarının seçilməsi də mühüm amil kimi qiymətləndirilir. Naxçıvanın iqtisadi əlaqələrini intensivləşdirmək üçün ilk növbədə istehsal sahələri məqsədyönlü şəkildə inkişaf etdirilməlidir. Bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın normal inkişafını təmin etmək, qonşu İran və Türkiyə dövlətlərindən investisiya axınına şərait yaratmaq yolu ilə ərazinin nəqliyyat sistemini təkmilləşdirmək və təbii sərvətləri istehsal dövriyyəsinə cəlb etməklə istehsalın çoxsahəli inkişafına nail olunar.

Bu vaxta qədər muxtar respublikada istehsal sahələri ilə yerli təbii resurslar arasında əlaqələrin zəifliyi istehsalın birtərəfli inkişafına təsir göstərmişdir. Bu proses son nəticədə iqtisadi əlaqələrin inkişafına mənfi təsir göstərmiş, yəni ölkənin sənaye və digər istehlak xarakterli məhsullara olan tələbatı kənar ölkələrdən gətirilmə məhsul hesabına ödənilmişdir. Nəticədə muxtar respublikanın iqtisadi əlaqələr balansı mənfi balansa malik olmuşdur. Onu qeyd etmək ki-



fayətdir ki, 2000-ci ildə muxtar respublikanın istehlak məhsullarına olan tələbatını ödəmək üçün gətirilən məhsulların 80%-i İran və Türkiyə dövlətlərinin payına düşmüşdür. Nəqliyyat iqtisadi əlaqələrdə olan geriliyi aradan qaldırmaq məqsədilə ilk növbədə yerli istehsal sahələrinin inkişafının əsas şərtlərindən biri hesab edilir. Elə bu baxımdan da 2007-ci ildə 40-dan çox sənaye müəssisəsinin istifadəyə verilməsi və ixrac yönümlü məhsul istehsalının artırılması təsadüfi deyildir. İndiki şəraitdə yol nəqliyyat sisteminin yeniləşməsinə, müasir nəqliyyat vasitələrinin tətbiqinə xüsusi əhəmiyyət verilir.

Ümummilli liderimiz H.Əliyevin strateji kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan beynəlxalq iqtisadi siyasətində nəqliyyat-kommunikasiya əlaqələrinin rolunu yüksək qiymətləndirərək hazırda bu prosesi uğurla həyata keçirir.

Hesab edirik ki, gələcəkdə həmin prosesin səmərəli şəkildə reallaşdırılması Azərbaycanı nəqliyyat-kommunikasiyalarının mərkəzi kimi əlaqələndirici dövlətə çevirəcək və respublikamız tranzit ölkə kimi kifayət qədər iqtisadi-siyasi potensiala malik olacaqdır.

downloaded from KitabYurdu.org

# V F Ə S İ L

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TİKİNTİ-QURUCULUQ İŞLƏRİ GENİŞ VÜSƏT ALMIŞDIR

Keçən əsrin 70-80-ci illərində muxtar respublikada yaradılmış güclü potensial bugünkü Naxçıvan iqtisadiyyatının dinamik inkişafının əsasını qoymuşdur. İndi iqtisadiyyatın bütün sahələrində artım müşahidə olunmaqdadır.

Ümumiyyətlə, Naxçıvan iqtisadiyyatının dinamik inkişafı başqa sahələrin inkişafına da öz təsirini göstərməkdədir. Naxçıvan MR-də iqtisadi inkişaf quruculuq işləri ilə vəhdət təşkil edir. Burada quruculuq və tikinti tədbirlərinin həyata keçirilməsi inkişaf proqramının əhəmiyyətini qabarıq şəkildə əks etdirir. Bax, elə buna görə də quruculuq işləri muxtar respublika rəhbərliyinin daim diqqət mərkəzində durur.

Ümummilli liderimiz Heydər Əliyevin qurub-yaratmaq eşqi Naxçıvana da sirayət etmişdir. İndi Naxçıvanda geniş, irimiqyaslı quruculuq və abadlaşdırma işləri aparılır. Naxçıvan MR Ali Məclisinin sədri V.Talıbovun dili ilə desək: «Bu, bizim möhtərəm Heydər Əliyevin siyasi xəttinə sadiqliyimizin göstəricisidir. Nəhayət, bu inkişaf möhtərəm Heydər Əliyevin… ümumi Azərbaycan evimizin hər bir guşəsində gedən quruculuğun,… konkret bir regionda, Naxçıvan MR-da əyani ifadəsidir».



Ulu Öndərin Naxçıvana etdiyi tarixi səfərlər Naxçıvanın ictimai-siyasi və sosial-iqtisadi həyatında həmişə böyük rol oynayıb.

Yadımdadır, 1974-cü il idi. Novruz bayramına az qalırdı. Heydər Əliyev Naxçıvan MR-na «Xalqlar dostluğu» ordeni verməyə gəlmişdi. Heydər Əliyev həmin gün XXX Naxçıvan Vilayət Partiya Konfransında geniş məruzə etdi. Çıxışında abadlıq və quruculuq işlərinə toxunarkən qeyd etdi ki, «Naxçıvan şəhərini, başqa şəhərləri və yaşayış məntəqələrini abadlaşdırmaq üçün az iş görülmüşdür. Muxtar respublika paytaxtının siması günün tələblərinə cavab vermir. Şəhərdə yaranmış evlər, mədəni-məişət ocaqları daha çox olmalıdır və daha çox ola bilərdi. Günahın bir qismi Azərbaycan nazirliklərinin üzərinə düşür, onlar da uzun müddət Naxçıvan Respublikasında iqtsadiyyatın inkişafı məsələlərinə lazımınca fikir verməmişlər». Bu gün iftixar və qürur hissi ilə demək olar ki, Ümummilli liderimiz Heydər Əliyevin çoxdankı arzuları gerçəkləşir. Muxtar respublika paytaxtının siması sözün əsl mənasında gündən-günə dəyişir, gözəlləşir. Çünki Ümummilli liderimiz Heydər Əliyevin söylədiyi hər bir fikir muxtar respublika rəhbərliyi tərəfindən diqqətlə öyrənilir, təhlil edilir, yollar axtarılır və tədbirlər görülür. Naxçıvan MR Ali Məclisinin Sədri V.Talıbov Heydər Əliyevin iqtisadi siyasətini uğurla həyata keçirir. Böyük tikinti meydançasını xatırladan muxtar respublikada irimiqyaslı quruculuq və abadlıq işləri sürətlə davam edir.

downloaded from KitabYurdu.org

Bu gün mübaliğəsiz demək olar ki, Heydər Əliyev idarəetmə məktəbinin sədaqətli davamçısı olan V.Talıbovun 90-cı illərin ortalarından muxtar respublikada başladığı quruculuq işləri nəticəsində son illərdə yüzlərlə obyekt tikilib istifadəyə verilmiş, yenidən qurulmuş, təmir edilmiş, yollar çəkilmiş, körpülər və parklar salınmışdır. İndi Naxçıvanın siması tamamilə dəyişilmişdir.

Heydər Əliyev Naxçıvanda olarkən muxtar respublika rəhbərliyinin bu sahədəki fəaliyyətinə yüksək qiymət verərək demişdir: «Əgər Naxçıvanda belə ağır vəziyyətdə məktəb binası tikilə bilirsə, - buraya daş gətirmək mümkün deyil, burada kərpic zavodu, mişardaşı və başqa şeylər yoxdur, - əgər xəstəxana, universitet binaları tikilirsə, bəs başqa yerdə niyə tikilmir? Demək, bu, təşəbbüsdən, fədakarlıqdan asılıdır».

Quruculuq işləri 2002-ci ildə də davam etdirilmişdir. Dövlət Gömrük Komitəsinin inzibati binası, Naxçıvan şəhərində Ərtoğrul Cavid adına musiqi və sənətkarlıq məktəbinin binası, «Tema» ticarət mərkəzi, muxtar respublikada 7 yeni məktəb binası, Şahbuz rayonunda ticarət mərkəzi və YAP rayon təşkilatının inzibati binası tikilib istifadəyə verilmişdir.

Köhnə binaların milli ornamentlərə uyğun olaraq təmir edilməsi də diqqət mərkəzində olmuşdur. 2002-ci ildə Naxçıvan MR Maliyyə və Ədliyyə nazirliklərinə, Müharibə və Əmək Veteranları Şurasına, Hərbi Məhkəməyə, 4 saylı 1100 şagird yerlik orta məktəbə, Naxçıvan MR İqtisadi İnkişaf Nazirliyinin



nəzdində yaradılmış orbitaj laboratoriyasına, dərman bitkilərinin satış mağazasına və digər təşkilatlara ayrılmış binalar əsaslı təmir edilərək yenidən istifadəyə verilmişdir.

Əvvəllər olduğu kimi, 2003-cü ildə və cari ilin ötən dövründə sosial təyinatlı obyektlərin tikintisi diqqət mərkəzində saxlanılmışdır. Bu dövrdə istifadəyə verilən 300-dək obyektin, quruculuq və abadlaşdırma işlərinin 85 faizi sosial xarakterli olmuşdur. 2390 yerlik 10 məktəb binası tikilib istifadəyə verilmişdir. 2004-cü ildə də təhsil vacib sahə kimi diqqətdə saxlanılmışdır. Həmin il 3120 yerlik 10 məktəb binasının, Naxçıvan Dövlət Universitetinin sosial idarəetmə və hüquq fakültəsi üçün 600 yerlik yeni tədris korpusunun tikintisi aparılaraq istifadəyə verilmişdir. Naxçıvan şəhərinin Babək məhəlləsində Ümummilli liderimiz, möhtərəm Heydər Əliyevin adını daşıyan, müasir tələblərə cavab verən 1200 yerlik məktəb binasının tikintisi və istifadəyə verilməsi də muxtar respublika təhsilinə əvəzsiz töhfədir.

Ötən dövrlərdə elmin inkişafı, ali təhsil müəssisələrinin fəaliyyətinin daha da yaxşılaşdırılması istiqamətində tədbirlər görülmüş, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin rəyasət heyəti və tədqiqat institutları üçün 2 bina əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmiş, Naxçıvan Dövlət Universitetində iki yeni fakültə, iki kafedra yaradılmış, 3 yeni ixtisas açılmışdır. Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialı müstəqil in-

downloaded from KitabYurdu.org

stituta çevrilmiş, bu tədris ocağının maddi-texniki bazası xeyli yaxşılaşmışdır.

Təhsillə yanaşı mədəniyyətin, səhiyyənin inkişafına da diqqət artrılmışdır. 2003-cü ildə Naxçıvanda elan olunmuş Heydər Əliyev ilinin ölkələrarası əlaqələrin və mədəni mühitdə ən mühüm göstəricisi qardaş Türkiyənin Qars şəhərində Ümummilli liderimizin abidəsinin ucaldılması və onun adını daşıyan parkın salınmasıdır. Həmçinin, Mömünə xatın, Qarabağlar türbə və minarə kompleksləri bərpa olunmuş, Naxçıvan Dövlət Dram Teatrında, 2 rayon tarix-diyarşünaslıq muzeyində, xalça muzeyində əsaslı yenidənqurma və bərpa işləri aparılmış, Culfa rayonundakı Xanəgah kompleksinin, Naxçıvan şəhərindəki «Şərq hamamı»nın bərpası davam etdirilmiş, kənd və rayonlardakı 2 uşaq musiqi məktəbində, kinoteatr və klublarda, şəhidlər kompleksində yenidənqurma işləri görülmüş, Şahbuz qəsəbəsində soyqırım qurbanlarının xatirəsinə abidə ucaldılmışdır.

2003-cü ildə də muxtar respublikada Azərbaycan Respublikası Milli Bankı Naxçıvan MR İdarəsinin, Naxçıvan Dövlət Universitetinin yeni kitabxanasının, qaçqınlar üçün nəzərdə tutulan 48 mənzilli yaşayış binasının, YAP Şərur rayon təşkilatının, Babək rayonunda seysmoloji stansiyanın inzibati binalarının tikilməsi və 2004-cü ildə istifadəyə verilməsi mümkün olmuşdur.

Su çəkmək, körpü tikmək, yol salmaq muxtar respublikada artıq ənənə şəklini almışdır. 2002-ci ildə MR-da 4 körpü salınıb, 12 subartezian quyusu isə



yenidən bərpa edilərək istifadəyə verilib. Muxtar respublikada aparılan quruculuq işləri əsasən daxili mənbələr hesabına görülür.

Naxçıvan Azərbaycan iqtisadiyyatında öz çəkisini getdikcə artırır. Bu sürətli inkişafa görə Naxçıvan əhalisi Ümummilli liderimiz Heydər Əliyevə borcludur. Ona görə də 2003-cü ilin Naxçıvan MR – da Heydər Əliyev ili elan edilməsi haqqında Naxçıvan MR Ali Məclisinin 7 yanvar 2003-cü il tarixli qərarı Naxçıvan əhalisini ürəkdən sevindirmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görülən işləri daha da sürətləndirmək məqsədilə 2004-cü ilin fevral ayında «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı» (2004-2008-ci illər) haqqında fərman imzalamışdır.

Dövlət proqramının imzalanmasından ötən az bir vaxt ərzində ayrı-ayrı regionlarda 2004-cü il üçün nəzərdə tutulan məsələlərin artıq bir çoxunun öz həllini tapması və perspektiv tədbirlərin icrasında müşahidə edilən dinamizm sənədin mövcud reallığa əsasən hazırlandığını göstərir. Bu baxımdan 2004-cü ildə respublikamızın ayrı-ayrı guşələrində istifadəyə verilən sosial obyektlər, yeni istehsal müəssisələri, yerli istehsalın və sahibkarlığın inkişafı, əhalinin məşğulluq probleminin həllinə yönələn diqqət Dövlət Proqramının həyata keçirilməsinin uğurlu başlanğıcını özündə əks etdirmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin 2004-cü ildə Naxçıvan MR-a üçgünlük səfəri zamanı bir çox

downloaded from KitabYurdu.org

sosial obyektlərin açılışı, inşası başa çatmayan obyektlərin tikintisi ilə şəxsən tanış olması və MR-in həyat ahənginin arzu olunan məcraya düşməsi üçün planlaşdırılan genişmiqyaslı layihələr haqqında fikirlərini bildirməsi bir daha göstərdi ki, Dövlət Proqramının icrası dövlət başçısının daimi nəzarəti altındadır. 80 illik yubileyi qeyd edilən, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan MR-da həyata keçirilən quruculuq işlərindən və istifadəyə verilən çoxsaylı sosial obyektlərin ən yüksək tələblərə cavab verməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev demişdir: «Bu yaxınlarda AzərbayCanda sosial-iqtisadi inkişafın sürətləndirilməsinə dair xüsusi fərman verilmişdir. Eyni zamanda, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı da qəbul olunubdur. Amma bu iki gündə Naxçıvanda açdığımız müəssisələr onu göstərir ki, bu sosial-iqtisadi inkişaf proqramı Naxçıvanda çoxdan həyata keçirilir.

Baxın, burada muxtar respublikanın həyatı, gələcəyi üçün əhəmiyyətli müəssisələr, infrastruktur obyektləri yaradılır, çox yüksək səviyyədə yollar salınır, hava limanı istifadəyə verilibdir. İdman kompleksləri, üzgüçülük hovuzu, mədəniyyət obyektləri tikilir. Deyə bilərəm ki, idman kompleksləri, universitet binası ən müasir avadanlıqla təchiz olunmuş, internetə qoşulmuş kitabxana, əlillərin bərpa mərkəzi və digər obyektlər bütün dünya standartlarına cavab verir. Bu onu göstərir ki, məsələlərin həllinə böyük önəm verilir, hər bir sahədə inkişaf var».


Müstəqillik əldə etdiyimiz gündən indiyə kimi Naxçıvanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında müsbət dəyişikliklər olmuşdur. Bütün bunların əldə olunmasında H.Əliyev şəxsiyyəti mühüm rol oynamışdır. Artıq geridə qalan günləri və bu sahədə ümummilli liderimiz H.Əliyevin müstəsna rolunu qeyd edərək Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbov çıxışlarının birində demişdir: «Biz bu dövrdə əldə etdiyimiz nailiyyətlərə, birincisi-ölkə rəhbəri Möhtərəm H.Əliyevin 1990-1993-cü illərdə, siyasi fəaliyyətinin Naxçıvan dövründə işləyib hazırladığı muxtar respublikanın uzun müddətə hesablanmış inkişaf proqramına dönmədən əməl etməyimizlə, onun icrasını həyata keçirməyimizlə nail olmuşuq. Bu, bizim Heydər Əliyev siyasi xəttinə sadiqliyimizin göstəricisidir».

Blokada şəraitində yaşayan Naxçıvan əhalisinin sosial problemlərinin hərtərəfli həll edilməsinə yönələn dövlət siyasətinin düzgün müəyyənləşdirilməsinin nəticəsidir ki, muxtar respublikada həyata keçirilən genişmiqyaslı tədbirlər proqramı bütün sahələri əhatə edir. Bu baxımdan Naxçıvan MR xəstəxanasında kompüter tomoqrafiyası kabinetinin açılışı olduqca gərəkli və Naxçıvan əhalisinin sağlamlığının daha etibarlı müdafiəsini təmin edən məsələlərdəndir. Ən müasir müayinə avadanlıqlarının ölkə Prezidenti tərəfindən xəstəxanaya hədiyyə edilməsi dövlət başçısının xalqa qayğısının təkcə vəzifə borcundan deyil, eyni zamanda səmimi şəxsi istəkdən

downloaded from KitabYurdu.org

irəli gəldiyini göstərən olduqca incə bir məqamı üzə çıxarır.

Naxçıvan MR-in 80 illiyinə həsr edilmiş təntənəli mərasimdə muxtar respublikanın bütün sahələrində əldə olunmuş müvəffəqiyyətlərdən danışan dövlət başçısı İ.Əliyev sosial-iqtisadi inkişaf proqramının Naxçıvanda uğurla həyata keçirilməsindən razı qaldığını bildirdi.

Görülən bütün bu işlərin səbəbini açıqlayan cənab Prezidentimiz dedi: «İlk növbədə, xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvana münasibətini xatırlatmaq istəyirəm. O, həmişə deyirdi ki, Naxçıvana xüsusi münasibət olmalıdır. Naxçıvan MR blokada şəraitində yaşayır, ona görə Naxçıvana xüsusi diqqət olmalıdır. Özü də daim bu diqqəti göstərirdi. Digər tərəfdən, siz Naxçıvanda işlərin düzgün qurulması, Naxçıvanın rəhbərliyinin, Ali Məclisin Sədri Vasif Taləbovun fəaliyyəti nəticəsində nail olubsunuz».

Cənab İ.Əliyevin bu qədim diyara hər bir gəlişi nəhəng miqyaslı tikinti-abadlıq və quruculuq işlərinin daha da sürətlənməsi ilə müşayiət olunur.

2004-2005-ci illərdə ölkə Prezidenti İ.Əliyev Naxçıvanda gedən tikintilərin açılışında və istifadəyə verilməsində iştirak etmişdir. Məhz İ.Əliyev bu illərdə muxtar respublikada müasir standartlara cavab verən Beynəlxalq Hava Limanı, hərbi hissənin yeni korpusu və xidmət strukturları, Naxçıvan Dövlət Universitetinin elektron kitabxanası, AMEA-nın Naxçıvan bölməsi üçün yeni institut binası, Əlillərin Bərpa



Mərkəzi, yeyinti və sənayesi kompleksi, H.Əliyev adına məktəb, Naxçıvan Üzgüçülük Mərkəzi, Mülki Müdafiə Regional Mərkəzi, H.Əliyev adına su anbarı, qaz çəkilişi, Şahbuz rayonunun Ayrınc kəndində orta məktəb binasının, Naxçıvan şəhərində kitab evinin, Əcəmi seyrangahı yaxınlığında yerləşən Gənclik mərkəzinin açılışında birbaşa iştirak edib. Əlbəttə ki, bu illərdə onlarca digər obyektlər də tikilib istifadəyə verilib.

Naxçıvan səfərində dövlətimizin başçısı son vaxtlar burada işlərin miqyasından, muxtar respublikanın iqtisadi potensialının artmasından, yeni müəssisə, fabrik və sosial obyektlərin, iş yerlərinin açılmasından razı qaldığını vurğulamışdır.

Ölkəmizin prezidenti gələcək perspektivdə də görülən işlərin daha da səmərəli olacağına əminliyini bildirmişdir. 2006-2007-ci illərdə də muxtar respublikada görülən işlər prezidentimizin yanılmadığını bir daha sübut edir.

2007-ci ildə də muxtar respublika böyük tikinti meydançasını xatırlatmışdır. Bu ildə muxtar respublikada yeni istehsal sahələrinin yaradılması, əhalinin qaz, su və elektrik enerjisi ilə təmin etmək üçün yeni xətlərin, yeni yolların çəkilməsi və bərpası, abadlıq işlərinin aparılması və s. istiqamətlərdə işlər uğurla həyata keçirilmişdir.

2007-ci ildə bütövlükdə muxtar respublikada 793 obyekt istifadəyə verilmişdir ki, bu məqsəd üçün də 223 milyon manat və ya 260 milyon ABŞ dolları həcmində investisiyalar yönəldilmişdir.

downloaded from KitabYurdu.org

Bütün bunların nəticəsi olaraq qeyd etmək lazımdır ki, 2007-ci ildə muxtar respublikada inkişaf artan dinamika üzrə getmişdir. Bunlar isə ümummilli liderimizin quruculuq xəttinin konkret olaraq bir regionda təntənəsidir. Ulu Öndərin bu quruculuq xətti ölkəmizin Prezidenti cənab İ.Əliyev tərəfindən çox uğurla davam etdirilməkdədir.

11 fevral 2004-cü ildə ölkə Prezidenti tərəfindən təsdiq olunmuş «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrası regionların inkişafına səbəb olmuşdur.

Cənab Prezidentin regionlara səfərləri və burada açdığı obyektlər proqrama uyğun olaraq regionların necə inkişaf etməsinin bariz nümunəsidir. 2007-ci ilin son aylarında ölkə rəhbərinin Naxçıvana etdiyi səfər də məhz bu qəbildəndir.

Ölkəmizin Prezidenti İ.Əliyev bir sıra obyektlərin – Naxçıvan Dövlət Universitetinin, Konservatoriyasının, Naxçıvan şəhərindəki 14 nömrəli orta məktəbin, Şahtaxtı-Poldəşt körpüsünün, Şərur rayon xəstəxana şəhərciyinin açılışında iştirak etmiş və muxtar respublikada həyata keçirilən quruculuq tədbirlərini yüksək qiymətləndirərək demişdir: «Naxçıvanda çox böyük quruculuq işləri aparılır. Burada gedən quruculuq-abadlıq işləri, yeniləşmə, infrastruktur layihələri – bütün bunlar məni sevindirir. Bütün bunlar göstərir ki, Azərbaycanın qədim torpağı olan Naxçıvan çox sürətlə inkişaf edir və naxçıvanlılar ölkəmizin hərtərəfli inkişafına öz töhfələrini verirlər».



Ümumiyyətlə, indi Naxçıvana gələnlər burada bütün sahələrdə gedən quruculuq işlərinin şahidi olurlar. Naxçıvanın siması gündən-günə dəyişir. Burada şairin bir beytini xatırlatmaq istərdim:

Vətən günü-gündən dönür gülzara,
De, dünəni hara, bu günü hara…

Ali Məclis Sədrinin gündəlik diqqəti və qayğısı nəticəsində quruculuq işləri yeni vüsət alır və sürətlə davam etdirilir.

Muxtar respublikanın əhalisi blokada şəraitində olmasına baxmayaraq bu gün də yaşayır, işləyir, qurur, yaradır və öz məğrurluğunu heç vaxt itirmir.

downloaded from KitabYurdu.org

# VI FƏSİL

# DEMOQRAFİK PROSESLƏR, MƏŞĞULLUQ VƏ GENDER PROBLEMİ

## *6.1. Naxçıvan MR-da demoqrafik proseslərin müasir vəziyyəti*

Hazırda qloballaşan dünyanı narahat edən problemlər arasında demoqrafik proseslərdə baş verən dəyişikliklərlə bağlı məsələlər mühüm yer tutur. Təsadüfi deyil ki, indi dünya əhalisinin sürətli artımı və demoqrafik proseslərdə baş verən dəyişikliklər dövlətlərin bu məsələyə yeni səpgidə yanaşmasını tələb edir.

Demoqrafik proseslər əmək potensialının formalaşması və ölkə iqtisadiyyatının iş qüvvəsi ilə təmin edilməsinin əsas mənbəyini təşkil edir.

Demoqrafik statistikanın məlumatları göstərir ki, demoqrafik göstəricilərdə baş verən dəyişikliklər dünyanın ayrı-ayrı ölkələrində müxtəlif olmaqla daim dəyişmiş və indi də dəyişməkdə davam edir.

Lakin mövzuya keçməzdən qabaq keçən əsrlərdə Azərbaycan və Ermənistan ərazisində baş verən demoqrafik proseslərə və bu ölkələrin əhalisi ilə bağlı bəzi məqamları oxucuların diqqətinə çatdırmağı özümə borc bilirəm.

Əvvəla, göstərilən ərazilərdə ermənilərin məskunlaşması ilə bağlı və əhalinin milli tərkibinə dair materiallar, habelə hələ XIX-XX əsrlərin əvvəllərində



xarici ölkə alimlərinin – demoqrafların əsaslandığı mənbələr bir kənara qoyularaq yalan, uydurma məlumatlarla xalqı çaşdırmağa çalışırlar.

Qədim və zəngin tarixə malik olan Azərbaycan ərazisi və onun əhalisi 1804-1813-cü illərin İran-Rusiya müharibəsi nəticəsində Rusiya ilə İran arasında 1813-cü ildə imzalanmış «Gülüstan» və 1828-ci il fevral ayının 10-da imzalanmış «Türkmənçay» müqaviləsinə əsasən iki yerə (Şimali Azərbaycan və Cənubi Azərbaycan) bölündü. Şimali Azərbaycan İrəvan və Naxçıvan xanlıqları ilə birlikdə bütünlükdə Rusiyanın ərazisinə qatıldı. Cənubi Azərbaycan isə İranın tərkibində qaldı.

1828-ci il martın 1-də I Nikolay həmin müqaviləni təsdiq etmiş və ertəsi gün Erməni vilayəti yaradılması haqqında Fərman vermişdir. Bu Fərmanda deyilirdi ki, «İranla bağlanmış müqaviləyə əsasən İrandan Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarını bundan sonra «Erməni vilayəti» adlandırmağı hökm edir və öz titulumuza daxil edirik. Həmin vilayətin quruluşu və idarə edilməsi qaydası haqqında ali senat lazımi fərmanları öz vaxtında alacaqdır» (7. s.23 ).

Qeyd olunan həmin üzdəniraq Erməni vilayəti İrəvan və Naxçıvan əyalətlərinə və Ordubad dairəsinə bölünmüşdür. Tarixi mənbələrə əsasən həmin vaxt qeyd edilən Erməni vilayətində 23700 ailə, o cümlədən İrəvan əyalətində 1700 ailə, Naxçıvan əyalətində isə 4600 ailə yaşamışdır. Nəzərə alsaq ki, orta hesabla hər ailədə 5 nəfər adam olmuşdur, onda bütün ailə-

downloaded from KitabYurdu.org

lərdə mövcud olmuş əhalinin sayının 118500 olduğu aydınlaşar. Siyahıyaalınmanın nəticələrinə görə Erməni vilayətində 81749 nəfər müsəlman və 25131 yerli erməni qeydə alınmışdır (8. s.23-24; 542). 1840-cı ildə adı çəkilən Erməni vilayəti buraxılır, əvəzində İrəvan qəzası təşkil edilir və bu Gürcü İtereti quberniyasının tərkibinə daxil edilir. 1849-cu ildə İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad və Novo-Bayazid (Yeni Bayazid) qəzalarından ibarət İrəvan quberniyası təşkil edilir. Bu struktur 1917-ci ilədək dəyişilməz qalır.

Yuxarıda adı çəkilən müqavilələrdən keçən 200 ilə yaxın bir müddət ərzində əvvəlcə çar Rusiyasının, sonra isə SSRİ-nin tərkibində qalmış Şimali Azərbaycanın (indiki Azərbaycan Respublikası) ictimai-iqtisadi və sosial həyatında baş vermiş köklü dəyişikliklər bütün başqa sahələrdə olduğu kimi onun əhalisinin inkişafına və demoqrafik vəziyyətinə də öz təsirini göstərmişdir. Mövcud statistik mənbələrdən aydın olur ki, Şimali Azərbaycan əhalisinin sayı 1863-cü ildə 1130,0 min nəfər, 1913-cü ildə 2339,2 min nəfər (23. s.12) və sonrakı 94 ildə isə artaraq 2006-cı ildə 8,5 min nəfərə çatmışdır.

Qeyd etmək lazımdır ki, tarixi inkişafın ayrı-ayrı mərhələlərində respublika əhalisinin artım sürəti müxtəlif sosial-iqtisadi, demoqrafik, milli, mədəni, siyasi və s. amillərin təsiri altında eyni olmamış və daim dəyişmişdir.

Azərbaycan əhalisinin səciyyəvi xüsusiyyətlərini qeyd edərkən onun tarixən rəngarəng etno-demoqrafik quruluşa malik olması və bütün tarixi şəraitlərdə bu xüsusiyyətləri qoruyub saxlamasıdır.



Faktlar göstərir ki, hələ 110 il bundan qabaq, yəni 1897-ci ildə Rusiya imperiyası dövründə aparılmış ilk ümumi əhali siyahıyaalınmasına əsasən respublikamızın ərazisində onlarca müxtəlif millətlərdən, xalqlardan, etnik qruplardan olan insanlar yaşamış və 1926-cı ilin Ümumittifaq əhali siyahıyaalınma məlumatlarına əsasən onların sayı 95-i ötüb keçmişdir. Halbuki həmin dövrdə bizimlə qonşu olan Gürcüstanda onların sayı 76, Ermənistanda isə cəmi 48 olmuşdur (41. s.18).

Əhalinin milli tərkibini təhlil edərkən İrəvan quberniyasında yaşayan əhalinin milli tərkibinə də xüsusi diqqət yetirmək lazımdır. Statistik materiallar göstərir ki, 1897-ci ildə İrəvan quberniyasında yaşayan 829556 nəfər əhalinin 313176 nəfərini və ya 37,8 faizini, İrəvan şəhərində yaşayan 29006 nəfər əhalinin isə 12359 nəfərini və ya 42,6 faizini azərbaycanlılar təşkil etmişlər. Daha doğrusu, qeyd olunan dövrdə İrəvan şəhərində yaşayan ermənilərin sayı azərbaycanlıların sayından cəmi 164 nəfər çox olmuşdur. Həmin dövrdə azərbaycanlıların xüsusi çəkisi Aleksandropol qəzasında 4,7 faiz, Novobayazid qəzasında 28,3 faiz, Surmalin qəzasında 46,5 faiz, Eçmiədzin qəzasında 29,0 faiz, Naxçıvan qəzasında 63,7 faiz, o cümlədən Naxçıvan şəhərində 70,0 faiz və Ordubad şəhərində isə 88,6 faiz təşkil etmişdir.

Əhalinin milli tərkibinə nəzər saldıqda məlum olur ki, 1897-ci ildə indiki Azərbaycan ərazisində yaşamış əhalinin 59,8 faizini azərbaycanlılar, 18,5 fai-

downloaded from KitabYurdu.org

zini ermənilər, 6,9 faizini Dağıstan xalqları, 5,1 faizini ruslar, 5,0 faizini tatlar, 1,9 faizini talışlar, 15,5 faizini yəhudilər, 0,3 faizini kürdlər, 0,2, faizini ukraynalılar, 1,0 faizini isə başqa millətlər təşkil etmişlər (48. s.160).

XX əsrdə Azərbaycan ərazisində ermənilərin törətdikləri vəhşiliklər və soyqırım siyasəti əhalinin milli tərkibində də bəzi dəyişikliklərə gətirib çıxarmışdır. Məsələn, XX əsrin əvvəllərində əhalinin milli tərkibindəki xüsusi çəkisinə görə 3-cü yeri tutan yəhudilərin (15,5 faiz) sayı azalaraq 1999-cu ildə 0,1 faiz təşkil etmişdir. Fikrimizcə, yəhudilərin azalmasının əsas səbəbi ermənilərin Azərbaycan ərazisində törətdikləri vəhşiliklər və soyqırım siyasəti ilə bağlı olmuşdur. Yəhudi alimlərinin son vaxtlar apardıqları araşdırmalar, arxiv materialları əsasən bunu bir daha sübut edir.

Erməni millətçiləri Ermənistan deyəndə burada yalnız ermənilərin yaşamasını nəzərdə tuturdular. Ermənistan hökuməti millətçilik siyasəti yeridərək başqa millətləri daim sıxışdırıb çıxarırdılar, deportasiya edirdilər. Bunu 1923-cü ildə Azərbaycanın tərkibində yaradılmış DQMV-nin timsalında erməniləşdirmə siyasətinin aparılmasını daha aydın görmək olar.

XX əsrin bütün tarixi dövrlərində Qarabağda yaşayan əhalinin sayı saxtalaşdırılaraq erməni əhalisinin sayı daim artırılmış və əksinə olaraq azərbaycanlıların sayı azaldılmışdır. 1989-cu il Ümumittifaq siyahıyaalma zamanı saxtakarlıqlara yol verərək



azərbaycanlı əhalinin 12,% faiz olmasına nail olmuşlar. Onların iddialarına görə 1989-cu ildə DQMV əhalisinin sayı cəmi 188 min nəfər təşkil etmişdir ki, bunun da cəmi 40,6 min nəfərini guya azərbaycanlılar təşkil edir. Biz hesab edirik ki, bunlar tamamilə əsassızdır. Ona görə ki, 1959-1989-cu illərdə təbii artım ermənilərə nisbətən azərbaycanlılarda daha yüksək olmuşdur. Məhz bunu nəzərə alaraq demək olar ki, DQMV-nın azərbaycanlı əhalisi heç də ermənilərin göstərdiyi kimi 40,6 min yox, 60 mindən çox olmalıdır.

Bax ermənilərin əsassız iddiaları indi Naxçıvan Muxtar Respublikası haqqında da qaldırılır. Guya Naxçıvan MR əhalisinin də çoxu ermənilərdən ibarət olmuşdur. Dırnaqarası «erməni» alimlərinin bu iddiaları tamamilə yalandır, əsassızdır. Aşağıda verilən cədvəldən də bunu aydın görmək olar:

Cədvəl 15

**Naxçıvan MR əhalisinin milli tərkibi**

| İllər | cəmi əhali, min nəfər | O cümlədən | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | azərbaycanlılar | | ruslar | | ermənilər | | başqa millətlər | |
| | | cəmi min nəfər | yekuna nisbətən %-lə | cəmi min nəfər | yekuna nisbətən %-lə | cəmi min nəfər | yekuna nisbətən %-lə | cəmi min nəfər | yekuna nisbətən %-lə |
| 11897 x | 177,3 | 135 ,7 | 76,5 | 1,1 | 0,6 | 35,4 | 20,0 | 5,1 | 2,9 |
| 1926 | 104,9 | 88,4 | 84,3 | 1,8 | 1,7 | 11,3 | 10,8 | 3,4 | 3,2 |
| 1939 | 126,7 | 105,8 | 85,6 | 2,5 | 2,0 | 13,3 | 10,5 | 2,4 | 1,9 |

downloaded from KitabYurdu.org

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1959 | 141,4 | 127,5 | 90,2 | 3,2 | 2,3 | 9,5 | 6,7 | 1,2 | 0,8 |
| 1970 | 202,2 | 189,7 | 93,8 | 3,9 | 1,9 | 5,4 | 2,9 | 2,8 | 1,4 |
| 1979 | 240,4 | 230,0 | 95,7 | 3,8 | 1,6 | 3,4 | 1,4 | 3,2 | 1,3 |
| 1989 | 239,9 | 281,9 | 95,9 | 3,8 | 1,3 | 1,9 | 0,6 | 6,4 | 2,2 |
| 1999 | 354,1 | 350,8 | 99,1 | 0,5 | 0,14 | 17 | - | 2,7 | 0,77 |
| 2006 | 375,6 | 372,8 | 99,3 | 0,3 | 0,08 | 17 | - | 2,5 | 0,62 |

Bütün yuxarıda qeyd olunanlardan və cədvəl məlumatlarından aydın olur ki, 1897-ci ildən indiyə kimi keçən 110 il ərzində Naxçıvan Muxtar Respublikasının əhalisi 177,3 min nəfərdən 375,6 min nəfərə çatmış və ya 2,1 dəfə artmış, o cümlədən həmin dövrdə azərbaycanlıların sayı isə 237,1 min nəfər artmışdır. Ümumiyyətlə, əvvəlki illərdə başqa millətlərin də sayı daim artmışdır. Lakin sonralar ölkədə baş verən məlum hadisələr nəticəsində onların sayı azalmış və hazırda muxtar respublika əhalisi arasında çox da böyük xüsusi çəkiyə malik deyildir.

Naxçıvan Muxtar Respublikasında əhalinin milli tərkibində baş vermiş dəyişikliklər müxtəlif obyektiv və subyektiv səbəblərlə bağlı olub ayrı-ayrı tarixi inkişaf mərhələlərində bir-birindən fərqlənir. Məsələn, 1897-1924-cü illərdə muxtar respublika ərazisində əhalinin, xüsusilə də azərbaycanlıların sayca azalmasına əvvəla burada 1905-1906-cı və 1915-1918-ci illərdə erməni-müsəlman qırğınları, bu qanlı hadisələrin nəticəsində əhalinin kütləvi surətdə başqa yerlərə, xüsusilə İrana və Türkiyəyə köçməsi, misli görünməmiş aclıq nəticəsində əhalinin tələfata uğraması, Naxçıvan ərazisinin bir hissəsinin Azərbaycan torpaqları hesabına vaxtilə yaradılmış Ermənistana qatılması, Sovet hakimiyyətinin qurulduğu ilk illərdə əhalinin bir qisminin keçmiş SSRİ və Azərbaycan SSR-in iri şəhərlərinə daimi yaşamağa, işləməyə, təhsil almağa getmələri, habelə əhalinin doğum, ölüm və təbii artım göstəricilərinin nisbətən aşağı düşməyə başlaması və s. amillər təsir göstərməyə başlamışdır.



Naxçıvan Muxtar Respublikasında baş vermiş demoqrafik proseslərə təsir göstərən ən mühüm amillərdən biri də burada məskunlaşmış əhalinin milli tərkibindən ibarətdir. Müxtəlif milli adət-ənənəyə, nigah, boşanma, təhsil, mədəniyyət, məşğulluq səviyyəsinə malik olub müəyyən ərazidə məskunlaşmış, müxtəlif millətlərdən və etnik qruplardan olan əhalinin doğum səviyyəsi də rəngarəngliyinə görə bir-birindən fərqlənir və əhalinin artımına müxtəlif cür təsir göstərir. Tarixən ən qədim zamanlardan burada məskunlaşmış və həmin ərazinin əsil sahibləri olan azərbaycanlıların sayı 1897-ci ilin əhali siyahıyaalınması məlumatlarına əsasən 115,7 min nəfər olduğu halda, yuxarıda qeyd olunan səbəblər üzündən onların sayı xeyli azalaraq 1926-cı ilin əhali siyahıyaalınması dövründə 88,4 min nəfərə düşmüş, sonrakı illərdə isə daim artaraq 1999-cu ilin əhali siyahıyaalınması dövründə 350,8 min nəfərə, 2006-cı ildə 375,6 min nəfərə və 2008-ci il yanvar tarixə isə 384,5 min nəfərə gəlib çatmışdır.

Öyrənilən dövrdə çarizmin köçürmə siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sonradan

downloaded from KitabYurdu.org

gəlib məskunlaşmış və azərbaycanlılardan sonra sayca çoxluq təşkil edən və sonralar ermənilərin sayının və xüsusi çəkisinin getdikcə azalmasına gəldikdə isə bu təbii hal olub bir tərəfdən keçmiş SSRİ-də, Azərbaycan SSR və Ermənistan SSR-də əhalinin miqrasiyası prosesində baş verən dəyişikliklər, əhalinin daha mobil hissəsinin Naxçıvandan keçmiş ittifaqın, Azərbaycanın və Ermənistanın sənaye, kənd təsərrüfatı və mədəni cəhətdən inkişaf etmiş iri şəhər və regionlarına getməsi, bir qisminin ömürlərinin sonunda keçmiş ata-baba torpaqlarına qayıtmasının geniş vüsət alması, erməni millətindən olan gənclərin böyük bir hissəsinin SSRİ-nin başqa ərazilərində orduda qulluq etdikdən sonra geri dönməmələri, bəzilərinin xarici ölkələrə, o cümlədən də Rusiya və Ermənistana getməyə daha çox meyli olmaları, digər tərəfdən isə ermənilər və digər millətlər arasında əhalinin doğum səviyyəsinin və təbii artımının azərbaycanlılara nisbətən xeyli aşağı olması, Naxçıvanda yaşayan ermənilərin Ermənistanda yaşayan azərbaycanlılara qarşı daim mövcud olmuş qeyri-insani münasibətdən qorxmaları, 1948-1953-cü illərdə Ermənistandan 150 min nəfərdən, 1988-ci ildən sonra isə 250 min nəfərdən çox soydaşlarımızın öz torpaqlarından deportasiya edilmələri və zorla qovulmaları ilə əlaqədar olaraq yaranmış ictimai-siyasi şəraitlə və s. amillərlə izah olunur.

Azərbaycan Respublikası ərazisində sosial və iqtisadi sahələrin inkişafı ayrı-ayrı rayonlar arasında böyük fərqlərlə xarakterizə olunur. Həm də onlarda



şəhər və kənd əhalisinin inkişaf səviyyələri də müxtəlif cür formalaşır. Əhalinin demoqrafik prosesləri müəyyən məskunlaşma şəraitində gedir.

Ölkəmizdə əhalinin artması əsasən təbii hərəkətin hesabına olur. Ona görə də əhalinin demoqrafik hərəkətində doğumun, ölümün və təbii artımın ayrı-ayrı iqtisadi rayonlar üzrə xüsusiyyətlərini öyrənmək çox vacibdir. Aparılan tədqiqatlar iqtisadi rayonlarla yanaşı, həm də inzibati ərazi vahidləri üzrə fərqləri yaradan amilləri, onların əhali sakinliyinin ümumi qanunlarının təzahür xüsusiyyətlərini müəyyənləşdirməyə imkan verir.

Bazar iqtisadiyyatına keçid şəraitində ölkənin bütün regionlarında əmək resurslarının tənzimlənməsi üçün əhalinin təkrar istehsalının demoqrafik əsasını öyrənmək vacib məsələlərdən biridir. Demoqrafik prosesləri bilmədən əhalinin inkişaf dinamikasını müəyyənləşdirmək mümkün deyildir.

Demoqrafik proseslərlə bağlı bir çox demoqraflar tədqiqatlar apararaq yaxşı nəticələr əldə etmişlər. Belə demoqraflardan biri də Eybəli Qara oğlu Mehrəliyevdir. E.Q.Mehrəliyev «Azərbaycan Respublikasında demoqrafik proseslərin regional təhlili» əsərində (34) keçid dövründə demoqrafik proseslərin ayrı-ayrı iqtisadi rayonlar üzrə geniş təhlilini verərək elmi əsaslarla araşdırmışdır. Aşağıda Naxçıvan iqtisadi rayonu üzrə onun mülahizələrini əks etdirməyi lazım bilirəm.

downloaded from KitabYurdu.org

## A. Əhalinin cinsi quruluşunun təhlili

Əhalinin cinsi tərrkibcə dəyişməsi onun doğum prosesinin və yaş quruluşunun da dəyişməsinə səbəb olur. Bu proses demoqrafların və coğrafların daim diqqət mərkəzində olur.

Naxçıvan Muxtar Respublikasında uzun illik demoqrafik materialların təhlili göstərir ki, əgər respublikada 1961-1989-cu ildə təbii artım 48 faiz aşağı düşmüşsə, Naxçıvan MR-da 32 faiz, əhalinin doğum əmsalı ən azı burada aşağı düşmüşdür. Bu dövrdə ümumi əhali içərisində hər 1000 qadına düşən kişinin sayı 950 nəfər, o cümlədən kənd əhalisində 930 nəfər idi. Lakin bilavasitə kənd təsərrüfatında çalışan əhali içərisində kişilərin nisbəti həm ümumi əhalidə (610 nəfər), həm də kənd əhalisində (680 nəfər) çox aşağı səviyyədə olmuşdur.

Bu vəziyyət kənd təsərrüfatının çox ağır əmək tutumlu sahəsindən şəhərə kişilərin getməsinin nəticəsidir.

Sonrakı illərin nəticəsi cədvəldə verilir.

Cədvəl 16

**Naxçıvan Muxtar Respublikasında hər 1000 qadına düşən kişinin sayı (34)**

| İnzibati bölgülər | Ümumi əhali içərisində | Şəhər əhalisi içərisində | Kənd əhalisi içərisində |
|---|---|---|---|
| Naxçıvan şəhəri | 942 | 942 | - |
| Babək | 966 | 927 | 986 |
| Culfa | 1006 | 1001 | 1004 |
| Ordubad | 996 | 960 | 1001,8 |
| Sədərək | 1001 | 1120 | 979 |
| Şahbuz | 978 | 948 | 983 |
| Şərur | 957 | 907 | 954 |
| Naxçıvan Muxtar Respublikası | 968 | 952 | 985 |
| Azərbaycan Respublikası | 953 | 941 | 963 |





Naxçıvan Muxtar Respublikasının anklav şəraitində yerləşməsi orada əhalinin cinsi tərkibinin xeyli yaxşı saxlanmasına kömək etmişdir. Ona görə də burada hər 1000 qadına düşən kişinin miqdarı respublikadan (15 nəfər) çoxdur, həmçinin Culfa, Ordubad, Sədərək rayonlarında daha yaxşıdır, təkcə Naxçıvan şəhərində (58 kişi az) və Şərur rayonunda (43 kişi az) cinsi tərkib çox pozulmuşdur. Hətta Ordubad rayonundakı Parağaçay qəsəbəsində 192 kişi artıqdır.

Şəhər əhalisi bu cəhətdən daha rəngarəngdir. Məsələn, Babək (73 kişi az), Şərur rayonunda (93 kişi az) ölçü vahidinə az kişi düşdüyü halda, Sədərəkdə 120 nəfər, Culfada 1 nəfər kişi çoxdur. Şahbuz qəsəbəsində və Naxçıvan şəhərində nisbətən az kişi vardır.

Kənd əhalisində vəziyyət yaxşıdır. Ən yüksək səviyyə (1001-1004 kişi) Ordubad və Culfa rayonlarındadır. Nehrəm kəndində 998 nəfər, Yaycı kəndində 1003 nəfər düşdüyü hald, Şərur rayonundakı Qarabağlar kəndində ölçü vahidindən 78 nəfər az kişi vardır.

downloaded from KitabYurdu.org

Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasında demoqrafik vəziyyət, o cümlədən əhalinin cinsi tərkibindəki nisbətlər qənaətbəxşdir. Lakin buranın əsas kənd təsərrüfatı rayonu olan Şərurda cinsi tərkibin çox pozulması yaxın gələcəkdə burada əmək ehtiyatlarına tələbatı çətinləşdirə bilər.

## B. Doğum prosesinin regional təhlili

Doğum prosesinin əsas daşıyıcıları valideynlər olsa da, onlardan qadınlar həm bioloji, həm fizioloji, həm sosial, habelə, iqtisadi cəhətdən ən başlıca zəhmət çəkənidir. Ona görə də bu bölümdə respublikanın ayrı-ayrı regionlarında qadınların doğum prosesində nə dərəcədə iştirak etməsini araşdırmaq məqsədilə qadınların ümumi sayından doğulanların miqdarı, onlardan sağ qalan uşaqların sayını müəyyənləşdirmək üçün, onların hər bir inzibati rayon, şəhər və kənd yerlərində xüsusi çəkisi tapılmış və onların məlumatları müqayisə olunmuşdur.

Naxçıvan Muxtar Respublikası adətən yüksək doğum göstəricisi ilə seçilir. Faktlar göstərir ki, cəmi qadınların 68,4 faizi doğum prosesində iştirak edir. Bu da respublika səviyyəsindən 2,2 faiz yüksəkdir. Onun daxili inzibati rayonları bir-birindən kəskin surətdə fərqlənir. Doğum prosesində ən çox iştirak etmə Ordubad (71,5 faiz), Culfa (70,5 faiz) və Şahbuz (70,3 faiz) rayonlarında, onlardan bir az geri qalan Naxçıvan (69,4 faiz) şəhəridir. Bu cəhətdən Babək (64,0



faiz), Şərur (66,4 faiz) və Sədərək (57,2 faiz) xeyli geri qalırlar.

Cədvəl 17

**Naxçıvan Muxtar Respublikasındakı inzibati rayonlar üzrə doğan qadınların xüsusi çəkisi (%) (34)**

| İnzibati bölgülər | Orta hesabla | Şəhərdə | Kənddə |
|---|---|---|---|
| Babək | 64,0 | 67,2 | 68,5 |
| Culfa | 70,5 | 71,6 | 69,4 |
| Naxçıvan şəhəri | 69,4 | 69,4 | - |
| Ordubad | 71,5 | 68,4 | 72,5 |
| Sədərək | 57,2 | - | 57,2 |
| Şahbuz | 70,3 | 69,2 | 70,5 |
| Şərur | 66,5 | 68,5 | 66,5 |
| Naxçıvan Muxtar Respublikası | 68,4 | 68,5 | 67,6 |
| Azərbaycan Respublikası | 66,2 | 66,5 | 67,1 |

Şəhər yerlərində də doğan qadınların xüsusi çəkisi (68,5 faiz) respublika səviyyəsindən 2 faiz üstün olması şəraitində yenə də ən çox iştirak Culfa (71,6 faiz), Şahbuz (69,2 faiz), Şərur (68,5 faiz), Ordubad (68,4 faiz) rayonlarında və Naxçıvan şəhərindədir (69,4 faiz). Ən aşağı səviyyə Babək rayonundadır (67,2 faiz).

Naxçıvan Muxtar Respublikasında kənd əhalisi (67,6 faiz) də ümumi respublikaya (67,1 faiz) və əksər iqtisadi rayonlara nisbətən daha aktiv demoqrafik xarakterə malikdir. Bu cəhətdən Ordubad (72,5

downloaded from KitabYurdu.org

faiz), Şahbuz (70,5 faiz), Culfa (69,4 faiz) və Babək (68,5 faiz) daha yüksək göstəricilərə malikdirlər. Ən aşağı demoqrafik aktivlik Şərur (66,5 faiz) və Sədərək (57,2 faiz) rayonlarındadır.

## V. Qadınların sayı ilə uşaqların doğumu arasında asılılığın regional təhlili

Əldə olan materialların təhlili göstərir ki, qadınların ümumi sayı ilə uşaq doğumu arasında həmişə və hər yerdə mütənasiblik olmur. Buna təsir edən amillərdən biri etnik adət və ənənələr, həm də çox hallarda bu doğumu parçalayan əhalinin sosial səviyyəsidir. E.Mehrəliyevin fikrincə, bu işdə bir məcmu amil kimi urbanizasiyanın da rolu inkar edilməzdir. Bu məqsədlə nikah yaşlı qadınların hər 1000 nəfərinə, o cümlədən doğan qadınların hər 1000 nəfərinə orta hesabla və kənd yerlərində doğulan uşaqların sayına görə respublikanın rayonları təhlil olunmuşdur.

Naxçıvan Muxtar Respublikası ümumiyyətlə yüksək demoqrafik, xüsusilə doğum göstəricisi ilə seçilir. Əldə olan məlumatların analizi də bunu təsdiq edir. Belə ki, bu inzibati bölgüdə fertil yaşlı və doğan qadınların hər 1000 nəfərinə doğulan uşaqların sayı (müvafiq olaraq 2267 və 3300 uşaq) respublikanın eyni göstəricisindən 187 və 300 uşaq çoxdur. Deməli, bu iki göstərici arasındakı fərq doğan qadınlarda daha çoxdur. Lakin doğan qadınlardan kənd yerlərində məhsuldarlıq fərqi 200 uşaq təşkil edir (yəni 1,5 dəfə azalır).



Cədvəl 18

**Naxçıvan Muxtar Respublikasındakı inzibati rayonlar üzrə doğan qadınların xüsusi çəkisi (%)**

| İnzibati bölgülər | Kəbin yaşda qadınların sayına görə (orta hesabla) | Doğan qadınların sayına görə (orta hesabla) | O cümlədən kənddə |
|---|---|---|---|
| Babək | 2324 | 3400 | 3400 |
| Culfa | 2514 | 3460 | 3650 |
| Ordubad | 2311 | 3200 | 3530 |
| Sədərək | 2088 | 3600 | 3640 |
| Şahbuz | 2513 | 3100 | 3100 |
| Şərur | 2329 | 3300 | 3500 |
| Naxçıvan şəhəri | 1909 | 2700 | - |
| Naxçıvan Muxtar Respublikası | 2267 | 3300 | 3500 |
| Azərbaycan Respublikası | 2080 | 3000 | 3300 |

Mövcud məlumatlar bütün inzibati vahidliklər arasında eyniliyin olmamasını sübut edir. Belə ki, təkcə Naxçıvan şəhərinin bu sahədəki göstəricisi (1909 uşaq) orta respublika səviyyəsindən (2080 uşaq) və doğan qadınların məhsuldarlığından 300 uşaq geridir. Kənd rayonları arasında fertil yaşlı qadınların məhsuldarlığı orta hesabla 187 uşaq, Culfa və Şahbuz rayonlarında 483-484 uşaq, qalan inzibati

downloaded from KitabYurdu.org

rayonlarda da 235-240 uşaq çoxdur. Təkcə Sədərək rayonunda doğum orta iqtisadi rayon səviyyəsindən 187 uşaq az olsa da, Azərbaycandakı orta göstərici qədərdir.

Doğan qadınların hər 1000 nəfərinə doğulan uşaqların iqtisadi rayon üzrə sayı respublikaya nisbətən 10 faiz çox, kənd yerlərində 7 faiz çoxdur.

İnzibati rayonlarda doğan qadınların ən yüksək göstəricisi Sədərək (3600 uşaq), Babək və Culfa (3400 uşaq), Şərur (3300 uşaq) rayonlarında, nisbətən az uşaq (3100-3200 uşaq) Şahbuz və Ordubad rayonlarındadır. Kənd yerlərində fərqin iqtisadi rayon üzrə artması (200 uşaq) respublikaya (300 uşaq) nisbətən aşağılığı müşahidə olunur. Orta rayon göstəricisindən (3500 uşaq) artıqlıq ancaq Sədərək (3640 uşaq) və Culfa (3650 uşaq) rayonlarında qeydə alınmışdır. Ən az (3100 uşaq) uşağın Şahbuzda doğulması kənddə sosial-iqtisadi infrastrukturların lazımi səviyyədə olmasını göstərir.

## Q. Sosial inkişaf səviyyəsi ilə demoqrafik proseslər arasındakı asılılığın regional fərqləri

Demoqrafik proseslər ən çox əhalinin sosial inkişaf səviyyəsindən asılı olur. Bu şərtlər əhalinin əmək haqqının həcmi, mənzil təminatı ilə şərtlənir. Bununla bərabər əhalinin sosial şəraitini ümumiləşdirən amil də vardır. Onlar əhalinin yaşadığı yerlərdə 1 km$^2$-də sıxlığı və ümumiyyətlə, əhali arasında ali və natamam ali təhsillərin, nigahlı və nigahsız, habelə



doğmayan qadınların xüsusi çəkisi, əsasən doğan qadınların təhsil səviyyəsinə görə doğduğu uşaqların miqdarıdır.

Naxçıvan Muxtar Respublikası əhali sıxlığından 45,0 faiz və urbanizasiya səviyyəsindən təqribən 2,2 dəfə geri olduğu şəraitdə, nigahlanma 3,0 faiz üstün, doğmayan qadınlar 2,5 faiz az, nigahlı qadınlardan doğmayanların 0,5 faiz çoxalması müşahidə olunur. Bununla bərabər əhali arasında ali və natamam ali təhsillərin yaxınlığı (14,5-15-1 faiz), ümumi qanunauyğunluğun tərs mütənasibliyinə müvafiq olaraq, təhsil səviyyəsinə görə doğulan uşaqların bütün vəziyyətdə Azərbaycan Respublikasından üstünlüyü vardır: ən çox üstünlük natamam ali (18,5 faiz), orta ixtisaslı (11,1 faiz) və natamam orta təhsilli qadınların doğumu arasındadır.

Muxtar respublikanın inzibati rayonları arasında da həm sosial, həm də demoqrafik göstəricilər ciddi surətdə fərqlənirlər.

Məsələn, ən böyük sıxlıq (95 nəfər) Şərur rayonunda olmaqla bərabər, ən az nigahlı (65,4 faiz) qadınlar da, doğmayan qadınların nisbəti də (30,6 faiz) Muxtar Respublika səviyyəsindən (31,3 faiz) aşağıdır, hətta doğmayan qadınlar daha çox nigahsız, boşanan və dul qadınlar vardır. Kənd rayonlarında ali və natamam ali təhsilli əhalinin xüsusi çəkisi 9 faiz olduğu halda Şərur rayonunda 8,8 faizdir. Təhsilli qadınların doğduğu uşaqların iqtisadi rayon üzrə orta sayı 3,5 uşaq olduğu halda, Şərur rayonu (2,8 uşaq) ən aşağı səviyyədədir.

downloaded from KitabYurdu.org

Bu rayonda ali təhsillilərin doğduğu muxtar respublikada ən aşağıdır (2,6 uşaq). Qalan təhsilli qadınların da doğum göstəricisi yenə də aşağı yerlərdən birini tutur.

Burada Şahbuz rayonunun göstəricisi qanunauyğunluqla uzlaşmır. O dağlıq rayon kimi əhalisi ən seyrək, nigahlanma yüksək (73,1 faiz), doğmayan qadınlar (29,1 faiz), nigahsız (24,1 faiz), boşanan və dullar (2,8 faiz) çox, ali və natamam ali təhsilli əhalinin xüsusi çəkisi (13,3 faiz) kənd rayonlarının hamısından çox, təhsilli qadınların doğduğu uşaqların iqtisadi rayon üzrə (3,5 uşaq) sayından çox (3,9 uşaq), ali təhsillilərin doğumu (2,8 uşaq) aşağı yerlərdən biri, natamam ali təhsillilər (5,4 uşaq) hamıdan çox və sair vəziyyətdədir.

Babək, Culfa və Ordubad rayonlarında nigahlı qadınların üstünlüyü (73,0-77,0 faiz), nigahsız (19,0-31,0 faiz), boşanan və dul qadınların azlığı (3,0-4,0 faiz) şəraitində, Babək rayonunda nigahlı qadınlar ən çox (11,5 faiz). Ordubad rayonu ən az (2,3 faiz) doğmayanlar ilə seçilir. Doğmayan qadınların ən yüksək xüsusi çəkisi (42,8 faiz) Sədərək rayonunda olmaqla, onların 4,4 faizi nigahlı qadınlardır.



Cədvəl 19

**Naxçıvan Muxtar Respublikasında sosial inkişaf səviyyəsi ilə demoqrafik proseslər arasındakı fərqlər**

| İnzibati rayonlar | Əhalinin sıxlığı | Nigah bölgüsü %-lə | | | Doğmayan qadınlar %-lə | | Ali və natamam ali təhsilli əhali %-lə | Təhsil səviyyəsinə görə qadınların doğduğu uşaqların sayı | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | nigahlı | nigahsız | boş/dul | cəmi | nigahlılar | | orta hesabla | ali təhsilli | natamam ali təhsilli | orta ixtisas təhsilli | tam orta təhsil | natamam orta təhsil |
| Babək | 61 | 75.5 | 21.2 | 3.3 | 36.0 | 11.5 | 8.2 | 3.7 | 8.2 | 3.4 | 3.2 | 3.4 | 4.7 |
| Culfa | 36 | 77.3 | 18.6 | 4.1 | 29.5 | 6.8 | 12.1 | 3.8 | 3.0 | 4.0 | 3.2 | 3.6 | 5.5 |
| Ordubad | 42 | 73.0 | 21.6 | 4.6 | 28.5 | 2.3 | 10.8 | 3.5 | 2.7 | 3.9 | 3.1 | 3.2 | 5.6 |
| Sədərək | 80 | 61.6 | 36.0 | 2.4 | 42.8 | 4.4 | 3.8 | 3.8 | 3.3 | 5.0 | 3.8 | 3.4 | 5.7 |
| Şahbuz | 22 | 73.1 | 24.1 | 2.8 | 29.1 | 2.2 | 13.3 | 3.9 | 2.8 | 5.4 | 3.2 | 3.7. | 5.1 |
| Şərur | 95 | 65.4 | 22.1 | 12.5 | 33.5 | -1.1 | 8.8 | 2.8 | 2.6 | 4.0 | 3.3 | 3.4 | 5.2 |
| Naxçıvan şəhəri | 187 | 79.9 | 14.1 | 6.0 | 30.6 | 0.5 | 27.0 | 2.9 | 2.5 | 2.5 | 2.6 | 2.9 | 4.0 |
| Naxçıvan MR | 64.4 | 74.0 | 22.1 | 3.9 | 31.3 | 5.3 | 14.5 | 3.5 | 2.7 | 3.2 | 3.0 | 3.3 | 5.0 |
| Azərbaycan Respublikası | 93.4 | 71.0 | 24.2 | 4.8 | 33.8 | 4.8 | 15.1 | 3.3 | 2.4 | 2.7 | 2.7 | 3.1 | 4.3 |

downloaded from KitabYurdu.org

Təhsilli qadınların doğduğu uşaqların orta sayı (3,5-3,8 uşaq), o cümlədən ali (2,7-3,3 uşaq) və natamam ali təhsillilərin (3,5-5,0 uşaq) göstəriciləri iqtisadi rayon səviyyəsindən artıqdır. Bu üç rayonda əhalinin ali və natamam ali təhsil səviyyəsi (10,3 faiz) kənd rayonları səviyyəsindən (9,4 faiz) yüksəkdir.

Bütün göstəricilərə görə Naxçıvan şəhəri bir paytaxt kimi seçilir. Muxtar Respublikada ən çox nigahlı (97,7 faiz), doğmayan (30,6 faiz) qadınların, ali və natamam ali təhsilli əhalinin (27,0 faiz), orta hesabla (2,9 uşaq) və ümumiyyətlə, ən az uşaq doğumunun bu şəhərdə olması qanuni haldır.

Təhlil göstərir ki, Naxçıvan iqtisadi rayonu nigahlanma səviyyəsinə (74,0-71,0 faiz), təhsilli qadınların doğduğu uşaqların və doğmayan qadınlar arasında nigahların sayına görə respublikadan üstün olmaqla, ümumi əhalinin, o cümlədən doğan qadınların təhsil səviyyəsindən geridir.

Naxçıvan Muxtar Respublikasındakı inzibati rayonlar ümumiyyətlə oxşar sosial-iqtisadi prosesləri birgə keçirsələr də onların yerli təbii-iqtisadi imkanları və istehsal vərdişləri əhalinin müxtəlif demoqrafik düşüncəsini formalaşdırmışdır.

### D. Əhalinin təbii hərəkətinin regional təhlili

Əhalinin təbii hərəkəti nəsillərin arasıkəsilməz bərpası deməkdir. Bu cəhətdən əhalinin doğum, ölüm və təbii artım göstəriciləri ilə bərabər anaların dünyaya gətirdiyi uşaqların qorunması məqsədilə onların



1 yaşa qədər ölənlərin miqdarı da əsas amil sayılır. Bu məqsədlə təbii hərəkətin ərazi üzrə əmsallarının təhlili bu hadisələrin baş vermə səbəblərini aydınlaşdırmağa imkan verir.

Əhalinin təkrar istehsalı hər bir rayonda özünəməxsus inkişaf və məskunlaşmasındakı qanunauyğunluqlardan asılıdır.

Demoqraf alim E.Mehrəliyevin tədqiqatlarından məlum olur ki, Naxçıvan Muxtar Respublikası özünün demoqrafik göstəricilərinin artıqlığı ilə Azərbaycan Respublikasında həmişə seçilir. Ona görə də onun əhalisi sayca daha sürətlə artır. Təkcə son iki siyahıyaalma arasında onun əhalisi ümumi ölkə əhalisinə nisbətən 6,8 faiz çox artmışdır. 1999-2000-ci illər ərzində əhali Muxtar Respublikada 2,1 faiz artdığı halda, ölkədə 1,5 faiz artması bunu bir daha sübut edir: bu hal xüsusilə Babək (29,8 faiz), Culfa (22,7 faiz) və Şərur (24,4 faiz) rayonlarında olur (müqayisə edilən dövrün əvvəlində indiki Sədərək rayonu da Şərur rayonuna daxil idi). Ümumiyyətlə, burada əhalinin artmasına baza yaradan şərait əhalinin cins-yaş nisbətinin demək olar ki, həmişə yaxşı vəziyyətdə olmasıdır. Hələ 30 il əvvəldən (qadınlar 50,8 faiz) indiyə qədər (51,4 faiz) dəyişilmə o qədər də böyük olmamışdır.

downloaded from KitabYurdu.org

Cədvəl 20

**Naxçıvan Muxtar Respublikasında təbii hərəkət göstəriciləri (34)**

| İnzibati rayonlar | Əhalinin hər 1000 nəfərinə | | | Hər 1000 nəfərə diri doğulan 1 yaşa qədər ölən uşaqların sayı |
|---|---|---|---|---|
| | doğum | ölüm | təbii artım | |
| Naxçıvan şəhəri | 13.1 | 5.1 | 8.0 | 10.2 |
| Babək | 17.4 | 6.2 | 11.2 | 13.5 |
| Ordubad | 16.2 | 4.8 | 11.4 | 11.8 |
| Culfa | 14.9 | 5.8 | 9.1 | 10.9 |
| Sədərək | 17.4 | 5.9 | 11.5 | 11.8 |
| Şahbuz | 14.6 | 6.3 | 8.3 | 9.7 |
| Şərur | 19.1 | 4.7 | 14.4 | 10.5 |
| Naxçıvan Muxtar Respublikası | 16.1 | 5.4 | 10.7 | 11.2 |
| Azərbaycan Respublikası | 14.8 | 5.9 | 8.9 | 12.8 |

Muxtar respublikanın 1996-cı ildəki demoqrafik göstəricisindən təbii hərəkət məlumatları ilə 2000-ci ilin məlumatlarının müqayisəsi maraqlıdır.

Son dövrün məlumatına görə əhalinin təbii hərəkətindəki vəziyyət yuxarıdakı cədvəldə verilir.

Naxçıvan Muxtar Respublikasındakı təsərrüfat strukturu ilə bərabər yanacağın və elektrik işığının normadan aşağı təminatı əhalinin durumunda ol-



maqla təkrar istehsalına da öz təsirini göstərmişdir. Bütün bunlar atəşkəs olan vaxtlardan sonra da əhalinin təbii hərəkət göstəricilərinin, xüsusilə doğum və təbii artımın azalması davam etmişdir. Çünki əhalinin yerdəyişməsi bir tərəfdən ailə yaratmaq imkanını pozursa, digər tərəfdən mövcud ailələrin demoqrafik durumunu pozur. İndiki şəraitdə əgər əhalinin yerdəyişmə prosesi ləngimişsə, hətta mövcud ailələrin məzmunca sabitləşməsi başa çatmamışdı. Ona görə də əhalinin təbii hərəkətində yeni tipli formalaşma getməkdədir.

2000-ci ilin məlumatına görə Naxçıvan Muxtar Respublikasının təbii göstəriciləri içərisində doğum (16,1 uşaq) və təbii artım (10,7 nəfər) əmsalları ölkədən (müvafiq olaraq 14,8 və 8,9 nəfər) çoxdur. Belə şəraitdə inzibati rayonlar arasında fərqlər çoxdur. Əlbəttə, Naxçıvan şəhərində təbii əmsalların hamısının muxtar respublikadan aşağı olması onun urbanizasiya mühiti ilə əlaqədardır. Həm də bu fərqlər doğum ( 3 uşaq) və təbii artım (2,7 nəfər) göstəricisindən daha çoxdur. Şəhərdə ölüm əmsalının bir qədər (0,4 nəfər) çox olması düzgün haldır.

Doğum əmsalında düzənlik (Babək – 17,4, Sədərək – 17,4 və Şərur – 19,1 uşaq) rayonları dağlıq rayonlardan (Şahbuz – 14,6, Culfa – 14,9 və Ordubad -16,2) 20,0 faizə qədər artıqdır.

Ölüm əmsalı (4,5 nəfər) ölkədən (5,9 nəfər) bir o qədər də fərqlənmir. Lakin daxili inzibati rayonlar arasında, səbəbi aydınlaşdırılması çətin olan fərqlər müşahidə olunur. Ölümdə ən yüksək göstərici Babək

downloaded from KitabYurdu.org

(6,2 nəfər) və Şahbuz (6,3 nəfər, ən aşağı göstərici Ordubad (4,8 nəfər) və Şərur (4,7 nəfər) rayonlarındadır.

Təbii artım əmsalı Naxçıvan şəhərində və Babək (8,3 nəfər) rayonundan başqa qalan ərazi vahidində ölkə (8,9 nəfər) səviyyəsindən yuxarıdır. Ən yüksək artım əmsalı Şərur (14,4 nəfər), Sədərək (11,5 nəfər) və Ordubad (11,4 nəfər) və Babək (11,4 nəfər) rayonlarındadır. Ən az isə (8,3 nəfər) Şahbuz rayonundadır.

Muxtar respublikada ümumiyyətlə, doğulan uşaqların qorunması yaxşı səviyyədədir. Burada orta ölüm göstəricisi ölkədən 1,6 uşaq azdır. Hər 1000 diri doğulan bir yaşa qədər ölən uşağın sayı ən çox Babək (13,5 uşaq), Ordubad və Sədərək (11,8 uşaq) rayonlarında, ən az isə dağlıq Şahbuz (9,7 uşaq) və Culfa (10,9 uşaq) rayonlarında olması təbii iqtisadi baza nöqteyi nəzərdən düzgündür.

Əldə olan son iki illik informasiya göstərir ki, əhalinin həyatında sabitləşmə tendensiyası hiss olunur. Çünki son iki ildə Naxçıvan MR artımı cədvəldə göstərilənlərdən bir qədər artıqdır.

İstehsal və sosial strukturların bərpası və inkişafı haqqındakı tədbirlər əhalinin sabit həyat şəraitinə keçməyə imkan yaratmaqla demoqrafik proseslərin aktivləşməsinə ümidi artırır.

Ölkədə aparılan demoqrafik siyasət çox uğurla həyata keçirilir. Demoqrafik siyasətin əsas məqsədi demoqrafik proseslərə təsir edən ən mühüm amillər nəzərə alınmaqla cəmiyyətin və onun hər bir üzvünün



mənafeyi baxımından əhalinin normal təkrar istehsal prosesini həyata keçirməyi təmin etməkdən ibarətdir.

Demoqrafik siyasət tədbirlərinin başlıca istiqamətləri demoqrafik proseslərin idarə edilməsinə yönəldiyindən bu tədbirlər sistemi həmişə kompleks xarakter daşımalıdır. Çünki bu proseslərə sosial-iqtisadi amillərlə yanaşı, həm dəbütün ictimai münasibətlər sistemi təsir göstərir.

Keçmiş ittifaqın tərkibində olduğu bir neçə onilliklər ərzində Azərbaycanda demoqrafik proseslər çox sürətlə getmiş, əhalinin sürətli artımına görə müttəfiq respublikalar arasında ilk yerlərdən birini tutmuş və hətta 1960-cı ildə əhalinin hər 1000 nəfərinə düşən doğum və təbii artım səviyyəsinə görə birinci yerə çıxmışdır. Belə ki, əgər 1960-cı ildə keçmiş ittifaqda əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 24,9 nəfər, təbii artım səviyyəsi isə 17 nəfər olmuşdursa, Azərbaycanda bu göstəricilər müvafiq surətdə 42,6 və 36,9 nəfər və ya orta ittifaq səviyyəsindən 1,7 və 2,2 dəfə yüksək olmuşdur.

Keçmiş SSRİ ərazisində doğum və təbii artım üzrə rekord göstərici Naxçıvan Muxtar Respublikasında qeydə alınmışdır. Belə ki, 1960-cı ildə Muxtar Respublika üzrə hər 1000 nəfərə 50,6 nəfər doğulmuş, 6,4 nəfər ölmüş, təbii artım isə 44,2 nəfər olmuşdur.

Təhlil göstərir ki, Naxçıvan Muxtar Respublikası doğum göstəricisinə görə orta ittifaq səviyyəsindən 2 dəfə, təbii artım göstəricisinə görə isə 2,6 dəfə yüksək olmuşdur.

downloaded from KitabYurdu.org

Ölkədə doğum və təbii artım göstəricilərinin digər müttəfiq respublikalardan yüksək olması belə bir yanlış fikrin formalaşmasına səbəb olmuşdur ki, guya Azərbaycanın demoqrafik inkişafında heç bir çətinlik mövcud deyil və onun tənzimlənməsinə də ehtiyac yoxdur. Ölkədə yaranmış arxayınçılıq nəticəsində əhalinin artım və miqrasiyası prosesinin tənzimlənməsini təmin edən demoqrafik siyasət tədbirlərinin işlənib hazırlanması və qanunların qəbul edilməsi diqqət mərkəzindən yayınmışdır. Təsadüfi deyil ki, 1960-cı illərin ortalarından SSRİ-nin dağılmasına qədərki dövr ərzində əhalinin artım sürətinin azalması meyli başqa respublikalara nisbətən daha güclü olmuşdur. Bu vəziyyət özünü respublikamızın dağlıq və dağətəyi rayonlarında daha qabarıq şəkildə büruzə vermişdir. Gənc oğlanların həmin ərazilərdən keçmiş SSRİ-nin iri sənaye şəhərlərinə, tikinti obyektlərinə kütləvi axması neqativ hallara gətirib çıxarmışdır.

Respublikamızdan bu dövrdə hər il orta hesabla 30-40 min nəfər gənc oğlanlar işləmək, təhsil almaq və daimi yaşamaq üçün keçmiş ittifaqın başqa şəhər və rayonlarına gedirdilər. Yuxarıda qeyd etdiyimiz və xüsusilə də 1980-ci ildən sonra minlərlə ali və orta ixtisaslı mütəxəssislər və ixtisaslı fəhlə kadrları mütəşəkkil qaydada keçmiş ittifaqın Arxangelsk, Neçernozemiya, Çernobıl, Tula vilayətləri, BAM zonası regionlarına və s. yerlərə göndərilirdi.

Təkcə 80-ci illərin ortalarında Azərbaycandan Rusiyanın Amur vilayətinə 600-dən çox ailə köçürülmüş və hər il orta hesabla yuxarıda qeyd edilən vilayətlərə buradan 1500 nəfərdən çox yüksək ixtisaslı mütəxəssislər göndərilmişdir ki, onların da 80-90 faizindən çoxunu azərbaycanlı oğlanlar təşkil etmişdir.



Qeyd olunan bütün bu məsələlər Azərbaycan əhalisinin demoqrafik quruluşunun pozulmasına, daha doğrusu, respublikamızın müxtəlif regionlarında, o cümlədən Naxçıvan MR-da əhalinin yaş-cins tərkibində, ilk növbədə isə ailə qurmaq yaşında olan oğlan və qızların say tərkibində qeyri-normal nisbətlərin yaranmasına və son nəticədə isə gənclərin ailə qurması işinin çətinləşməsinə səbəb olmuş və indi də səbəb olmaqdadır. Təkcə bir faktı göstərmək kifayətdir ki, 1999-cu ilin əhali siyahıyaalınması məlumatlarına əsasən həmin il Azərbaycanda ərdə olmamış subayların sayı 25-29 yaşlı qadınlar arasında 79,4 min nəfər və ya 23,7 faiz, 30-34 yaşlı qadınlar arasında 47,9 min nəfər və ya 23,7 faiz, 35-39 yaşında olan qadınlar arasında isə 33,7 min nəfər və ya 13,3 faiz, 40 və ya yuxarı yaşında olan qadınlar arasında isə 33,9 min nəfər və ya 9,3 faizi ötüb keçmişdir.

Təhlil göstərir ki, demoqrafik proseslərdə ən müsbət göstərici boşanmalarda qeydə alınmışdır. Belə ki, 1990-2002-ci illərdə ölkədə boşanmaların sayı 14,1 mindən 5,7 minə düşmüş və ya 60 faizə qədər azalmışdır.

Yuxarıda qeyd olunanlar başqa amillərlə yanaşı xeyli dərəcədə də Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin nəticələri, respubli-

downloaded from KitabYurdu.org

kanın sosial-iqtisadi, siyasi və mənəvi həyatında yol verilmiş bir sıra neqativ hallarla bağlı olmuşdur.

Son illər dünya ölkələrinin demoqrafik inkişaf göstəricilərində baş verən bəzi mənfi dəyişikliklər ölkəmizdə də özünü büruzə verməkdədir. Müstəqillik illərində respublikamızda əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 23 nəfərdən 12,2 nəfərə düşmüşdür.

Ümumiyyətlə, demoqrafik vəziyyətin müasir durumunun daha düzgün təsəvvür edilməsi bu məsələnin bir qədər geniş açıqlanmasını tələb edir. Çünki müstəqillik illərində Azərbaycanda baş vermiş iqtisadi, sosial və siyasi dəyişikliklər burada demoqrafik proseslərin əvvəlki illlərlə müqayisədə kəskin surətdə fərqlənməsinə gətirib çıxarmışdır.

Azərbaycanın müstəqillik qazanması və bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq, onun başqa ölkələrlə iqtisadi əlaqələrinin pozulması, Ermənistan silahlı qüvvələri tərəfindən torpaqlarımızın 20 faizinin işğal edilməsi ilə əlaqədar olaraq 1 milyon nəfərdən artıq əhalinin qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi və bunların nəticəsində ölkədə yaranmış sosial-iqtisadi və mənəvi-psixoloji şərait demoqrafik proseslərə mənfi təsir göstərmişdir.

Doğum səviyyəsinin müasir dövrdə azalmasına təsir edən mühüm amillərdən biri də əhalinin təhsil və məşğulluq səviyyəsinin yüksəlməsindən ibarətdir. Təhsil səviyyəsinin yüksəlməsi nəticəsində qadınların daha çox hissəsi özlərinin analıq funksiyalarının yerinə yetirilməsini az uşaqla məhdudlaşdırırlar.



Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, iqtisad elmləri doktoru, professor Ş.Muradovun apardığı tədqiqatlardan aydın olur ki, «… hazırda ölkəmizdə qadın əhali kütləsinin ümumi say tərkibində doğumun xeyli hissəsi, yəni 49,6 faizindən çoxu orta təhsil səviyyəsinə malik olan qadınların, 7,5 faizi isə ali və natamam ali təhsili olan qadınların payına düşür (38.s.587).

Doğum səviyyəsinə ciddi təsir göstərən amillərdən biri də əhalinin cins-yaş tərkibindən ibarətdir. Statistik məlumatlar təsdiq edir ki, doğulan uşaqlar arasında oğlanlar çoxluq təşkil edir. Ancaq oğlan uşaqları arasında qız uşaqlarına nisbətən ölüm səviyyəsinin daim yüksək olması nəticəsində 25 yaşdan başlayaraq bütün yaş qrupları üzrə qadınların sayı kişilərin sayını üstələyir. Bunu aşağıdakı cədvəldən daha aydın görmək olar:

Cədvəl 21

**Əhalinin yaş qrupları üzrə hər 1000 kişiyə qadınların sayı (nəfər) (42. s.61)**

| Yaş qrupları | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| 25-29 | 1021 | 1007 | 1021 | 1000 | 1000 |
| 30-34 | 1054 | 1061 | 1041 | 1041 | 1041 |
| 35-39 | 1060 | 1053 | 1067 | 1061 | 1061 |
| 40-44 | 1069 | 1063 | 1051 | 1049 | 1056 |
| 45-49 | 1055 | 1051 | 1058 | 1074 | 1053 |
| 50-54 | 1100 | 1128 | 1075 | 1086 | 1068 |
| 55-59 | 1259 | 1174 | 1167 | 1154 | 1054 |
| 60-64 | 1286 | 1319 | 1262 | 1270 | 1263 |
| 65-69 | 1262 | 1268 | 1318 | 1349 | 1372 |
| 70 və daha yuxarı | 1611 | 1585 | 1643 | 1542 | 1596 |

downloaded from KitabYurdu.org

Təhlil göstərir ki, yaşlı qadınlar arasında hər min kişiyə daha çox qadın düşür. Belə ki, 2004-cü ildə 60-64 yaş qrupunda hər 1000 kişiyə 1263 qadın, 70 və daha yuxarı yaş qrupunda isə hər 1000 kişiyə 1596 qadın düşmüşdür.

Ümumiyyətlə götürsək, ölkədə demoqrafik vəziyyət gərgindir, problemlər çoxdur. Ona görə də məhz bu və digər problemlərin həlli demoqrafiya sahəsində dövlət siyasətinin işlənib hazırlanmasını və həyata keçirilməsini tələb edirdi.

Təsadüfi deyil ki, demoqrafiya siyasətinin həlli məsələləri bütün dövrlərdə Azərbaycana rəhbərlik etmiş, Ümummilli liderimiz Heydər Əliyevin fəaliyyət platforması konsepsiyasının əsas qayəsini təşkil etmişdir. H.Əliyev hələ hakimiyyətinin birinci dövründə Azərbaycanda kəskinləşən məşğulluq probleminin törədə biləcəyi mənfi sosial-iqtisadi və demoqrafik nəticələri əvvəlcədən hiss edərək çox böyük uzaqgörənliklə hələ 80-ci illərin əvvəllərində dünya ölkələri arasında ilk dəfə olaraq dövlət səviyyəsində «Respublikanın demoqrafik inkişafı və əhalinin işlə təmin edilməsi üçün elmi surətdə əsaslandırılmış uzunmüddətli konsepsiyası»nın işlənib hazırlanmasını irəli sürmüş və elmi cəhətdən əsaslandırmışdır. Lakin Ulu Öndərimiz H.Əliyev keçmiş SSRİ-yə rəhbərliyə irəli çəkildikdən sonra bu məsələ o vaxtkı Azərbaycan rəhbərləri tərəfindən unudulmuşdur. Bax elə o zaman rəhbərliyin bu ciddi məsələyə etinasızlığının acılarını biz indi yaxşı görür və hiss edirik.



Ona görə də ikinci dəfə xalqın təkidi və tələbi ilə Azərbaycana rəhbərliyə gələn Ümummilli liderimiz H.Əliyevin diqqəti bir daha yenidən həmin məsələnin həllinə yönəldilmişdir. H.Əliyev 1998-ci il dekabrın 28-də «Azərbaycanda demoqrafik inkişaf konsepsiyası»nın hazırlanmasına dair sərəncam imzalamışdır.

Demoqrafik inkişaf konsepsiyasının əsas məqsədi demoqrafik hadisələrə təsir edən mühüm amilləri nəzərə alaraq cəmiyyətin və onun hər bir üzvünün mənafeyinə uyğun olan əhalinin təkrar istehsalının kəmiyyət və keyfiyyət xarakteristikasının yaxşılaşdırılması üçün əlverişli həyat və əmək şəraiti yaratmaqdan ibarətdir.

Demoqrafiya sahəsində dövlət siyasətinin əsas məqsədi demoqrafik proseslərdə yaranmış neqativ meylləri aradan qaldırmaqla ölkənin uzunmüddətli inkişaf strategiyasına uyğun gələn əhalinin kəmiyyət və keyfiyyət artımını təmin etməkdir.

Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının bütün sahələrində gedən davamlı inkişaf, əhalinin həyat səviyyəsinin yüksəlməsi və s. amillər son illərdə demoqrafik proseslərdə müsbət meyllərin yaranmasına gətirib çıxarmışdır. Bunu aşağıdakı cədvəldən daha aydın görmək olar:

downloaded from KitabYurdu.org

Cədvəl 22

**Naxçıvan Muxtar Respublikasında gedən demoqrafik proseslərdə müsbət meyllərin yaranması**

| Demoqrafik göstəricilər | 2006-cı il üzrə | 2005-ci il üzrə | Fərq (+, -) |
|---|---|---|---|
| Əhalinin sayı | 380170 | 376360 | +3810 |
| Doğulanlar | 6371 | 6350 | + 21 |
| Ölənlər | 2049 | 2111 | - 62 |
| Təbii artım | 4322 | 4239 | + 83 |
| 1 yaşa qədər ölən uşaqların sayı | 16 | 30 | - 14 |

Cədvəl məlumatlarının təhlili göstərir ki, Naxçıvan MR Ali Məclisinin apardığı məqsədyönlü tədbirlər nəticəsində 2005-ci ilə nisbətən 2006-cı ildə ölənlərin sayı 62 nəfər azalmışdır. Qeyd olunan dövrdə 1 yaşa qədər ölən uşaqların sayı xeyli azalaraq 30 nəfərdən 14 nəfərə endirilmişdir. Əhalinin təbii artımında da müsbət meyllər baş vermişdir. Təbii artım 2005-ci ilə nisbətən 2006-cı ildə 83 nəfər təşkil etmişdir.

Aparılan tədqiqatlar göstərir ki, ölkədə aparılan düzgün demoqrafik siyasət nəticəsində müstəqilliyin ilk illərində demoqrafik proseslərdə baş verən mənfi hallar aradan qaldırılır və müsbət meyllər bərqərar olmağa başlayır.

Fikrimizcə, demoqrafiya sahəsində dövlət siyasətinin qarşısında duran əsas vəzifələr aşağıdakılar hesab edilməlidir.



- əhalinin kəmiyyət və keyfiyyətinin normal təkrar istehsalı üçün zəruri olan doğum səviyyəsini təmin edə biləcək şəraitin yaradılması;
- ölüm səviyyəsinin azaldılması, əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması hesabına ömür müddətinin uzadılması;
- nigah və boşanma proseslərinin, bütünlükdə, cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması;
- ictimai tərəqqinin həm yaxın, həm də uzaq gələcəyə perspektivləri nəzərə alınmaqla miqrasiya prosesinin tənzimlənməsi;
- respublikanın sosial-iqtisadi, siyasi və demoqrafik mənafelərini rəhbər tutaraq ölkə ərazisində, o cümlədən sərhəd rayonlarında və işğal edilmiş regionlarda əhalinin məskunlaşmasının yaxşılaşdırılması və həmin ərazidə demoqrafik potensialın artırılması üçün şəraitin yaradılması;
- ailə institutunun mənəvi-əxlaqi dəyərlərinin təbliği və müdafiəsi, sağlam həyat tərzinin formalaşdırılmasının ümumbəşəri normalara uyğun tənzimlənməsi.

Fikrimizcə, dövlət proqramının həyata keçirilməsi bir sıra müsbət sosial-demoqrafik nəticələrə gətirib çıxaracaqdır.

Proqnozlar göstərir ki, demoqrafiya sahəsində yeridilən düzgün dövlət siyasəti nəticəsində 2010-cu ilə qədər Naxçıvan Muxtar Respublikasında əhalinin təbii artım əmsalı xeyli artacaqdır.

downloaded from KitabYurdu.org

## *6.2. Naxçıvan MR-da məşğulluğun təmin olunması imkanları*

Bazar iqtisadiyyatına keçid şəraitində Azərbaycan dövlətinin həyata keçirmiş olduğu siyasət səmərəli məşğulluğa və işsizliyin aradan qaldırılmasına yönəldilmişdir. Ölkədə mövcud olan əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsi və quruluşunun müəyyən edilməsinə və bu sahədə səmərəli məşğulluq siyasəti tədbirləri işlənib hazırlanmasına və həyata keçirilməsinə böyük ehtiyac vardır.

Yeni iqtisadi münasibətlərə keçidin ilk illərində müəssisələrdə işin dayanması ilə əlaqədar olaraq məşğulluq problemləri xeyli kəskinləşmişdir. Lakin dayanıqlı iqtisadi inkişaf, makroiqtisadi sabitlik əldə edildikdən sonra iqtisadi islahatların əhatə dairəsinin genişlənməsi, o cümlədən regional iqtisadi inkişafın da əsas islahat istiqamətlərindən birinə çevrilməsi zərurəti meydana gəlmişdir.

Bazar iqtisadiyyatına keçid tənzimlənən və mütəşəkkil əmək bazarının yaradılmasını, milli ənənələrə əsaslanan məşğulluq siyasətinin formalaşmasını və inkişaf perspektivlərinin müəyyənləşdirilməsini tələb edir.

İndi dövlət siyasətinin əsas istiqamətlərindən biri də ölkə əhalisinin məşğulluğunun sosial effektivliyinin təmin edilməsinə yönəldilən dövlət məşğulluq siyasətinin formalaşması və əmək ehtiyatlarından səmərəli istifadə edilməsidir.



Ölkədə aparılan məşğulluq siyasəti daha çox aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsinə, əhalinin məşğulluğunun təmin edilməsinə, peşə hazırlığının, ictimai işlərin səmərəliliyinin artırılmasına, yeni iş yerlərinin yaradılmasına yönəldilmişdir.

Məşğulluq probleminin həlli və bununla bağlı yeni iş yerlərinin açılması məsələləri ölkə prezidenti İlham Əliyevin 11 fevral 2004-cü ildə imzaladığı «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)»na dair fərmanda öz əksini tapmışdır.

Bu Dövlət Proqramında qeyd olunur: «Proqramın əsas məqsədi Azərbaycan Respublikasının rayonlarında mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkaolığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluğun səviyyəsinin, xüsusən gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdır» (12, s.1).

Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyevin iqtisadi platformasının mühüm istiqamətlərindən birini də ölkədə tam məşğulluğun təmin edilməsi və işsizlik probleminin həlli təşkil edir. Hələ 2003-cü ilin noyabr aynının 17-də Respublika Nazirlər Kabinetinin iclasında ölkə başçısının söylədiyi «Azərbaycan üçün ən böyük problem işsizlik pro-

downloaded from KitabYurdu.org

blemidir. Bu istiqamətdə görüləcək tədbirlərin nəticəsində, əminəm ki, həmin problem də aradan qaldırılacaqdır. Bəyan etmişdim, məqsədim odur ki, növbəti 5 ildə Azərbaycanda 600 min iş yeri açılsın. Bu, sadəcə olaraq, seçkiqabağı vəd deyildir. Bu proqramdır. Yəni mən əminəm ki, həm dövlət tərəfindən, eyni zamanda, özəl sektor tərəfindən görüləcək tədbirlər nəticəsində biz buna nail olacağıq» - fikirləri dövlətin məşğulluq siyasətində verdiyi önəmin və diqqətin ifadəsidir.

Bu istiqamətdə ölkədə həyata keçirilən əməli tədbirlər nəticəsində əhalinin məşğulluq səviyyəsinin atırılması və ölkə vətəndaşlarının rifahının daha da yaxşılaşdırılması nəzərdə tutulur.

Aşağıdakı cədvəldə ölkədə yeni yaradılmış, mövcud və fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda, habelə fiziki şəxslərdə açılmış iş yerləri haqqında məlumat verilir (bax: cədvəl 23).



Cədvəl 23

**Azərbaycan Respublikası üzrə 1 oktyabr 2003-cü ildən 1 aprel 2008-ci ilədək yeni açılmış iş yerləri haqqında məlumat (52, s.14-16)**

| | Cəmi | O cümlədən | | |
|---|---|---|---|---|
| | | 2003-cü ilin IV rübü – 2006-cı il | 2007-ci il | 2008-ci il I rüb |
| Açılmış iş yerlərinin sayı, cəmi<br>ondan daimi iş yerləri: | 671840<br>479396 | 496483<br>352405 | 146870<br>105611 | 28487<br>21380 |
| O cümlədən:<br>yeni yaradılmış müəssisə və təşkilatlarda | 98389 | 78693 | 16465 | 3231 |
| mövcud müəssisə və təşkialtlarda | 165402 | 121079 | 36457 | 7866 |
| fəaliyyəti bərpa edilmiş müəssisə və təşkialtlarda | 18481 | 16862 | 1532 | 87 |
| fiziki şəxslərdə | 197124 | 135771 | 51157 | 10196 |
| digər tədbirlər üzrə (müxtəlif beynəlxalq və yerli layihələr, abadlıq işləri və s.) | 192444 | 144078 | 41259 | 7107 |

Özünün sosial-iqtisadi inkişafında bu gün keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş Azərbaycan Respublikasında həlli vacib məsələlərdən biri regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə ora-

downloaded from KitabYurdu.org

dakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın davamlı inkişafına, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə, ölkədə işsizliyin və yoxsulluğun azaldılmasına nail olmaqdan ibarətdir. Bu istiqamətlərdə tədbirlərin həyata keçirilməsi, regionların iqtisadi inkişafında mövcud olan kəskin fərqlərin aradan qaldırılmasını və regional tarazlığın əldə olunmasını təmin etməklə yanaşı, onların iqtisadi gücünü artırır və sosial problemlərin həllini sürətləndirir.

Ölkəmizdə regionların sərvətlərindən və təbii şəraitindən səmərəli istifadə etməklə, iqtisadiyyatın bütün sahələrinin, ən başlıcası isə kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, qeyri-neft sənaye sahələrinin, o cümlədən emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərin, turizmin inkişafını təmin etməklə, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaq – günümüzün ən vacib məsələlərindəndir. Bu nöqteyi-nəzərdən ölkənin iqtisadi rayonları üzrə açılmış yeni iş yerləri işsizliyin ləğvi istiqamətində görülən işlərin qənaətbəxş olduğunu özündə əks etdirir (bax: cədvəl 24).



Cədvəl 24

**Yeni açılmış iş yerlərinin iqtisadi rayonlar üzrə ümumi sayı (52, s.13)**

| | Cəmi | O cümlədən | | |
|---|---|---|---|---|
| | | 2003-cü ilin IV rübü – 2006-cı il | 2007-ci il | 2008-ci il I rüb |
| Açılmış iş yerlərinin sayı, cəmi<br>ondan daimi iş yerləri: | 671840<br>479396 | 496483<br>352405 | 146870<br>105611 | 28487<br>21380 |
| o cümlədən:<br>Bakı şəhəri üzrə – cəmi<br>ondan daimi iş yerləri | 128414<br>126941 | 89158<br>87804 | 30589<br>30477 | 8667<br>8660 |
| Abşeron iqtisadi rayonu üzrə – cəmi<br>ondan daimi iş yerləri | 143364<br>25223 | 30610<br>16432 | 11177<br>7220 | 1577<br>1571 |
| Gəncə-Qazax iqtisadi rayonu üzrə – cəmi<br>ondan daimi iş yerləri | 82880<br>53428 | 56261<br>37107 | 22320<br>14165 | 4299<br>2156 |
| Şəki-Zaqatala iqtisadi rayonu üzrə – cəmi<br>ondan daimi iş yerləri | 35495<br>24589 | 26426<br>18381 | 7751<br>5261 | 1318<br>947 |
| Lənkəran iqtisadi rayonu üzrə – cəmi<br>ondan daimi iş yerləri | 64169<br>38587 | 49519<br>31300 | 12051<br>6018 | 2599<br>1269 |
| Quba-Xaçmaz iqtisadi rayonu üzrə – cəmi<br>ondan daimi iş yerləri | 40125<br>22208 | 31537<br>18879 | 7156<br>2636 | 1432<br>693 |

downloaded from KitabYurdu.org

| | | | | |
|---|---|---|---|---|
| Aran iqtisadi rayonu üzrə – cəmi<br>ondan daimi iş yerləri | 157265<br>106080 | 125356<br>84521 | 27071<br>18293 | 4838<br>3266 |
| Yuxarı-Qarabağ iqtisadi rayonu üzrə–cəmi<br>ondan daimi iş yerləri | 15538<br>8827 | 12198<br>7007 | 28699<br>1580 | 471<br>240 |
| Dağlıq-Şirvan iqtisadi rayonu üzrə – cəmi<br>ondan daimi iş yerləri | 19758<br>11813 | 15158<br>9748 | 3830<br>1569 | 770<br>496 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu üzrə – cəmi<br>ondan daimi iş yerləri | 4695<br>3228 | 3158<br>2172 | 1317<br>836 | 220<br>220 |
| Naxçıvan iqtisadi rayonu üzrə – cəmi<br>ondan daimi iş yerləri | 32037<br>20177 | 24812<br>15192 | 5827<br>4021 | 1398<br>964 |
| Nazirlik, Komitə, Şirkət, Səhmdar cəmiyyət və digər mərkəzi təşkilatlar üzrə – cəmi (iqtisadi rayonlar və regionlar üzrə göstəricilərə daxil edilməmişdir)<br>ondan daimi iş yerləri: | 48100<br>38295 | 32290<br>23862 | 14912<br>13535 | 898<br>898 |

Dövlət Proqramının qəbulundan keçən dövr ərzində, yəni 1 oktyabr 2003-cü ildən 1 yanvar 2008-ci ilədək Naxçıvan Muxtar Respublikası üzrə 24812 yeni iş yeri yaradılmışdır. Bu dövrdə yeni açılmış iş yerlərinin 15240-ı yeni yaradılmış müəssisə, təşkilat-



ların və fiziki şəxslərin, 3839-u mövcud müəssisə və təşkilatların, 1098-i müxtəlif səbəblər üzündən əvvəllər işləməyən, lakin son dövrdə fəaliyyəti bərpa olunmuş müəssisə və təşkilatların, 11860-ı isə digər tədbirlər üzrə (müxtəlif beynəlxalq və yerli layihələr, mövsümi, abadlıq işləri və sair) açılmış iş yerlərinin payına düşür.

Təkcə 2007-ci il ərzində 5827 yeni iş yeri açılmışdır ki, bunun da 4021-i daimi iş yeridir. Daimi iş yerlərinin 20,1 faizi dövlət, 79,9 faizi isə qeyri-dövlət sektorunda yaradılmışdır.2006-cı ildə yaradılmış daimi iş yerlərinin iqtisadi fəaliyyət növlərinə görə 3,2 faizi kənd təsərrüfatının, 5,2 faizi emal sənayesinin, 1,5 faizi elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi sektorunun, 2,0 faizi tikintinin, 8,0 faizə qədəri topdan və pərakəndə ticarət, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri sektorunun, 1,0 faizi mehmanxana və restoranlarla xidmətin, 0,7 faizi nəqliyyat və rabitənin, 2,3 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və istehlakçılara xidmət göstərilməsi sektorunun, 14,3 faizi dövlət idarəetməsi və sosial təminatın vəzifələri sektorunun, 0,6 faizi təhsilin, 0,7 faiz səhiyyənin, 1,6 faizi digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi sektorunun, 51,0 faizi isə ayrı-ayrı fiziki şəxslərin payına düşür.

downloaded from KitabYurdu.org

Cədvəl 25

**Naxçıvan iqtisadi rayonu üzrə yeni açılmış iş yerlərinin bölgüsü (52, s.309)**

| | Cəmi | O cümlədən | | |
|---|---|---|---|---|
| | | 2003-cü ilin IV rübü – 2006-cı il | 2007-ci il | 2008-ci il I rüb |
| Açılmış iş yerlərinin sayı, cəmi<br>ondan daimi iş yerləri: | 32037<br>20177 | 24812<br>15192 | 5827<br>4021 | 1398<br>964 |
| O cümlədən: | | | | |
| yeni yaradılmış müəssisə və təşkilatlarda | 7495 | 6479 | 972 | 44 |
| mövcud müəssisə və təşkialtlarda | 3839 | 3075 | 600 | 164 |
| fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda | 1098 | 999 | 99 | 0 |
| fiziki şəxslərdə | 7745 | 4639 | 2350 | 756 |
| digər tədbirlər üzrə (müxəlif beynəlxalq və yerli layihələr, abadlıq işləri və s.) | 11860 | 9620 | 1806 | 434 |

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və Respublika hökumətinin əhalinin məşğulluğunun təmin olunması və yaşayış səviyyəsinin yüksəldilməsi istiqamətində gördükləri işlər öz bəhrəsini verməkdədir. Əlbəttə ki, burada rayon və şəhər icra başçılarının, müvafiq orqanların gördükləri işlər də diqqətə-



layiqdir. İndi fərəhlə demək olar ki, şəhər və rayonlarda həyata keçirilən məqsədyönlü tədbirlər öz müsbət nəticələrini vermiş, iqtisadiyyatda dinamik inkişaf meylləri güclənmişdir. Yeni müəssisələrin açılması və köhnə müəssisələrin işinin bərpa edilməsi yeni iş yerlərinin açılmasına, məşğulluq probleminə birbaşa təsir göstərir.

Dövlət Proqramının qəbulundan 2008-ci il yanvarın 1-nədək olan dövr ərzində Muxtar Respublikanın şəhər və rayonları üzrə açılmış iş yerlərinin sayını aşağıdakı cədvəldən görmək olar:

Cədvəl 26

**Şəhər və rayonlar üzrə yeni açılmış iş yerlərinin ümumi sayı (52, s.309)**

| | Cəmi | O cümlədən | | |
|---|---|---|---|---|
| | | 2003-cü ilin IV rübü – 2006-cı il | 2007-ci il | 2008-ci il I rüb |
| Açılmış iş yerlərinin sayı, cəmi: | 32037 | 24812 | 5827 | 1398 |
| O cümlədən:<br>Naxçıvan şəhəri | 12894 | 10368 | 2047 | 479 |
| Babək rayonu | 3992 | 2977 | 770 | 245 |
| Culfa rayonu | 2442 | 1860 | 459 | 123 |
| Ordubad rayonu | 2380 | 1764 | 502 | 114 |
| Sədərək rayonu | 766 | 572 | 152 | 42 |
| Şahbuz rayonu | 1978 | 1528 | 326 | 124 |
| Şərur rayonu | 4487 | 3456 | 814 | 217 |
| Kəngərli rayonu | 3098 | 2287 | 757 | 54 |

downloaded from KitabYurdu.org

Son dövrlərdə olduğu kimi, cari ilin əvvəlindən də Dövlət Proqramının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında makroiqtisadi sabitliyin və davamlı inkişafın təmin edilməsi sahəsində, o cümlədən şəhər və rayonlarda həyata keçirilən məqsədyönlü tədbirlər öz müsbət nəticələrini vermiş, iqtisadiyyatda dinamik inkişaf meylləri güclənmişdir.

Məşğulluq səviyyəsinin yüksəldilməsində muxtar respublikada fəaliyyət göstərən məşğulluq mərkəzlərinin və əmək yarmarkalarının da çox mühüm rolu vardır. 2006-cı ildə məşğulluq xidməti orqanları tərəfindən işsiz vətəndaşların əmək fəaliyyətinə cəlb edilməsi ilə əlaqədar 3900 işsiz vətəndaş qeydiyyata alınmış, 1850 nəfər müxtəlif özəl və dövlət strukturlarında işlə təmin olunmuşdur. Çox müvəffəqiyyətlə başa vurulan 2006-cı ildə muxtar respublikanın şəhər və rayon mərkəzlərində 3 dəfə əmək yarmarkaları keçirilmiş və bu yarmarkalarda 494 nəfər işlə təmin olunmuşdur.

Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasında son 10 ildə əldə edilmiş nailiyyətlər muxtar respublikanın tarixinə dövlət quruculuğunun və sosial-iqtisadi inkişafın mühüm mərhələsi kimi daxil olmuşdur.

Muxtar respublikada makroiqtisadi göstəricilərin dinamikasında müşahidə olunan sabit artım tempi iqtisadiyyatın sosial yönümlü inkişafının təmin edilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin yaradılması və məşğulluğun inkişaf etdirilməsi üçün əlverişli şərait yaratmışdır. Əhalinin



həyat şəraitinin daha da yüksəldilməsi məqsədilə aparılan məqsədyönlü işlər nəticəsində 2003-cü ilin oktyabr ayından başlayaraq Dövlət Statistika Komitəsinin 2007-ci ilin aprelinə olan məlumatına görə 26558 yeni iş yeri açılmışdır. Yeni açılmış iş yerlərinin 16273-ü və yaxud 61,3 faizi daimi iş yerləridir. 2006-cı il üzrə iqtisadi fəal əhalinin ümumi sayı 1995-ci ilin səviyyəsinə nisbətən 23,6 faiz artmışdır. Bu dövr ərzində özəl sektorun və sahibkarlığın inkişafı nəticəsində qeyri-dövlət sektorunda işləyənlərin sayı 1,5 dəfə artmışdır.

Əmək ehtiyatlarından daha dolğun istifadə etmək, əhalinin səmərəli məşğulluğunu təmin etmək və gələcəkdə məşğulluq probleminin tam həllinə nail olmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti 2007-ci il 17 may tarixli sərəncamı ilə «Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)» təsdiq etmiş və onun ardınca isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov «Naxçıvan Muxtar Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)» özünün 30 may 2007-ci il tarixli sərəncamı ilə təsdiq etmişdir.

Dövlət Proqramı məşğulluq siyasətinin həyata keçirilməsi üzrə iqtisadi mühitin və əmək bazarının inkişafına, yeni iş yerlərinin açılmasına, əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə, əmək bazarında işçi qüvvəsinin keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsinə, işaxtaran və işsiz vətən-

downloaded from KitabYurdu.org

daşların sosial müdafiəsinin gücləndirilməsinə yönəldilmiş tədbirləri müəyyən etmişdir.

Bütün Dövlət Proqramlarında olduğu kimi bu proqramın da məqsəd və vəzifələri müəyyənləşdirilmişdir.

Proqramın əsas məqsədi əhalinin səmərəli məşğulluğunun inkişafında yönəldilən siyasi, iqtisadi, sosial və institusional mühitin yaradılması əsasında məşğulluq sahəsində prioritet istiqamətlərinin həyata keçirilməsini təmin etməkdir.

Dövlət Proqramının vəzifələri isə aşağıdakılardan ibarətdir:

- İqtisadi inkişafa və səmərəli məşğulluğun təmin edilməsinə istiqamətləndirilmiş makroiqtisadi siyasətin həyata keçirilməsi;
- səmərəli məşğulluğun və əmək məhsuldarlığının artımına nail olmaq üçün müvafiq tədbirlərin həyata keçirilməsi;
- sahibkarlığın inkişafına mane olan problemləri aradan qaldırmaq, xarici iqtisadi fəaliyyət iştirakçılarına sağlam rəqabət şəraiti yaratmaq sahəsində müvafiq tədbirlərin həyata keçirilməsinin davam etdirilməsi;
- yerli sənaye məhsullarının dünya bazarında rəqabət qabiliyyətini yüksəltmək sahəsində tədbirlərin həyata keçirilməsi;
- muxtar respublikada sığorta sisteminin inkişaf etdirilməsi, sığorta bazarında investisiya siyasətinin formalaşdırılması;



- kiçik və orta sahibkarlıq subyektlərində yeni texnologiyaların tətbiqinin stimullaşdırılması və yerli xammaldan istehsal olunan məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsi.

Əmək bazarının təkmilləşdirilməsi və institusional inkişaf:

- məşğulluğu stimullaşdıran institusional mühitin formalaşdırılması;
- təklif olunan işçi qüvvəsi ilə mövcud iş yerlərinin sayı arasında tarazlığı təmin edən şərait yaradılması;
- kiçik və orta sahibkarlığın inkişafı üçün maliyyə-kredit siyasətinin təkmilləşdirilməsi, kredit qoyuluşlarının strukturunda uzunmüddətli kreditlərin xüsusi çəkisinin artırılması;
- tarazlaşdırılmış investisiya və vergi siyasətini həyata keçirmək yolu ilə iş yerlərinə olan tələbatın ödənilməsi;
- daxili və xarici miqrasiya proseslərinin tənzimlənməsi yolu ilə əmək bazarının inkişaf etdirilməsi;
- əmək miqrasiyası sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsi;
- peşə hazırlığı (yenidən hazırlıq), boş iş yerləri, eləcə də rayonlarda işçi qüvvəsi barədə konkret təkliflərə dair informasiyanın hər bir vətəndaş tərəfindən əldə edilməsi üçün əmək bazarının analitik informasiya sisteminin yaradılması və tətbiq olunması;
- kəndli (fermer), ailə kəndli təsərrüfatlarının, kooperativlərin, kiçik müəssisələrin inkişaf etdiril-

downloaded from KitabYurdu.org

məsi və genişləndirilməsi məqsədilə maliyyə infrastrukturunun yaradılması;

- kənd təsərrüfatı məhsullarının satışı üzrə marketinq şəbəkəsinin yaradılması;
- regional iqtisadi əlaqələrin genişləndirilməsi.

İşçi qüvvəsinin keyfiyyətinin yaxşılaşdırılması və əmək bazarında rəqabətli kadr potensialının yaradılması:

- əmək bazarında yaranmış vəziyyəti təhlil etməklə və dəqiq proqnozlaşdırma aparmaqla müxtəlif ixtisaslı kadrlara olan tələbatın müəyyənləşdirilməsi;
- əmək bazarında rəqabət qabiliyyətli kadrların hazırlanması məqsədi ilə peşə təhsili sisteminin təkmilləşdirilməsi;
- iş yerində təhsilin davam etdirilməsi, fasiləsiz peşə təhsili sisteminin daha da təkmilləşdirilməsi, mütərəqqi təhsil formalarının (məsafədən təhsil, modul tədrisi) tətbiqi;
- təhsil sahəsində həyata keçirilən institusional dəyişikliklərin işəgötürənlərin işçi qüvvəsinin bacarıq və vərdişlərinə olan tələbatına uyğunlaşdırılması;
- insan amilinin inkişafına yönəldilmiş investisiyaların cəlb edilməsi üçün imkanların müəyyənləşdirilməsi.

Layiqli əməyin təmin edilməsinə istiqamətləndirilmiş davamlı inkişafın əldə edilməsi:

- əmək qanunvericiliyinə dair nəzarət sisteminin gücləndirilməsi;
- işçilərlə əmək münasibətlərini rəsmiləşdirməyən işəgötürənlərin qeyri-leqal fəaliyyətlərinin aşkarlanması və belə hallara qarşı mübarizənin gücləndirilməsi.



Sosial cəhətdən həssas qrupların məşğulluğunun inkişafı:

- gənclərin məşğulluğunun inkişaf etdirilməsi məqsədi ilə onlar üçün peşə hazırlığı, yenidən hazırlıq, iş yerlərinin yaradılması və digər sahələr üzrə müvafiq tədbirlərin həyata keçirilməsi;
- qaçqınların və məcburi köçkünlərin məşğulluğunu gücləndirmək məqsədilə tədbirlərin müəyyən edilməsi;
- məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsi;
- qadınların əmək bazarında rəqabət qabiliyyətlərinin artırılması;
- əlillərin cəmiyyətə inteqrasiyasının təmin edilməsi, onların məşğulluq səviyyəsinin artırılması məqsədilə müvafiq şəraitin yaradılması;
- cəzaçəkmə müəssisələrindən azad ediləcək şəxslərin peşə təhsili sistemini əmək bazarında işçi qüvvəsinə olan tələbata uyğun təşkil etmək məqsədilə cəzaçəkmə müəssisəsinin və müvafiq məşğulluq xidməti orqanlarının bu sahədə birgə işinin təşkili mexanizminin və müvafiq informasiya sisteminin yaradılması.

İşaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi:

- sosial yardım sistemində ünvanlığın gücləndirilməsi və onun minimum yaşayış standartları ilə əlaqələndirilməsi;

downloaded from KitabYurdu.org

- işsizlər üçün yeni məsləhət xidmətlərinin və əmək birjalarının, rayonlarda peşə hazırlığı üzrə mərkəzlərin yaradılması;

- işdən çıxarılma ehtimalı qarşısında olan işçilərin peşə təhsilinin qabaqcadan təşkil edilməsi;

- boş iş yerləri (vakansiyalar) haqqında vahid informasiya bazasının yaradılması.

Hesab edirəm ki, məşğulluq strategiyasının həyata keçirilməsi və müvəffəqiyyətli həlli bütövlükdə ölkədə və o cülmədən, Naxçıvan MR-da məşğulluq problemini tamamilə həll edəcəkdir.

### *6.3. Kiçik və orta biznesin inkişafının məşğulluq səviyyəsinə təsiri və tənzimlənməsinin təkmilləşdirilməsi*

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatı yolu seçmiş, obyektiv və subyektiv səbəblərdən, ciddi sosial-iqtisadi problemlərlə qarşılaşmışdır. Həyata keçirilən bir sıra proqramlar, tədbirlər sosial-iqtisadi durumun müəyyən qədər sabitləşdirilməsinə imkan versə də köklü sosial-iqtisadi problemlər – xüsusilə də sahibkarlığın inkişafı, əmək qabiliyyətli əhalinin məşğulluğu sahələrində hələ də qalmaqdadır. Bəzi hakimiyyət orqanlarının bazar münasibətlərinə keçid şəraitində qeyridövlət bölməsinin inkişafının və əhalinin məşğulluğunun daha dövlətin problemi olmadığı barədə yanlış fikirləri də meydana çıxan yeni problemlərin həllinin zəifləməsinə gətirib çıxarmışdır.



Bununla yanaşı, inkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrin təcrübəsi göstərir ki, milli iqtisadiyyatın inkişafı, məşğulluğun səviyyəsinin yüksəldilməsində kiçik və orta biznesin inkişafı əhəmiyyətli rol oynaya bilər. Bu biznes formalarının, xüsusilə də kiçik biznesin, inkişafı mülkiyyət formalarının təşəkkülü və inkişafına, azad rəqabətə və təşəbbüskarlığa, yeni ideya və ixtiraların istehsalata tətbiqinə, əhalinin məşğulluğunun yüksəldilməsinə zəmin yaratmaqla cəmiyyətdə mövcud sosial gərginliyin aradan qaldırılmasına həlledici təsir göstərir. İnkişaf etmiş ölkələrdə fəaliyyət göstərən müəssisələrin 60-95%-nin, ümumi milli məhsulun 55-70%-nin, bütün işləyənlərin 60-75%-nin, yeni yaradılan iş yerlərinin 75-85%-nin kiçik və orta müəssisələrin payına düşməsi milli iqtisadiyyatın inkişafında kiçik və orta biznesin əhəmiyyətli roluna bariz nümunədir.

Son illər ölkəmizdə bazar iqtisadiyyatının formalaşmasına, kiçik və orta biznesin inkişafına, məşğulluğun səviyyəsinin yüksəldilməsinə və s. yönəldilmiş «Sahibkarlıq fəaliyyəti haqqında», «Kiçik sahibkarlığa dövlət köməyi haqqında», «Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında», «Məşğulluq haqqında» və s. Azərbaycan Respublikası qanunlarının, kiçik və orta sahibkarlığın inkişafına və məşğulluq probleminin həllinə yönəlmiş üç Dövlət Proqramının (1997-2000, 2002-2005, 2007-2010-cu illər üzrə), habelə bir sıra başqa proqram və tədbirlərin qəbul edilməsinə baxmayaraq hələ də respublikamızda

downloaded from KitabYurdu.org

əhalinin faktiki məşğulluq səviyyəsini qənaətbəxş hesab etmək olmaz.

Ona görə də Azərbaycanda mövcud sosial-iqtisadi problemlərin aradan qaldırılması, xüsusilə də məşğulluq səviyyəsinin yüksəldilməsi zərurəti, onların həllində kiçik və orta biznesin formalaşması və inkişafını tələb edir.

Müasir dünyada əhalinin məşğulluğu istənilən ölkənin qarşısında duran ən aktual problemlərdən biridir. Yenicə bazar iqtisadiyyatı yolu seçmiş Azərbaycan kimi ölkələrdə bu problem özünü daha qabarıq şəkildə büruzə verir.

Məşğulluq – insanın ictimai istehsalatda iştirakı, iş qüvvəsinin istehsal vasitələri ilə bilavasitə birləşməsi, istehsalın şəxsi və əşya amillərinin cəmiyyətin vahid məhsuldar qüvvələrində təşkilidir. İnsanlar istehsal vasitələri ilə birləşərək öz aralarında müəyyən münasibətlərə girirlər.

Məşğulluq məcmu ictimai məhsulun təkrar istehsalı prosesində iştirak edən (bilavasitə və ya dolayı yolla) insanlar arasında meydana çıxan istehsal münasibətlərini təcəssüm etdirir.

Dövlət məşğulluq probleminin səmərəli həll edilməsi üçün bütövlükdə iqtisadiyyatın tənzimlənməsinə dair təxirəsalınmaz tədbirlər həyata keçirməlidir. Bu məqsədlə ümumiyyətlə, bazar iqtisadiyyatının qanunauyğunluqları və Azərbaycanda mövcud olan konkret sosial-iqtisadi şərait və ölkə iqtisadiyyatının xüsusiyyətləri, yerli əhalinin mentaliteti nəzərə alınmaqla xüsusi proqramlar işlənib həyata keçiril-



məlidir. Fikrimizcə, iqtisadiyyatın, eləcə də məşğulluğun dövlət tərəfindən tənzimlənməsi məqsədi ilə aşağıdakı istiqamətlərdə konkret proqramların hazırlanması və həyata keçirilməsi məqsədəuğyndur:

♦ ölkə iqtisadiyyatının, təbii sərvətlərinin yerləşmə xüsusiyyətlərini, əhalinin məşğulluğunun, onun sosial-iqtisadi vəziyyətini nəzərə almaqla yeni iş yerlərinin yaradılması məqsədi ilə kiçik və orta müəssisələrin yaradılması və fəaliyyəti üçün əlverişli mühitin yaradılması. Bu məqsədlə onlara güzəştli şərtlərlə uzunmüddətli kreditlərin verilməsi, istehsalla məşğul olan bu tipli müəssisələrin, fəaliyyət sahəsindən asılı olmayaraq, fəaliyyətinin ilk üç ilində bütün vergi növlərindən azad edilməsi;

♦ əhalinin məşğulluq səviyyəsini artırmaq üçün, əsasən büdcədən maliyyələşən idarə, müəssisə və təşkilatlarda, çevik iş qrafikinin, tam olmayan iş günü və ya iş həftəsinin (əsasən çoxuşaqlı qadınlar və əlillər üçün), evə iş verilməsinin tətbiqi;

♦ mövcud iri müəssisələrin fəaliyyətinin bərpası və yenidən qurulması, lazım gəldiyi hallarda profilin dəyişməsi məqsədi ilə onlara güzəştli şərtlərlə və uzun müddətə kredit (həm daxili, həm də xarici mənbələr hesabına) verilməsinin təmin edilməsi. Bu tipli müəssisələrin işi tam bərpa olunana qədər onların özəlləşdirilməsinin təxirə salınması;

♦ məşğulluğun səmərəli tənzimlənməsi üçün obyektiv, real «Məşğulluq proqramı»nın tərtib edilib həyata keçirilməsi;

downloaded from KitabYurdu.org

♦ kiçik və orta müəssisələrin fəaliyyətinin təşkili və sabitləşdirilməsi üçün onlara dövlət sifarişinin verilməsi;

♦ mülkiyyət formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlarda boşalmış iş yerlərinin ixtisasına uyğun olaraq, rəsmi işsiz statusu almış şəxslərin dövlət hesabına ixtisasının artılıması və ya dəyişdirilməsi şəbəkəsinin genişləndirilməsi və s.

Məşğulluğun dövlət tənzimlənməsi həyata keçirilərkən qarışıq iqtisadiyyatın mövcudluğu, qeyridövlət mülkiyyətinin xüsusiyyətləri nəzərə alınmalı, hədsiz inzibatçılığa yol verilməməlidir.

Bir çox onilliklər ərzində keçmiş SSRİ-də, o cümlədən Azərbaycanda, əmək qabiliyyətli əhalinin məşğulluğuna yönələn siyasət, insanların maraqlarının təmin olunmasına deyil, əsasən ekstensiv inkişaf edən iqtisadiyyatın iş qüvvəsinə olan tələbatının ödənilməsinə əsaslanırdı. Bu siyasət daim artmaqda olan iş yerlərinin komplektləşdirilməsini, kadr çatışmazlığının aradan qaldırılması üçün iş qüvvəsinin əlavə mənbələrinin axtarılması vəzifəsinin yerinə yetirilməsini nəzərdə tuturdu ki, bu da praktiki olaraq, nəinki əmək ehtiyatlarının bütövlükdə, həmçinin pensiya yaşında olan və məhdud iş qabiliyyətlərinin də xalq təsərrüfatına cəlb edilməsinə gətirib çıxarmışdı.

SSRİ-nin süqutundan sonra müstəqillik əldə etmiş respublikalarda, o cümlədən Azərbaycanda çöxbölməli, çoxukladlı iqtisadiyyatın bərqərar olması, iqtisadiyyatın yeni strukturunun formalaşması, qiymətlərin liberallaşdırılması, dövlət mülkiyyətinin



özəlləşdirilməsi indiyədək mövcud olmuş, sosial-əmək münasibətlərində köklü dəyişikliklərə səbəb oldu. Bununla yanaşı, müəssisələrin müflisləşməsi, istehsalın səviyyəsinin kəskin şəkildə aşağı düşməsi nəticəsində işsizliyin səviyyəsinin günbəgün artması və s. əmək qabiliyyətli əhalinin məşğulluğu sahəsində yeni vəziyyətin yaranmasına gətirib çıxardı. Nəticədə bütün postsovet məkanında işsizlik bir nömrəli problemə çevrildi.

Ancaq sənayecə inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bazar iqtisadiyyatına keçid üçün hansı formanın seçilməsindən asılı olmayaraq dövlət məşğulluqla bağlı lazım olan bütün tədbirləri həyata keçirməlidir.

Kiçik və orta sahibkarlığın inkişafının əhalinin məşğulluğunun artırılmasında əhəmiyyətli, həlledici rol oynadığı, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi ilə sübut edilməkdədir. Belə ki, ABŞ-da xüsusi bölmədə məşğul olan işçi qüvvəsinin 52-59%-ə qədəri kiçik və orta müəssisələrin payına düşür. ABŞ və digər inkişaf etmiş ölkələrdə hər il iqtisadiyyatda yaradılan yeni iş yerlərinin 60-86, bəzən 95%-i kiçik və orta biznesin payına düşür. Eyni zamanda, kiçik və orta biznes sferasına daxil olan müəssisələr yeni işçi qüvvəsinin hazırlanmasında, ilk dəfə işə başlayanların işlə təmin olunmasında əhəmiyyətli rol oynayırlar.

Bazar iqtisadiyyatı yolu seçdikdən sonra Azərbaycan da bir sıra obyektiv və subyektiv səbəblər

downloaded from KitabYurdu.org

üzündən əhalinin məşğulluğu sahəsində çətinliklərlə qarşılaşmışdır.

Azərbaycanda sahibkarlığın inkişafına yönəldilmiş bir sıra qanun və proqramların qəbul olunub tətbiq edilməsi nəticəsində son illərdə kiçik və orta müəssisələrin həm ümumi sayında, həm də orada məşğul olanların sayında nəzərə çarpacaq irəliləyişlər əldə edilmişdir. Məsələn, 1995-2001-ci illər ərzində Azərbaycanda fəaliyyətdə olan kiçik müəssisə və kooperativlərin sayı 7226-dan (1995-ci il) 25121-ə (2001-ci il) çatmış, başqa sözlə, 3,5 dəfə artmışdır. Həmin illərdə bu müəssisələrdə işləyənlərin sayı müvafiq olaraq 59,4 min nəfərdən 118,7 min nəfərə çatmış, başqa sözlə, təxminən 2 dəfə artmışdır.

Müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatı yolu seçmiş Azərbaycanda həyata keçirilən bir sıra tədbirlər, bütövlükdə ölkə iqtisadiyyatının xüsusilə də özəl sektorun inkişafında nəzərə çarpacaq irəliləyişlərə nail olmağa imkan vermişdir. 2001-ci ilin yekunlarına görə ümumi daxili məhsulda qeyri-dövlət sektorunun payı 71 % təşkil etmişdir.

Son illər Azərbaycanda bütün mülkiyyət növləri üzrə müəssisələrin sayının artması müşahidə olunur. Belə ki, 2002-ci ilin yanvar ayının 1-nə olan məlumata görə respublikamızda 58623 müəssisə fəaliyyət göstərirdi ki, (1997-ci ilə nisbətən 32,3% çox), bunun 15694-nü dövlət və bələdiyyə müəssisələri (1997-ci ilə nisbətən 15,6% çox), 40008-ni xüsusi müəssisələr (1997-ci ilə nisbətən 35,0% çox), 1974-nü xarici müəssisələr (1997-ci ilə nisbətən 3,3 dəfə çox),



947-ni isə qarışıq mülkiyyətli müəssisələr (1997-ci ilə nisbətən 1,9 dəfə çox) təşkil edirdi.

Əmək qabiliyyətli əhalinin məşğulluğu inkişaf səviyyəsindən asılı olmayaraq, istənilən ölkədə daim diqqət tələb edən ən aktual problemlərdəndir. Əhalinin həyat səviyyəsi, ölkədə sosial-iqtisadi və siyasi sabitlik xeyli dərəcədə bu problemin necə həll edilməsindən asılıdır.

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına görə bu sahədə respublikamızda vəziyyət o qədər də gərgin deyildir. Belə ki, 1990-2001-ci illər ərzində ölkə əhalisinin sayı 12,8%, əmək ehtiyatlarının sayı 21,8%, o cümlədən əmək qabiliyyətli yaşda əhalinin sayı 22,7%, iqtisadi fəal əhalinin ümumi sayından məşğul olanların 0,3% artmışdır.

Dövlət bölməsində işləyənlərin sayının azalması iqtisadiyyatın müxtəlif sahələrində muzdla işləyənlərin sayının da ilbəil azalmasına səbəb olmuşdur.

Qeyri-dövlət bölməsində işləyənlərin sayı əsasən fərdi sektorda işləyənlərin və sərbəst məşğul olan əhalinin hesabına artmışdır. 1998-ci ildən başlayaraq xüsusi və kollektiv bölmədə işləyənlərin sayı kəskin surətdə (1997-ci ilə nisbətən 11,1 dəfə) artmağa, 2000-ci ildən etibarən isə azalmağa meyl etmişdir (2002-ci ildə bu sektordu işləyənlərin sayı yenidən artmağa başlamışdır).

Son illər qeyri-dövlət bölməsində məşğul olanların say artımı ilə yanaşı, xüsusi çəkisinin artması da müşahidə edilir. Belə ki, SSRİ süquta uğradıqdan sonra ənənəvi satış bazarının itirilməsi, istehsalın

downloaded from KitabYurdu.org

yenidən qurulması və profilinin dəyişməsi üçün kifayət qədər maliyyə resurslarının olmaması, istehsal edilən məhsulların rəqabət qabiliyyətinin zəifliyi və s. obyektiv və subyektiv səbəblər üzündən bir çox müəssisələr istehsalın həcmini azaltmağa məcbur olurlar. Bu amilin bir sıra göstəricilərə, o cümlədən məşğulluğun səviyyəsinə təsirini öyrənmək üçün Azərbaycan Dövlət Statistika Komitəsi 2001-ci ildə 550 müəssisədə araşdırmalar aparmışdır. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, tədqiqatla əhatə olunmuş müəssisələrin 29%-də istehsalın həcminin 1999-cu illə müqayisədə dəyişməsi məşğulluğun azalmasına səbəb olmuşdur.

Azərbaycanda kiçik və orta biznesin inkişaf etdirilməsi vasitəsilə məşğulluğun səviyyəsinin xeyli artırılmasına real imkanlar vardır. Sadəcə bu imkanları reallaşdırmaq lazımdır.

Azərbaycanda əhalinin məşğulluğunun mövcud, real vəziyyəti onun səviyyəsinin yüksəldilməsi üçün ciddi və əsaslı tədbirlərin həyata keçirilməsi zərurətini yaratmışdır. Bu istiqamətdə səmərəli tədbirlərin reallaşması üçün ölkəmizdə müəyyən hüquqi baza formalaşmasına, normativ aktların qəbul edilməsinə, məşğulluq üzrə xüsusi idarənin yaradılmasına baxmayaraq, əhalinin tam məşğulluğu təmin edilməmişdir. Yaddan çıxarmaq olmaz ki, bazar iqtisadiyyatı şəraitində əhalinin ölkədə mövcud qanunlara zidd olmayan fəaliyyətlə məşğulluğu, onların mütləq əksəriyyətinin əsas yaşayış mənbəyi olmaqla bərabər, həm də ictimai tələbatın ödənilməsinin və sosial-siyasi


əmin-amanlığın mühüm şərtlərindən biridir. Məhz bu nöqteyi-nəzərdən əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və tənzimlənməsi dövlətin ən əsas sosial-iqtisadi vəzifələrindən biri hesab edilməlidir.

Əhalinin məşğulluq səviyyəsi bir çox amillərin təsiri altında formalaşır. Kiçik və orta biznesin inkişafı əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinin həlledici amili olmaqla yanaşı yeganə amili deyildir. Buna görə də əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və tənzimlənməsi üçün kiçik və orta biznesin inkişafı ilə yanaşı, digər amillərin təsiri də araşdırılmalıdır. Eyni zamanda nəzərə almaq lazımdır ki, əhalinin məşğulluğunun tənzimlənməsi bu prosesə təsir edən amillərdən istifadə səviyyəsindən, eləcə də həmin amillərin özlərinin tənzimlənmə dərəcəsindən asılıdır. Fikrimizcə, məşğulluğa təsir edən amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

## I. Sosial-demoqrafik amillər

- əmək qabiliyyyətli əhalinin sayı;
- əmək qabiliyyətli əhalinin cinsi və yaş quruluşu;
- əmək qabiliyyətli əhalinin təhsil, peşə və ixtisas quruluşu;
- demoqrafik vəziyyət;
- məşğulluğun sahə quruluşu;
- əhalinin ölkədaxili (qismən də beynəlxalq) miqrasiyası.

downloaded from KitabYurdu.org

## II. Texniki-iqtisadi amillər

♦ məhsuldar qüvvələrin inkişaf səviyyəsi;

♦ xalq təsərrüfatının sahə quruluşu, ayrı-ayrı sahələrin xüsusi çəkisi və onların dəyişmə meyli;

♦ istehsalın həcminin, profilinin, potensial tutumunun dəyişməsi;

♦ elmi-texniki tərəqqinin mövcud vəziyyəti və sürəti.

## III. Sahibkarlığın inkişafı ilə bağlı amillər

♦ dövlət mülkiyyətinin özəlləşdirilməsi, onun forma və metodları;

♦ sahibkarlığın inkişafı üçün hüquqi-normativ, sosial-iqtisadi mühitin mövcudluğu;

♦ sahibkarlığın inkişaf səviyyəsi, dövlət və qeyri-dövlət mülkiyyətinin nisbəti;

♦ sahibkarlığa dövlət köməyinin səviyyəsi;

♦ sahibkarlıqla məşğul olmaq üçün ilkin kapital yığımının mövcudluğu.

## IV. Tənzimləyici amillər

♦ struktur siyasəti;

♦ investisiya siyasəti;

♦ maliyyə-kredit siyasəti;

♦ vergi siyasəti;

♦ fiksal siyasət;

♦ məşğulluq siyasəti.



## V. Siyasi amillər

♦ cəmiyyətin demokratikləşmə səviyyəsi;

♦ ölkədə sosial-iqtisadi və siyasi sabitlik;

♦ ölkədə və onun yerləşdiyi coğrafi regionda hərbi-siyasi sabitlik.

Məşğulluğun tənzimlənməsi üzrə tədbirlərin hazırlanmasına sosial-demoqrafik amillərin təhlilindən başlamaq lazımdır. Bu zaman öncə ölkədə əmək ehtiyatlarının, iqtisadi fəal əhalinin, o cümlədən məşğul olanların mövcud miqdarı və yaxın perspektivdə artım tempi müəyyən edilməlidir; bütövlükdə əmək ehtiyatlarının, eləcə də məşğul olan əhalinin, həmçinin işsizlərin cins, yaş, təhsil, peşə və ixtisas tərkibi, məşğulluğun sahə quruluşu, əhalinin miqrasiya meylləri araşdırılmalıdır. Sosial-demoqrafik amillərin təhlili həm cari dövrdə, həm də perspektivdə məşğulluğun tənzimlənməsinin əsas istiqamətləri müəyyənləşdirilərkən hansı cinsdən, yaş kateqoriyasından, peşə və ixtisasdan olanların öncə işlə təmin edilməsi zərurətini aydınlaşdırmağa və bunun üçün xalq təsərrüfatının hansı sahəsində daha əlverişli şəraitin olduğunu müəyyənləşdirməyə imkan verir.

Son illər ölkəmizdə mövcud iri müəssisələrin əksəriyyətinin tam gücü ilə işləməməsi, kiçik və orta müəssisələrin özəlləşdirilməsi və maliyyə çatışmazlığı ucbatından onların əksəriyyətinin fəaliyyət göstərməməsi, habelə kənd təsərrüfatı sahəsində aparılan islahatlar, real olaraq çoxsaylı əmək qabiliyyətli insanları

downloaded from KitabYurdu.org

məşğulluqdan kənarda qoymuş, onların həm ölkədaxili, əsasən də beynəlxalq miqrasiyasını gücləndirmişdir. Əhalinin ölkədaxili, eləcə də beynəlxalq miqrasiyası haqqında müfəssəl məlumata malik olmadan isə məşğulluğun tənzimlənməsinə yönəldilmiş səmərəli tədbirləri hazırlamaq olduqca çətindir. Buna görə də məşğulluğun tənzimlənməsi istiqamətində təkliflərin hazırlanmasından öncə əhalinin miqrasiyasının uçota alınması sahəsində işlər qaydaya salınmalıdır.

Əmək qabiliyyətli əhalinin məşğulluğunda texniki-iqtisadi amillər əhəmiyyətli, həlledici rol oynayırlar. Ölkədə mövcud məhsuldar qüvvələrin inkişaf səviyyəsi, xalq təsərrüfatının təşəkkül tapmış sahə quruluşu məşğulluğun tənzimlənməsinə yönəldilmiş tədbirlərin işlənməsində istinad nöqtəsi rolunu oynaya bilər. Eyni zamanda, istehsal sahələrinin yenidən qurulması, modernləşdirilməsi, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalata tətbiqinin sürətlənməsi, keyfiyyətli, müasir tələblərə cavab verən istehsal vasitələrinin və istehlak şeylərinin istehsalı məqsədi ilə istehsalın profilinin, nomenklaturirunun dəyişdirilməsi məşsuldar qüvvələrin inkişafına təkan vermək, xalq təsərrüfatının sahə quruluşunu təkmilləşdirməklə yanaşı yeni iş yerlərinin yaradılmasına da zəmin yarada bilər.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, beynəlxalq iqtisadi əlaqələrin inkişaf səviyyəsi ölkə daxilində əhalinin məşğulluğunun artırılmasında əhəmiyyətli rol oynayır.



Ölkənin beynəlxalq iqtisadi əlaqələrin inkişaf səviyyəsi bir çox amillərdən (məhsuldar qüvvələrin inkişaf səviyyəsindən, beynəlxalq əmək bölgüsündə iştirak səviyyəsindən, xalq təsərrüfatının sahə quruluşundan, ölkədə və regionda sabitlikdən və s.), o cümlədən xarici sərmayələrin yatırılması üçün əlverişli hüquqi-iqtisadi mühitin mövcudluğundan asılıdır. Ölkəmizdə xarici sərmayələrin yatırılması üçün lazımi qanunvericilik aktları, o cümlədən xarici sərmayələrin qorunması haqqında xüsusi qanun qəbul edilmişdir. Nəticədə son illər Azərbaycana xarici sərmayə axını güclənmiş və yaxın gələcəkdə onun həcminin daha sürətlə artacağı gözlənilir. İndi Azərbaycan adambaşına investisiya qoyuluşuna görə MDB və bir çox Avropa ölkələrini qabaqlayır.

Ölkədə məşğulluğun səviyyəsinə təsir edən amillər qrupu sırasında siyasi amillərin xüsusi yeri vardır. Beynəlxalq təcrübə göstərir ki, cəmiyyətin demokratikləşmə səviyyəsi ilə ölkədə məşğulluğun səviyyəsi arasında birbaşa əlaqə mövcuddur. Belə ki, Qərbin demokratik ölkələrində (ABŞ, Fransa, Böyük Britaniya və s.) işsizliyin səviyyəsi 3-5% təşkil etdiyi halda, demokratiyanın nisbətən az inkişaf etdiyi Latın Amerikası ölkələrində 8-12 %, Afrika ölkələrində isə bundan du yüksəkdir. Bu amilin rolu ondan ibarətdir ki, cəmiyyət demokratikləşdikcə həm əhalinin məşğulluq hüququ daha yaxşı qorunur, dövlət öz vətəndaşının firavanlığı üçün daha əhəmiyyətli tədbirlər həyata keçirir, həm də hər bir vətəndaşın öz haqqını tələb etməsi üçün hüquqi zəmin yaradılır. Hesab edi-

downloaded from KitabYurdu.org

rik ki, demokratik inkişaf yoluna qədəm qoymuş Azərbaycanda bu proses sürətləndikcə məşğulluğun səviyyəsinin artırılması üçün əlavə zəmin yaranacaqdır.

Ölkədə sosial-iqtisadi və siyasi sabitliyin mövcudluğu vətəndaş sülhünün bərqərar olmasına şərait yaratmaqla bərabər, iqtisadi aktivliyin artmasının və xarici sərmayələrin ölkəyə gətirilməsinin, beləliklə də əmək qabiliyyətli əhalinin məşğulluğunun artırılmasının əsas amillərindən biri kimi çıxış edir. Buna görə də, ölkədə sosial-iqtisadi və siyasi sabitliyin qorunması üçün dövlət səviyyəsində lazımi tədbirlər görülməli, qanunun aliliyinin bərqərar olması üçün müvafiq mühit formalaşdırılmalıdır.

Ölkədə və onun yerləşdiyi coğrafi məkana hərbi-siyasi sabitliyin pozulması əmək qabiliyyətli əhalinin məşğulluğuna mənfi təsir edən əsas amil kimi səciyyələndirilə bilər. Bu amilin məşğulluğa təsiri Azərbaycanın timsalında daha aydın görünür. Belə ki, Ermənistanın Azərbaycana təcavüzü, torpaqlarımızın 20%-nin ermənilər tərəfindən işğalı və dinc sakinlərin öz ata-baba yurdlarından qovulması nəticəsində bir milyona yaxın insan qaçqın vəziyyətinə düşmüşdür və bu hal 15 ilə yaxındır ki, davam etməkdədir. Bu vəziyyət, həmçinin müharibə nəticəsində minlərlə iş yerlərinin dağılması, yeni iş yerlərinin yaradılması imkanlarının məhdudluğu məşğulluğa mənfi təsir göstərir.

Fikrimizcə, Azərbaycanda məşğulluq sahəsində yaranmış situasiya, sahibkarlığın inkişafına təsin



edən formalaşmış mühit, potensial sahibkarların ilkin kapital yığımının vəziyyəti məşğulluğa təsir edən tənzimləyici amillərin rolunu artırmışdır.

Dövlətin struktur siyasətində köklü dəyişikliklər edilməlidir. Dövlətin investisiya siyasəti struktur siyasətinə uyğunlaşdırılmalıdır. İnvestisiya siyasəti formalaşdırılarkən öncə istehsal sahələrinin, onların daxilində isə daha perspektivlilərinin inkişafı nəzərdə tutulmalıdır.

Dövlətin fiksal siyasəti struktur və investisiya siyasətinin reallaşdırılmasına istiqamətləndirilməlidir. Ölkəmizdə məşğulluğun səviyyəsinin yüksəlməsində kiçik və orta biznesin müstəsna rolu nəzərə alınaraq onların inkişafı üçün büdcədən ayrılan vəsaitin həcmi artırılmalı və onun sahibkarlara verilməsi üzərində nəzarət gücləndirilməlidir. Büdcədən bilavasitə yeni iş yerlərinin yaradılması üçün ayrılan vəsaitin həcmi də artırlmalıdır.

Məşğulluğa təsir edən tənzimləyici amillər sırasında maliyyə-kredit siyasətinin müstəsna rolu vardır: məşğulluğun mövcud səviyyəsinin saxlanmasına, eləcə də onun yüksəldilməsinə yönəldilən istənilən tədbir yalnız müəyyən maliyyə təminatı nəticəsində reallaşa bilər.

Vergi siyasəti ölkədə iqtisadi aktivliyə təsin göstərməklə məşğulluğun tənzimlənməsində mühüm rol oynayır. Həddindən artıq vergi yükü, xüsusilə istehsal sahələrində, yeni iş yerlərinin açılması imkanlarını azaltmaqla məşğulluğa mənfi təsir göstərir. Məhz bu səbəbdəndir ki, son illər Azərbaycanda

downloaded from KitabYurdu.org

vergi yükünün azaldılması, vergi sisteminin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Ölkə Prezidentinin sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında yuxarıda qeyd edilən fərmanından sonra bu istiqamətdə işlər daha da sürətlənmişdir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, əmək qabilyyətli əhalinin məşğulluğunun səviyyəsi, yuxarıda qeyd edilənlərlə yanaşı və daha çox həyata keçirilən məşğulluq siyasətindən asılıdır. Səmərəli məşğulluq siyasəti əmək qabiliyyətli əhalinin işlə təmin edilməsini tənzimləməklə yanaşı, sosial-iqtisadi sabitliyin saxlanmasında da həlledici rol oynayır. Ölkəmizdə əmək qabiliyyətli əhalinin real məşğulluğunun səviyyəsi qeyri-qənaətbəxş olduğundan, təbiidir ki, yeridilən məşğulluq siyasətini təkmilləşdirilməyə ehtiyacı vardır.

Ümumiyyətlə, götürüldükdə məşğulluq siyasəti aşağıdakı məsələlərin həllinə köklənməlidir:

- əmək qabiliyyətli bütün ölkə vətəndaşlarının məşğulluğu sərbəst seçmək hüququnun təmin olunmasına şərait yaradılması;
- əhalinin sosial riskdən qorunması üçün səmərəli sosial təminat sisteminin yaradılması;
- iş qüvvəsinin bölünməsinin və yenidən bölünməsinin çevik, səmərəli mexanizminin yaradılması;
- işsizlərin sosial müdafiəsinin təşkili;



- sərbəstləşən işçilərin yenidən hazırlanması, peşə və ixtisasın səviyyəsinin artırılmasında onlara yardım edilməsi;
- rəqabət qabiliyyətli olmayan az ixtisaslı vətəndaşların, o cümlədən gənclərin və qadınların məşğulluğuna yardım edilməsi;
- dövlət məşğulluq xidmətlərinin işinin təşkilinin təkmilləşdirilməsi;
- qeyr-dövlət bölməsində yeni iş yerlərinin yaradılmasının stimullaşdırılması;
- məşğulluğa dair xüsusi sahə və ərazi proqramlarının hazırlanması və reallaşdırılması;
- məşğulluq problemlərinin həllində beynəlxalq əməkdaşlığın genişləndirilməsi;
- məşğulluğun təmin edilməsi tədbirlərinin hazırlanmasında və həyata keçirilməsində bütün dövlət və qeyri-dövlət orqanlarının, təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi.

Fikrimizcə, məşğulluğun yüksəldilməsi və müvafiq siyasətin təkmilləşdirilməsi üçün yuxarıda qeyd edilənlərlə yanaşı, aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi də məqsədəuyğun olardı:

- ölkədə əmək ehtiyatlarının mövcud balansı nəzərə alınmaqla yeni iş yerlərinin yaradılması üçün kapital qoyuluşlarının sahələr və ərazilər üzrə bölüşdürülməsinin səmərəli sisteminin yaradılması;
- əmək qanunvericiliyinin təkmilləşdirilməsi, vətəndaşların əmək hüququnun, xüsusilə də qeyri-

downloaded from KitabYurdu.org

dövlət bölməsində, qorunması məqsədi ilə nəzarət sisteminin yaradılması;

• işləyənlərin və işsizlərin sayının düzgün müəyyən edilməsi üçün uçot sisteminin təkmilləşdirilməsi, uçotdan yayınma və ya düzgün olmayan məlumatlar üçün məsuliyyətin artırılması;

• büdcədən maliyyələşən idarə və müəssisələrdə səmərəsiz iş yerlərinin ləğvi və mütərəqqi iş yerlərinin yaradılması;

• gənclərin, eləcə də qadınların və gənc mütəxəssislərin işlə təmin olunmasını yaxşılaşdırmaq məqsədi ilə iş yerlərinin kvotasının müəyyən edilməsi;

• mövcud, boş iş yerlərinin doldurulması üçün vaxtaşırı olaraq regionlarda əmək yarmarkalarının təşkili;

• ali, orta ixtisas və peşə təhsilinin əmək bazarının tələblərinə uyğun təkmilləşdirilməsi;

• iş qüvvəsi ixracının qanuniləşdirilməsi, bu məqsədlə xarici ölkələrlə müvafiq müqavilələrin bağlanması;

• dövlət məşğulluq xidmətlərinin fəaliyyətində çevikliyin artırılması;

• alternativ iş yerlərinin (qısa iş həftəsi, qısa iş günü, əvəzçilik, müvəqqəti iş, vaxtaşırı məşğulluq) yaradılmasının stimullaşdırılması və s.

Fikrimizcə, əmək qabiliyyətli əhalinin məşğulluğunun səmərəli tənzimlənməsinə imkan verən təkliflərin həyata keçirilməsi respublikamızda məşğulluq



sahəsində mövcud olan gərginliyin xeyli yumşaldılmasına zəmin yaradardı.

### *6.4. Məşğulluq sahəsində gender problemi və onun regional həlli istiqamətləri*

Azərbaycanda bazar münasibətlərinin formalaşması mərhələsi ilk növbədə əmək ehtiyatlarının səmərəli yerləşdirilməsi və təkmilləşdirilməsi məsələsini ön plana çıxarmışdır. Bu problemin sürətli inkişafında əsas hərəkətverici qüvvə məşğulluq siyasətinin tənzimlənməsi istiqamətlərini əhatə edir. Təbii ki, burada qadın məşğulluğu problemi mühüm əhəmiyyət kəsb edir.

Qadınların ictimai əməkdə inkişafının əhəmiyyəti təkcə onların ailənin büdcəsini zənginləşdirmələri ilə deyil, həm də onların şəxsi nüfuzları, ailədə hazırlanıb qəbul edilən qərarların və ailədən kənarda ictimai əlaqələrin və kontaktların qaydaya salınmasına verdikləri töhfələrlə izah edilir. Buna görə də hazırda başlıca vəzifələrdən biri keçid iqtisadiyyatına qədəm qoymuş ölkələrdə qadınların yenicə meydana çıxan, formalaşmaqda olan əmək bazarında hansı dərəcədə və miqyasda inkişafını müəyyənləşdirməkdən və onların yeni məşğulluq sistemində hər hansı bir şəkildə «sıxışdırılması» vəziyyətini aşkara çıxarıb tədbirlər görməkdən ibarətdir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, qadınlar cəmiyyətin başlıca məhsuldar qüvvələrinin mühüm tərkib hissəsini təşkil edərək, onun maddi və mənəvi

downloaded from KitabYurdu.org

nemətlərinin yaradılmasında bilavasitə iştirak etməklə yanaşı, həm də analıq funksiyası kimi çətin və şərəfli bir vəzifəni yerinə yetirirlər.

Bütün cəmiyyətdə bir şəxsiyyət və iş qüvvəsi kimi qadınların ictimai təkrar istehsal prosesində rol və yerini müəyyən etmək üçün ictimai təkrar istehsalın və onun bir hissəsi kimi insanların təkrar istehsalı və uşaq doğulmasındakı rolunu fərqləndirmək lazımdır. Belə ki, bütövlükdə götürüldükdə, bütün cəmiyyətdə əhalinin təkrar istehsalı hər iki cinsdən – kişilərdən və qadınlardan ibarət olan əhali kütləsinin işidir. Burada qadınları kişilərdən fərqləndirən əsas cəhət başqa bir funksiyanı, uşaq doğmaq funksiyasını yerinə yetirməkdən ibarətdir. Analıq funksiyasının yerinə yetirilməsi qadınların istehsal prosesindəki iştirakını əhəmiyyətli dərəcədə azaldır.

Qadın azadlığının təmin olunması hər bir ölkədə həlli vacib məsələlərdən biridir. Ona görə də hesab edirik ki, qadın azadlığının həyata keçirilməsi, onların ictimai istehsala cəlb edilməsi, qadın əməyinin tətbiqi xarakterinin dəyişilməsi, onların iş şəraitinin yaxşılaşdırılması, bərabər əmək üçün bərabər haqq verilməsi, ana və uşaqların əməyinin müdafiəsi qadınların təhsil və mədəniyyət səviyyəsinin yüksəldilməsi yolu ilə mümkündür və buna ciddi əməl olunması tələb olunur.

Hazırda qadın məşğulluğu sahəsində dövlət siyasətinin və qadın əmək potensialının səmərəli məşğulluğunun təmin edilməsi istiqamətlərinin müəyyən



edilməsi iqtisad elmi qarşısında mühüm vəzifələr qoymuşdur.

Müstəqillik əldə etdikdən sonra ölkəmizin bazar iqtisadiyyatı yolu ilə getməsi, ölkələr arasında iqtisadi əlaqələrin pozulması, iqtisadi böhran və s. qadın və kişilər arasında işsizliyin yaranıb artmasını labüd edərək məşğulluq probleminin kəskinləşməsinə səbəb olmuş və onun həllini xeyli çətinləşdirmişdir. Lakin ölkədə aparılan iqtisadi islahatlar, özəlləşmə prosesləri, yeni müəssisələrin tikilib istifadəyə verilməsi və s. əhalinin məşğulluq probleminin həllini xeyli yaxşılaşdırmışdır. «Məşğulluq haqqında» Azərbaycan Respublikasının 2 iyul 2001-ci il tarixli qanunu da məşğulluq probleminin həllində mühüm rol oynamışdır.

Bütün bunlara baxmayaraq qadın problemi bütün dövrlərdə olmuşdur və indi də olmaqdadır. Lakin əmək məcəlləsi ilə əlaqədar olan həm qadın, həm kişi məsələsi bir-biri ilə sıx əlaqədar olduğu üçün birlikdə həll edilir. Lakin Gender problemi indi bütün dünyada ön plana çəkildiyi üçün qadın əməyi ilə bağlı olan problemlərə xüsusi əhəmiyyət verilməsi tələb olunur.

Dövlətin mühüm məsələlərindən biri qadın əmək potensialından səmərəli istifadə edilməsindən ibarətdir. Bu isə öz növbəsində iqtisadiyyatın bütün sahələrində qadın əməyindən istifadə üçün zəruri olan şəraitin yaradılmasına və son nəticədə Gender siyasətinə xüsusi diqqət yetirilməsini nəzərdə tutur.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra respublikalar arasında iqtisadi əlaqələr pozulmuş, iri

downloaded from KitabYurdu.org

müəssisələrin qismən və ya tamamilə dayanması nəticəsində işsizlərin sayı artmışdır.

Statistik materialların təhlili göstərir ki, 1991-2006-cı illər ərzində işsizlər arasında qadınların xüsusi çəkisi təqribən 50-60 faiz arasında cərəyan etmişdir.

Keçid dövrü iqtisadiyyatı qadınların bir hissəsinin indiyədək əldə etdikləri məşğulluq və sosial təminat sahəsində nailiyyətlərdən məhrum etmişdir. Bu geriləmə dövlətin həmin sahədəki rolunun kəskin şəkildə azaldılması ilə əlaqələndirilir (Mülkiyyət formalarının dəyişməsi və dövlət mülkiyyətinin xüsusi çəkisinin azalması). Keçid dövründə qadınların geniş surətdə cəmiyyət həyatında iştirakının təmin edilməsinin mümkün olmaması bu günün reallığıdır. Lakin hesab edirik ki, keçid dövrü başa çatdıqdan sonra Gender bərabərliyi təmin olunacaqdır. Azərbaycan Respublikasının Konstitusiyasında xüsusi qeyd olunur ki, «Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır».

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında Gender siyasətinin kökləri sovet dövrünün «Qadın məsələsi» ilə bağlıdır. Həmin dövrdə demək olar ki, qadın məsələsinə diqqət və qayğı ilə yanaşılırdı, onlar arasında bərabərlik mövcud idi. Lakin «Qadın məsələsi»nin beynəlxalq standartlara müvafiq olaraq inkişaf etdirilməsi Azərbaycanın müstəqilliyi dövrünə təsadüf edir. 1995-ci ildə Çinin paytaxtı Pekində keçirilməli olan IV Ümumdünya Qadınlar Konfransına hazırlığın bir hissəsi kimi Azərbaycanda dövlət və qeyri-hökumət qadın təşkilatları qadın problemlərinin həll edilməsinə səfərbər olunmuşdur. Elə



həmin il Azərbaycan Respublikası «Qadınlara Qarşı Ayrı-seçkiliyin Ləğv Edilməsi haqqında Konvensiya» qəbul etmiş və ölkənin nümayəndə heyəti Pekin Konfransında fəal iştirak etmişdir. Nəhayət, 14 yanvar 1998-ci ildə Respublika Qadın Problemləri üzrə Dövlət Komitəsi (QPDK) yaradılmışdır.

XX əsrin axırlarına qədər demək olar ki, keçmiş SSRİ-nin bütün respublikalarında olduğu kimi Azərbaycan Respublikasında da Gender probleminin həllinə lazımi diqqət yetirilməmiş və təhlillər aparılmamışdır. Ümummilli liderimiz Heydər Əliyev MDB ölkələri arasında ilk dəfə olaraq 6 mart 2000-ci il tarixdə «Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında» fərman imzalanmışdır.

Ölkəmizdə bazar iqtisadiyyatının bərqərar olması, müstəqilliyin möhkəmləndirilməsi, iqtisadi islahatların aparılması, vətəndaş cəmiyyətinin formalaşması və s. sahələrdə qadınların da üzərinə çox böyük məsuliyyət düşür. Bütün bunlar isə respublikada qadın məşğulluğu sahəsində də xüsusi dövlət siyasətinin işlənib hazırlanmasını tələb edir.

İqtisadiyyatda qadın məşğulluğunun çox aşağı səviyyədə olması onların əksər hissəsinin ali və orta ixtisas təhsilinə malik olmaması ilə izah edilir. Bunu Muxtar Respublikanın ali təhsil müəssisələrində iqtisadiyyat ixtisaslarında təhsil alan tələbələrin ümumi sayında qızların xüsusi çəkisi bir daha sübut edir. Belə ki, 2006-cı ildə Muxtar Respublikanın Universitetlərində (Dövlət və Özəl Universitet) iqtisad

downloaded from KitabYurdu.org

yönümlü ixtisaslarda təhsil alan tələbələrin ümumi sayında qızlar cəmi 11 faiz xüsusi çəkiyə malik olmuşdur. Bu ixtisaslarda qızların azlığı onların həmin ixtisaslara aşağı meyilliliyi ilə izah edilir.

Cədvəl 27

**2006-cı ildə Naxçıvan MR ali məktəblərində iqtisad yönümlü ixtisaslarında təhsil alanların cins tərkibi (nəfərlə)**

| № | | Cəmi tələbələr | O cümlədən | | |
|---|---|---|---|---|---|
| | | | oğlanlar | qızlar | oğlanlara nisbətən qızlar faizlə |
| 1. | Naxçıvan Dövlət Universiteti | 530 | 466 | 64 | 12 |
| 2. | Naxçıvan Özəl Universiteti | 256 | 233 | 24 | 9 |

Bundan başqa, muxtar respublika ali ixtisas məktəblərinin digər ixtisaslarında təhsil alan qızların xüsusi çəkisi 10-30 faiz arasındadır.

Qızların və oğlanların texniki peşə məktəbləri üzrə gender bölgüsünün təhlili məşğulluğun gender proqnozu nöqteyi-nəzərindən çox vacibdir. Çünki bu məktəblərdə müxtəlif sahələr üçün orta personal hazırlanır. Məhz bu nöqteyi-nəzərdən muxtar respublikada müəssisələr üçün orta personalın hazırlanmasına xüsusi diqqət yetirilməli və texniki peşə məktəblərinin işi canlandırılmalıdır.

Qadınlarımızın ali təhsil almasında Naxçıvan MR-da fəaliyyət göstərən ali məktəbin çox böyük



rolu vardır. Aparılan təhlillər göstərir ki, Naxçıvan Dövlət və Özəl Universitetlərində 2001-2006-cı illərdə tələbə heyətinin cins tərkibi xeyli dəyişmişdir. Məsələn, keçən 6 il ərzində Naxçıvan Dövlət Universitetində bütün tələbə heyətinin tərkibində qızların sayı 1 faiz artdığı halda Naxçıvan Özəl Universitetində qızların sayı 17 faiz aşağı düşmüşdür. Aşağı düşmənin əsas səbəbi burada pedaqoji ixtisaslara qəbulun azalması və əksinə iqtisad yönümlü ixtisaslara isə qəbul planının artması ilə əlaqədar olmuşdur.

Ümumiyyətlə götürsək pedaqoji ixtisaslarda qızların sayı daha çoxdur. Əgər Naxçıvan Dövlət və Özəl Universitetlərində pedaqoji ixtisaslarda qızların sayı 80-85 % arasındadırsa Naxçıvan Müəllimlər İnstitutunda bu rəqəm daha yüksəkdir. Bunu aşağıdakı cədvəl məlumatlarından daha aydın görmək olar.

Cədvəl 28

**2001-2006-cı illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitutunda tələbə heyətinin sayı və cins tərkibi**

| | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|
| Bütün tələbələrin cəmi: | 21 | 147 | 383 | 465 | 504 | 549 |
| O cümlədən: | | | | | | |
| Qızlar | 20 | 134 | 358 | 432 | 471 | 516 |
| Oğlanlar | 1 | 13 | 25 | 33 | 33 | 33 |

downloaded from KitabYurdu.org

Pedaqoji İnstitutda cədvəl məlumatlarının son altı ildəki təhlili göstərir ki, tələbə heyəti arasında qızların xüsusi çəkisi 92-99 % arasındadır.

Bütövlükdə muxtar respublikanın ali ixtisas məktəblərində digər ixtisaslarda təhsil alan qızların xüsusi çəkisi 10-30 % arasında tərəddüd edir.

Magistratura yolu ilə kadr hazırlığına xüsusi diqqət verilir. Naxçıvan MR ali məktəbləri içərisində Naxçıvan Dövlət Universiteti bu sahədə xüsusi yer tutur. Gender bərabərliyini müəyyən etmək üçün aşağıdakı cədvəldən istifadə edilmişdir.

Cədvəl 29

**2001-2006-cı illərdə Naxçıvan Dövlət Universitetinin magistraturasında təhsil alan magistrlərin cins tərkibi (faizlə)**

| | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|
| Qızlar | 54 | 61 | 50 | 44 | 39 | 39 |
| Oğlanlar | 46 | 39 | 50 | 56 | 61 | 61 |

Cədvəl məlumatlarının təhlili göstərir ki, 2001-2006-cı illərdə qızların xüsusi çəkisi oğlanlara nisbətən 4 faizdən 22 faizədək yüksək olmuş və 2003-cü ildə hər iki cins arasında bərabərlik yaranmış, sonrakı 2004-2006-cı illərdə isə oğlanların xüsusi çəkisi artmağa başlamışdır. Bu artım əvvəlki illərdə oğlanların hərbi xidmətə çağırılması və hərbi xidmətdən qayıtdıqdan sonra bərpa olunması və buna görə də oğlanların sayı artaraq qızların xüsusi çəkisinin azalmasına gətirib çıxarmışdır.



Hazırda Naxçıvan Dövlət Universitetində çalışan müəllimlərin 45 faizinin elmi dərəcəsi olmasına və ya Azərbaycanın ali məktəbləri içərisində ön sırada getməsinə baxmayaraq bunlar içərisində qadınlar cəmi 11 faiz təşkil edir. Ona görə də universitet rəhbərliyi aspirantura yolu ilə elmi kadrların hazırlanmasına xüsusi diqqət yetirir. Bu isə öz bəhrəsini verir və elmi dərəcə alan qadınların sayı artır. Təkcə bir faktı göstərmək kifayətdir ki, 1 yanvar 2007-ci il tarixə Naxçıvan Dövlət Universitetinin aspiranturasında oxuyanların 38,4 faizini qadınlar təşkil edir.

Gələcəkdə bu məsələlərə xüsusi fikir verilməlidir. Ən azı ona görə ki, bu sahədə kadr çatışmazlığı təhsilin inzibati-idarəetmə sistemində hansısa bir qadının irəli çəkilməsində problemlər yaradır.

Müstəqilliyin ilk illərində elmə maraq azalmışdır. Lakin hökumətin son illərdə gördüyü tədbirlər, dövlət büdcəsində elm xərclərinin artması, elmə, təhsilə verilən diqqət bu sahədə əmək haqlarının dəfələrlə artması və nəhayət, 2007-ci ilin aprel ayında ölkə Prezidenti İlham Əliyevin atdığı yeni addımlar və imzaladığı fərmana əsasən akademiyanın həqiqi üzvlərinin dərəcə maaşı 1000 manat, müxbir üzvlərininki isə 700 manat müəyyən edilmişdir. Ümidvar olduğumuzu bildirmək istərdik ki, ölkə prezidenti sayı o qədər də çox olmayan elmlər doktorları və elmlər namizədləri barədə də yaxın vaxtlarda növbəti addım ataraq yeni bir fərman imzalayacaqdır.

downloaded from KitabYurdu.org

Hesab edirəm ki, görüləcək bütün bu stimullaşdırıcı tədbirlər gələcəkdə gender bərabərliyinə də öz köməyini göstərəcəkdir.

Qadın hüquqlarının təmin olunması məsələsi müxtəlif sistemli ölkələrin əsas qanunlarında, onların bir çox başqa rəsmi sənədlərində, hətta həmin ölkələrin bir sıra beynəlxalq bəyanatlarında öz əksini tapmışdır. Bütün bu tədbirlər qadın hüquqlarının köklü problemlərini həll edə bilməsə də bu sahədə öz müsbət nəticələrini də verirdi.

XX əsr qadın problemlərinin qoyuluşu və həllində, qadın hərəkatının genişlənməsi sahəsində demək olar ki, dönüş əsri olmuşdur.

Bir-birinə zidd olan iki ictimai sistemin mövcudluğu, bunların tarixən yanaşı yaşaması qadın problemini daha da aktuallaşdırmış, qadın hərəkatını cəmiyyətin aparıcı qüvvələrindən birinə çevirmişdir.

Sovet hakimiyyəti illərində öz vahid ideologiyasının qüvvəsini, yeni sistemin üstünlüklərini, onun daha cəzbedici təsirini göstərmək üçün ölkənin əsas qanununda qadınlara kişilərlə bərabər hüquqlar verilmişdir. Qərb, sosializmlə olan rəqabətdə üstünlüyü əldən verməmək üçün bü yönümdə tədbirlər görürdü. Bununla əlaqədar olaraq XX əsrdə Qərb və Şərqin, o cümlədən Azərbaycanın həyatında baş verən ictimai – siyasi və mədəni tərəqqi sahəsindəki bütün dəyişikliklərdə qadınların rolu böyük olmuşdur. Məlumdur ki, 1919-cu ildə Azərbaycan qadınları ilk dəfə olaraq seçmək və seçilmək hüququna malik olmuşlar. Ancaq bu da bir faktdır ki, Azərbaycan sovetləşəndən sonra



qadınlara verilmiş bu hüquqlar qüvvədə qalmış, qadınlar ölkə həyatının bütün sahələrində özlərinə məxsus yer tutmuş, bərabərhüquqlu vətəndaşlar kimi cəmiyyətin imkanlarından istifadə etmişlər.

Ümumiyyətlə, XX əsr Azərbaycan qadınlarının həyatında böyük dəyişikliklər əsri olmuşdur. Azərbaycan qadınları həyatın bütün sahələrində kişilərlə birlikdə bərabər hüquqlar qazanmış və özlərinin yaradıcılıq imkanlarından cəmiyyətə xidmət etmək üçün istifadə etmişlər. Lakin bu da bir faktdır ki, Sovet dövründə qadınlar daha çox maddi istehsal sahələrində fəaliyyət göstərirdilər. Kənd təsərrüfatında ağır işlərdə, yüngül və hətta ağır sənaye sahələrində zərif cinsin qüvvəsindən insafsızcasına istifadə olunurdu.

Müstəqil və demokratik yeni Azərbaycan cəmiyyətinin formalaşdığı müasir şəraitdə ictimai həyatın bütün sahələrində, xüsusilə onların əməyinə xas olan sahələrdə qadınlara diqqət daha da artmağa başlamışdır.

Azərbaycan Respublikası 1995-ci ildə qadınlara qarşı hər bir ayrı-seçkiliyin ləğv olunması ilə əlaqədar Beynəlxalq Konvensiyaya qoşulmuşdur. Ancaq dünyanın bəzi demokratik ölkələri bu konvensiyanın tələblərini təmin edə bilmədiklərindən ona qoşula bilməyiblər. Bu konvensiya cinsi ayrı-seçkiliyin bütün formalarını inkar edir.

downloaded from KitabYurdu.org

# III B Ö L M Ə

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN MÜASİR VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

downloaded from KitabYurdu.org

# VII F Ə S İ L

## NAXÇIVAN GÖMRÜYÜ İNKİŞAF YOLLARINDA

### *7.1. H.Əliyev və Azərbaycanda gömrük xidmətinin inkişafı*

***«Biz elə bir gömrük orqanı yaratmalıyıq ki, o, xarici iqtisadi əlaqələrimizdə öz yerini tutsun, iqtisadiyyatımızın inkişafına xidmət etsin, bütün hallarda müstəqil Azərbaycanın nüfuzunun yüksəldilməsinə öz töhfəsini versin»***

***Heydər Əliyev***

Memarı və qurucusu Ümummilli liderimiz Heydər Əliyev olan müstəqil Azərbaycan dövləti on beş ilə yaxındır ki, genişmiqyaslı inkişaf yolundadır. Bu dövr ərzində həyata keçirilən sosial-iqtisadi islahatlar, dünya təsərrüfatına inteqrasiya istiqamətində atılan uğurlu addımlar Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu qaldırmış və dünya birliyində layiqli mövqe tutmasını təmin etmişdir.

Hər bir müstəqil dövlətin əsas vəzifəsi ölkənin milli maraqlarından irəli gələn daxili və xarici siyasətinin strateji xəttini hazırlamaq, iqtisadi inkişaf konsepsiyasını müəyyən etmək və ölkənin bütün potensialını onların reallaşmasına yönəltməkdir.



SSRİ dağıldıqdan sonra buraya daxil olan digər müttəfiq respublikalar kimi Azərbaycan da öz müstəqilliyini əldə etdi, sağlam milli iqtisadiyyatını müstəqil şəkildə inkişaf etdirməyə başladı. Lakin müstəqilliyin ilk illərində hakimiyyətdə olan AXC-Müsavat birliyi, kreslo davaları onsuz da geri qalan Azərbaycan iqtisadiyyatını dirçəltmək əvəzinə bir az da çökdürdü və dərin böhran içərisinə saldı.

Azərbaycan ikinci dəfə öz müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sistemin tranformasiyasını təmin edən iqtisadi strategiyanın hazırlanması həyati zəruriyyətə çevrildi. Məhz bu baxımdan Ümummilli liderimiz H.Əliyev ikinci dəfə xalqın təkidi və tələbi ilə hakimiyyətə gəldikdən sonra Azərbaycan strateji xəttini müəyyənləşdirdi.

«Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması və bazar iqtisadiyyatı, sahibkarlıq yoludur» - deyən ümummilli lider ölkənin iqtisadi inkişafını müəyyən etmək strategiyasının başlıca konturlarını verərək Azərbaycan reallıqlarına tam uyğunlaşdırılmış iqtisadi inkişaf modelini müəyyənləşdirdi. Görülən tədbirlər nəticəsində ölkədə makroiqtisadi sabitlik əldə edildi və inkişaf başladı.

30 yanvar 1992-ci ildə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi yaradıldı. Ümummilli liderimiz Heydər Əliyevin gömrük xidməti orqanlarını «Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir» kimi dəyərləndirməsinə baxmayaraq gömrük xidməti orqanları o vaxtkı

downloaded from KitabYurdu.org

hakimiyyət tərəfindən düzgün qiymətləndirilmədi, gömrük xidməti isə ölkədə daxili bazarın qorunmasında, iqtisadi təhlükəsizliyin təmin olunmasında öz üzərinə düşən vəzifələrin öhdəsindən bir müddət gələ bilmədi. Lakin H.Əliyevin Naxçıvana qayıdışı, Naxçıvan MR Ali Məclisinin sədri seçilməsi, Naxçıvanı blokoda vəziyyətindən və iflic vəziyyətə düşmüş iqtisadiyyatı böhrandan çıxarması, sərhədyanı ölkələrlə iqtisadi əlaqələr qurması və nəhayət, 24 fevral 1992-ci ildə Ali Məclisin 138 №-li qərarı ilə Naxçıvan Dövlət Gömrük Komitəsini yaratması və milli gömrük xidmətinin formalaşması sahəsində gördüyü tədbirlər nəinki Naxçıvanda, habelə bütövlükdə Azərbaycanda siyasi-iqtisadi münasibətlərə öz müsbət təsirini göstərmiş oldu.

Qeyd etmək lazımdır ki, keçmiş SSRİ-də digər müttəfiq respubilkalar kimi Azərbaycanda da müstəqil gömrük orqanı olmamışdır. Respublika ərazisində keçmiş SSRİ-yə məxsus gömrük xidməti orqanları fəaliyyət göstərirdi və idxal-ixrac əməliyyatlarına nəzarət mərkəzi orqanlar vasitəsilə həyata keçirilirdi. Müstəqilliyin ilk illərindən başlayaraq hüquqi bazarın yaradılması, maddi-texniki resurslara malik və normal nəzarət funksiyaları həyata keçirməyə qadir olan gömruk xidmətinin formalaşdırılması üçün müvafiq işlərin görülməsi daima Ulu Öndəri düşündürürdü. Ona görə də Heydər Əliyev Azərbaycan Gömrük təşkilatında struktur islahatların aparılması, kadr potensialının yeniləşdirilməsini vacib hesab edirdi və bu təşkilatın müstəqilliyinin qorunmasında, iqtisadi inkişafındakı rolunu xüsusi qeyd edərək deyirdi:



«Azərbaycan həm iqtisadi, həm də siyasi cəhətdən dövlət müstəqillyini təmin etmək, qorumaq, inkişaf etdirmək üçün gömrük xidməti çox əhəmiyyətli təşkilatdır».

Ulu Öndər Heydər Əliyevin 1995-ci ilin yanvarında Dövlət Gömrük Komitəsinin fəaliyyətinin geniş müzakirəyə çıxarılması heç də təsadüfü deyildir. Onun müşavirədəki proqram xarakterli nitqində irəli sürdüyü, tövsiyə və göstərişlər respublikada gömrük xidmətinin yenidən qurulması və inkişafının əsas istiqamətlərini və prinsiplərini müəyyən etdi. Heydər Əliyevin gündəlik qayğısı ilə əhatə olunan gömrük sisteminin fəaliyyətində mühüm dəyişikliklər oldu və demək olar ki, yenidən quruldu. Bu yenidənqurmanın əsas prinsipləri müəyyənləşdirildi:

- gömrük işi sahəsində qabaqcıl ölkələrin təcrübələrinin öyrənilməsi və tətbiqi;
- beynəlxalq tələblərə uyğunlaşdırılan gömrük qanunvericiliyinin yaradılması sahəsində görülən işlər;
- gömrük-tarifi siyasətinin müəyyənləşdirilməsi;
- qaçaqmalçılığa qarşı mübarizənin güclənməsi;
- gömrük infrastrukturunun gücləndirilməsi tədbirləri və.s.

Dünya təcrübəsi göstərir ki, hər bir sahədə əgər qanun və hüquq yaradıcıllığı düzgün qurularsa, o sahə sağlam təməl üzərində dayanaraq dövləti yüksəlişə doğru aparar. Azərbaycanı sivilizasiyalı gə-

downloaded from KitabYurdu.org

ləcəyə doğru aparan qanunların və fərmanların müəllifi Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan Respublikası Gömrük Məcəlləsinin tətbiq edilməsi barədə imzaladığı fərman gömrük sisteminin inkişafı və dünya standartlarına uyğun qurulması istiqamətində atılan böyük addım idi.

Milli iqtisadiyyatın əsas qollarından birini təşkil edən Azərbaycan gömrük sistemi və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respubilkasının gömrük orqanları da ulu öndərin apardığı iqtisadi islahatların nəticəsində qısa müddətdə böyük inkişaf yolu keçmiş, yüksək, dünya standartlarına uyğun yenidən qurub möhkəmləndirilmişdir.

Ümummilli liderimiz Heydər Əliyev yüksək səviyyədə gömrük xidmətinin yaradılmasını savadlı kadrların hazırlanmasında, işçilərin mənəvi saflığında və bu sahənin maddi-texniki bazasının yaradılmasında görürdü. «Həqiqi gömrük işini təşkil etmək üçün iki əsas şərt lazımdır. Birincisi, gömrük işçisi gərək bilikli olsun, öz peşəsini yaxşı mənimsəmiş adam olsun, mənəviyyatca təmiz olsun, öz işinə sadiq olsun, vətəninə, ölkəsinə sadiq olsun. İkinci tərəfdən, gərək onun təcrübəsi ilə, biliyi ilə yanaşı, maddi-texniki bazası, müasir texnikası, ləvazimatı olsun. Bu da sizin vəzifənizdir».

Azərbaycanın iqtisadi inkişafı, onun suverenliyinin təmin edilməsi ölkədə aparılan gömrük siyasəti ilə bilavasitə bağlıdır. Bütün bunlar nəzərə alınmaqla son on beş ilə yaxın bir dövr ərzində Azərbaycanda uğurlu gömrük siyasətinin təməli qoyulmuş,



gömrük işinin təkmilləşdirilməsi və gömrük orqanlarının maddi-texniki və normativ-hüquqi bazasının möhkəmləndirilməsi, ümumdünya gömrük sisteminə inteqrasiyası istiqamətində uğurlu addımlar atmışdır.

Ölkənin iqtisadi inkişafında digər qurumlarla yanaşı gömrük orqanlarının da xüsusi yeri olduğunu dəfələrlə qeyd edən Ümummilli liderimiz ölkənin xarici iqtisadi əlaqələrinin möhkəmləndirilməsində, idxal-ixrac əməliyyatlarının tənzimlənməsində gömrük xidmətinin üzərinə düşən vəzifələrin həlli yollarını göstərmişdir. O Azərbaycan gömrük orqanlarının fəaliyyətini təhlil edərək bu sistemdə yüksək nizam-intizam, peşəkarlıq formalaşdırılması, kadrların işinin yenidən qurulması, gömrük işçisinin öz peşəsinə və xalqına sadiqliyini xüsusi qeyd edirdi. «Biz dünyada müstəqil Azərbaycanın nüfuzunun qaldırılmasına, iqtisadi inkişafa böyuk yardım edən, xarici iqtisadi əlaqələrdə layiqli yer tuta bilən bir gömrük sistemi yaratmalıyıq». Heydər Əliyev bu fikirləri ilə dünyanın qabaqcıl ölkələrinin gömrük təşkilatları ilə sıx əməkdaşlıq şəraitində işləməklə Azərbaycanın gömrük sisteminin daha da təkmilləşdirilməsini nəzərdə tuturdu. Dünya birliyində respublikamızın demokratik, hüquqi bir dövlət kimi, mənəvi dəyərlərə malik bir ölkə kimi tanınmasında gömrük xidmətini ön cərgədə görməyi arzulayırdı.

Fərəhlə demək olar ki, indi ulu öndərin arzuları həyata keçməkdədir. Ölkəmizdə yeridilən uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan Respubilkasının və onun ayrılmaz tərkib hissəsi olan

downloaded from KitabYurdu.org

Naxçıvan MR xarici iqtisadi əməkdaşlığı getdikcə genişlənir. Ümummilli lider Heydər Əliyev kursunu davam etdirən cənab İlham Əliyev ölkə iqtisadiyyatının inkişafında böyük müvəffəqiyyətlər əldə edir. İndi Azərbaycan ÜDM artım sürətinə görə nəinki Cənubi Qafqazda, hətta dünyada lider dövlətlərdən birinə çevrilmişdir.

Ölkədə aparılan iqtisadi islahatlar başqa sahələrdə olduğu kimi gömrük xidmətinin də inkişafına öz təsirini göstərir. Büdcə gəlirlərinin artması inkişafımızın dinamikasının daha aydın göstəricisidir. Büdcə gəlirlərinin formalaşmasında Vergilər Nazirliyindən sonra Dövlət Gömrük Komitəsi çox böyük rola malikdir. Aparılan təhlillər göstərir ki, 2007-ci ildə Azərbaycan Dövlət Gömrük Komitəsi tərəfindən 771,9 milyon manat məbləğində gömrük vergi və rüsumları toplanaraq dövlət büdcəsinə köçürülmüş və illik proqnoza 100,3% əməl olunmuşdur. Bu da 2006-cı illə müqayisədə 255,9 manat və ya 49,6 % çoxdur.

Bu artım 2008-ci ildə də davam edəcəkdir. Belə ki, 2008-ci ilin dövlət büdcəsi haqqında qanuna əsasən Dövlət Gömrük Komitəsi üçün büdcə gəlirləri üzrə 1milyard 100 milyon manat məbləğində proqnoz müəyyən edilmişdir. Bu rəqəm 2007-ci illə müqayisədə 330 milyon manat və ya 42,9 % çoxdur.

Aparılan düzgün gömrük siyasəti bir daha sübut edir ki, gömrük vergi və rüsumlarının həcminin artması təkcə ölkə üzrə xarici ticarət dövriyyəsinin artması hesabına deyil, eyni zamanda gömrük nəzarətinin, qaçaqmalçılıq və gömrük qaydalarının pozulması halları ilə mübarizənin gücləndirilməsi, maliyyə intizamının daha da möhkəmləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsində mümkün olmuşdur.



Gömrük vergi və rüsumlarının dövlət büdcəsindəki mühim əhəmiyyəti onu göstərir ki, gömrük sistemi gələcəkdə respublikamızın iqtisadi inkişafına təkan verməklə, ölkənin iqtisadi qüdrətinin artmasında və əhalinin sosial vəziyyətinin yaxşılaşmasında mühüm rol oynayacaqdır.

2007-ci ildə ölkədə gömrük sisteminin inkişafını sürətləndirmək, onun normativ-hüquqi və maddi-texniki təminatının yaxşılaşdırılması məqsədilə və gömrük orqanlarının fəaliyyətini daha da təkmilləşdirmək məqsədilə xeyli iş görülmüşdür. Belə ki, Azərbaycan Respublikasının Prezdenti İ.Əliyevin 1 fevral 2007-ci il tarixli sərancamıyla «Azərbaycan Respublikası Gömrük sisteminin 2007-2011-ci illərdə inkişafına dair Dövlət Proqramı» təsdiq edilmişdir. Bundan əlavə ölkəmizin Ümumdünya ticarət təşkilatına üzv olması prosesi ilə əlaqədar olaraq hazırda qüvvədə olan bir çox qanunvericilik aktına dəyişikliklər edilmişdir.

Bütövlükdə ölkəmizdə və onun ayrı-ayrı regionlarında tikinti-quruculuq işləri geniş vüsət almışdır. Əvvəlki illərdə olduğu kimi son iki ildə də Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin və onun yerli orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər görül-

downloaded from KitabYurdu.org

müşdür. Təkcə 2006-cı ildə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin büdcədənkənar xüsusi vəsaiti hesabına 1,3 milyon manat dəyərində tikinti aparılmış və Naxçıvan MR Gömrük Komitəsinin inzibati binasının, yük şöbəsinin binasının, anbarların, gömrük ərazisinin hasarlanması, bazar binasının tikintisi və digər işlər başa çatdırılaraq istifadəyə verilmişdir. Tikinti və abadlaşdırma işləri indi də davam etdirilir.

Ölkəmizdə həyata keçirilən beynəlxalq layihələr, aparılan quruculuq işləri, yaradılan yeni infrastrukturlar, enerji təhlükəsizliyinin təmin olunması istiqamətində atılan addımlar, sahibkarlığın stimullaşdırılması və s. iqtisadi inkişafın yüksək tempini təmin edir. İqtisadi əlaqələr getdikcə genişlənməkdədir. Artıq xarici investisiya qoyuluşları ticarət əlaqələri və digər tədbirlər ölkənin iqtisadi-siyasi həyatında mühüm yer tutur. 17 ilə yaxın bir dövrdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasında isə xarici iqtisadi əlaqələrin genişlənməsi regional iqtisadiyyatdakı rolunun əhəmiyyətini daha da artırır.

Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə müşahidə olunan dinamik inkişaf gömrük xidmətinin fəaliyyətində də özünü göstərir.

2007-ci ildə muxtar respublikanın gömrük orqanlarının həyatında əlamətdar hadisələrlə zəngin olmuşdur. Ən əlamətdar hadisələdən biri ölkə Prezidenti möhtərəm İ.Əliyevin 17 oktyabr 2007-ci ildə regionda mühüm əhəmiyyətə malik olan Şaxtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinin açılması olmuş-



dur. Belə ki, Şaxtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinə beynəlxalq statusun verilməsi Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi əlaqələrində yeni mərhələnin bünövrəsini qoymuşdur.

Muxtar respublikanın gömrük xidməti daxili bazarın qorunması, sahibkarlığın inkişaf etdirilməsi, suni qiymət dəyişmələrinin tənzimlənməsi ilə istehlakçıların hüquqlarının müdafiə edilməsində və habelə, gömrük hüquq pozmalarına qarşı mübarizədə mühüm işlər görmüşlər.

Ümumiyyətlə aparılan düzgün gömrük siyasəti onu deməyə əsas verir ki, indi ölkədə formalaşan və daha da təkmilləşən gömrük xidməti Ümummilli liderimiz Heydər Əliyevin arzularının tam reallaşmasını göstərir.

### *7.2. Naxçıvan MR-də gömrük sisteminin təşəkkülü, müasir vəziyyəti və gömrük nəzarətinin təşkili imkanları*

Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindən biridir. Bəzi mənbələrə görə bu şəhərin 5000 ilə yaxın yaşı olduğu göstərilir. Bu qədim diyar ipək yolu üzərində yerləşdiyinə görə Azərbaycanın ən inkişaf etmiş ticarət və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir. Karvan yolu həmçinin Naxçıvan, Ordubad və Culfa şəhərlərinin ticarət mərkəzləri kimi geniş inkişaf etməsinə də şərait yaratmışdır. Naxçıvandan keçən karvan yolu uzun müddət Avropa və

downloaded from KitabYurdu.org

Asiyanın ayrı-ayrı dövlətlərini birləşdirən bir mərkəz olmuşdur.

XI-XII əsrlərdə Naxçıvanda ticarət geniş vüsət alır. Çünki Naxçıvan xarici bazarlara çıxan magistral yolların kəsişdiyi coğrafi ərazidə yerləşirdi və tranzit şəhər idi. Bu şəhərdən Şərqin və Qərbin bir sıra şəhərlərinə tacirlər gedib-gəlir, idxal və ixrac əməliyyatları aparırdılar. Naxçıvan ticarətində əsas mövqeyi ipək və ipəkdən toxunan mallar təşkil edirdi. Göstərilən dövrlərdə Avropa və Asiyanı birləşdirən ticarət yolları Azərbaycandan keçirdi. Bu keçidlər içərisində Naxçıvan xüsusi əhəmiyyət kəsb edirdi. Ticarət etmək üçün Araz çayı vasitəsilə Xəzər dənizinə, oradan da Hindistana və İrana gedərmişlər.

Hələ qədim dövrlərdən başlayaraq Naxçıvan ərazisinə daxil olan və mal aparan tacirlər gömrük rüsumları ödəmişlər. Bu isə Naxçıvanda gömrük sisteminin yaranmasından xəbər verir. Başqa vergilər kimi alınan gömrük rüsumları da dövlət xəzinəsinə daxil olur və ölkənin iqtisadi inkişafına yönəldilirdi.

Sonrakı əsrlərdə və xüsusilə XIX əsrdə Naxçıvan bölgəsində istehsal olunan məhsullar gömrükxanalar vasitəsilə satılmaq üçün yaxın və uzaq ölkələrə göndərilirdi. Əsas etibarilə Bayazid, Qars, Tiflis və Qarabağa pambıq; İran, Moskva və Nijni-Novqoroda ipək; Tiflis və İrana müxtəlif quru meyvələr; İrəvan və Qarabağa bez və s. məhsullar ixrac edilirdi.

Naxçıvan əhalisi isə Əylis tacirləri vasitəsilə Rusiya və İrandan gətirilən mallarla (ipək parça,



qənd, çay, müxtəlif boyalar, dəmir məmulatları və s.) təmin olunurdular.

Xarici ticarət dövriyyəsində Naxçıvanda istehsal olunan mallar, xüsusilə qırmızı rəngli bez parça satışı mühüm yer tuturdu. Bez parça çox vaxt daha çox ehtiyac duyulan Qarabağ və İran xanlıqlarına satmağa aparılırdı.

Naxçıvanda toxunmuş pambıq parçaları yerli tacirlər Türkiyə şəhərlərinə, o cümlədən Qarsa, Bayazidə, habelə Gürcüstana aparırdılar. Əldə olunan məlumata görə bir ildə Türkiyənin Qars və Bayazid şəhərlərinə Naxçıvan ölkəsindən 15 min puda qədər pambıq parça aparılmışdır.

1828-ci ildə «Türkmənçay» müqaviləsi ilə Azərbaycan Rusiyaya birləşdirildi. Rusiyanın Azərbaycanda yeritdiyi gömrük siyasəti nəticəsində 1829-cu ildə Culfa gömrükxanası yaradıldı. Yeni gömrükxanaların yaradılması xarici ticarət dövriyyəsinin artmasında mühüm rol oynadı.

Ümumiyyətlə, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın xarici ticarəti əsas etibarilə Rusiya, İran, Gürcüstan, Ermənistan və Dağıstan ölkələri ilə olurdu. Xarici ticarətdə birinci yeri Rusiya, ikinci yeri isə İran tuturdu. İranla ticarət əlaqələri limanlar vasitəsilə (Bakı, Lənkəran və Astara limanları) və quru yolla Culfa və Ordubad gömrükxanaları vasitəsilə olurdu.

XX əsrin əvvəllərində təkcə Culfa və Ordubad gömrükxanaları vasitəsilə İrana 17 milyon manatlıq və 1 milyon 700 min pud mal ixrac olunmuş, İrandan

downloaded from KitabYurdu.org

isə bu gömrükxanalar vasitəsilə 7 milyon manatlıq və ya 1 milyon 42 min pud mal gətirilmişdi. Keçən əsrlərdə Naxçıvan şəhəri beynəlxalq ticarətdə mühüm rol oynamış, İran, Gürcüstan, Kiçik Asiya və digər bir çox şəhərlərlə, eləcə də Qara dəniz limanları ilə sıx ticarət əlaqələri saxlamışdır.

Ümumiyyətlə, sovet dövründə gömrükxanaların sayı azaldısa da Culfa gömrükxanası saxlanılmış və bütövlükdə Azərbaycanın və o cümlədən, Naxçıvan MR sosial-iqtisadi həyatında mühüm rol oynamışdır.

30 yanvar 1992-ci il milli gömrük xidmətinin yaradılması müstəqilliyinə yenicə qədəm qoymuş Azərbaycan Respublikası üçün dövlət quruculuğu baxımından tarixi günlərdən biri olmuşdur.

Müstəqil dövlətə xas olan yeni dövlət orqanlarının yaradılması fonunda digər dövlət orqanları kimi DGK-nin təsis edilməsi dövlət quruculuğu baxımından çox mühüm addım idi. Müstəqilliyini, azadlığını, dövlət sərhədlərini bərpa etmiş gənc bir dövlətin özünün iqtisadi mənafeyinin, iqtisadi təhlükəsizliyinin müdafiə olunması və inkişaf etdirilməsində mühüm dövlət strukturlarından hesab olunan DGK-nin yaradılmasına çox böyük ehtiyac duyulurdu.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi məhz belə bir ehtiyacdan, zərurətdən yarandığı ilk gündən vahid siyasət, vahid bir proqram təsiri altında olan sistemdən, iqtisadi, siyasi və digər cəhətlərdən çox qalın tellərlə bir-birinə bağlanmış Sovet İttifaqının vahid gömrük sistemindən ayrılaraq heç



bir maddi-texniki bazası olmayan yeni müstəqil bir sistemə keçdiyi üçün çox böyük çətinliklərlə üzləşməli oldu.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi yaradıldıqdan sonra onun ardınca 1992-ci ildə Naxçıvan MR Ali Məclisinin sədri işləmiş Ulu Öndər Heydər Əliyev 24 fevral 1992-ci il tarixdə, 138 –XII saylı qərarla «Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yaradılması barədə» fərman imzalamışdır. Məhz bu fərmandan sonra qardaş Türkiyə və İran arasında xarici iqtisadi əlaqələrin yaradılmasının əsası qoyulmuşdur.

Çoxdan bəri Azərbaycan xalqının arzuladığı və həsrətində olduğu Türkiyə ilə iqtisadi əlaqələrin yaradılmasına xüsusi əhəmiyyət verilirdi.

Naxçıvan MR Ermənistan tərəfindən blokadaya alındıqdan sonra Türkiyə ilə əlaqə yaratmaq və çıxış nöqtəsi kimi Sədərək körpüsünün titkilməsi və açılmasına böyük önəm verildi. Tikilib başa çatdırılan Sədərək körpüsü 28 may 1992-ci ildə Türkiyənin o vaxtkı Baş Naziri Süleyman Dəmirəl və Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev tərəfindən açıldı. Elə körpünün açıldığı gündən də Sədərək gömrükxanası yaradıldı.

Ümumiyyətlə, Naxçıvan MR ərazisində yaradılan gömrükxanalar və gömrük postları muxtar respublikanın xarici iqtisadi əlaqələrinin yaxşılaşdırılmasında, büdcənin gəlir hissəsinin formalaşmasında önəmli rol oynayır.

downloaded from KitabYurdu.org

Əgər bir anlığa ötən illərə, müstəqilliyi bərpa olunmuş Azərbaycan gömrüyünün ilk günlərinə nəzər salsaq DGK İran İslam Respublikası ilə sərhəddə fəaliyyət göstərən Astara və Culfa gömrükxanaları və Bakı Gömrük İdarəsindən ibarət idi.

Lakin illər ötdükcə dövlətimizin iqtisadi mənafeyinin müdafiə və inkişaf etdirilməsində xüsusi yeri olan DGK-nin strukturu genişləndirilir, maddi-texniki bazası işlənib hazırlanır, ölkəmizə mal dövriyyəsinin daha da artırılması, iqtisadi və mədəni əlaqələrin genişləndirilməsi məqsədilə qonşu dövlətlərlə həmsərhəd zonalarda yeni gömrük postları yaradılır və həmin postlarda idxal-ixrac olunan mallara gömrük nəzarətinin və gömrük rəsmiləşdirilməsinin beynəlxalq standartlara uyğun təşkil olunması məqsədilə texniki avadanlıqları quraşdırılıb gömrük orqanları işinin beynəlxalq normalara uyğun təşkil olunması üçün müvafiq tədbirlər həyata keçirilir.

Lakin qeyd olunan nailiyyətlər müstəqilliyimizin ilk hakimiyyət böhranı, təsadüfi və səriştəsiz kadrların yerləşdirildiyi illərdə çox zəif, demək olar ki, tamamilə aparılmırdı.

Xalqımızın müdrik oğlu, Ulu Öndər Heydər Əliyevin apardığı düzgün kadr siyasəti nəticəsində DGK-nə yeni rəhbərliyin təyin olunduğu 1995-ci ildən bəri gömrük işi sahəsində əldə olunmuş nailiyyətlər özünü daha qabarıq şəkildə büruzə verməyə başladı.

Ümummilli liderimiz Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra ölkənin gömrük işçiləri



qarşısında mühüm vəzifələr qoydu və bu sahədə konkret addımlar atıldı. Tarix sübut etdi ki, böyük təcrübəyə və öz xalqına dərin məhəbbətlə bağlı olan Heydər Əliyevin göstərişlərinə diqqət və məsuliyyətlə yanaşılanda şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlmək mümkündür. Onun rəhbərliyi ilə sivil dövlətlərin səviyyəsində indiki Azərbaycan və onun tərkib hissəsi olan Naxçıvan gömrüyü yaradılmışdır.

Respublikamızda gömrük işinin beynəlxalq standartlara uyğun təşkil olunması və inkişaf etdirilməsi, xarici iqtisadi fəaliyyət iştirakçıları tərəfindən respublikaya gətirilən, gömrük nəzarətinin təkmilləşdirilməsi, gömrük rəsmiləşdirilməsi prosesində tətbiq olunan qaydaların müvafiq tələblərə uyğunlaşdırılması, eləcə də mal dövriyyəsinin sürətləndirilməsinə daha geniş şərait yaradılması istiqamətində DGK-nin digər struktur idarələri kimi Gömrük Nəzarətinin Təşkili Baş İdarəsi tərəfindən də müvafiq tədbirlər həyata keçirilmişdir.

Son illər Naxçıvan Dövlət Gömrük Komitəsi öz işini dünya standartları səviyyəsində qurması istiqamətində böyük işlər görmüş və bunun nəticəsində də ildən-ilə həmin sahədə yeni-yeni uğurlar, nailiyyətlər əldə etmişdir.

Bu gün mübaliğəsiz demək olar ki, Azərbaycan gömrüyü və o cümlədən, Naxçıvan gömrüyü respublikanın iqtisadi siyasətini həyata keçirən ən mühüm qurumlardan birinə çevrilmişdir. Gömrük orqanlarımız müstəqillik dövründə öz fəaliyyətini ölkədə aparılan iqtisadi siyasətə uyğun qurduğu üçün gömrük

downloaded from KitabYurdu.org

sisteminin maddi-texniki bazası xeyli möhkəmləndirilmişdir.

Belə bir cəhəti xüsusi vurğulamaq lazımdır ki, muxtar respublikanın gömrük orqanları aparılan iqtisadi islahatlarda və bazar münasibətlərinin qurulmasında öz yeri olan çoxfunksiyalı bir kompleksə çevrilmişdir.

Gömrük nəzarətinin artırılması, təşkilinin təkmilləşdirilməsi, normativ bazanın möhkəmləndirilməsi sahəsində bir sıra işlər görülmüş, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev və onun kursunu davam etdirən ölkə Prezidenti İlham Əliyev cənablarının diqqət və qayğısı sayəsində bu sahədə uğurlu nailiyyətlər qazanılmışdır. Gömrük nəzarətinin səmərəliliyinin artırılması gömrük buraxılış məntəqələrinin maddi-texniki bazasının xeyli möhkəmləndirilməsi, yeni postların yaradılması, gömrük xidmətinin avtomatlaşdırılmış idarəetmə sisteminə keçirilməsi, tarif-tənzimləmə sisteminin təkmilləşdirilməsi və bu zəmində də qaçaqmalçılığa qarşı mübarizənin gücləndirilməsi artıq öz bəhrəsini vermişdir.

Beynəlxalq standartlara uyğun olaraq gömrük işinin hüquqi bazasının gücləndirilməsi və təkmilləşdirilməsi istiqamətində 1997-ci ildə qəbul edilmiş və qüvvəyə minmiş yeni Gömrük Məcəlləsində nəzərdə tutulmuş gömrük rejimlərinin fəaliyyətinin təkmilləşdirilməsi, mal və nəqliyyat vasitələrinin idxal-ixracı zamanı seçilmiş gömrük rejiminə uyğun gömrük nəzarətini və gömrük rəsmiləşdirilməsini həyata keçirən gömrük orqanlarının işinin asanlaşdırılması və XİF



iştirakçıları üçün əlverişli şərait yaradılması məqsədilə bir sıra sənədlər işlənib hazırlanmış və yerli gömrük orqanlarına göndərilmişdir.

XX əsrin 90-cı illərinin ortalarında yaradılmış gömrük nəzarətinin normativ-hüquqi bazasının sonralar daha da möhkəmləndirilməsi gömrük əməliyyatlarının rəsmiləşdirilməsini xeyli sadələşdirmiş və iş adamlarının əlavə vaxt itkisini aradan qaldırmışdır. Xarici investisiyaların cəlb edilməsi üçün beynəlxalq istehsal kooperasiyasına şərait yaradan gömrük emal rejimlərinin, sərbəst ticarət zonası, sərbəst anbarlar və digər gömrük rejimlərinin normativ-hüquqi bazası yaradılmışdır. Bu gün iftixar hissi ilə demək olar ki, gömrük orqanları ən müasir, yeni texniki avadanlıqlarla təchiz olunmuşlar ki, bu da mal və nəqliyyat vasitələri ölkəmizin gömrük sərhədindən keçirildiyi zaman gömrük nəzarətinin və gömrük rəsmiləşdirilməsinin operativ və sadələşdirilmiş qaydada həyata keçirilməsinə köməklik göstərən mühüm amillərdən biridir.

Müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasının sərhədyanı ərazilərində yaşayan əhalinin qonşu Türkiyə və İran dövlətlərinə gediş-gəlişinin sadələşdirilməsi, mal dövriyyəsinin inkişaf etdirilməsi məqsədilə yeni sərhəd-gömrük postları yaradılmışdır.

Ölkəmizin iqtisadiyyatının inkişaf etdirilməsində mühüm rol oynayan xarici investisiyalı müəssisələr tərəfindən müvəqqəti gətirilən malların gömrük rəsmiləşdirilməsinin aparılması, bu rejim altında yerləşdirilmiş mallara gömrük nəzarətinin tətbiq edil-

downloaded from KitabYurdu.org

məsi məqsədi ilə «Müvəqqəti idxal (ixrac) gömrük rejimi haqqında əsasnamə» işlənib hazırlanmışdır.

Gömrük sərhəd-keçid məntəqələrinin ərazisində yaradılması nəzərdə tutulan rüsumsuz ticarət mağazalarının açılması və bu cür mağazaların fəaliyyətinin tənzimlənməsi məqsədilə «Rüsumsuz ticarət tənzimlənməsi haqqında qaydalar», xarici iqtisadi fəaliyyət iştirakçıları üçün şərait yaradılması, ölkəmizin gömrük ərazisindən istifadə olunmaqla qonşu ölkələrlə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi və bunun da sayəsində ölkəmizə müəyyən vəsaitin daxil olması üçün gömrük qanunvericiliyində nəzərdə tutulmuş təkrar ixrac gömrük rejiminin fəaliyyətini tənzimləyən «Azərbaycan Respublikası gömrük ərazisində bilavasitə təkrar ixrac üçün gətirilmiş və bu ərazidən aparılan malların gömrük rəsmiləşdirilməsi qaydaları», habelə Azərbaycan Respublikasında ixrac olunmuş malların geri qaytarıldığı zaman gömrük rəsmiləşdirilməsini müvafiq qaydada tənzimləmək məqsədilə «Malların təkrar idxalı gömrük rejimi haqqında əsasnamə» beynəlxalq yük daşımalarını həyata keçirən nəqliyyat vasitələri ilə tranzit daşınan malların ölkəmizin ərazisindən keçən gömrük nəzarəti altında tranzit keçirilməsi və bu mallara dair müvafiq gömrük rəsmiləşdirilməsinin aparılması məqsədilə «Malların tranzit gömrük rejimi haqqında əsasnamə» işlənib hazırlanmış və tətbiq edilməyə başlamışdır.

Ölkəmizin istehsal obyektlərinin fəaliyyətinin genişləndirilməsi, emal məqsədilə gətirilmiş xarici malların həmin obyektlərdə emal olunmasının təmin



edilməsi, emal prosesində Azərbaycan mallarının cəlb olunmasına və yerli istehsal güclərindən istifadə olunması, emal məhsullarının Azərbaycan Respublikasının ərazisindən ixrac olunmasının təmin olunması məqsədilə «Gömrük ərazisində malların emalı gömrük rejimi haqqında əsasnamə» və bu fəaliyyət növü ilə bağlı məşğul olmaq üçün «Gömrük ərazisində malların emalı üçün lisenziya verilməsi və gömrük ərazisindən kənarda malların emal olunmasına lisenziya verilməsi qaydaları» işlənib hazırlanmış və bu işdə rəhbər tutulması üçün yerli gömrük orqanlarına göndərilmişdir.

Bundan başqa, müstəsna hallarda digər gömrük rejimi altında yerləşdirilməsi mümkün olmayan mal və nəqliyyat vasitələrinin gömrük qanunvericiliyində nəzərdə tutmuş «Malların məhv edilməsi» və «Dövlətin xeyrinə mallardan imtina» gömrük rejimləri altında yerləşdirilməsi və bu rejimlərin fəaliyyətini tənzimləyən «Malların məhv edilməsi gömrük haqqında əsasnamə» və «Dövlətin xeyrinə mallardan imtina gömrük rejimi haqqında əsasnamə» işlənib hazırlanmış və yerli gömrük orqanlarına göndərilmişdir.

Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi prosedurasına daxil olan ilkin əməliyyatlar zamanı müvəqqəti saxlanc anbarlarında, eləcə də «Gömrük anbarı» gömrük rejimi altında yerləşdirilməsi nəzərdə tutulan malların gömrük rəsmiləşdirilməsindən keçirilməsi və bu cür anbarların fəaliyyətinin tənzimlənməsi məqsədilə bir sıra normativ sənədlər işlənib hazırlanmışdır. Belə ki, «Müvəq-

downloaded from KitabYurdu.org

qəti saxlanc anbarı haqqında əsasnamə», «Gömrük anbarı haqqında əsasnamə» və «Azərbaycan Respublikası haqqında gömrük anbarlarının və müvəqqəti saxlanc anbarlarının təsis edilməsinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təsdiq edilməsi haqqında» sənədlər işlənib hazırlanmışdır.

Gömrük qanunvericiliyinin tələblərinə uyğun olaraq gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti zamanı gömrük orqanları ilə xarici-iqtisadi əlaqələr iştirakçıları arasında vasitəçilik funksiyalarını yerinə yetirən gömrük brokerlərinin və bu hüquqi şəxslərin gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərinin fəaliyyətini tənzimləyən «Gömrük brokerləri haqqında əsasnamənin və Azərbaycan Respublikasında gömrük brokeri fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təsdiq edilməsi haqqında sənəd» və «Gömrük qaydaları» işlənib hazırlanmış və müvafiq qaydada təsdiq olunduqdan sonra işdə rəhbər tutulması üçün gömrük orqanlarına göndərilmişdir.

Azərbaycan Respublikası ərazisində gömrük nəzarəti altında yerləşdirilən malların gömrük qanunvericiliyinin tələblərinə əməl olunması şərti ilə gömrük daşıyıcıları tərəfindən daşınmasının həyata keçirilməsinin təmin edilməsi məqsədilə «Azərbaycan Respublikasında gömrük daşıyıcısı fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təsdiq edilməsi haqqında» müvafiq sənəd işlənib hazırlanmışdır.



Azərbaycan Respublikası 1996-cı ilin noyabr ayından BYD (Beynəlxalq Yük Daşımaları) Konvensiyasına qoşulmuş və həmin konvensiyanın tələblərinə uyğun olaraq «BYD sistemi çərçivəsində Azərbaycan Respublikası DGK-sı və Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyası (ABADA)-nın qarşılıqlı münasibətlərinin Məcəlləsi» və Təminat Sazişi imzalanmışdır.

Azərbaycan Respublikasının 1996-cı ildə avtomobil nəqliyyatı vasitəsilə daşınan beynəlxalq yükdaşımalarının effektivliyinin və gömrük qanunvericiliyinə əməl olunmasının təmin edilməsi və 64 dövlətin qoşulduğu BYD kitabçası tətbiq edilməklə Beynəlxalq Yük Daşımaları Gömrük Konvensiyasına qoşulması ilə əlaqədar müvafiq hüquqi sənədlər işlənib hazırlanmışdır.

Azərbaycan Respublikasının gömrük ərazisindən BYD kitabçaları tətbiq olunmaqla daşınan yüklərin vaxtlı-vaxtında operativ qaydada təyinatı üzrə çatdırılmasının təmin edilməsi məqsədilə DGK-nin əmri ilə müvafiq orqanlarına Azərbaycan Respublikasına məxsus yol-nəqliyyat vasitələrinin beynəlxalq yükdaşımalarına yararlı olmasına dair şəhadətnamələri təsdiq etmək və BYD əməliyyatlarının rəsmiləşdirilməsi səlahiyyətləri verilmişdir. Bundan əlavə «Nəqliyyat vasitələrinin (konteynerlərin) gömrük möhürləri və plombları ilə yükdaşımalarına buraxılması qaydaları haqqında Təlimat», «Gömrük möhürləri və blompları ilə yüklərin daşınmasından ötrü nəqliyyat vasitələrinin (konteynerlərin) təchizat Qay-

downloaded from KitabYurdu.org

daları», «BYD kitabçası (BYD konvensiyası 1975-ci il) tətbiq edilməklə yükdaşımaları barədə gömrük konvensiyasının tətbiqi qaydaları» və «Azərbaycanda BYD kitabçası tətbiq etməklə daşıyıcıların beynəlxalq yükdaşımalarına buraxılması qaydaları haqqında əsasnamə» işlənib hazırlanaraq işdə rəhbər tutulması üçün yerli gömrük orqanlarına göndərilmişdir.

Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikası ərazisindən aparılması və Azərbaycan Respublikası ərazisinə gətirilməsi qadağan olunmuş mallar istisna olmaqla, Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən istehsal və ya kommersiya fəaliyyəti üçün nəzərdə tutulmayan malların bəyan edilməsinin sadələşdirilməsi məqsədilə «Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların bəyan edilməsi qaydaları», habelə fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların (beynəlxalq poçt göndərişləri də daxil olmaqla) Azərbaycan Respublikasının gömrük sərhədindən sadələşdirilmiş və güzəştli qaydada keçirilməsinin ümumi prinsiplərinin müəyyən edilməsi «Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların Azərbaycan Respublikasının gömrük sərhədindən sadələşdirilmiş və güzəştli qaydada keçirilməsinə dair təlimat» işlənib hazırlanmışdır.

Bundan başqa, beynəlxalq uçuşları həyata keçirən hava gəmilərinin istismarına normal şərait yaradılması, hava gəmilərinin istismarı üçün zəruri olan yanacaq-sürtkü materiallarının gömrük rəsmiləşdirilməsinin təmin olunması məqsədilə «Hava gəmilərinin istismarı üçün zəruri olan yanacaq-sürtkü materiallarının gömrük rəsmiləşdirilməsi haqqında metodiki göstəriş» işlənib hazırlanmış və aidiyyatı üzrə gömrük orqanlarına göndərilmişdir.



Azərbaycan Respublikası gömrük qanunvericiliyi və digər aktlarına uyğun olaraq malların və nəqliyyat vasitələrinin, sərnişinlərin yüklərinin və baqajlarının, eləcə də müşayiət olunan və müşayiət olunmayan baqajlarının, valyutanın, valyuta sərvətlərinin və beynəlxalq poçt göndərişlərinin gömrük rəsmiləşdirilməsi yerlərində gömrük nəzarəti zonalarının yaradılması və fəaliyyət göstərməsi məqsədilə «Gömrük nəzarəti zonalarının yaradılması və onların nişanlanması qaydaları», habelə bu qaydalara və digər qanunvericilik aktlarına uyğun olaraq gömrük rəsmiləşdirilməsi, gömrük nəzarətindən keçməli olan şəxslər, mallar və nəqliyyat vasitələrinin müntəzəm keçirildiyi yerlərdə, o cümlədən digər dövlət orqanlarının vəzifəli şəxslərinin belə zonaların sərhədini keçməsinə və bu zonaların daxilində hərəkətinə gömrük nəzarətinin keçirilməsi məqsədilə «Bakı Beynəlxalq Hava Limanında gömrük nəzarəti zonası haqqında əsasnamə» işlənib hazırlanmışdır.

Bununla bağlı qeyd olunmalıdır ki, Naxçıvan Hava Limanı «Beynəlxalq» status aldığına görə burada da nəzarət sistemi gücləndirilmişdir. Sərnişinlərin gömrük nəzarətindən keçirilməsini sürətləndirmək

downloaded from KitabYurdu.org

və vaxt itkisini aradan qaldırmaq üçün yeni aparatların və texniki vasitələrin istismara verilməsi təmin edilmiş, muxtar respublikanın ərazisinə gələn və gedən sərnişinlərə göstərilən gömrük xidmətinin səviyyəsini yüksəltmək üçün hava nəqliyyatında çalışan Baş Gömrük İdarəsi işçilərinin ingilis dilini öyrənmələri üçün Naxçıvan Gömrük Komitəsi tərəfindən konkret tapşırıqlar verilmişdir.

Gömrük nəzarətinin və gömrük rəsmiləşdirilməsinin təkmilləşdirilməsi və bu işin beynəlxalq standartlar səviyyəsinə çatdırılması məqsədilə Gömrük Nəzarətinin Təşkili Baş İdarəsində daimi iş aparılır. Hazırlanmış normativ-hüquqi sənədlər nəinki gömrük orqanlarının özfəaliyyətinin beynəlxalq standartlara uyğun təşkil olunmasına, eyni zamanda xarici-iqtisadi fəaliyyət iştirakçılarında da öz işlərinin düzgün qurulmasına, idxal-ixrac əməliyyatları zamanı qanunvericilikdə müəyyən olunmuş qaydalara düzgün riayət edilməsinə, gömrük qaydalarının pozulması hallarının qarşısının alınması üçün geniş şərait yaradır.

Ölkə əhalisinin sağlamlığını qorumaq məqsədilə gömrük orqanları tərəfindən müəyyən işlər görülür. Muxtar Respublikanın Gömrük Komitəsi və onun yerli orqanları üzərinə də müəyyən vəzifələr düşür. Naxçıvan MR ərazisinə yeyinti məhsullarının idxalı və bu ərazidən ixracı zamanı gömrük orqanlarının səlahiyyətləri daxilində müvafiq tədbirlər həyata keçirilir. Belə ki, muxtar respublika ərazisinə keyfiyyətsiz qida məhsullarının gətirilməsinin qarşısının



alınması ilə əlaqədar nəzarətin daha da gücləndirilməsi üçün yerli gömrük idarələrinə xüsusi tapşırıqlar verilmişdir.

Qeyd etmək lazımdır ki, gömrük işi ilə hüquqi-normativ sənədlər işlənib hazırlanarkən respublika iqtisadiyyatının inkişaf etdirilməsində müəyyən rol oynayan xarici iqtisadi əlaqələr iştirakçılarının fəaliyyətinin genişləndirilməsi üçün əlverişli şəraitin yaradılması nəzərə alınır.

1995-ci ildən başlayaraq Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin MDB üzvü olan dövlətlərinin və inkişaf etmiş digər dövlətlərin müvafiq strukturları ilə əlaqədar yaranmağa başlanmış və bu əlaqələr getdikcə genişlənmişdir. Gömrük Komitəsinin əməkdaşları MDB iştirakçı dövlətlərinin Gömrük Xidməti Rəhbərləri Şurası çərçivəsində keçirilən ekspert iclaslarında mütəmadi iştirak edir, həmin görüşlər zamanı hazırlanan sənəd layihəsinin müzakirəsində, layihələr üzrə təkmilləşdirmə işlərinin aparılmasında fəallıq göstərir, Azərbaycan Respublikası Hökuməti ilə digər hökumətlər arasında gömrük işinin qarşılıqlı fəaliyyətini tənzimləyən Saziş layihələrinin hazırlanmasında bilavasitə iştirak edirlər.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Ümumdünya Gömrük Təşkilatına inteqrasiya işində komitənin əməkdaşları mühüm rol oynamışdır. Onlar öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlmiş və Ümumdünya Gömrük Təşkilatının Siyasi Komissiyasının Bakı şəhərində keçiri-

downloaded from KitabYurdu.org

lən 44-cü sessiyasının təşkilati işləri ilə bağlı məsələlərdə yaxından iştirak etmişlər.

ABŞ-da keçirilən kütləvi qırğın silahlarının və onların istehsalı üçün zəruri olan materialların qeyri-qanuni dövriyyəsi ilə mübarizə metodlarına həsr olunmuş seminarlarda gömrük əməkdaşları iştirak etmiş, qeyd olunan malların qeyri-qanuni dövriyyəsi ilə bağlı müasir metodların tətbiqi məsələləri mənimsənilmişdir. Bununla yanaşı Komitə əməkdaşları İsveçrə Nüvə Enerji Müfəttişliyi tərəfindən təşkil edilmiş nüvə materiallarının ixracına nəzarət mövzusunda seminarlarda iştirak etmişlər.

Bakı şəhərində keçirilən EKO üzv ölkələrinin gömrük orqanlarının rəhbərlərinin 7-ci iclasının təşkil olunmasında Gömrük Nəzarətinin Təşkili Baş İdarəsi yaxından iştirak etmiş, EKO-ya daxil olan ölkələr arasında ticarət-iqtisadi münasibətlərin inkişaf etdirilməsinə dair məsələlərdə səmərəli təkliflərlə dəfələrlə çıxışlar edilmiş və müvafiq sənədlərin işlənib hazırlanması və qəbul edilməsində iştirak etmişlər.

ABŞ-da gömrük işi üzrə ekspertlərin respublikamızda keçirdikləri seminarların təşkilində və keçirilməsində DGK-nın əməkdaşları fəal iştirak etmiş, eyni zamanda gömrük orqanlarının fəaliyyətində gömrük nəzarətinin müasir formalarının tətbiq edilməsi məqsədilə, qadağan olunmuş malların müəyyən edilməsində mühüm rol oynayan texniki-nəzarət vasitələrinin ayrılaraq yerli gömrük orqanlarına göndərilməsinə nail olunmuşlar.


Komitə əməkdaşları tərəfindən dəfələrlə Ümumdünya Gömrük Təşkilatının Mərkəzi və Şərqi Avropa Dövlətləri üzrə Regional Məlumat və Əlaqələndirmə Mərkəzinin (RİLO) iclasında iştirak etmiş və tam hüquqi üzv kimi DGK-nın həmin quruma qəbul edilməsində mühüm rol oynamışlar.

Gömrük nəzarətinin düzgün və keyfiyyətli aparılması və inkişafı onun maddi-texniki bazasının dünya standartlarına uyğun qurulmasından və kadrlardan çox asılıdır. Elə bu məqsədlə də ötən illərdə Naxçıvan gömrüyünün maddi-texniki bazası daha da möhkəmləndirilmiş, gömrük ekspertizalarının aparılması üçün yeni laboratoriyalar qurulmuşdur ki, bu da gömrük nəzarətinin keyfiyyətli aparılmasına öz müsbət təsirini göstərmişdir. Büdcədən kənar vəsait hesabına Culfa gömrük idarəsi üçün yeni inzibati binalar tikilib istifadəyə verilmiş və Sədərək Gömrük İdarəsinin buraxılış məntəqəsində əsaslı təmir işləri başa çatdırılmışdır.

Nəzarətin düzgün təşkilində savadlı kadların işə cəlb olunması da mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, son illər Naxçıvan MR gömrük sisteminə işə qəbul test üsulu ilə aparılır. Testdən keçmək üçün sənəd verən gənclərin sırasında 8-10 nəfərdən biri seçilərək işə qəbul edilir. Dövlətə sədaqət və Vətənə məhəbbət ruhunda tərbiyə olunan bu gənclər sonradan Bakı şəhərində Azərbaycan DGK-nin nəzdində açılan tədris mərkəzində öz peşə biliklərini artıraraq yenidən Naxçıvana dönür və öz xidmətlərini davam etdirirlər. Təkcə 2006-cı ildə onlarla gənc gömrükçü

downloaded from KitabYurdu.org

bu kursları müvəffəqiyyətlə bitirmişdir. Bir məsələ də xüsusi olaraq qeyd edilməlidir ki, Ümumdünya Gömrük Təşkilatının Bakıdakı Regional Tədris Mərkəzində BMT, NATO, ATƏT, RİLO və digər beynəlxalq qurumlar tərəfindən keçirilən müxtəlif mövzulara həsr olunmuş tədbirlərdə əməkdaşların iştirakı onların peşəkarlıq səviyyəsinin artırılmasında xüsusi rol oynamışdır.

Hal-hazırda Azərbaycan Respublikasının dövlət siyasətinin tərkib hissəsi olan gömrük siyasətinin inkişafı üçün respublikamız Gömrük Nəzarətinin gücləndirilməsi ilə bağlı zəngin maddi-texniki bazaya malikdir. Odur ki, müstəqil dövlətimizdə gömrük nəzarətinin təşkili günbəgün inkişafdadır.

### *7.3. Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi əlaqələrin tənzimlənməsində gömrük xidmətinin rolu*

Azərbaycan demək olar ki, dünyanın bütün qitələri ilə iqtisadi əlaqələrə malikdir. Lakin istehsal olunan məhsulların rəqabət qabiliyyəti dünya bazarında aşağı olduğuna görə, respublika əsasən xammal ixrac edir.

Dünyanın iqtisadi cəhətdən inkişaf etmiş hər hansı ölkəsi belə iqtisadi əlaqə saxlamadan inkişaf edə bilməz. Ona görə ki, sənayenin əsas xammala olan təbii ehtiyatlar yer kürəsinin bütün ərazisi üzrə bərabər paylanmamışdır. Deməli, 300-dən çox sahəni əhatə edən sənayenin bütün ölkələrdə inkişafı praktiki cəhətdən mümkün deyildir. Ona görə də, ölkələr arasında əlaqələr iqtisadi zərurətə çevrilir.



Dünyada tam sərbəst, müstəqil, hərtərəfli təmin olunmuş dövlət yoxdur. Ölkələr var ki, onlar zəngin təbii ehtiyatlara malik olmaqla onlardan əliaçıqlıqla istifadə edir. Digər qrup ölkələr var ki, onlar investision texnologiyalarla daha çox təmin olunmuşdur.

Bu səbəbdən də dünya ölkələri arasında iqtisadi əlaqələr daima artır və genişlənir. Özünün iqtisadi maraq və mənafe dairəsindən iqtisadi əlaqələr yaratmağa ehtiyac hiss edir. İdeoloji, siyasi, dini və iqtisadi fərqlər dünya dövlətlərinin inteqrasiyasının qarşısını almaq iqtidarında olmur. Çünki bu inteqrasiya prosesinin əsasında dünyanın bütün iqtisadi, elmi-texniki potensialının, intellektual fikrini texnoloji sıçrayış üçün səfərbər etmək, insan ağlının yüksək nəticələrindən bəşəriyyət naminə istifadə etmək zərurəti dayanır.

Xarici iqtisadi münasibətlər ayrı-ayrı ölkələrin iqtisadiyyatları arasındakı təsərrüfat əlaqələri olub, uzunmüddətli tarixi proseslər nəticəsində formalaşmışdır. Dünyada istehsalın və mübadilənin beynəlmiləlləşməsi ölkənin təsərrüfat əlaqələrini daha da möhkəmləndirir və bu dünya təsərrüfat kompleksinin yaranmasına səbəb olar.

Ümumiyyətlə, beynəlxalq səviyyədə ölkələr arasında təsərrüfat əlaqələri iki şərt daxilində inkişaf edir:

1) ölkələr arasında iqtisadi əlaqələr zəruri olduqda;

downloaded from KitabYurdu.org

2) bu əlaqələrin inkişafında hər iki tərəf maraqlı olduqda.

Bu şərtlər daxilində ölkələr arasında xarici iqtisadi əlaqələr istehsalının beynəlxalq ixtisaslaşması və kooperasiya, müştərək müəssisələrin yaradılması, elmi-texniki əməkdaşlıq, xarici ticarət, lisenziyalaşdırma və texnologiyalarla ticarət, işçi qüvvələrinin beynəlxalq hərəkəti, sosial-mədəni xidmətlərin göstərilməsi, turizm, nəqliyyat xidmətlərinin təşkili, sərbəst iqtisadi zonaların yaradılması ilə həyata keçirilir.

Xarici iqtisadi əlaqələrin əsas bölmələrindən biri xarici ticarətdir. Əmtəə və xidmətlərin xarici ticarəti beynəlxalq iqtisadi əlaqələr sistemində mühüm yer tutur.

Xarici iqtisadi əlaqələrin müxtəlif aspektləri və problemləri ayrılıqda tədqiq edilsə də ölkədə sürətlə gedən iqtisadi-siyasi proseslər fonunda bazar iqtisadiyyatı şəraitində xarici ticarət iqtisadi əlaqələr kompleksi hələ də tədqiq olunmalıdır.

1) Müasir dövrdə dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsidir. Məhz rəqabət qabiliyyətli iqtisadiyyata malik olan ölkə əhalisinin artan maddi və mənəvi tələbatını dolğun ödəyə bilər. Bu baxımdan, ölkədə ayrı-ayrı sahələrə hökumət tərəfindən edilən güzəşt və yardımlar iqtisadiyyatın strukturunu təkmilləşdirmək və iqtisadi səmərəliliyi yüksəltməklə yanaşı, rəqabət qabiliyyətli iqtisadiyyat formalaşdırmaq məqsədi daşıyır. Lakin təcrübə göstərir ki, iqtisadiyyatın ayrı-ayrı sahələrinin rəqabət



qabiliyyətinin güzəşt hesabına yüksələcəyinə ümid etmək olmaz, çünki rəqabət qabiliyyətinə təbii üstünlüklərlə yanaşı ölkədə siyasi sabitlik, valyuta rejimi, işçilərin ixtisas səviyyəsi, satış bazarı, infrastrukturun inkişaf səviyyəsi və digər bu kimi amillər də ciddi şəkildə təsir göstərir.

Məhz bunlar nəzərə alınmaqla xarici iqtisadi əlaqələrin nəzəri əsasları, dünya ölkələrinin qabaqcıl təcrübəsinə əsaslanmaqla Azərbaycanın xarici iqtisadi əlaqələrinin müasir vəziyyəti, iqtisadi əlaqələrdə disproposiyalar, çatışmazlıqlar və onun təkmilləşdirilməsi istiqamətlərinin dərindən tədqiq edilməsinə ehtiyac duyulur.

Azərbaycanda iqtisadi islahatların müvəffəqiyyətlə həyata keçirilməsi, beynəlxalq neft müqavilələrinin reallaşdırılması və bütövlükdə bazar iqtisadiyyatına keçilməsi iqtisadi həyatın bütün sahələrində iqtisadi artıma, eyni zamanda, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə səbəb olmuşdur.

Son illərdə respublikanın xarici ticarət əlaqələri əhəmiyyətli dərəcədə yaxşılaşmış, dünya bazarında əlverişli qiymət konyunkturası, ölkənin maliyyə vəziyyətinin yaxşılaşması, ölkə iqtisadiyyatına xarici sərmayələrin cəlb edilməsi, makroiqtisadi göstəricilərin yaxşılaşması ölkədə iqtisadi artım üçün şərait yaratmışdır.

Bütün bunlara çox çətinliklə nail olunmuşdur. Belə ki, müstəqilliyimizin ilk illərində respublikada hökm sürən qeyri-siyasi sabitlik, hakimiyyətin tez-tez dəyişməsi, ermənilərin ölkəmizə qarşı ərazi iddiaları və torpaqlarımızın 20 %-nin işğal edilməsi, ölkənin

downloaded from KitabYurdu.org

vətəndaş müharibəsi həddinə çatması iqtisadiyyatı iflic vəziyyətinə salmışdı.

Ulu Öndərimiz Heydər Əliyev cənablarının xalqın tələbi və təkidi ilə yenidən siyasi hakimiyyətə gəlməsi ölkədə siyasi sabitlik yaratmış, iqtisadi islahatları aparmağa imkan vermişdir.

Azərbaycan Respublikasında aparılan iqtisadi islahatlar və yenidənqurma işlərinin aparılmasından respublikanın gömrük sistemi də kənarda qalmamışdır. Ümummilli liderimiz H.Əliyevin təşəbbüsü ilə 1995-ci ilin yanvar ayında keçirilən geniş müşavirədə gömrük orqanlarının fəaliyyəti hərtərəfli təhlil edilmişdir.

Ötən dövr ərzində Azərbaycan gömrüyü və həm də Naxçıvan gömrüyü çox şərəfli bir yol keçmişdir. Xarici iqtisadi əlaqələrin vacibliyini dəfələrlə vurğulayan Ümummilli liderimiz H.Əliyev çıxışlarının birində demişdir: «Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz».

Naxçıvan MR üç xarici dövlətlə əhatədə yaşayır və inkişaf edir. Naxçıvan gömrükçüləri bunu nəzərə alaraq sərhəd keçid məntəqələrində ayıq-sayıq duraraq öz vəzifə borclarını şərəflə yerinə yetirirlər.

İndi faktiki olaraq xarici ticarət dövriyyəsinə kompleks gömrük nəzarəti, beynəlxalq standartlar səviyyəsinə uyğun, müasir maddi-texniki və normativ bazaya malik Naxçıvan gömrüyü yaradılmışdır. Hazırda Naxçıvan MR Dövlət Gömrük Komitəsinin aşağıdakı strukturu fəaliyyət göstərir.



**Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin strukturu**




**Şəkil 1. Naxçıvan MR Dövlət Gömrük Komitəsinin strukturu**

downloaded from KitabYurdu.org

Artıq ölkədə milli gömrük orqanları sistemi formalaşmışdır. Bu sistem Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, Naxçıvan Muxtar Respublikası Gömrük Komitəsi, Xəzər dənizində Azərbaycan Respublikasının İqtisadi Mənafeyinin Mühafizəsi İdarəsi, 2 ərazi Baş Gömrük İdarəsi, 12 gömrükxana, 1 xüsusi təmayüllü enerji gömrükxanası, 1 Aksiz Gömrük Postu, 47 gömrük postu, Tədris mərkəzi, mərkəzi laboratoriya «Azərterminalkompleks» Təsərrüfat Hesablı Xarici İqtisadi Birlik və s. struktur vahidlərindən ibarət olmaqla əsas funksiyalardan birini-fiskal funksiyaları yerinə yetirir.

Gömrük Məcəlləsinə görə bu funksiyalara aşağıdakı gömrük ödənişləri, gömrük rüsumları, aksizlər, əlavə dəyər vergisi və digər ödənişlərin alınması daxildir.

Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi Dövlət Gömrük Komitəsinin yuxarıda göstərilən gömrük sistemi strukturları tərəfindən həyata keçirilir.

Naxçıvan Muxtar Respublikasının Gömrük sisteminə aşağıdakı idarələr daxildir:

1. Sədərək Gömrük İdarəsi;
2. Culfa Gömrük İdarəsi;
3. Naxçıvan şəhər Gömrük İdarəsi;
4. Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi;
5. Şahtaxtı gömrük postu;
6. «Naxterminalkompleks» Təsərrüfat Hesablı Xarici İqtisadi Birliyi.



Naxçıvan MR Gömrük Komitəsi yuxarıda qeyd olunan idarələr vasitəsilə öz işini qurur.

Naxçıvan MR Dövlət Gömrük Komitəsi 2006-cı il üçün müəyyən olunmuş proqnoza 70,9 faiz artıqlaması ilə əməl etmişdir. 2006-cı ildə Gömrük Komitəsi tabeli gömrük orqanları üzrə 4,5 milyon manatlıq gömrük ödənişləri toplanmışdır ki, bu da 2005-ci illə müqayisədə 6,9 faiz çoxdur.

Ümumiyyətlə, 2006-cı ildə muxtar respublikanın gömrük orqanları aşağıdakı adları çəkilən vergi və rüsumları toplayıb dövlət büdcəsinə köçürmüşdür:

- idxal olunmuş mallara əlavə dəyər vergisi (ƏDV) … 2,5 milyon manat;
- idxal olunmuş mallara gömrük rüsumu … 1,7 milyon manat;
- idxal olunmuş mallara aksiz vergisi …30,0 min manat;
- xarici avtonəqliyyat vasitələrindən alınmış yol vergisi … 36,2 min manat.

Artıq deyildiyi kimi Naxçıvan MR Gömrük Komitəsinin nəzdində olan gömrük idarələri 2006-cı ildə ayrı-ayrılıqda aşağıdakı gömrük ödənişlərini toplayaraq dövlət büdcəsinə köçürmüşlər:

**∆ Sədərək Gömrük İdarəsi**

Bu idarə 1992-ci ildə yaradılmışdır. İdarənin yaradılma səbəbi Azərbaycanı Türkiyə ilə birləşdirən yeganə quru sərhəddə (11 km) körpünün tikilib istifadəyə verilməsidir. 28 may 1992-ci ildə istifadəyə verilən Sədərək-Dilucu körpüsü Azərbaycan tərəfindən

downloaded from KitabYurdu.org

«Ümid» körpüsü, Türkiyə tərəfdən isə «Həsrət» körpüsü adlandırılır.

1992-ci ilin may günlərini, açılış gününü yaxşı xatırlayıram. Mən də bir neçə yoldaşla körpünün açılışına gedərkən yol boyu böyük bir izdihamın şahidi oldum. Muxtar respublikanın əhalisi «Ümid» körpüsünün açılışına gedən Ümummilli liderimiz Heydər Əliyevi və Türkiyə Respublikasının o zamankı Baş Naziri Süleyman Dəmirəli alqışlayırdı. Onu deyim ki, hələ sovet imperiyasının tərkibində olduğumuz 70 il ərzində Araz çayının sahilləri də belə izdiham görməmişdi. Böyük uzaqgörənliyin bəhrəsi olan bu körpü o ağır, məşəqqətli günlərdə Tanrının bizə xilaskar göndərdiyi Ulu Öndərin Naxçıvanın qurtuluşu yolunda göstərdiyi misilsiz xidmətlərdən biri idi.

1992-ci il 24 avqusta Sədərək gömrükxanası rəsmi keçid qapısı elan edildi. Bu isə o demək idi ki, Naxçıvanın blokadası qismən də olsa yarıldı və əhalinin yaşayış səviyyəsinin yaxşılığa doğru getməsi üçün imkan yarandı.

Qeyd etmək lazımdır ki, əgər o vaxt Araz çayı üzərində 288 metr uzunluğunda, on bir aşırımlı «Ümid» körpüsü tikilib istifadəyə verilməsəydi indi bu əlaqələr belə yüksək səviyyədə inkişaf edə bilməzdi.

15 ildən artıq yaşı olan bu körpü vasitəsilə muxtar respublikanın xarici ticarət əlaqələri daha da artır və genişlənir. İndi Sədərək Gömrük İdarəsi muxtar respublikada ən böyük gömrük keçid


məntəqəsi kimi fəaliyyət göstərir. Təkcə bir faktı göstərmək kifayətdir ki, 2006-cı ildə Sədərək Gömrük İdarəsi üzrə toplanmış gömrük ödəmələri 2,4 milyon manat olmaqla tabeli gömrük orqanları üzrə toplanmış ümumi gömrük ödəmələrinin 53,7 faizini təşkil etmişdir.

**∆ Naxçıvan şəhər Gömrük İdarəsi**

Bu gömrükxana 1 iyun 2004-cü il tarixdə yaradılmışdır. Naxçıvan şəhər gömrükxanasının yaradılmasında məqsəd şəhərin fəaliyyət zonasında yerləşən xarici-iqtisadi əlaqələr iştirakçılarına əlverişli şərait yaradılması, onların ünvanına daxil olmuş yüklərə gömrük nəzarətinin rəsmiləşdirilməsinin vaxtında və operativ surətdə həyata keçirilməsi ilə əlaqədar olmuşdur.

Naxçıvan şəhər Gömrükxanasına Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 28 dekabr 2004-cü il tarixli Fərmanı ilə Gömrük idarəsi statusu verilmişdir.

Gömrük idarəsi vergi və rüsumların toplanıb büdcəyə köçürülməsində xüsusi çəkiyə malikdir və demək olar ki, gömrük idarələri içərisində ikinci yeri tutur. 2006-cı ildə Naxçıvan şəhər Gömrük İdarəsi 1,5 milyon manatlıq vergi və rüsumlar toplayıb büdcəyə köçürmüşdür ki, bu da bütövlükdə gömrük orqanlarında toplanmış vəsaitin 33,2 faizini təşkil edir.

downloaded from KitabYurdu.org

**∆ Culfa Gömrük İdarəsi**

Bu keçid məntəqəsi çox qədim tarixə malikdir.

«İran sərhədində ən böyük gömrük mərkəzlərindən biri olan Culfa şəhəri Çar Rusiyasının xarici ticarətində əhəmiyyətli rol oynamışdır. 1912-ci ilin məlumatlarına görə Naxçıvan ərazisində olan gömrük məntəqələrindən (Culfa, Şahtaxtı, Ordubad, Alışar) 16,6 milyon manatlıq 2,3 milyon pud müxtəlif mallar idxal edilmişdir. Həmin ildə bütün ixracatın 15,7 milyon manatlıq 2,2 milyon pudu, idxalın isə 3,8 milyon manatlıq 814 min pudu Culfa gömrük məntəqəsinin payına düşmüşdür» (24. s.45).

Sovet dövründə Naxçıvan MR ərazisində yeganə gömrükxana olan Culfa Gömrükxanası sonralar daha da böyümüş və genişlənmişdir. 1990-cı illərin əvvəllərində Naxçıvan Respublikası, onun əhalisi, öz tarixinin ən dumanlı, ən çətin günlərini yaşayırdı. Belə bir vaxtda Naxçıvan MR Ali Məclisin sədri işləyən Ulu Öndərimiz Heydər Əliyev İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncani ilə əlaqə yaratdı. Onun şəxsi təyyarəsi Naxçıvana gəldi. Ümummilli liderimiz Heydər Əliyev Tehrana getdi. Burada İran İslam Respublikasının rəhbərliyi ilə yüksək səviyyəli görüşlər keçirildi. Naxçıvanın, onun əhalisinin ehtiyaclarının ödənilməsi məsələləri ilə bağlı bir sıra razılaşmalar əldə edildi. Tez bir zamanda körpü tikildi, gediş-gəliş məsələləri həll edildi. İkitərəfli müştərək bazar açıldı, adamların, nəqliyyatın hərəkəti get-gedə sadələşdirildi, qayda-qanun möhkəmləndirildi. Elə bu görülən işlər nəticəsində



sonrakı illərdə gömrük rüsumları ildən-ilə artdı. Təkcə 2004-cü ildə Culfa gömrük idarəsi tərəfindən 2 milyard 936 milyon manat gömrük rüsumları toplanmışdı ki, bu da 2003-cü ilin müvafiq dövrünə nisbətən 260 milyon manat çox idi. Qeyd etmək lazımdır ki, Culfa gömrükxanası öz əvvəlki şöhrətini indi də saxlayır. 2006-cı ildə bütövlükdə toplanmış gömrük ödəmələrinin 489 min manatı və ya 11 faizi Culfa Gömrük İdarəsinin payına düşmüşdür.

**∆ Şahtaxtı gömrük postu**

Bu gömrükxana da qeyd edildiyi kimi qədim tarixə malikdir. Araz çayı üzərində körpü və gömrük keçid məntəqəsində İran İslam Respublikası və Naxçıvan Muxtar Respublikası arasında yük və sərnişin daşınması, ticarət əlaqələrini genişləndirmək, habelə vətəndaşların gediş-gəlişi üçün qapıdır. İran İslam Respublikasının Qərbi Azərbaycan ostanının Poldəşt və Naxçıvan, Naxçıvan Muxtar Respublikasının Kəngərli rayon Şahtaxtı kəndi yaxınlığında salınmışdır. Sovet dövründə bağlanmasına baxmayaraq Azərbaycan müstəqillik əldə etdikdən sonra bu gömrükxananın fəaliyyəti yenidən bərpa edilmişdir. Naxçıvan MR Ali Məclisinin sədri işləyən Heydər Əliyevin İran hökumətinin dəvəti ilə 1992-ci ilin avqustun 22-25-də İran İslam Respublikasına rəsmi səfəri zamanı avqustun 24-də Tehranda İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlığa dair imzalanmış protokola əsasən inşa edilmişdir.

downloaded from KitabYurdu.org

1992-ci il dekabrın 3-də Şahtaxtı-Poldəşt körpüsünün təntənəli açılışı olmuşdur. Mərasimdə Ümummilli liderimiz Heydər Əliyev çıxış etmiş, körpünün və gömrük keçid məntəqəsinin blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının iqtisadi həyatının dirçəlişində, İran-Azərbaycan əlaqələrinin genişlənməsində mühüm rol oynayacağına əmin olduğunu bildirmiş və bunu Azərbaycan xalqının həyatında unudulmaz hadisə adlandırmışdır. O vaxtdan indiyə kimi keçən dövr ərzində gömrükxana daha da inkişaf etmişdir.

2006-cı ildə Şahtaxtı gömrük postunda 75,3 min manat gömrük vergi və rüsumları toplanmışdır ki, bu da Naxçıvan MR Gömrük Komitəsi üzrə toplanmış bütün gömrük ödəmələrinin 1,7 faizini təşkil edib.

2007-ci il oktyabrın 17-də ölkə Prezidenti İlham Əliyevin Şahtaxtı-Poldəşt sərhəd keçid məntəqəsinin açılışında iştirak etməsi, onu açması və beynəlxalq statusun verilməsi muxtar respublikanın xarici iqtisadi əlaqələrində yeni mərhələnin başlanğıcını qoymuşdur.

**∆Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi**

1998-ci ilin iyun ayında yeni gömrük xidmət sahəsi Naxçıvan «Hava limanı» gömrük postu yaradılaraq Culfa Gömrükxanasının tabeliyinə verilMişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 28 dekabr 2004-cü il tarixli Fərmanı ilə Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi statusu verilmişdir.



2006-cı ildə bu idarə vasitəsilə 19,8 min manatlıq vergi və rüsumlar yığılıb dövlət büdcəsinə köçürülmüşdür ki, bu da tabeli gömrük orqanları üzrə toplanmış ümumi gömrük ödəmələrinin 0,4 faizini təşkil edir.

Aparılan təhlillər göstərir ki, təkcə muxtar respublika üzrə yox, bütövlükdə ölkə üzrə büdcə mədaxilinin tərkibində gömrük vergi və rüsumlarının xüsusi çəkisi ildən-ilə artır. Bu artıma xarici ticarətdə gömrük-tarif, qeyri-tarif tənzimlənmələrinin tətbiqi, məhsul istehsalı və göstərilən xidmətlərin artımı hesabına, habelə gömrük nəzarətinin səmərəliliyinin artırılması və bütövlükdə gömrük orqanları sisteminin modernləşdirilməsi, məhz differensiallaşdırılmış tarif sisteminə uyğun olaraq Azərbaycan Respublikasının gömrük tarifinin müəyyən olunması, vasitəli vergilərin «son təyinat» prinsipi ilə alınması qaydalarının, sabit informasiya münasibətlərinin təmini və s. nəticəsində nail olunmuşdur. Gələcəkdə də büdcə gəlirlərinin formalaşmasında gömrük orqanlarının rolu artacaqdır. Belə ki, 2007-ci ilə nisbətən 2008-ci ildə Azərbaycan Dövlət Gömrük Komitəsi vasitəsilə yığılan vergi və rüsumların 42,9 faiz artacağı proqnozlaşdırılır.

Gömrük siyasətini həyata keçirən gömrük orqanları Naxçıvan Muxtar Respublikasının gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin daha səmərəli tənzimlənməsi, daxili bazarın qorunması, milli iqtisadiyyatın inkişafının stimullaşdırılması, dövlətin iqtisadi siyasətindən irəli gələn vəzifələrin

downloaded from KitabYurdu.org

həyata keçirilməsi, habelə gömrük işinin beynəlxalq normalara uyğun aparılmasıdır.

Gömrük siyasətinin formalaşdırılması və həyata keçirilməsində iştirak edən təşkilatların məcmusu, habelə onun həyata keçirilmə metodları, səlahiyyətli dövlət orqanları tərəfindən gömrük tənzimlənməsi üsullarının istifadə qaydaları gömrük siyasəti mexanizmi anlayışını yaradır.

Gömrük siyasətinin əsasını xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin aşağıdakı prinsipləri təşkil edir:

- Respublikanın xarici siyasətinin tərkib hissəsi olan vahid xarici ticarət siyasəti;
- Xarici ticarət fəaliyyətinin vahid dövlət tənzimlənmə sistemi və onun həyata keçirilməsinə nəzarət;
- Vahid valyuta nəzarəti siyasəti;
- Ölkənin gömrük ərazisinin bütövlüyü;
- Xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsində iqtisadi tədbirlərə üstünlük verilməsi;
- Xarici ticarət fəaliyyəti iştirakçılarının bərabərhüquqlu olması və hər hansı formada ayrı seçkiliyə yol verilməməsi;
- Xarici ticarət fəaliyyəti iştirakçılarının hüquq və qanuni maraqlarının dövlət tərəfindən qorunması;
- Dövlətin və onun ayrı-ayrı orqanlarının xarici ticarət fəaliyyətinə yersiz müdaxiləsi nəticəsində onun iştirakçılarına və bütövlükdə ölkə iqtisadiyyatına ziyan vurulmasının istisna edilməsi;



- Gömrük siyasəti dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə xidmət etməlidir və s.

Qeyd etmək lazımdır ki, son illər muxtar respublikada Ümumi Daxili Məhsul istehsalı davamlı olaraq yüksəlmişdir. 2006-cı ilin yekununa görə 26,6 faiz artım əldə olunmuşdur.

Muxtar respublikada idxal-ixrac siyasətinin həyata keçirilməsi nəticəsində istehsal yönümlü sahibkarlığın inkişafına, son məhsul istehsalının artırılmasına, daxili bazarın əsasən yerli istehsal hesabına təmin edilməsinə şərait yaradılmışdır.

Naxçıvan MR-da aparılan struktur iqtisadi islahatlar bütün sahələrin iqtisadi inkişafına və xarici ticarət dövriyyəsinin artmasına gətirib çıxarmışdır.

Aşağıda verilən cədvəl bunu bir daha sübut edir:

Cədvəl 30

**1998-2006-cı illərdə Naxçıvan Muxtar Respublikasının xarici ticarət dövriyyəsi (ABŞ dolları - $)**

| İllər | Ümumi döviyyə | İxrac | İdxal | Saldo (-; +) |
|---|---|---|---|---|
| 1998 | 30774873 | 2427576 | 28347297 | -25919721 |
| 1999 | 38306781 | 1587606 | 36719175 | -35131569 |
| 2000 | 25224583 | 1490124 | 23734459 | -22244335 |
| 2001 | 31975878 | 2418007 | 29557871 | -27139864 |
| 2002 | 38933855 | 1595893 | 37337962 | -35742069 |
| 2003 | 36966310 | 4167858 | 32798452 | -28630594 |
| 2004 | 39073453 | 5239264 | 33834189 | -28594925 |
| 2005 | 53141590 | 2247603 | 50893987 | - 48646384 |
| 2006 | 92023706 | 1239464 | 90787242 | - 89544778 |

downloaded from KitabYurdu.org

Cədvəl məlumatlarının təhlili göstərir ki, 2006-cı ildə muxtar respublikada tədiyə balansının 89,5 milyon dollar mənfi saldoya malik olmasına baxmayaraq xarici ticarət dövriyyəsi ildən-ilə artır. Belə ki, əgər 2005-ci ildə xarici ticarət dövriyyəsi 53,1 milyon dollar təşkil edirdisə bu rəqəm 38,9 milyon dollar artaraq 2006-cı ildə 92,0 milyon dollar təşkil etmişdir.

Gömrük müəssisələri üzrə idxal və ixracatın quruluşu göstərir ki, muxtar respublikada yaxşı təşkil olunmuş gömrük xidməti ölkədə idxal və ixrac əməliyyatlarının aparılmasında yaxından iştirak etməklə bu işdə mühüm rol oynayır.

Artıq qeyd edildiyi kimi 2006-cı ildə muxtar respublikada idxal-ixrac əməliyyatlarının ümumi həcmi dəyər ifadəsində 92 milyon ABŞ dolları təşkil etmişdir ki, bunun da 1,2 milyon ABŞ dollarını ixrac əməliyyatları təşkil edir. Əvvəlki illərlə müqayisədə muxtar respublikanın ixrac potensialının artmasına baxmayaraq hələlik ticarət dövriyyəsində çox cüzi bir rəqəm təşkil edir.

Lakin statistik materialların təhlili göstərir ki, artıq 2007-ci ildə Naxçıvan MR ixrac potensialı əvvəlki ilə nisbətən həddən artıq çoxalmışdır. 2007-ci ildə muxtar respublikadan xarici ölkələrə 22,9 milyon ABŞ dolları həcmində məhsul ixrac olunmuşdur. Beləliklə, xarici ticarət Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi əlaqələrində mühüm yer tutur. Son dövrlərdə aparılan məqsədyönlü tədbirlər muxtar respublikanın xarici ticarət dövriyyəsinin strukturu-



nun və istiqamətlərinin genişlənməsinə, ticarət tərəfdaşlarının sayının artmasına səbəb olmuşdur. 2007-ci ildə muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən 28 xarici dövlətlə aparılan ticarət əməliyyatları nəticəsində 92 milyon 118 min 400 ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi yaranmışdır ki, bu da 2006-cı ilin göstəricisini 0,1 faiz üstələyir. Bu dövrdə ixrac əməliyyatları 18,5 dəfə artmış, idxal isə 23,7 faiz azalmışdır.

Xarici ticarət əməliyyatları Türkiyə, Finlandiya, İran İslam Respublikası, Qazaxıstan, Rusiya, Ukrayna, Almaniya, Yaponiya, Gürcüstan, Koreya Respublikası, Belarus, Birləşmiş Krallıq, İtaliya, İspaniya, Avstraliya, Fransa, Litva, Çin, Avstriya, Moldova, ABŞ, Braziliya, İsveçrə, Yunanıstan, Macarıstan, Slovakiya, Sinqapur və Tayvan ilə həyata keçirilmişdir. Amma ixrac potensialının belə artmasına baxmayaraq mən çox əminliklə qeyd etmək istərdim ki, yeni müəssisələrin tikilməsi və burada yeni texnologiyaların gətirib quraşdırılması gələcəkdə dünya standartlarına uyğun rəqabətqabiliyyətli yeni məhsulların istehsalına gətirib çıxaracaqdır. Bu isə tədiyə balansının müsbət saldo olmasını təmin edəcəkdir.

Muxtar respublikaya idxal olunan malların çeşidi artmaqdadır. İdxal olunan malların 80 faizi və ya 73,1 milyon dolları dövlət müəssisə və təşkilatları tərəfindən gətirilmişdir. İdxal malları içərisində 27 milyon dolları modul tipli elektrik stansiyaları və

downloaded from KitabYurdu.org

onların hissələri, 27,5 milyon dolları elektrik enerjisi və təqribən 19 milyon dolları isə elektrik, qaz və rabitə avadanlıq və cihazları təşkil edir.

Muxtar respublikaya idxal olunan malların 13 faizi və ya 11,6 milyon dolları özəl müəssisələr, 7 faizi və ya 6,1 milyon dolları isə fiziki şəxslər tərəfindən gətirilir.

Aparılan araşdırmalar göstərir ki, muxtar respublikada ÜDM istehsalı artdıqca ərzaq bazarı yerli istehsal hesabına formalaşır, ərzaq idxalı tədricən azalmağa başlayır və əhalinin bu mallara tələbatında xaricdən asılılıq aradan qaldırılır.

Naxçıvanın xarici iqtisadi əlaqələri getdikcə genişlənir. Milli Naxçıvan Muxtar Respublikası dünyanın 32 ölkəsi ilə ticarət əlaqəsi aparır. Bunu aşağıdakı cədvəldən daha aydın görmək olar:



Cədvəl 31

**2006-cı ildə Naxçıvan Muxtar Respublikasının idxal-ixrac əməliyyatları apardığı ölkələr**

| Sıra № | Dövlətlərin adı | İxrac | İdxal | Xarici ticarət saldosu |
|---|---|---|---|---|
| 1 | Türkiyə | 1 142926,00 | 27649547,74 | - 26506621,74 |
| 2 | İran | | 15312175,34 | - 15312175,34 |
| 3 | Almaniya | | 4631163,58 | - 4631163,58 |
| 4 | Rusiya | 96537,5 | 2081219,34 | - 1984681,84 |
| 5 | Belçika | | 14612,75 | - 14612,75 |
| 6 | Özbəkistan | | 24455,00 | - 24455,00 |
| 7 | Avstriya | | 995387,26 | - 995387,26 |
| 8 | Hindistan | | 39795,22 | - 39795,22 |
| 9 | Fransa | | 34469,00 | - 34469,00 |
| 10 | Yaponiya | | 1825352,71 | - 1825352,71 |
| 11 | İngiltərə | | 158950,00 | - 158950,00 |
| 12 | Pakistan | | 50455,02 | - 50455,02 |
| 13 | Koreya | | 264260,84 | - 264260,84 |
| 14 | ABŞ | | 89200,00 | - 89200,00 |
| 15 | Ukrayna | | 2510868,36 | - 2510868,36 |
| 16 | Gürcüstan | | 207199,88 | - 207199,88 |
| 17 | BƏƏ | | 16618,00 | - 16618,00 |
| 18 | İtaliya | | 3060656,40 | - 3060656,40 |
| 19 | Kanada | | 14327,77 | - 14327,77 |
| 20 | Suriya | | 7750,00 | - 7750,00 |
| 21 | Çin | | 840292,00 | - 840292,00 |
| 22 | Belarus | | 15420,00 | - 15420,00 |
| 23 | Çexiya | | 26950,00 | - 26950,00 |
| 24 | Finlandiya | | 28053374,74 | - 28053374,74 |
| 25 | Polşa | | 6234,94 | - 6234,94 |
| 26 | İsveç | | 926307,67 | - 926307,67 |
| 27 | İsveçrə | | 8565 | - 8565,00 |
| 28 | Bolqarıstan | | 392606,43 | - 392606,43 |
| 29 | Niderland | | 59763,99 | - 59763,99 |
| 30 | Qazaxıstan | | 1452618,05 | - 1452618,05 |
| 31 | İspaniya | | 834,56 | - 834,56 |
| 32 | Rumıniya | | 12810 | - 12810,00 |
| | Cəmi: | 1239463,50 | 90784241,59 | - 89544778,09 |

downloaded from KitabYurdu.org

Cədvəl məlumatlarından aydın olur ki, Avropa ölkələri ilə aparılan idxal əməliyyatlarında Finlandiya birinci yeri tutur. Avropa ölkələri ilə aparılan ixdalın 28,1 milyon dolları və ya 73,2 faizi məhz bu ölkənin payına düşür. Finlandiyadan Naxçıvana əsas etibarilə elektrogenerator hissələri (1 milyon ABŞ dolları) və modul tipli elektrik stansiyaları və onların hissələri (27,1 milyon ABŞ dolları) gətirilir. Sonrakı yerləri Almaniya, İtaliya, Avstriya, İsveç və digər ölkələr tutur.

Muxtar respublikanın xarici ölkələrlə apardığı idxal-ixrac əməliyyatları qruplaşdırılaraq aşağıdakı cədvəldə onların xüsusi çəkisi verilir.

Cədvəl 32

**2006-cı ildə Naxçıvan MR apardığı idxal-ixrac əməliyyatlarında xarici ölkələrin xüsusi çəkisi**

| Ölkələr | ABŞ dolları | İdxal | | İxrac | |
|---|---|---|---|---|---|
| | | cəmi | faizlə | cəmi | faizlə |
| Türkiyə | «-----» | | 32 | | 92 |
| İran | «-----» | | 17 | | - |
| MDB | «-----» | | 7 | | 8 |
| Avropa | «-----» | | 42 | | - |
| Digər dövlətlər | «-----» | | 3 | | - |
| Cəmi: | «-----» | | 100 | | 100 |

Cədvəlin təhlili göstərir ki, Naxçıvan Muxtar Respublikasının idxal etdiyi malların 50 faizə qədəri sərhədyanı ölkələrin, o cümlədən qardaş Türkiyə və İranın payına düşür.



Naxçıvan MR Ali Məclis rəhbərliyinin yeritdiyi məqsədyönlü xarici iqtisadi siyasət burada yaradılmış əmtəə və xidmətlərin dünya bazarına çıxarılmasına, daxili bazarın qorunmasına, iqtisadi inkişaf üçün əhəmiyyət kəsb edən kapital və texnologiyalar, yerli istehsalı məhdud olan əmtəə və xidmətlər bazarına çıxışın təmin olunmasına və habelə iqtisadi təhlükəsizliyin təmin edilməsinə yönəldilmişdir.

Muxtar respublikada həyata keçirilən mühüm tədbirlərin nəticəsidir ki, son illərdə məhsulların istehsal olunan çeşidi getdikcə artmaqdadır. Elə təkcə 2007-ci ildə muxtar respublikadan yaxın və uzaq ölkələrə aşağıdakı məhsullar, o cümlədən mineral sular, meyvə şirəsi, duz, çay, şəkər, kişi və qadınlar üçün üst geyimləri, sintapon, hərbi geyim, sukeçirməz əlcək, kombinezon, lambir, qapı-pəncərə profili, plastik qapı-pəncərə, kəc, kərpic, karbon qazı, şəkə çuğunduru və bir çox kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur.

Qloballaşan dünyaya inteqrasiya olunmaq və Beynəlxalq Əmək Bölgüsündə (BƏB) iştirak etmək üçün Naxçıvan diyarında sənayenin yenidən qurulmasına və həm də yeni texnologiyalar əsasında qurulmasına böyuk ehtiyac vardır. Rəqabətqabiliyyətli məhsullar istehsal etmək üçün yeni texnologiyalara tələbat artdığından Avropa ölkələri ilə iqtisadi əlaqələr genişlənməkdədir. Artıq 2006-cı ildə muxtar respublikaya idxal olunan məhsulların 42 faizi məhz bu ölkələrin payına düşmüşdür.

downloaded from KitabYurdu.org

### *7.4. Gömrük siyasəti və onun təkmilləşdirilməsi istiqamətləri*

Son illər respublikada iqtisadiyyatın sürətli inkişafı bütün sahələrdə həyata keçirilən islahatların parlaq təzahürüdür. Qeyd etmək lazımdır ki, müstəqil Azərbaycan dövləti 15 ildən artıqdır ki, genişmiqyaslı inkişaf yolundadır. Bu dövr ərzində həyata keçirilən sosial-iqtisadi islahatlar, dünya təsərrüfatına inteqrasiya istiqamətində uğurlu addımlar Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu qaldırmış və dünya birliyində layiqli mövqe tutmasını təmin etmişdir. Bu gün ölkənin iqtisadi inkişafı, onun suverenliyinin təmin edilməsi ölkədə aparılan gömrük siyasəti ilə bilavasitə bağlıdır. Müstəqillik dövründə Azərbaycanda uğurlu gömrük siyasətinin təməli qoyulmuş, gömrük işinin təkmilləşdirilməsi və gömrük orqanlarının maddi-texniki və hüquqi bazasının yaradılması, habelə ümumdünya gömrük sisteminə inteqrasiyası sahəsində mühüm işlər görülmüşdür. Əldə edilən bu nailiyyətlər Ümummilli liderimiz Heydər Əliyevin ölkədə yeritdiyi düzgün iqtisadi siyasət nəticəsində mümkün olmuşdur.

Müasir dövrdə Azərbaycan Respublikasında gömrük işinin modernləşdirilməsi və onun daha da inkişaf etdirilməsi Azərbaycanda gömrük siyasətinin davam etdirilməsinə olan marağın gücləndirilməsini tələb edir. Bu bir sıra səbəblərlə əlaqədardır. Əvvəlcə onu qeyd etmək vacibdir ki, keçmiş SSRİ-in tərkibinə daxil olan müttəfiq kimi, bizim də respublikamız, iq-



tisadi islahatların, yeni bazar münasibətlərinin həyata keçirilməsi yoluna qədəm qoymuşdur. Cəmiyyətin siyasi sistem və mülkiyyət növlərinin quruluşu kifayət dərəcədə mürəkkəbləşmişdir. Bununla əlaqədar olaraq respublikada siyasi və iqtisadi baxışları birmənalı olmayan müxtəlif sosial qruplar yaranmışdır. Bir partiyalı sistemdən fərqli olaraq daha mürəkkəb siyasi şərait meydana gəlmişdir. Bu isə öz növbəsində dövlətin daxili və xarici siyasətinin ayrılmaz hissəsi sayılan gömrük siyasətinə təsir edir.

İkinci səbəb odur ki, SSRİ dağıldıqdan sonra Azərbaycanda gömrük işi xeyli dəyişikliklərə məruz qalmışdır: idarəetmənin təşkili iriləşmiş və mürəkkəbləşmişdir, yeni anlayışlar formalaşmışdır – Azərbaycanın MDB ölkələri ilə gömrük əraziləri, azad iqtisadi və gömrük zonaları; gömrük rejimləri, gömrük fəaliyyətinin inkişafı güclənmişdir.

Üçüncü səbəb Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya olunmasının gücləndirilməsidir. Belə ki, Azərbaycan ÜTT (Ümumdünya Ticarət Təşkilatına) daxil olması ərəfəsində siyasi və iqtisadi təşkilatların onun xarici iqtisadi fəaliyyətinin əsaslı şəkildə korrektə edilməsi tələblərini irəli sürməsi gömrük siyasətinin dəyişməsinə təsir göstərmişlər. Qanunverici-hüquqi bazanın, əmtəə nomenklaturunun, gömrük siyasəti prinsipləri və tədbirlərinin təkmilləşdirilməsinin və gömrük mexanizminin səmərəliliyinin zəruriliyi meydana çıxmışdır.

Nəhayət dördüncü və ən mühüm səbəblərdən biri də gömrük işinin inkişafı cəmiyyətin mühüm

downloaded from KitabYurdu.org

problemləri ilə, hər şeydən əvvəl təhlükəszlik, ekologiya, informasiya ıə başqa dünya problemləri ilə sıx surətdə əlaqədardır.

Gömrük sisteminin inkişafı və onun təkmilləşdirilməsi məqsədilə Dövlət Gömrük Komitəsi tərəfindən konkret tədbirlərin həyata keçirilməsi davam etdirilir. Aparılan düzgün gömrük siyasəti nəticəsində demək olar ki, artıq bu gün Azərbaycan özünün beynəlxalq standartlara cavab verən milli gömrük orqanları sistemini yaratmışdır. Gömrük komitəsinin bir sıra beynəlxalq təşkilatlara üzv olması, beynəlxalq konvensiyalara qoşulması, ikitərəfli və çoxtərəfli beynəlxalq sazişlərə üstünlük verilməsi məhz respublika gömrük sisteminin dünya standartları səviyyəsində qurulması və təkmilləşdirilməsi sahəsində öz bəhrəsini verir.

Son illər ərzində Gömrük Komitəsinin beynəlxalq əlaqələri genişlənmiş və keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. İndii Azərbaycan gömrüyü beynəlxalq gömrük əməkdaşlığının inkişaf etdirilməsi və möhkəmləndirilməsi, beynəlxalq inteqrasiyanın dərinləşdirilməsi məqsədilə bir çox beynəlxalq təşkilatlarla və dünya dövlətlərinin gömrük xidmətləri ilə yaxından əməkdaşlıq edir.

Azərbaycan Dövlət Gömrük Komitəsi Avropa Birliyinin TASİS və TRASEKA proqramları çərçivəsində gömrük sisteminin inkişafı və modernləşdirilməsi sahəsində ardıcıl olaraq işlər görür və müxtəlif məqsədli layihələr hazırlayıb təqdim edir. Ölkəmizin Ümumdünya Ticarət Təşkilatına (ÜTT) daxil olması



üçün idxal-ixrac əməliyyatları üzrə tarif və qeyri-tarif tənzimlənməsi tədbirlərini beynəlxalq normalara uyğun qurmağa çalışır və beynəlxalq təşkilatlarla əməkdaşlığa üstünlük verilir.

Hazırda gömrük siyasətinin başlıca istiqamətlərindən biri məhz Azərbaycanın ÜTT-yə üzv olmaqla bağlı gömrük məsələlərinin elə düzgün qoyulmasıdır ki, bundan həm bütövlükdə ölkə iqtisadiyyatı, həm də dövlət büdcəsi maksimum səmərə əldə edə bilsin.

Ümumdünya Ticarət Təşkilatına üzvolma mürəkkəb prosesdir və hər bir ölkə üçün xarakterik xüsusiyyətlərə malikdir. Bu proses təkcə tariflərə dair sazişlər və təklif olunan xidmətlərə güzəştlərin tətbiqi ilə deyil, eyni zamanda xarici ticarəti tənzimləyən tədbirlər və normativ-hüquqi aktlar da daxil olmaqla müraciət edən ölkənin öz xarici ticarətinə dair qanunvericilik bazasının hazırlanması və nəzarət mexanizminin təkmilləşdirilməsi ilə həyata keçirilir.

Xarici ticarət müqavilələrinin rəsmiləşdirilməsi, məlumatların vahid formada uyğun ötürülməsi, emalı və nəticələrinin gözlənilməsi üçün elektron şəbəkənin yaradılması əsas sayılır. Şəbəkənin infrastrukturundan istifadə edərək xarici iqtisadi fəaliyyət sahəsində malların transsərhəd hərəkəti zamanı «Vahid pəncərə» prinsipi əsasında müvafiq orqanlar tərəfindən həyata keçirilən nəzarəti əlaqələndirməklə əmtəə dövriyyəsinin xeyli dərəcədə sürətləndirilməsi, xərclərin aşağı salınması və s. bütün bunlar nəticə etibarilə milli iqtisadiyyatın daha da güclənməsinə şə-

downloaded from KitabYurdu.org

rait yaradılır. «Vahid pəncərə» prinsipi nəzarət orqanlarının əlaqələndirilmiş fəaliyyətinin əsaslarını müəyyən etməklə, idxal-ixrac əməliyyatları üzrə məlumatların müvafiq orqanlar tərəfindən bircə dəfə tələb edilməsi, onların bir aparıcı dövlət orqanı tərəfindən qəbul edilməsi, müxtəlif yoxlamaların keçirilməsi tələb olunduqda isə belə yoxlamaların əlaqələndirilməsi və eyni vaxtda aparılmasını nəzərdə tutur. Aparıcı dövlət orqanı da elə bu məqsədlə müəyyən olunur.

İdxal-ixrac əməliyyatları ilə bağlı müəyyən olunmuş tələblərə riayət etməklə, məlumatların «Vahid pəncərə» prinsipi əsasında apardığı dövlət orqanına təqdim olunması, fikrimizcə, gömrük işinin asanlaşmasına, dövlət orqanları ilə özəl sektor arasında məlumat mübadiləsinin sürətlənməsinə, nəzarət prosesinin keyfiyyətinin artırılmasına və gömrük xidməti səviyyəsinin yüksəlməsinə təsir göstərəcəkdir.

Azərbaycan artıq güclü iqtisadiyyata malik bir dövlət olduğundan ÜTT-yə üzv olması və Avropa Birliyinə inteqrasiyası da sürətlə inkişaf edir.

Gömrük sahəsində ticarətin asanlaşdırılmasına yönəldilən bir çox məsələlər artıq həll edilmiş və edilməkdədir. Bundan başqa, gömrük nəzarəti orqanlarında informasiya texnologiyaları tətbiq edilmiş, gömrük rəsmləşdirilməsi və gömrük nəzarətinin avtomatlaşdırılmış sistemi (GPGHAS) prinsipi hazırlanaraq həyata keçirilmiş, yüklərin yoxlanmasında avtomatlaşdırılmış müayinə sistemlərinin istifadəsinə (BACİS) başlanmışdır. Ticarətin asanlaşdırılması sa-



həsində gömrük infrastrukturunun inkişafı böyük önəm daşıdığı üçün hazırda sərhəd keçid məntəqələrinin də imkanları artmışdır. İndii əksər məntəqələr 24 saat ərzində fasiləsiz iş rejiminə keçirilmişdir ki, bu da nəqliyyat axınının sürətləndirilməsini təmin etmişdir.

Zehni mülkiyyətin müdafiəsinin və xidmətlərin beynəlxalq mübadiləsi qaydalarının tənzimlənməsi kimi problemlərin meydana çıxması ilə əlaqədar olaraq, əmtəə mübadilə prosesləri və əmtəələrin gömrük sərhədlərini keçmə sahəsində, məkan və vaxt nöqteyinəzərincə gömrük orqanlarının fəaliyyət sferası daha da genişlənir. XİF-in (Xarici İqtisadi Fəaliyyətin) dövlət tənzimlənməsində gömrük siyasətinin əhəmiyyəti yüksəlir.

Ticarətin inkişafından ayrılıqda gömrük siyasəti haqqında danışmaq çətindir, çünki ticarət siyasəti ilə gömrük siyasəti vəhdətdir və bir-biri ilə qarşılıqlı asılıdır. Hər iki siyasətin əsas məqsədi bir istiqamətə yönəlməklə dövlət və xalqın həm maddi, həm də mənəvi cəhətdən mənafelərini müdafiə etməkdən ibarətdir.

Azərbaycanda gömrük siyasətinin formalaşması aşağıdakı amillərin təsiri nəticəsində baş vermişdir: bir tərəfdən gömrük-tarif tənzimlənməsinin rolunun güclənməsi, inkişaf etməkdə olan istehsal münasibətlərinin rolunun yüksəldilməsi, gömrük işinə dil institutların yaranması; digər tərəfdən, azad ticarət və proteksionizmin tərəfdaşlarını mübarizəsi, gömrük rüsum növlərinin müəyyən edilməsinə müx-

downloaded from KitabYurdu.org

təlif yanaşmaların mövcud olması, əmtəə nomenklaturunun mürəkkəbləşməsi, gömrük əməliyyatlarının müxtəlif formalarının meydana çıxması.

Bunlarla yanaşı olaraq Azərbaycanda gömrük siyasətinin inkişafı dövrü xarakter daşımışdır, çünki hakimiyyət dəyişməsi ticarətin tənzimlənməsində yanaşmaların dəiyşməsinə səbəb olmuşdur.

Bazar münasibətləri şəraitində gömrük siyasətinin əhəmiyyəti xeyli artmışdır. Gömrük siyasətinin mahiyyəti malların xarici ölkələrə ixrac edilməsi və onların xarici ölkələrdən respublikamıza daxil olması ilə bağlı olan dövlətin gömrük tədbirlərinin məcmusunu əks etdirir. Ancaq iqtisadi ədəbiyyatların bəzilərində gömrük siyasətinə dövlətin xarici və daxili siyasətinin müstəqil hissəsi kimi deyil, ticarət siyasətinin hissəsi kimi yanaşılır, bu isə onun rolunu və əhəmiyyətini azaldır.

Beynəlxalq miqyasda gömrük siyasətinin həyata keçirilməsində 4 noyabr 1952-ci ildə yaranmış «Gömrük Əməkdaşlıq Şurasının (GƏŞ)» böyük əhəmiyyəti olmuşdur. 1994-cü ildən «Ümumdünya Gömrük Təşkilatı» adını daşıyan bu qurumun tərkibinə hazırda 143 ölkə daxildir.

Azərbaycanın daxili və xarici siyasətində yeni yanaşmalar gömrük siyasətində uyğun tədbirləri müəyyən etməyə ehtiyac yaratmışdır. 1991-ci ildə sosialist sistemi ləğv edildikdən sonra Azərbaycan Respublikasının gömrük və ticarət siyasətində son dərəcə liberal azad ticarətə meyl göstərilməyə başlanmışdır. Azərbaycan xarici iqtisadi fəaliyyət poliqonu vəziyyə-



tinə düşməyə başlamışdır. Bu dövr ərzində Azərbaycanın gömrük xidməti gömrük siyasətini tarazlaşdırmaq məqsədilə bütün mümkün olan əməliyyatları yerinə yetirməyə cəhd göstərsə də, hazırkı vaxtda da gömrük siyasətində neqativ meyllər davam etməkdədir.

Azərbaycanda gömrük siyasətinin reallaşdırılması üçün Azərbaycan Respublikasının Gömrük Məcəlləsi (10 iyun 1997), Gömrük tarifi haqqında Azərbaycan Respublikasının Qanunu (20 iyun 1995), başqa bir sıra normativ-hüquqi aktlar və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi fəaliyyət göstərirlər. Dövri olaraq gömrük siyasətinin tərtib edilməsi, müəyyən edilməsi və icra edilməsi nəzərdən keçirilir.

Gömrük siyasəti bütövlükdə mürəkkəb və şaxəlidir. Onu məqsədli-sistem şəklində xarakterizə etmək üçün dörd növ yanaşmada qruplaşdırmaq lazımdır: hakimiyyət-hüquqi; təşkilati-institusional; iqtisadi və psixolojietika.

Hakimiyyət-hüquqi yanaşmada XİF-in tənzimlənməsi sahəsində dövlət hakimiyyətinin istifadə olunmasına əsaslanaraq gömrük siyasətinin əsas müddəalarının araşdırılması başlıca yer tutur. Bu yanaşmada XİF-in inzibati-hakimiyyət xarakterli qaydaların, tədbirlər sisteminin, bu sferada normativ-hüquqverici bazanın və s. vasitəsilə qaydaya salınması və tənzimlənməsi şərh olunur.

Gömrük siyasətinin hakimiyyət-hüquqi şərhi onun mahiyyətini ifadə edir, təşkilati-institusional

downloaded from KitabYurdu.org

yanaşmanı konkretləşdirir. Hal-hazırda gömrük siyasəti dövlət institutları və təşkilatları vasitəsilə formalaşır və reallaşdırılır. Bu hər şeydən əvvəl ölkənin gömrük sərhədddini keçən malların və fiziki şəxslərin qadağan-icazəli, yaxud məhdudiyyətli sistemlərini tərtib edən və onların nəzarətini təşkil edən icra və qanunverici hakimiyyət orqanlarıdır, müxtəlif səlahiyyətlə təşkilatlar və ibarələrdir. Lakin bizim fikrimizcə, bu siyasətin hazırlanması və reallaşdırılması üzrə əsas iş birinci növbədə Dövlət Gömrük Komitəsi tərəfindən yerinə yetirilir.

Gömrük siyasətində iqtisadi yanaşma əsasən respublikanın daxili və xarici iqtisadi siyasətinin xarakterinə uyğun olaraq müəyyənləşir. Bu siyasət isə proteksionist və azad ticarətə, yaxud bu iki istiqamətlərin ahəngdar uyğunlaşdırılmasına əsaslanır. Bu və ya başqa istiqamətin seçilməsindən və onun təsir dərəcəsindən asılı olaraq praktikada, gömrük-tarif tənzimlənməsi, iqtisadi güzəştlər, preferensiyalar və s. kimi iqtisadi siyasət tədbirləri tətbiq olunur.

Gömrük siyasətinin psixolojietika yanaşması dedikdə, onun işlənib hazırlanması, qəbul edilməsi və reallaşdırılması gedişində özünü büruzə verən münasibətlərin xarakteristikası başa düşülür. Təsadüfi deyil ki, gömrük siyasəti insan hissləri ilə bağlı olaraq sözün geniş mənasında etikanı özünə daxil edir. Gömrük siyasətinin vacib təyinatlarından biri ümumi işin mənafeyi üçün insanın etik səviyyəsinin yüksəldilməsidir. Buna görə də psixoetik baxımdan gömrük siyasəti-əslində meydana çıxan münasibətlərin mübahisəli addımların, maneələrin, məcburi kompromislərin (razılaşmaların), müqavilələrin, güzəştlərin, təzyiqlərin və maneələrin sahəsidir.



Yuxarıda qeyd olunan gömrük siyasətinin dörd yanaşması bir-biri ilə qarşılıqlı asılıdırlar, ona görə də onların əhəmiyyəti eyni səviyyədə qiymətləndirilməlidir.

Gömrük siyasətində müxtəlif yanaşmaların və şərhlərin mövcudluğu ciddi elmi tədqiqatların aparılmasını tələb edir. Eyni zamanda yanaşmaların gömrük işinin missiyası, gömrük siyasətinin prinsipləri kimi başqa kateqoriyalarla qarşılıqlı əlaqəsini, onun obyektini və subyektini tədqiq etmək də vacibdir.

Gömrük işinin missiyası yuxarıda qeyd olunan yanaşmaları əhatə edir və hər şeydən əvvəl gömrük fəaliyyətinin mövcud olması səbəblərini ifadə edən məqsədli funksiyaların daşıyıcısıdır. Missiya təşkilatın cari vəziyyətindən, onun işinin formalarından, vasitələrindən və metodlarından asılı olmamalıdır, çünki o gələcəkdə gücün nəyə istiqamətlənəcəyini, hansı üstün prioritetlərin olacaqlarını göstərərək bütövlükdə gələcək nailiyyətlər ifadə edir.

Beləliklə, sözün geniş mənasında gömrük işinin missiyası insanın ahəngdar həyat fəaliyyətinin saxlanması məqsədilə planetar miqyasda beynəlxalq mübadilə proseslərini tənzimləyir.

Gömrük missiyası və gömrük siyasəti bir-birini tamamlayır və şərtləndirir. Bununla yanaşı gömrük siyasətinin əsas məqsədlərinin dəqiq açıqlanması zə-

downloaded from KitabYurdu.org

ruridir və fikrimizcə, buraya aşağıdakıları daxil etmək olar:

1. gömrük nəzarəti və gömrük ərazisində əmtəə mübadilə alətlərinin daha səmərəli istifadəsinin təmin edilməsi;

2. daxili bazarın müdafiəsi üzrə ticarət-siyasi məqsədlərin reallaşdırılmasında iştirak edilməsi;

3. milli iqtisadiyyatın inkişafının stimullaşdırılması;

4. yenidənqurma və iqtisadi siyasətin başqa məqsədlərinin həyata keçməsinə yardım edilməsi.

Yuxarıda göstərilən məqsədlər və Azərbaycan Respublikasının Prezidenti və Hökumətinin ümumi iqtisadi siyasətindən doğan gömrük siyasətinin başqa məqsədləri bütövlükdə gömrük işinin əsas hədəfini, vəzifələrini və funksiyalarını özündə əks etdirir.

Hazırda gömrük siyasəti məfhumuna vahid yanaşma yoxdur. Bəzi müəlliflər onu «üsullar, qaydalar, tədbirlər» sistemi kimi, digərləri – «funksiya, tənzimlənmə mexanizmi» kimi, başqaları isə – «istiqamətlərin kompleksi, strateji xətt» kimi qəbul edirlər. Gömrük siyasətinin qeyd olunan anlayışları bu məsələ üzrə fikir müxtəlifliyini tam əks etdirmir. Bizim fikrimizcə, bu problemə yuxarıda qısa şəkildə ifadə olunmuş sistemli mövqelərindən yanaşmaq lazımdır.

Gömrük siyasətinin gerçəkləndirilməsində və dərk edilməsində «obyekt» və «subyekt» anlayışları haqqında doğru təsəvvürün olması vacib şərtlərdəndir. Gömrük fəaliyyətinin müxtəlif sahələrində



«obyekt» və «subyekt» anlayışının fərqli şərhləri vardır. Gömrük siyasətinin iqtisadi baxımdan obyekti gömrük siyasətinin subyekti olan gömrük orqanları tərəfindən həyata keçirilən iqtisadi təsir mexanizmidir.

Gömrük işində iqtisadi siyasət obyekti və subyektinin məcmusu iqtisadi siyasətin sistemini formalaşdırır. Bura daxildir:

- iqtisadi siyasətin mexanizmi (məqsədlər, vəzifələr, prinsiplər və metodlar);

- iqtisadi-normativ bazanın formalaşdırılması;

- iqtisadi tədbirlərin və XİF-in tənzimlənmə qaydalarının məcmusu;

- iqtisadi-siyasi qərarların qəbul edilməsi və reallaşdırılması prosesləri.

Gömrük siyasətində hakimiyyət-hüquqi yanaşmanın obyekti bu siyasətin reallaşdırılması zamanı ortalığa çıxan münasibətlərdir, hansı ki, hüquqi normativlər məlumatlandırma və mühafizə ilə tənzimlənir.

Normativ-hüquqi aktlar meydana çıxan münasibətlərin dövlətin maraqlarına uyğun şəkildə tənzimlənməsini təmin edir.

Hakimiyyət-hüquqi yanaşmanın subyektini isə fiziki və hüquqi şəxslər təşkil edir. Burada qanun üzrə hüquqlarını və hüquqi vəzifələrini həyata keçirməyə malik olan fərqlər nəzərdə tutulur.

Gömrük işində psixoetik yanaşmanın obyekti müxtəlif insanların real marağı sayılır. Maraq adamlarda cəhdlər və stimullar törədən səbəb kimi obyek-

downloaded from KitabYurdu.org

tiv hadisəni əks etdirir. Obyektlərin (maraqların, etikanın və adamların əxlaq normalarının) tənzimlənməsini həyata keçirən dərk gömrük orqanlarının işçisi, yaxud kollektivi bu yanaşmanın subyekti sayılır. Həyəcanlar və duyğular isə – bu obyektə olan subyektiv münasibətlərdir ki, dövlət tərəfindən müəyyən edilmiş məqsədlərin, etik və sosial-psixoloji normaların mahiyyəti zamanı tənzimlənir.

Nəhayət, təşkilati-institusional yanaşmanın obyekti gömrük siyasətinin subyektinin təsiri nəticəsində formalaşan dövlətin gömrük ərazilərinin və sərhədlərinin müxtəlif inzibati qurumlarından ibarətdir. Öz növbəsində, gömrük siyasətinin subyekti gömrük işi institutlarının sistemindən ibarətdir.

Gömrük siyasətinin öyrənilməsində vacib metodoloji aspekt gömrük siyasətinin əsas prinsiplərinin tədqiqatı və formalaşdırılması sayılır.

Prinsiplər obyektiv xarakter daşıyır və bütünlüklə müəyyən qanunauyğunluqları ifadə edirlər. Gömrük prinsiplərinin təsiri ilə gömrük siyasətinin obyektləri və subyektləri arasındakı əlaqələr reallaşır. Hazırda bu prinsiplərə aşağıdakıları aid etmək olar:

1. Azərbaycan Respublikasının gömrük və xarici ticarət siyasətinin vəhdətlik və ayrılma prinsipi. Azərbaycanda daxili və xarici siyasətin tərkib hissəsi olan vahid gömrük və ticarət siyasəti aparılır. Bu vəhdətlik hər şeydən əvvəl əmtəələrin və xidmətlərin mübadilə proseslərinin başlıca istehlakçıları sayılan ölkənin sadə vətəndaşlarının psixolojietika və mənəvi



maraqlarına əsaslanmalıdır. Təəssüf ki, bir çox hallarda etika üst-üstə yığılmış problemlər içərisində qismən öz mənasını itirir, müasir maşın texnologiyaları insanı təfəkkür sistemindən ayırır. Bu prinsip xarici ticarət fəaliyyətinin dövlət tənzimlənmə sistemində ümumi normativ-qanunverici bazanın mövcudluğunu, işlərin əsas məqsədləri və istiqamətləri üzrə xarici ticarətin və gömrük qərarlarının vəhdətliyini ifadə edir.

Gömrük və xarici ticarət siyasəti vəhdətliyinin mahiyyəti xarici ticarətdə müdafiə tədbirləri və gömrük tarif məsələləri üzrə birgə komissiyaların yaradılmasında, metodoloji əsasların birgə hazırlanmasında, beynəlxalq ticarət və iqtisadi təşkilatların işində iştirak edilməsində, elmi-praktik konfransların aparılmasında, nəşrlərin hazırlanmasında və s. öz əksini tapır.

Eyni zamanda XİF-in tənzimlənmə sahəsində konkret, spesifik və praktik məqsədlərin və məsələlərin yerinə yetirilməsi zamanı gömrük və ticarət siyasətində funksiyaların, hüquqların və məsuliyyətin ayrılması halları da mövcuddur. Ayrılma pinsipinə uyğun institutların və idarətetmə orqanlarının fərqli, infrastruktur idarələrinin mövcud olması ilə də təsbit edilir.

2. Azərbaycan Respublikasının gömrük ərazisinin və sərhədlərinin vəhdətliyi prinsipi. Gömrük məkanlarının vəhdətliyi Azərbaycan Gömrük siyasətinin əsasını təşkil edən prinsiplərdən biri sayılır.

downloaded from KitabYurdu.org

Gömrük işində nəqliyyat, maliyyə, informasiya və əmtəə axınlarının vahidliyi bazasında institusional sistemin yaradılması gömrükxananın simasını xeyli surətdə dəyişdirir. Hazırda bu orqan kompüter və rabitənin peyk qurğularından istifadə edən güclü informasiya orqanı sayılır.

3. Qanunçuluq və məsuliyyətlilik prinsipi. Bu prinsip gömrük məntəqəsi və xüsusilə, gömrük sərhədlərinin keçilməsi ilə bağlı olan bütün əsas qaydaların Azərbaycan Respublikasının qanunlarında və beynəlxalq müqavilələrdə əsaslandırılmasını tələb edir.

Ancaq qeyd edək ki, gömrük orqanlarının vəzifəli şəxslərinin və başqa işçilərinin qeyri-qanuni qərarları nəticəsində şəxslərə və onların əmlakına vurulmuş zərərlər üçün də gömrük orqanları məsuliyyət daşıyırlar. Beləliklə, gömrük orqanları öz mahiyyətinə görə yalnız hüquq mühafizəçiləri deyil, eləcə də ümumi qanunvericilik baxımından hüquq məsuliyyətçiləri sayılır.

4. Dövlətin və XİF iştirakçılarının iqtisadi maraqlarının müdafiə edilməsi. Hazırda ölkənin bazar münasibətlərinə keçid dövrü ilə əlaqədar azad iqtisadi fəaliyyət tələb olunur. Ölkənin konstitusiya əsasları bu iqtisadi azadlığı təmin etməklə yanaşı, dövlət orqanları, gömrük-tarif tənzimlənməsinin və iqtisadi siyasət tədbirlərinin köməyi ilə iqtisadi subyektlərin fəaliyyətini reqlamentləşdirir.

Gömrük siyasətinin aparılması çətin və mürəkkəb şəraitdə baş verir, ona görə də gömrük işində



məqsədli-sistem yanaşmaya əsaslanmış, metodoloji prinsipdən istifadə edilməsi məqsədəuyğundur. Bu yanaşmanın mahiyyəti yuxarıda qeyd edilən prinsipləri nəzərə almaqla gömrük siyasətinin bütöv sistem şəklində formalaşmasında ifadə olunur.

Metodoloji prinsipin istifadə olunmasında məqsəd gömrük siyasətindən alınan nəticələrin səmərəliliyinə nail olmaqdır. Ona görə də bu sahədə gələcəkdə də elmi araşdırmaların aparılması vacibdir. Bunlardan əlavə qeyd etmək lazımdır ki, gömrük xidmətinin təkmilləşdirilməsi və inkişafı daim diqqət mərkəzindədir. Bu baxımdan keçmişdə olduğu kimi perspektivdə də muxtar respublikada hüquqi bazanın müasir iqtisadi islahatlar və yeni sahələr baxımından beynəlxalq hüquq normalarına unifikasiyasından, idarəçilik prinsiplərinin təkmilləşdirilməsi əsasında vahid gömrük və xarici ticarət siyasəti yeritməklə gömrük işinin təkmilləşdirilməsindən ibarətdir.

Naxçıvan MR Gömrük Komitəsi tərəfindən gömrük hüquq münasibətlərinin və gömrük hüquq normalarının gömrük işi sahəsindəki beynəlxalq hüquq münasibətlərinə uyğunlaşdırılması, nəzarət obyektlərinin gömrük rəsmləşdirilməsi, xarici iqtisadi fəaliyyətin gömrük-tarif və qeyri-tarif tənzimləmələri, qaçaqmalçılığa qarşı mübarizə, gömrük statistikası və gömrük ekspertizasının modernləşdirilməsi və nəzarətin aparılması operativlik nöqteyi-nəzərindən gələcəkdə daha da təkmilləşdiriləcəkdir. Bundan başqa gələcəkdə Naxçıvan gömrüyünün ən müasir texniki vasitələrlə – müasir gömrük texnikası ilə təc-

downloaded from KitabYurdu.org

hizi, məlumat texnologiyalarının təkmilləşdirilməsi, məlumatların elektron mübadiləsinin tam tətbiqi, xidmət şəbəkəsinin yaxşılaşdırılması və s. sahələrdə aparılan təkmilləşdirmələr davam etdiriləcəkdir.

Yekun olaraq hesab edirəm ki, gömrük siyasətinin daha da təkmilləşdirilməsi üçün aşağıdakı məsələlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

1. Gömrük orqanları gömrük siyasəti ilə əlaqədar qərarların operativ surətdə qəbul edilməsi məqsədilə müasir texnika ilə, avadanlıqla, o cümlədən kompüter, peyk rabitəli qurğularda tam surətdə təchiz olunmalıdır. Bu prinsipə uyğun olaraq gömrük orqanları Azərbaycanın gömrük məkanının hər bir yerində gömrük işi məsələlərinin həllinin optimallığına əsaslanmış texnologiyaya malik olmalıdır;

2. Gömrük siyasətinin əsas problemləri üzrə gömrük orqanlarının idarəetmə sisteminin təkmilləşdirilməsi, siyasi iradənin dərk edilməsi və qərarların qəbul edilməsi məsələlərinin vəhdətliyinə diqqətin artırılması;

3. Gömrük siyasətinin həyata keçirilməsində fərdi və kollegial idarəetmə prinsipinin gücləndirilməsi. Hər bir məsələnin kollegial müzakirəsi səlahiyyətli rəhbərin təşkilatçılıq rolunun və eləcə də hər bir icraçının rolunun zəifləməsi deyil, əksinə, belə müzakirələrin mahiyyəti qəbul edilən qərarların aşkarlığında, iqtisadi maraqların müdafiə edilməsində, hər bir işçinin obyektivliyinin və rolunun anlaşılmasında öz əksini tapır.


4. İqtisadi maraqların müdafiəsi üzrə ərazi-iqtisadi yanaşmanın formalaşması zəruridir. Bu gün regional aspektdə iqtisadiyyata yardım edilməsi üçün gömrük yığımlarının istifadəsinə istiqamətlənmiş yanaşma gömrük işindəki əsas məsələlərdən biri sayılmalıdır.

5. Gömrük sisteminin iqtisadi idarəetmədə «gömrükxanalar hökumət üçün» formasından «gömrükxanalar XİF iştirakçıları üçün» formasına keçidi vacib məsələ sayılır. Məhz, bu keçid növündə gömrük siyasəti, XİF iştirakçılarının maraqlarının müdafiəsinə, əmtəə dövriyyəsinin sürətləndirilməsi üçün iqtisadi şəraitin yaradılmasına, gömrük əməLiyyatlarının səmərəli aparılmasına imkanlar yaradır. Bu istiqamətdə daha az maliyyə vəsaiti əsasında gömrük infrastrukturunun inkişafı da mühüm əhəmiyyət kəsb edir.

Fikrimizcə, gömrük sahəsində xidmət işlərinin səmərələşdirilməsi, gömrük audit, gömrük maliyyə-bank fəaliyyəti, informasiya-xidmət institutlarının yaradılması və s. gələcəkdə gömrük siyasətinin başlıca istiqamətlərindən birinə çevriləcəkdir.

downloaded from KitabYurdu.org

# VIII F Ə S İ L

## ÖLKƏNİN ƏRZAQ TƏHLÜKƏSİZLİYİ VƏ ONUN REGİONAL ASPEKTLƏRİ

«Əgər biz 1994-1995-ci illərdə, demək olar ki, boş yerdə, dağılmış iqtisadiyyat şəraitində Azərbaycanın inkişafını təmin etməyə başladıqsa, indi böyük bir sağlam bünövrə üzərində dururuq. Bu bünövrə də Azərbaycanın bügünkü müstəqilliyi, azadlığı, Azərbaycanın müstəqil, demokratik, dünyəvi, hüquqi dövlət qurması və onun Konstitusiyasıdır.

İndi Azərbaycanın güclü iqtisadiyyatı var. Biz bu möhkəm təməl üzərində dururuq və buradan gələcəyə doğru irəliləyirik. Bax, bu yolda bizim əsas vəzifələrimizdən biri yoxsulluğun azaldılmasıdır. Bizim vəzifəmiz bundan sonra aparılan işlərdə yoxsulluqla mübarizəni daha da gücləndirmək, yoxsulluğu azaltmaq və gələcəkdə Azərbaycanda yoxsulluğu tamamilə ləğv etməkdən ibarətdir».

***Azərbaycan Respublikasının Prezidenti «Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nın təqdimatına həsr olunmuş Ümummilli Konfransdakı nitqindən***

***Heydər Əliyev***



### *8.1. Ölkənin ərzaq təhlükəsizliyinin müasir vəziyyəti*

Əhalinin hər cür ərzaqla etibarlı şəkildə təmin edilməsi probleminin həm sosial, həm də ictimai-siyasi əhəmiyyəti vardır. Çünki hər bir ölkənin ərzaq təhlükəsizliyi milli təhlükəsizliyin vacib tərkib hissəsi olmaqla onun siyasi və iqtisadi müstəqilliyinin möhkəm əsasıdır. Əkinçilik və heyvandarlıq məhsulları istehsalı və istehlakının kifayət qədər yüksək səviyyəsi cəmiyyətin sabitliyini xeyli dərəcədə müəyyən edir, onun dinamik və hərtərəfli inkişafı üçün yaxşı şərait yaradır. Elə buna görə də elmi cəhətdən əsaslandırılmış konsepsiya əsasında əhalinin ərzaqla təminatı hər bir dövlətin iqtisadi və sosial siyasətinin strateji xəttini təşkil edir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsində xüsusi, tənzimləyici rolu dövlət özündə saxlayır. Ərzaq təhlükəsizliyi dedikdə, əhalinin əsas qida məhsulları ilə etibarlı şəkildə təmin olunmasını, aclıq və az qidalanma qorxusunun olmamasını başa düşmək lazımdır.

Ümumiyyətlə, «ərzaq təhlükəsizliyi» ifadəsi 1972-1973-cü illərdə dünyada baş vermiş taxıl böhranından sonra FAO tərəfindən qəbul edilərək beynəlxalq iqtisadi leksikonumuza kütləvi şəkildə daxil olmuşdur.

Ərzaq təhlükəsizliyi anlayışı ETT şəraitində bir qədər dəyişmiş və təkmilləşmişdir. Hazırda o zəruri resurslar potensial və təminatlar vasitəsilə dövlətin öz əhalisinin qida məhsullarına olan ehtiyaclarını ödə-

downloaded from KitabYurdu.org

mək qabiliyyətini əks etdirir. Bu baxımdan yaxşı olar ki, bu vəzifə demoqrafik dinamikaya əlverişli təsir göstərməklə fizioloji qida normaları səviyyəsində əsasən yerli istehsal hesabına həyata keçirilmiş olsun.

İnsanların ümumi tələbatları və ehtiyacları kompleksi çərçivəsində qidalanmanın aparıcı əhəmiyyətini ön plana çəkən K.Marks yazırdı: «Qida məhsullarının ərsəyə gətirilməsi bilavasitə istehsalların və ümumiyyətlə, hər növ istehsalın mövcudluğunun ən birinci şərtidir» (33. s.184-185).

Bəşər tarixinin sosioloji təhlili göstərir ki, kifayət qədər təbii-iqlim, torpaq və maddi resursların mövcud olmasına baxmayaraq yer üzünün əhalisinin böyük bir hissəsi əsrlər boyu aclıqdan əziyyət çəkmiş və çəkməkdə davam edir.

Müasir dövrün mühüm problemlərindən biri ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsidir.

Azərbaycanın dövlət müstəqilliyi onun ərzaq təhlükəsizliyinin təmin edilməsini obyektiv zərurətə çevirmişdir.

Respublikamızın dövlət müstəqilliyinin möhkəmləndirilməsində və əhalinin həyat səviyyəsinin yüksəldilməsində ərzaq təhlükəsizliyi sisteminin mühüm rolu vardır.

Azərbaycan Respublikasının Prezidenti Ümummilli Liderimiz Heydər Əliyev 2 mart 2001-ci ildə ölkəmizdə ərzaq təhlükəsizliyinə dair proqram təsdiq edilməsi barədə Sərəncam imzalamışdır. Ölkədə aparılan iqtisadi islahatların daha da dərinləşdirilməsini, kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını



və əhalinin ərzaq məhsullarına tələbatının ödənilməsini yaxşılaşdırmaq məqsədi ilə «Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı» təsdiq edilmişdir.

Böyük siyasi və sosial-iqtisadi əhəmiyyətə malik olan həmin proqramdan irəli gələn vəzifələr bu sahədə tədqiqat işini gücləndirməyi tələb edir. Ərzaq və ekoloji təhlükəsizlik problemləri kompleks tədbirlərin köməyi ilə həll oluna bilər. Çünki bu proqram, ümumdövlət əhəmiyyətli bir proqramdır. Bu proqramın ölkənin hərbi qüdrətinin möhkəmləndirilməsində, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsində son dərəcə böyük əhəmiyyəti vardır.

Ölkənin ərzaq təhlükəsizliyini təmin etmək üçün aqrar sektorun inkişafı prioritet bir məsələ kimi qarşıda durur. Azad sahibkarlıq, müstəqil təsərrüfatçılıq, sərbəst alqı-satqı respublikamızın aqrar-sənaye kompleksinin bütün sahələrində yüksək nəticələr əldə etməyə zəmin yaratmışdır.

Aqrar sektorun dinamik inkişafını təmin etmək üçün hüquqi, sosial-iqtisadi baza yaradılmışdır. Yerlərdə fəaliyyət göstərən kəndli (fermer) təsərrüfatları, kənd təsərrüfatı istehsal kooperativləri, ailə təsərrüfatları mövcud təbii-iqtisadi potensialdan tam və səmərəli istifadə etmək üçün geniş imkanlar açmışdır.

Apardığımız tədqiqat göstərir ki, Azərbaycan Respublikası əhalinin ərzaq təhlükəsizliyini təmin etmək üçün çox geniş və böyük imkanlara malikdir.

İqtisadi təhlil göstərir ki, respublikamızın mövcud torpaq fondundan tam və səmərəli istifadə edi-

downloaded from KitabYurdu.org

lərsə, ilkin mərhələdə 10 milyon, perspektivdə isə 10-16 milyon əhalini ərzaq məhsulları ilə təmin etmək mümkündür. Belə olarsa, daxili istehsal hesabına respublikanın tələbatını ödəmək olar.

Hazırda Azərbaycan əhalisinin istehlak etdiyi çörək, ət və ət məhsulları, balıq və balıq məhsulları, süd və süd məhsulları, yumurta, şəkər, meyvə- tərəvəz, kartof və digər ərzaq məhsulların bir qisminin mənşəyi bəlli deyil. Bu isə öz-özlüyündə əhalinin istehlak etdiyi ərzaq məhsullarının insan orqanizmi üçün nə dərəcədə təhlükəsiz olmasına təminat vermir. Bunu əhalinin istehlak etdiyi müxtəlif içkilər, şərab, mineral sular, meyvə-tərəvəz şirələri barədə də demək olar.

Azərbaycanın xarici bazarlardan idxal asılılığının aradan qaldırılması məhz təhlükəsizlik sisteminin formalaşması və inkişafı əsasında həll edilə bilər. Təhlükəsizlik hər şeydən əvvəl xarici təsirin neytrallaşdırılmasını nəzərdə tutur.

Dünyada əhalinin artımı müvafiq surətdə ərzaq məhsullarının istehsalını çoxaltmağı tələb edir. Əhalinin artım sürəti ərzaq məhsulları istehsalının artım sürətini qabaqlayır. Hazırda dünya əhalisinin ərzaq məhsulları ilə təchizatı xeyli zəifləmişdir. Əgər 1960-cı ilə qədər kənd təsərrüfatı məhsulları istehsalı artaraq əhalinin təminatının yaxşılaşdırılmasına səbəb olmuşdusa, sonrakı illərdə istehsal tələbatdan xeyli geri qalmışdır. Dünya ölkələrinin bir çoxunda istehsalın artım tempi həddən artıq azalmış, əhali isə sürətlə artmışdır. Əgər 1961-ci ildə ixrac üçün toplanmış ər-



zağın miqdarı dünya əhalisinin 112 gün, 1969-cu ildə 93 gün, 1972-ci ildə 60 gün təmin edirdisə, 1973-cü ildə bu rəqəm cəmi 39 günə bərabər olmuş və sonrakı illərdə azalma davam etmişdir.

Dünyada ərzaq problemi ötən əsrin 70-ci illərində Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən qaldırılmışdır. Elə o vaxt FAO-nun daimi fəaliyyətdə olan Beynəlxalq Ərzaq Təhlükəsizliyi Komitəsi yaradıldı. Əksər xarici ölkələrdə «Milli ərzaq təhlükəsizliyi Proqramı» işlənib hazırlanmışdır və həyata keçirilməkdədir.

Ərzaq probleminin qlobal miqyasda həlli BMT-nin ən mühüm vəzifələrindən biri olaraq qalır. 1996-cı ildə bu mövzuya həsr edilmiş konfrans keçirildi. BMT-nin üzvü olan dövlətlər həmin konfransda «Dünya ərzaq təhlükəsizliyi haqqında» deklarasiya qəbul etdilər. Deklarasiyaya qoşulan ölkələr bütün dünyada ərzaq təhlükəsizliyinə nail olmaq, aclığın yaranması səbəblərinin aradan qaldırılması üçün səy göstərmək, 2015-ci ilə qədər aclıq çəkən insanların sayını iki dəfə azaltmaq barədə öhdəliklərini təsdiq etdilər. Bununla ayrı-ayrı ölkələrin ərzaq təhlükəsizliyinə dair dövlətin məsuliyyətləri müəyyənləşdirildi. Bu isə ondan ibarətdir ki, bu hökumətlər zəruri texniki və maliyyə resurslarını səfərbər edib özlərinin ərzaq təhlükəsizliyini təmin etməlidir.

Ərzaq təhlükəsizliyi dövlətin milli təhlükəsizlik sisteminin bir hissəsi kimi çıxış edir və cəmiyyətin sabit həyat fəaliyyəti üçün şərait yaradır. Dünya təcrü-

downloaded from KitabYurdu.org

bəsində «ərzaq təhlükəsizliyi» termini ölkənin ərzaq bazarındakı vəziyyətini qiymətləndirmək üçün istifadə edilir. Ərzaq təhlükəsizliyi anlayışı sosial-iqtisadi və siyasi-iqtisadi xarakter daşıyır. «Sosial-iqtisadi» xarakter ölkədə qəbul edilmiş normalara müvafiq olaraq, dövlətin öz vətəndaşlarını əsas ərzaq məhsulları ilə təmin etməyə qadir olması, «siyasi-iqtisadi» xarakter isə əhalinin ərzaqla təchiz olunmasını təşkil etmək üçün dövlətin daxili resursları və aqrar-iqlim şəraitini səfərbər etmək qabiliyyəti deməkdir.

Hazırda dünya əhalisinin hər nəfəri hesabı ilə orta hesabla ildə 300 kq-a qədər taxıl istehsal olunur ki, bu da ərzaqla təchizatın hətta orta səviyyədən aşağı olduğunu və bütövlükdə ümumdünya ərzaq təhlükəsizliyinin müasir dövrün tələblərinə cavab vermədiyini göstərir. Məhz buna görə də, hələ 1979-cu ildə BMT-nin kənd təsərrüfatı və ərzaq təşkilatı (FAO) dünyanın ərzaq təhlükəsizliyi sisteminin formalaşması planını işləyib hazırlamışdır. Bu plan 5 bənddən ibarətdir:

1) Ərzaq taxılı ehtiyatlarının yaradılması siyasətinin dünya ölkələri tərəfindən bəyənilməsi;

2) Ümumdünya ərzaq təhlükəsizliyi üzrə öhdəliklərə uyğun olaraq milli ehtiyatların inkişafı və onların bir hissəsinin alınması meyarlarının müəyyənləşdirilməsi;

3) Ərzaq qıtlığı ilə qarşılaşan ölkələrə onların ərzaq taxılına ehtiyaclarını ödəmək məqsədi ilə yardım edilməsi;



4) Milli ərzaq təhlükəsizliyi sisteminin yaradılmasında ehtiyacı olan ölkələrə kömək məqsədi ilə xüsusi tədbirlərin həyata keçirilməsi;

5) İnkişaf etməkdə olan ölkələrin öz imkanlarından kollektiv istifadə etmələrinin zəruriliyi.

Dünya ərzaq probleminin həllində bir çox təşkilatların rolu xüsusi qeyd edilməlidir. Belə təşkilatlar içərisində ən mühüm rol oynayanlardan biri Dünya Ərzaq Şurasıdır.

Dünya Ərzaq Şurası ərzaq mallarının istehsalı, ərzaq təhlükəsizliyi, ərzaq malları ilə ticarət, ərzaq yardımı və eləcə də bu sahə ilə əlaqədar olan sferalarda kompleks tədbirlərin həyata keçirilməsi ilə məşğuldur.

Bu təşkilatın əsas vəzifələri iqtisadi cəhətdən geri qalmış ölkələrdə ərzaq məhsulları istehsalının artırılması, ticarətin və istehlakın yaxşılaşdırılmasına yönəldilən tədbirlərin köməyi ilə ərzaq resurslarının səmərəli bölgüsünə nail olmaq, ümumdünya ərzaq təhlükəsizliyi sistemini təmin etməkdən ibarətdir.

Aşağıda qeyd olunan şərtlər ölkənin milli ərzaq təhlükəsizliyinin təmin edilməsini tələb edir:

- ərzaq təhlükəsizliyi respublika əhalisinin mənafelərinə toxunur və sosial sabitliyin mühüm amili kimi çıxış edir;
- dünya bazarlarında ərzağa tələbatın və qiymətlərin artması, əmtəə konyunkturunun dəyişməsi ölkənin ərzaq təhlükəsizliyini aktuallaşdırır;
- ərzaq sektorunun dəstəklənməsi və stimullaşdırılması sahəsində dünya təcrübəsi göstərir ki, ölkə-

downloaded from KitabYurdu.org

nin ərzaqla təmin edilməsi bu məhsulların idxalından irəli gələn maraqlardan daha üstündür;

- respublikanın əlverişli coğrafi mövqeyi idxal edilmiş ərzaq məhsullarının qiymətinin və səviyyəsinin artmasına şərait yaradır;

- ərzaq məhsulları ixrac dən xarici ölkələrdə baş verən vaxtaşırı iqtisadi və maliyyə böhranları respublikanın ərzaq bazarına mənfi təsir göstərir;

- ölkənin ərzaq məhsullarının istehsal xərclərinin yüksək olması nəticəsində onların qiymətləri də yüksək olur;

- respublikada əkinçiliyin spesifik xüsusiyyətlərə malik olması nəticəsində kənd təsərrüfatı məhsullarının qiymətləri dünya bazar qiymətləri strukturuna uyğun gəlmir;

- zəngin, təbii iqlim, iqtisadi, istehsal, əmək və kadr potensialına malik olan respublika özünü lazımi ərzaq məhsulları ilə təmin edə bilər.

Ölkədə və o cümlədən, Naxçıvan MR-da ərzaq təhlükəsizliyi sisteminin formalaşmasında beynəlxalq təşkilatları, eləcə də regional iqtisadi qruplaşmaları cəlb etmək vacib məsələlərdən biridir.

Ölkənin aqrar siyasətinin tərkib hissəsi olan ərzaq təhlükəsizliyi fizioloji normalara uyğun olaraq ərzaq məhsulları istehsal etmək və onu artırmağı nəzərdə tutur.

Aparılan təhlillər göstərir ki, bütövlükdə ölkədə olduğu kimi muxtar respublikamızda da ərzaq məhsulları istehsalı daim artır. Bunu Naxçıvan MR timsalında daha aydın görmək olar.



Cədvəl 33

**2000-2007-ci illərdə Naxçıvan Muxtar Respublikasında ərzaq məhsulları istehsalı (tonla)**

| İllər / Məhsullar | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|
| 1. Taxıl və taxıl məhsulları (dənli paxlalı, qarğıdalı və günəbaxan da daxil olmaqla) | 54,5 | 63,1 | 73,7 | 81,5 | 93,1 | 104,1 | 95,4 | 92,2 |
| 2. Kartof | 13,5 | 15,1 | 13,6 | 14,2 | 17,1 | 26,3 | 33,5 | 33,7 |
| 3. Şəkər çuğunduru | 45,5 | 41,3 | 115,8 | 129,0 | 56,4 | 23,5 | 3,1 | 19,0 |
| 4.Tərəvəz | 42,7 | 47,8 | 50,2 | 53,3 | 55,2 | 56,4 | 56,6 | 59,8 |
| 5. Bostan | 33,6 | 37,2 | 39,9 | 41,7 | 40,4 | 39,8 | 37,1 | 38,5 |
| 6. Meyvə | 28,4 | 28,7 | 28,7 | 28,6 | 16,6 | 36,4 | 36,9 | 37,1 |
| 7. Üzüm | 14,0 | 13,8 | 12,5 | 11,4 | 7,0 | 13,3 | 13,4 | 13,7 |
| 8. Ət (diri çəkidə) | 5,3 | 6,4 | 6,9 | 7,1 | 13,9 | 14,6 | 15,4 | 16,0 |
| 9. Süd | 54,2 | 53,3 | 58,9 | 59,5 | 62,7 | 64,8 | 67,8 | 70,0 |
| 10. Yumurta | 45,8 | 42,2 | 42,3 | 43,3 | 45,8 | 48,3 | 50,3 | 52,3 |

Cədvəl məlumatlarının təhlili göstərir ki, muxtar respublikada ərzaq məhsullarının istehsalında son 7 ildə artım baş vermişdir. 2007-ci ildə 2000-ci illə müqayisədə taxıl və taxıl məhsulları istehsalı 37,7 min ton, kartof 20,2 min ton, tərəvəz 17,1 min ton, bostan məhsulları 4,9 min ton, meyvə 8,7 min ton, ət 10, 7

downloaded from KitabYurdu.org

min ton, süd 15,8 min ton, yumurta istehsalında isə 6,5 milyon ədəd artım baş vermişdir. Şəkər çuğunduru istehsalı müqayisə olunan dövrdə 26,5 min ton, 2003-cü illə müqayisədə isə daha çox, 110 min ton azalmışdır. Halbuki şəkər əhalinin ərzaq regionunda önəmli yer tutur. Şəkər çuğundurunun yetişdirilməsi və artırılması üçün Naxçıvan MR-da çox yaxşı şərait mövcuddur.

Sadəcə olaraq muxtar respublikada stimullaşdırıcı tədbirlər həyata keçirməklə şəkər çuğunduru istehsalını artırmaq mümkündür. Əlbəttə ki, istehsalı artırmaqla yanaşı, həm də eyni zamanda çox da böyük olmayan, muxtar respublika əhalisinin şəkərə və şəkər tozuna olan tələbatını ödəmək üçün mini zavod yaratmaq olar. Buna muxtar respublikada həm minlərlə hektar əkilməyən torpaq sahələrinin olması, həm iqlim şəraiti, həm işçi qüvvəsi və həm də digər amillərin olması imkan verir. Naxçıvan MR-da şəkər zavodunun açılması onlarla ton məhsul itkisini aradan qaldırmağa, nəqliyyat xərclərini aşağı salmağa təsir göstərə bilər. Çünki şəkər çuğundurunun İran və Türkiyəyə yola salınması minlərlə manat əlavə vəsait deməkdir və bu məhsulun maya dəyərinin artmasına gətirib çıxarır.

Bundan başqa, əgər şəkər çuğunduru muxtar respublikamızda emal olunarsa onun tullantılarından heyvandarlıqda yem kimi istifadə etmək olar. Yaddan çıxarmayaq ki, xammal hansı ölkədə son məhsula çevrilirsə mənfəət də həmin ölkəyə qalır.



Hesablamalar göstərir ki, muxtar respublika artıq kartof və çörək üzrə özünün ərzaq təhlükəsizliyini təmin etmək üzrədir. Ümumiyyətlə, ərzaq məhsullarının artırılması üçün görülən tədbirlər yerli istehsalı artırmağa və idxal ərzaq məhsullarının minimuma endirməyə yönəldilmişdir.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması aşağıdakı tədbirlərin görülməsini tələb edir:

- ərzaq təhlükəsizliyinin təmin edilməsi strategiyasının hazırlanması;
- ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər sisteminin və onların reallaşdırılması mexanizminin formalaşdırılması;
- ölkənin milli maraqlarının qorunması;
- ərzaq təhlükəsizliyinə təsir göstərən daxili və xarici amillərin aşkar edilməsi;
- ərzaq təhlükəsizliyinin səviyyəsini qiymətləndirmək üçün kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyən edilməsi.

Ərzaq məhsulları istehsalı sahəsində milli maraqların təmin edilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- ölkədə rəqabətqabiliyyətli ərzaq məhsulları istehsalının optimal səviyyəsinin təmin edilməsi;
- dövlətin ərzaq ehtiyatlarının yaradılması;
- ölkədə istehsal edilən və satılan məhsulların keyfiyyətinin dövlət standartları sisteminin tələblərinə uyğun olmasının təmin edilməsi;
- əhalinin layiqli həyat səviyyəsi üçün zəruri yaşayış minimumunun təmin edilməsi;

downloaded from KitabYurdu.org

- ərzaq kompleksində vahid elmi-texniki siyasətin təmin edilməsi;

- ərzaq bazarına, o cümlədən qida məhsullarının istehsalı və idxalına, ərzaq fondunun fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsi və s.

Yaddan çıxarmaq olmaz ki, ölkədaxili istehsalın səmərəliliyini yüksəltmək məqsədilə yerli istehsalla proteksionist tədbirlər arasında optimal uyğunluq yaradılmalıdır.

Tədqiqatlar göstərir ki, keçid iqtisadiyyatı ölkələrində milli ərzaq təhlükəsizliyinə iqtisadi qloballaşma amillərinin təsiri güclüdür. Qloballaşma prosesləri nəticəsində ölkələrarası inteqrasiya dünya aqrar-ərzaq sisteminin formalaşmasına gətirib çıxarır.

Ərzaq təhlükəsizliyi ölkədə bütün vətəndaşların sağlam yaşamasına imkan verə biləcək səviyyədə ərzaq təminatının mövcud olması ilə səciyyələnir.

Göründüyü kimi, ayrı-ayrı ölkələrin ərzaq təhlükəsizliyi milli çərçivə ilə məhdudlaşmır və getdikcə ümumdünya xarakteri alır. Bu baxımdan Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi sisteminin formalaşmasında ilk növbədə beynəlxalq təşkilatların imkanlarından istifadə edilməsi tələb olunur.

Ərzaq təhlükəsizliyinin strategiya və taktikası həm inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində, həm də keçid iqtisadiyyatı ölkələrində fərqli xüsusiyyətlərə malikdir.

Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi ölkədə ən mühüm həyat təminatı sistemlərindən biri kimi aktualdır. Bu istiqamətdə aparılan elmi



araşdırmalar həm nəzəri, həm də praktiki maraq doğurur. Bu problemin həlli ölkənin suverenliyinin, cəmiyyətdə iqtisadi təhlükəsizliyin və sosial sabitliyin saxlanılması şərtlərindən biridir. Ərzaq təminatı olmadan, milli təhlükəsizlik təmin oluna bilməz. Bu halda ərzaq təhlükəsizliyi qərarlaşmış sabitliyin əsasını təşkil edir.

Dünya əhalisinin bir hissəsinin aclıq çəkməsindən bəhs edərək i.e.d., professor H.A.Xəlilov yazır: «Müasir dünyada aclığın və tam qidalanmanın azalması ümumi meyli qərarlaşmışdır. BMT-nın Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının – FAO-nun məlumatlarına əsasən 1992-ci ildən 1997-ci ilədək dünyada aclıq çəkən insanların sayı təxminən 40 milyon nəfər azalmışdır.

Lakin bununla yanaşı, əvvəla, aclıq çəkənlərin azalması tempi çox aşağıdır. Bu tempin saxlandığı şəraitdə aclığa son qoyulması üçün 100 ildən çox vaxt tələb olunur. Digər tərəfdən ayrı-ayrı ölkələrdə aclıq çəkənlərin sayının artması halları da baş verir. FAO-nun məlumatlarına görə 1991-1996-cı illərdə dünyanın 27 ölkəsində aclıq çəkən insanların sayı artmışdır. 1996-1998-ci illər üzrə məlumatlara əsasən dünyada 826 min, o cümlədən, inkişaf etməkdə olan ölkələrdə 742 min adam tam qidalanmır. İnkişaf etmiş və keçid dövründə olan ölkələrdə belə insanların sayı 34 milyon nəfər təşkil edir. Bunların ¾ hissəsi Şərqi Avropa ölkələrinin və keçmiş SSRİ-yə daxil olmuş ölkələrin payına düşür (32. s.10).

downloaded from KitabYurdu.org

Əhalinin etibarlı şəkildə ərzaqla təmin olunması hər bir dövlətin başlıca vəzifəsi kimi qarşıda durur və konkret şəraitə uyğun olaraq bütün cəmiyyətlərdə bu və ya digər dərəcədə öz həllini tapır. Ümumiyyətlə, istənilən bir ölkənin iqtisadi inkişafından asılı olaraq bu məsələnin reallaşması hər dəfə müəyyən perspektiv dövr üçün yeni tələblər baxımından qarşıya qoyulmuşdur. Təsadüfi deyil ki, indiki şəraitdə bu problem bəşəriyyət üçün nəinki geniş sosial və iqtisadi xarakter almış, hətta beynəlxalq siyasətin ən vacib amillərindən birinə çevrilmişdir.

Dünyanın inkişaf etmiş bəzi ölkələrində orta hesabla adambaşına istehlak edilən qida məhsullarının ümumi kaloriliyi elmi cəhətdən əsaslandırılmış normalara yaxın olsa da onun tərkibi bir çox hallarda tibbi rasionlara uyğun gəlmir. Yəni hər hansı bir ərzağın çatışmaması digərinin artıq istifadəsinə gətirib çıxarır. Bioloji nöqteyi-nəzərdən onların uzun müddət bir-birini əvəzləməsi heç də yaxşı hal deyildir.

Azərbaycanın təbii və torpaq-iqlim şəraiti ərzaq məhsullarının əsas istehsalçısı olan aqrar sektorun ahəngdar inkişafı üçün etibarlı zəmin yaratmışdır. Məhz bu nöqteyi-nəzərdən yaxın və uzaq keçmişimizin tarixi təhlili göstərir ki, müharibələr və təbii fəlakətlər istisna olmaq şərtilə ölkəmizdə heç vaxt aclıq təhlükəsi olmamış, yalnız bəzi ərzaq mallarının qıtlığı zaman-zaman özünü büruzə vermişdir.

Rus alimi İ.B.Zaqaytov çox haqlı olaraq qeyd edir ki, hər bir ölkənin ərzaqla təminatı vəziyyətini düzgün qiymətləndirmək üçün ərzaq probleminin



həllini mərhələlərə bölməklə dinamikada təhlil etmək lazımdır (53. s.52).

Bunların birincisi xroniki tam qidalanmanın qarşısını almaqla bağlıdır ki, bu da gündə adambaşına 1800-2000 kilokalori (kkal) istehlak etməklə əhalinin sadəcə təkrar istehsalına şəraitin təmin edilməsinə imkan verir. İkinci mərhələ, ərzaq ehtiyatlarının o həcmlərinə nail olunması ilə səciyyələnir ki, gündə 2300-2800 kkal istehlak edilsin və əhalinin sabit artımı təmin edilmiş olsun. Sabit miqdarda, hətta qida rasionu elementlər üzrə tarazlaşdırılmamış olsa belə, gündə 2800-3600 kkal. istehlak etməyə imkan verən ərzaq ehtiyatları həddi üçüncü mərhələyə xasdır. Qida məhsullarının zülal, vitamin və digər komponentlərlə tarazlaşdırılmış istehlak səviyyəsi dördüncü mərhələyə məxsusdur. Bu parametrlərə bir vacib və qiymətli element də – ekoloji cəhətdən təmiz qidalanma əlavə olunduqda onlar beşinci mərhələnin tələblərinə uyğun gəlirlər. Altıncı mərhələyə əhalinin bütün sosial qrupları tərəfindən tarazlaşdırılmış və ekoloji cəhətdən təmiz məhsulların lazımi qədər istehlakını nəzərdə tutur. Nəhayət, yeddinci mərhələ – insanın bioloji təbiətini, mənəvi durumunu təkmilləşdirməyə imkan verən və uzunömürlülüyün rəhni olan fəal həyat fəaliyyətini təmin edən qida strukturudur.

Milli dünyada elə bir dövlət yoxdur ki, ərzaq probleminin heç olmasa beşinci mərhələsinin tələblərini tam şəkildə həll etmiş olsun.

FAO-nun (1946-cı ildə BMT-nin xüsusi qurumu statusunu almış Beynəlxalq Ərzaq və Kənd Tə-

downloaded from KitabYurdu.org

sərrüfatı Təşkilatının) məlumatlarına görə yer üzünün bütün əhalisinin hər bir nəfərinin gündəlik orta qida məhsulları istehlakı 2600 kkal., dünyanın inkişaf etmiş ölkələrində 3330, o cümlədən Qərbi Avropa ölkələrində 3380, Azərbaycanda isə 2800 kkal. təşkil edir.

Belə bir faktı qeyd etmək yerinə düşər ki, milli ölkəmizdə ərzaq məhsullarının ümumi kaloriliyi əsasən rasion normalardan artıq olub tərkibində çoxlu karbohidratlar cəmləşdirən çörəyin, çörək məhsullarının, kartof və şəkərin hesabına əldə olunur.

Hazırda vitamin çatışmazlığı və mineral tərkibin struktur cəhətdən qeyri-tarazlığı açıqca müşahidə edilir. Başqa sözlə, ümumi kaloriliyin nisbətən yetərli olduğu halda, əhalinin qida rasionunun tərkibcə qeyri-tarazlığı ərzaq probleminin ən ciddi təzahürüdür.

Müxtəlif əhali qruplarının ərzaq məhsullarına olan tələbatları onların yaşı, peşəsi, əmək şəraiti, milli xüsusiyyətləri, yaşadığı coğrafi məkan kimi şərtləndirici amillər nəzərə alınmaqla müəyyənləşdirilir.

Ərzaq istehlakı normalarını müəyyən etmək üçün müxtəlif növ məhsulların enerji tutumunu, yəni onların malik olduqları kalorilik «gücünü» bilmək lazımdır. Alimlərin hesablamalarına görə, hər yüz qram kərə yağında 734, şəkərdə 390, qoyun ətində 206, çovdar çörəyində 204, mal ətində 154, yumurtada 150, kartofda 89, süddə 62, almada 40, yerkökündə 36, kələmdə isə 27 kilokalori vardır.



Təcrübə göstərir ki, qidalanmanın fizioloji normalarından kənarlaşma insanın həyat fəaliyyətinə ciddi ziyan vurur. Normal həyat fəaliyyəti aşağıdakı amillərdən asılıdır: qidanın kaloriliyindən, istehlak olunan əsas qida maddələrinin (zülalların, yağların, karbohidratların, mineral maddələrin və vitaminlərin) miqdarından, təhlükəli, yəni tərkibində toksik maddələr olan ərzaqların qəbul edilməsindən; insanların psixoloji əhval-ruhiyyəsindən; insanların sağlamlığına, əkinçiliyin və heyvandarlığın məhsuldarlığına təsir edən iqlim-hava və ekoloji streslərdən; alkoqolun və narkotiklərin istifadəsindən.

Hər bir adamın gündəlik optimal həyat fəaliyyətinin təmin edilməsi üçün 2500-3500 kkal. enerji tələb olunur. Orta həyat fəaliyyəti üçün 1500-2500 kkal., kritik həyat fəaliyyəti üçün isə 1000-1500 kkal. lazımdır. 1000 kilokaloridən aşağı enerji istehlak edildikdə insanın nəinki iş qabiliyyəti zəifləyir, hətta onun ömrü də qısalır. İnsanların enerjiyə olan tələbatı norması daxilində tam qidalanmanın minimum həddini müəyyən edən bir günlük orta göstəricisi Yaxın Şərq və Şimali Afrika ölkələri üçün 1710-1990 kkal, Asiya və Sakit Okean ölkələri üçün 1710-1920 kkal, MDB ölkələri üçün isə 1730-1960 kkal, o cümlədən Azərbaycan Respublikası üçün 1730 kkal təşkil edir.

Ümumiyyətlə, qida rasionunun təhlili göstərir ki, çörək məhsullarının, südün, ətin, kartofun tərkibində yağ, şəkər və digər zəruri və əvəzedilməz mad-

downloaded from KitabYurdu.org

dələr vardır. Bütövlükdə ərzağın bu qrupları qida rasionunda ümumi kaloriliyin 90 faizini təmin edirlər.

Ərzaq probleminin sosial aspektinə diqqət yetirdikdə məlum olur ki, respublikanın ayrı-ayrı rayonlarında ət-süd və bitkiçilik məhsullarının bəzilərinin təchizatındakı qıtlıqla izah olunur. Əlbəttə ki, bu da öz növbəsində əhalinin həmin zəruri qida məhsullarına olan tələbatının ödənilməsində ərazi differensiallaşdırma dərəcəsinin tədricən azalmasına gətirib çıxarır. Bir sıra sosial-iqtisadi amillər də qida məhsulları istehlakının səmərələşdirilməsi prosesinin ləngidilməsini gücləndirir. Onların ən başlıcası kənd təsərrüfatı məhsulları istehsalının artım sürəti ilə qida məhsullarına yüksək bazar qiymətlərinin mövcudluğu şəraitində əhalinin pul gəlirlərinin artımı arasındakı qeyri-bərabərlikdir.

Araşdırmalar göstərir ki, əhalinin real gəlirlərinin nisbətən zəif artımı ərzağın əldə edilməsinə yönəldilən xərclərin ümumi tərkibinə mənfi təsir göstərmişdir. Təsadüfi deyil ki, əgər 1990-cı ildə əhalinin hər nəfəri hesabı ilə bütövlükdə xərclərinin 56 faizi, 1995-ci ildə isə hətta 72 faizi yalnız ərzaq alınmasına yönəldilirdi. Ailələrin xərclərinin strukturuna nəzər salsaq görərir ki, ötən dövr ərzində, ilk növbədə gəlirlərin dinamik artımı ilə əlaqədər, digər tərəfdən isə gəlirlərə nisbətdə istehlak qiymətlərinin sabitliyinin təmin edilməsinin uğurlu nəticəsi kimi muxtar respublikamızda ailələrin orta aylıq xərclərində ərzaq alışına sərf olunan xüsusi çəki nəzərəçarpacaq dərəcədə azalmışdır. Belə ki, ərzaq məhsullarına çəkilən



xərclərin xüsusi çəkisi təqribən 23 bənd azalaraq 1995-ci ildə 49 faizə düşmüşdür. Gələcəkdə əhali gəlirlərinin artması ilə əlaqədar bu rəqəmin daha da aşağı düşməsi gözlənilir.

Müqayisə üçün göstərək ki, ABŞ-da son illərdə əhalinin ailə büdcəsinin ümumi xərci həcmində ərzağa çəkilən xərclərin xüsusi çəkisi 18-20 faizdən çox olmur. Müqayisələr ölkədə təbəqələşmə prosesinin getdiyini göstərir. Yəni əhalinin az bir qrupunun varlanmasına, çox hissəsinin isə kasıbçılıq həddinə düşməsinə gətirib çıxarır.

Azərbaycanda elə yoxsulluğun azaldılması ilə əlaqədar xüsusi dövlət proqramının qəbul edilməsi də təsadüfi deyildir. Bu haqda növbəti yarımfəsildə məlumat veriləcəkdir.

### *8.2. Naxçıvan regionunun ərzaq təhlükəsizliyi üzrə Dövlət Proqramının reallaşması imkanları*

İndiki şəraitdə ölkələrin və onun hər bir vətəndaşının ərzaq təhlükəsizliyi mühüm vəzifə kimi dövlət qarşısında durur.

Hər bir ölkə vətəndaşının ərzaq təhlükəsizliyi insan ləyaqətinin başlıca meyarı olmaqla insan hüquqlarının əsaslarından biridir. BMT Baş Məclisinin 1946-cı ildə qəbul etdiyi «İnsanların iqtisadi, sosial və mədəni hüquqları haqqında Beynəlxalq Müqavilə»də ac qalmamaq hüququ əsas insan hüquqlarının sırasına daxil edilmişdir. Dünya ərzaq təhlükəsizliyi haqqında 1996-cı il Roma Bəyannaməsində «Hər bir

downloaded from KitabYurdu.org

insanın yaşamaq hüququ və adekvat qidalanma hüququna uyğun olaraq sağlamlıq üçün təhlükəsiz və tam dəyərli ərzaq məhsullarına əlyetərlilik hüququnun» təmin edilməsinin zəruriliyi göstərilmişdir. Ona görə də Azərbaycan hökumətinin ən mühüm vəzifələrindən biri hüququn təmin edilməsi hesab edilir.

Ərzaq təhlükəsizliyi ölkə əhalisinin qida məhsullarına olan tələbatını daxili istehsal hesabına ödənilməsini nəzərdə tutur.

Hazırkı şəraitdə respublika əhalisinin ərzaq məhsulları ilə etibarlı şəkildə təmin edilməsi aqrosənaye kompleksi qarşısında duran ən vacib vəzifələrdən biridir. Bu vəzifənin yerinə yetirilməsi əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına və dövlətin təhlükəsizliyinin təmin edilməsinə imkan verəcəkdir. Allah-taalanın Azərbaycana bəxş etdiyi əlverişli torpaq-iqlim şəraitindən lazımınca istifadə etməklə əkinçilik və heyvandarlıq məhsullarının istehsalını durmadan artırmaq lazımdır. Ölkədə taxılçılığın inkişafına xüsusi diqqət yetirilməlidir. Taxıl istehsalı həcmini elə səviyyəyə çatdırmaq lazımdır ki, növbəti ilin məhsul istehsalına qədər xalq təsərrüfatının ehtiyatlarını və adambaşına tələb olunan miqdar təmin edilsin. Təcrübə göstərir ki, hər bir ölkədə əgər tələbatın 70-80 faizi qədər taxıl istehsal edilərsə, deməli, o ölkədə ərzaq təhlükəsizliyi təmin edilir. Statistik materialların təhlili göstərir ki, ölkəmizdə artıq taxıl və kartof üzrə ərzaq təhlükəsizliyi təmin edilmişdir.

Hesab edirəm ki, respublikanın ərzağa olan tələbatının ödəənilməsi proqnozu hazırlanarkən həm



keçmiş dövrlərdə proqnozlaşdırmada buraxılmış səhvlər, həm də inkişaf etmiş ölkələrin təcrübəsi mütləq nəzərə alınmalıdır.

İqtisadi ədəbiyyatlarda ərzaq probleminə dair müxtəlif yanaşmalar mövcuddur. Bəzi alimlər hesab edirlər ki, dövlət kənd təsərrüfatı məhsulları istehsalçılarının təsərrüfat fəaliyyətinə qarışmamalıdır. Digər alimlər isə əmin olduqlarını bildirirlər ki, kənd təsərrüfatı məhsulları istehsalçıları dövlət dəstəyi olmasa öz fəaliyyətlərini qura bilməzlər. Fikrimizcə, ərzaq probleminə dair söylənilən fikirlər içərisində ən düzgünü i.e.d. B.X.Ataşovundur.

B.Ataşovun belə bir fikri ilə tam razıyam ki, «bazar iqtisadiyyatının indiki və sonrakı mərhələlərində də bir sıra qlobal problemlərin, o cümlədən ərzaq probleminin həllində dövlətimiz özünün tənzimləyici rolunu saxlamalıdır» (9. s.93).

Ümumiyyətlə, ərzaq problemi ümumbəşəri problemdir. XXI əsrdə də bu problem ən aktual, ağır problem olaraq qalmaqdadır. Ona görə də hər bir dövlət öz xalqının taleyi, inkişafı naminə bu problemə diqqəti artırmalıdır. Ərzaq təhlükəsizliyi dövlətin təhlükəsizliyinin tərkib hissəsidir. Başqa MDB ölkələrinə nisbətən Azərbaycan öz zənginliyi ilə fərqlənir və özünü əsasən ərzaqla təmin edə bilər. Keçmiş SSRİ-nin tərkibində ölkəmizdə bir sıra vacib kənd təsərrüfatı məhsulları istehsalı yüksək səviyyəyə çatmışdı və iqtisadi əlaqələrin inkişaf etdiyi bir şəraitdə ərzaq təhlükəsizliyi problemi demək olar ki, həll olunmuşdu. Lakin ittifaqın dağılması sonralar bir

downloaded from KitabYurdu.org

sıra problemlər yaratmışdır. Bir məsələ xüsusilə qeyd olunmalıdır ki, düzdür, bu gün bazarda bolluq var, hər istədiyin şeyi tapa bilərsən. Lakin bu heç də ölkədə ərzaq təhlükəsizliyinin həll edilməsi demək deyildir. Fikrimizcə, problem sistemli şəkildə həll edilməlidir və ona iqtisadi təhlükəsizliyin ən vacib istiqaməti kimi baxılmalıdır.

Hələ keçən əsrin 90-cı illərinin axırlarında ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması və bu sahədə proqram hazırlanması üçün işlər görülürdü. Azərbaycanın görkəmli alimləri tez-tez bir araya gəlir və ərzaq proqramı layihəsinin hazırlanması üçün müzakirələr aparılırdı. Akademik Z.Səmədzadə deyirdi: «İqtisadiyyatın real sektorlarının canlanması üçün konkret işlər görülməli, ağırlıq mərkəzi mikrosahəyə keçməlidir… Azərbaycan torpağı çox zəngindir. Onu yaxşı becərmək, bol məhsul yetişdirməklə əhalinin ərzaqla təmin olunmasını yaxşılaşdırmaq mümkündür. Fəaliyyətimizi, elmimizi, iqtisadi mexanizmləri bu istiqamətə yönəltməliyik. Bol və çoxnövlü məhsul yetişdirmək imkanı ola-ola kənardan kimsəyə ümid bəsləməməliyik. Bu, bizə ulu babalarımızın vəsiyyətidir və ona əməl etmək imkanı vəzifə sahibi olan hər ba azərbaycanlının müqəddəs borcu sayılmalıdır» (49).

Ölkədə kənd təsərrüfatının, o cümlədən əkinçilik və heyvandarlıq məhsulları istehsalının və istehlakının inkişafı cəmiyyətin sabitliyini müəyyən edir, onun dinamik və hərtərəfli inkişafına şərait yaradır. Bu baxımdan biz regional qidalanmanın açarını



başqa amillərlə yanaşı əsasən, ölkədə normal ərzaq bazarının, yəni ərzaq bolluğunun yaradılmasında görürük. Bu yol isə bazar iqtisadiyyatının, formalaşmasından, aqrar-sənaye kompleksinin, o cümlədən ərzaq kompleksinin sürətlə inkişaf etdirilməsindən keçir. Odur ki, ərzaq kompleksinin, onun aparıcı sahəsi olan kənd təsərrüaftının daha da inkişafı, bu sahəyə dövlət qayğısının gücləndirilməsi problemləri, müasir iqtisadi və sosial siyasətimizin başlıca istiqamətinə çevrilməlidir.

Araşdırmalar göstərir ki, ərzaq kompleksinin mövcud ehtiyatlarının tam hərəkətə gətirilməsi və potensial imkanlardan bacarıqla istifadə olunması həyati əhəmiyyət kəsb edən respublikanın ərzaq müstəqilliyinin təmin olunmasının müvəffəqiyyətli həllinə imkan verəcəkdir.

Qeyd edək ki, «Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı» ölkə prezidenti H.Əliyev tərəfindən 2 mart 2001-ci il tarixdə 640 saylı sərəncamla təsdiq edilmişdir.

Proqram iki bölmədən ibarətdir. Birinci bölmə ərzaq təminatı sahəsindəki, ikinci bölmə isə ərzaq istehlakı və əhalinin sosial müdafiəsi sahəsindəki siyasəti müəyyən edir.

Proqramda ərzaq təhlükəsizliyi əsasən ölkənin kənd təsərrüfatının inkişafı və ərzaq istehlakı durumunun yaxşılaşdırılması hesabına təmin olunmalıdır.

Proqramın ölkənin ərzaq kompleksinin gələcək inkişafındakı müstəsna rolu nəzərə alınaraq onun

downloaded from KitabYurdu.org

əsas müddəalarını olduğu kimi oxucuların nəzərinə çatdırırıq.

## Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı

«Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı» Azərbaycan Respublikası Hökumətinin ərzaq təhlükəsizliyi sahəsində öhdəlik və məqsədlərini əhatə edir. Bu proqramın dövlətin maliyyə öhdəlikləri və büdcə imkanları çərçivəsində həyata keçirilməsi nəzərdə tutulur.

Ərzaq təhlükəsizliyi proqramının məqsədləri aşağıdakılardan ibarətdir:

- yerli kənd təsərrüfatı məhsulları istehsalının artırılması və ərzaq məhsullarının qiymətlərinin məqbul səviyyədə saxlanmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi;
- kəskin ərzaq qıtlığı hallarına yol verilməməsi sisteminin yaradılması.

Ərzaq təhlükəsizliyinə nail olmaq üçün Azərbaycan Respublikasının Hökuməti iki mərhələdən ibarət olan aşağıdakı strategiyanın həyata keçirilməsini öhdəsinə götürür:

1. İslahatlar aparıldığı müddətdə ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün qısamüddətli və ortamüddətli keçid tədbirlərinin tətbiqi. Bu əsasən fermer təsərrüfatçılığına və sahibkarlığa kömək göstərilməsi vasitəsilə təmin edilir.



Bu mərhələdə tədbirlərin aşağıdakı istiqamətlərdə aparılması nəzərdə tutulur:

- müvafiq qanunların həyata keçirilməsinə nəzarət;
- gözlənilən ilkin nəticələrin əldə edilməsi üçün lazım olan büdcə ayırmalarının dəqiqləşdirilməsi;
- ərzaq istehsalı sahəsində müvəqqəti vergi güzəştlərinin tətbiqi məsələsinə baxılması;
- qida məhsullarının istehsalı, emalı və satışı üçün kreditlərin alınmasına kömək göstərilməsi;
- qida məhsulları istehsalçılarının ərzaq idxalından müdafiəsi;
- müəssisələr arasında qarşılıqlı borcların restrukturizasiyası;
- istehlakçıların müdafiəsinin gücləndirilməsi;
- ərzaq təhlükəsizliyi sahəsində müvafiq məlumat sisteminin yaradılması yolu ilə fövqəladə vəziyyətə hazırlıqla bağlı əlavə tədbirlərin həyata keçirilməsi.

2. Ərzaq təhlükəsizliyi sahəsində uzunmüddətli tədbirlərin başlıca məqsədi Azərbaycanın kənd təsərrüfatının gəlirliyinin və rəqabət qabiliyyətinin artırılmasını, eləcə də onun beynəlxalq iqtisadi sistemə inteqrasiya olunmasını nəzərdə tutur. Ərzaq təhlükəsizliyi əsasən ölkədə kənd təsərrüfatının inkişafı və ərzaq istehlakı vəziyyətinin yaxşılaşdırılması hesabına təmin edilməlidir.

Buna nail olmaq üçün aşağıdakı dörd əsas istiqamətdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

downloaded from KitabYurdu.org

- ərzaq təhlükəsizliyi ilə bağlı idarəetmə mexanizmlərinin möhkəmləndirilməsi;

- fermer təsərrüfatlarının kommersiya və bazar iqtisadiyyatı tələblərinə cavab verən qurumlara çevrilməsi, kənd təsərrüfatı və ərzaq sektorları üçün müəyyən olunan güzəştlərin mərhələlərlə məhdudlaşdırılması;

- ölkədə ərzaq məhsulları növlərinin istehsalının inkişafı və kənd təsərrüfatının rəqabət qabiliyyətinin təmin edilməsi;

- kənddə infrastrukturun inkişafına kömək edən dövlət investisiya siyasətinin aparılması.

***1. Ərzaq təminatı ilə bağlı siyasət***. Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan iqtisadiyyatı ciddi sarsıntı keçirmişdir. Keçid dövrünün ilk illəri ərzində (1992-1995) ümumi daxili məhsulun səviyyəsi 70 faizdən çox aşağı düşmüş, inflyasiyanın yüksək səviyyəsi real gəlirləri kəskin surətdə azaltmış, manatın məzənnə kursu zəifləmiş, valyuta ehtiyatları tükənmişdir. Bütün bunlar dörd əsas amilin nəticəsində baş vermişdir. Birincisi, Dağlıq Qarabağ uğrunda hərbi münaqişə ərazi itkilərinə və böyük sayda insanların qaçqın vəziyyətinə düşməsinə gətirib çıxarmışdır. İkincisi, Azərbaycanla keçmiş Sovet İttifaqı Respublikaları arasında mövcud olan ənənəvi ticarət əlaqələri kəsilmişdir. Üçüncüsü, keçmiş tərəf müqabillərinin dünya qiymətlərinə keçməsi ilə əlaqədar ticarət şəraiti pisləşmişdir. Dördüncüsü, dövlət büdcəsi kəsirinin emissiya hesabına maliyyələşdirilməsi makroiqtisadi sabitliyin pozulmasına şərait yaratmışdır.



Azərbaycan Respublikasında 1995-ci ildə Ümumi Sabitləşmə Proqramının həyata keçirilməsilə ÜDM-in artım perspektivləri genişlənmişdir. 1996-cı ildə BVF tərəfindən verilən kreditlə, sonralar isə struktur dəyişikliklərinin geniş maliyyələşdirilməsi və kreditləşdirilməsi hesabına pul-kredit sərtləşdirilmiş, valyuta məzənnəsi və ticarətin liberallaşması sahələrində bir sıra struktur islahatları həyata keçirilmişdir. 1996-cı ildən ümumi daxili məhsulun artımı başlamışdır. Bu artım sonrakı illərdə davam edərək 2000-ci ildə 11,4 faizə çatmışdır.

***Makroiqtisadi və maliyyə siyasətinin ümumi strategiyası***. Ərzaq təhlükəsizliyi sahəsində makroiqtisadi və maliyyə siyasətinin əsas məqsədi struktur dəyişikliyinin və artımın təmin edilməsidir. Son illər Proqr valyutanın gücləndirilməsinə yönəldilmiş tədbirlər ümumi vəziyyəti sabitləşdirmiş və beynəlxalq ticarətin inkişafına Proqr olan halları aradan qaldırmışdır. Qarşıdakı illər ərzində də dövlət büdcəsinə nəzarətin gücləndirilməsinə və ödəmə balansının tarazlığının təmin edilməsinə yönəldilmiş struktur dəyişiklikləri proqramları beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlıq çərçivəsində davam etdiriləcəkdir.

İlk növbəti tədbirlər aşağıdakılardır:

- dövlət maliyyə yardımlarının Proqr sektorun inkişafına təsirinin öyrənilməsi və bu istiqamətdə tədbirlərin həyata keçirilməsi;

- istehsalata maliyyə yardımlarının göstərilməsi qaydalarının hazırlanması və maliyyə yardımlarının istehlak üçün səmərəliliyinin müəyyən edilməsi.

downloaded from KitabYurdu.org

***Pul siyasəti***. 1992-1994-cü illərdə müşahidə olunan hiperinflyasiya dövründən fərqli olaraq son illər pul siyasəti əhəmiyyəti dərəcədə dəyişmişdir. Hazırda ölkədə maliyyə sabitliyini təmin etmək üçün dövriyyədə olan pul kütləsinin azaldılmasına əsaslanan maliyyə siyasəti həyata keçirilir.

2001-ci ildə həyata keçirilən pul siyasəti ümumi daxili məhsulu gözlənilən 8.5 faizlik artım fonunda pul kütləsinin 15 faiz artırılmasına yönəlmişdir. Valyuta bazarında məhdud intervensiya siyasəti davam etdiriləcək, bu isə öz növbəsində manatın məzənnə kursunun daha çox bazar tərəfindən müəyyən edilməsinə kömək edəcəkdir. Bu müddətdə diqqət əsasən pul kütləsinin, valyuta ehtiyatlarının və daxili aktivlərin planlaşdırılan artım göstəriciləri üzərində cəmləşəcəkdir.

Valyuta təminatı siyasəti (məhdud intervensiya) əvvəlki kimi mülayim olacaqdır. Hazırda valyuta ehtiyatları beynəlxalq normalara uyğun idxal həcmindədir. Valyuta ehtiyatları ölkənin iqtisadi təhlükəsizliyini təmin edən amil olduğundan, onun minimum səviyyəsinin həddi müəyyən olunacaqdır.

***Büdcə siyasəti***. Büdcə siyasəti makroiqtisadi sabitliyin vacib hissəsidir.

Büdcə siyasətinin aşağıdakı istiqamətlərdə həyata keçirilməsi nəzərdə tutulur:

- xəzinədarlığın möhkəmləndirilməsi, o cümlədən kompüterləşdirmə və mühasibat öhdəliklərinin (hesablar üzrə öhdəliklər) tətbiq edilməsi vasitəsilə



dövlət xərclərinin planlaşdırılması və idarə olunması işinin yaxşılaşdırılması;

- xərclərin strukturunda ünvansız sosial müavinətlərin verilməsinin, malların alınması və xidmətlərin göstərilməsinin məhdudlaşdırılması;

- təhsilə, sosial müdafiəyə, elmə, səhiyyəyə, mədəniyyətə və iqtisadi inkişafa xərclərin artırılması;

- büdcədənkənar xərclərin dəqiqləşdirilməsi, hökumətin təminatılı ilə kreditlərə dair sərt məhdudiyyətlərin müəyyən edilməsi və özəlləşdirmədən əldə olunan gəlirlərin istifadəsində şəffaflığın təmin edilməsi;

- üçillik Dövlət İnvestisiyaları Proqramının qəbul edilməsi, bu proqramın həyata keçirilməsinə nəzarətin gücləndirilməsi;

- uzunmüddətli pesrpektivdə investisiya siyasətinin daha çox kənd təsərrüfatının və regional kənd infrastrukturunun bərpasına yönəldilməsi.

***Vergi siyasəti***. Vergi Məcəlləsinin tətbiqi bu sahədə əhəmiyyətli müsbət nəticələrin əldə edilməsinə imkan verir. Belə ki, Vergi Məcəlləsində vergilərin dərəcələrinin azaldılması və vergi bazasının genişləndirilməsi tədbirləri nəzərdə tutulmuşdur.

Yaxın gələcəkdə vergi yığımının və vergi bazasının genişləndirilməsi ilə bağlı vəziyyətin yaxşılaşdırılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- vergi yükünün azaldılması və yığım əmsalının artırılması;

downloaded from KitabYurdu.org

- güzəştlərin aradan qaldırılması hesabına əlavə dəyər vergisi bazasının genişləndirilməsi;

- tütün məmulatına və spirtli içkilərə aksiz vergisinin dərəcəsinin artırılması.

***Ticarət və gömrük siyasəti***. Qarşıdakı illərdə ticarət və gömrük siyasətinin aşağıdakı istiqamətlərdə aparılması nəzərdə tululur:

- Dünya Ticarət Təşkilatlarının prinsiplərinə uyğun ticarət siyasətinin həyata keçirilməsi;

- daxili bazarın qorunması üçün bir sıra ərzaq məhsullarına yeni gömrük idxal tarif dərəcələrinin, o cümlədən mövsümi rüsumların tətbiq edilməsi;

- məhsulların keyfiyyətinin və təhlükəsizliyinin sertifikatlaşdırılmasının vahid qaydalarının, eləcə də onların gömrük rəsmiləşdirilməsindən keçirilməsi qaydalarının tətbiqi vasitəsilə gömrük nəzarətinin gücləndirilməsi;

- ərzaq məhsullarının kodu, tədarükçüsü (satıcısı), təyinat yeri, istehsal yeri, keyfiyyət sertifikatı, kontraktın məbləğ və digər göstəricilər daxil olmaqla, idxal-ixrac üzrə müntəzəm statistik məlumatın hazırlanması;

- struktur tədbirləri hesabına gömrük nəzarətinin gücləndirilməsi, fasiləsiz gömrük nəzarətinin təşkili;

- Ümumdünya Gömrük Təşkilatı və İsveçrənin texniki köməyi vasitəsilə yeni gömrük qaydalarının tədrisi;

- regional və mərkəzi gömrük orqanları arasında vahid məlumat sisteminin yaradılması (Bu iş



BMT-in İnkişaf Proqramı ilə Dövlət Gömrük Komitəsi arasında bağlanmış sazişə əsasən aparılır. Regional və sərhədyanı gömrük məntəqələrinin fəaliyyətini təmin etmək üçün müvafiq avadanlığın alınmasının maliyyələşdirilməsi təmin olunacaqdır).;

- mənfəətin və əmlakın ikiqat vergiyə cəlb olunmasının qarşısının alınmasını və ƏDV-nin təyinat yerində ödənilməsi prinsipinin tətbiq edilməsi;

- İxraca Yardım Fondunun yaradılması.

***Kənd təsərrüfatının inkişaf strategiyası***. Aqrar bölmənin xüsusi çəkisi ümumi daxili məhsulun strukturunda 19,5 faiz təşkil edir. Bu sahədə əsaslı dəyişikliklər 1996-cı ildən başlanmışdır.

Lakin ərzaq məhsullarının istehsalı mövcud potensialdan və imkanlardan aşağıdır. Bunun əsas səbəbi istehsalın xarakterində lazımi şəraitin (gübrələrin və maliyyənin) olmaması və ya onlardan səmərəsiz istifadə olunması, suvarma sisteminin köhnəlməsi, istehsalçıların maddi-texniki bazasının zəif olunması, kənddə emal, saxlama və qablaşdırma müəssisələrinin olmaması və mövcud avadanlıqların yararsız hala düşməsi, maliyyə vəsaitinin olmaması, suvarma suyunun çatışmaması, daxili bazarın qorunmaması, qiymət və kredit siyasətində uyğunsuzluqların olması, elmi nailiyyətlərin istehsal sahələri ilə uzlaşdırılmaması və s. problemlərdən irəli gəlir. Bu səbəbdən həmin sahədə məhsuldarlığın və rentabelliyin səviyyəsi aşağıdır.

Dövlətin həyata keçirdiyi aqrar siyasəti nəticəsində bu gün kənd təsərrüfatı istehsalının struktu-

downloaded from KitabYurdu.org

runda dəyişikliklər baş verir. Xüsusilə, heyvandarlıq məhsullarının xüsusi çəkisi bitkiçiliyə nisbətən daha sürtələ artır.

Son illər kənd təsərrüfatı sahəsində torpaq islahatı, təsərrüfatların, emal sənayesi və xidmət müəssisələrinin özəlləşdirilməsi kimi mühüm tədbirlər həyata keiçrilmişdir. Lakin bu sahədə müəyyən problemlər də mövcuddur. Birincisi, ayrılan torpaq sahələri sahibkarlara əsasən onların özlərinin ehtiyaclarını təmin etmək imkanı verir. İkincisi, dövlət təsərrüfatlarından və kolxozlardan miras qalmış əmlak yararsız və ya qismən yararlı haldadır. Maşın və mexanizmlər köhnəlmiş, tikililər və qurğular, suvarma sisteminin bir hissəsi yararsız hala düşmüşdür.

Ərzaq təhlükəsizliyi Azərbaycan Respublikası üçün çox əhəmiyyətli olduğundan bu istiqamətdə aparılan siyasət əsasən yaranmış potensialdan və torpaq ehtiyatlarından istifadənin səmərəsini yüksəltməklə istehsalın artırılmasına və məhsul bolluğunun yaradılmasına yönəldilmişdir. İstehsalın səviyyəsinin artması idxal olunan məhsulları yerli məhsullarla əvəz etməyə, pambıq, tütün, barama, tərəvəz və bir sıra digər kənd təsərrüfatı məhsullarının istehsalını çoxaltmaqla, ümumi ticarət balansını yaxşılaşdırmağa və kənd yerlərində məşğulluq səviyyəsinin yüksəldilməsinə imkan yaradır.

Bu strategiya, eyni zamanda, istehsal vasitələrinin özəlləşdirilməsinin sürətləndirilməsini, investisiyaların genişləndirilməsini və kənd təsərrüfatının regional inkişafı vasitəsilə ümumilikdə istehsalın artı-



rılmasına yönəldilmiş bir sıra tədbirləri özündə əks etdirir.

***Təsisat islahatı***. Təsisat islahatı sahəsində Aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- dövlət statistika sisteminin təkmilləşdirilməsi, sahə statistikasının təşkili, müəssisələrin statistikasının yaradılması, onun prinsip və metodlarının müəyyən edilməsi.

Mənbə: dövlət büdcəsi, Beynəlxalq İnkişaf Assosiasiyası tərəfindən texniki yardım.

Məsul təşkilat: Dövlət Statistika Komitəsi.

- 10 faizlik seçmə metodologiyasına əsaslanan toxumçuluğun və damazlığın inkişafına dair illik hesabatların hazırlanması (2001).

Mənbə: dövlət büdcəsi.

Məsul təşkilat: Dövlət Statistika Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi.

- kənd təsərrüfatının ümumi siyahıya alınmasının və inventarlaşdırılmasının keçirilməsi (2010-cu ilə qədər).

Mənbə: BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı.

Məsul təşkilatlar: Dövlət Statistika Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Torpaq Komitəsi;

- Kənd Təsərrüfatı Nazirliyinin yenidənqurulmasının davam etdirilməsi (2001).

Məsul təşkilat: Kənd Təsərrüfatı Nazirliyi;

- kənd təsərrüfatı elmi tədqiqat müəssisələrinin bazasında regionlarda tədqiqat mərkəzlərinin yaradılması.

downloaded from KitabYurdu.org

Məsul təşkilatlar: Elmlər Akademiyası, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi.

- kənd təsərrüfatı fəaliyyətinin genişləndirilməsi üzrə özəl subyektlərin dəstəklənməsi. Fermer Assosiasiyaları Federasiyasının, peşə məşğulluğu üzrə cəmiyyətlərin və birliklərin yaradılması.

Məsul təşkilatlar: Kənd Təsərrüfatı Nazirliyi və aqrar tədqiqat institutları;

- «Toxumçuluq haqqında» Azərbaycan Respublikası Qanununun İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının və UPOV standartlarına uyğunlaşdırılması.

- Baytarlıq xidmətinin yeni fəaliyyət sahələrinin müəyyən edilməsi və bu sahədə islahatlar aparılmasına dair təkliflərin hazırlanması (2001-2004).

Məsul təşkilat: Kənd Təsərrüfatı Nazirliyi;

- Baytarlıq xidmətinə ayrılan maliyyə vəsaitlərinin büdcənin mədaxilindən asılı olaraq artırılması;

Mənbə: dövlət büdcəsi və ərzaq təhlükəsizliyi üzrə qrant.

Məsul təşkilat: Kənd Təsərrüfatı Nazirliyi.

- baytarlıq xidmətinin məlumat toplusunun kompüterləşdirilməsi (2001-2004).

Mənbə: dövlət büdcəsi və beynəlxalq inkişaf təşkilatları.

Məsul təşkilat: Kənd Təsərrüfatı Nazirliyi.

Uzunmuddətli məqsədlər (2005-2010);

- Baytarlıq xidmətinin texniki və inzibati obyektlərinni bərpası.



Məsul təşkilat: Kənd Təsərrüfatı Nazirliyi.

- mal-qaranın dezinfeksiyasını təmin edən qurğuların tikintisi və bərpası.

Mənbə: dövlət büdcəsi və beynəlxalq təşkilatlar.

Məsul təşkilat: Kənd Təsərrüfatı Nazirliyi.

***Torpaq islahatı***. «Torpaq islahatı haqqında» Qanun 1996-cı ilin iyul ayında qəbul edilmişdir. Bu qanun kənd təsərrüfatı torpaqlarının özəlləşdirilməsi üçün imkan yaratmışdır. Azərbaycan Respublikasının ümumi torpaq ehtiyatlarını təşkil edən 8,6 milyon hektardan 3,8 milyon hektarının (44,2%) dövlət mülkiyyətində saxlanılması, 2,7 milyon hektarının (31,4%) bələdiyyə mülkiyyətinə verilməsi və 2,1 milyon hektar (24,4%) torpaq sahəsinin özəlləşdirilməsi ilk variant kimi nəzərdə tutulmuşdur.

Ölkədə torpaq islahatının aparılmasını təmin edən hüquqi baza yaradılmışdır. «Torpaq Məcəlləsi», «Torpaq bazarı haqqında», «Torpaq icazəsi haqqında», «Bələdiyyələrin əraziləri və torpaqları haqqında» qanunlar qəbul edilmişdir.

Torpaq islahatı sahəsində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

Ortamüddətli və uzunmüddətli tədbirlər (2002-2010):

- torpaq vergisi islahatının davam etdirilməsi. Uzunmüddətli perspektivdə torpağın bazar qiymətinə əsaslanan torpaq vergisinin müəyyən edilməsi metodologiyasının qəbul edilməsi.

downloaded from KitabYurdu.org

Məsul təşkilatlar: Maliyyə Nazirliyi, Vergilər Nazirliyi və Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi.

***Torpaqdan və təbii otlaqlardan istifadənin yaxşılaşdırılması.*** Ölkədə torpaqların 1,2 milyon hektarı bu və ya digər dərəcədə şoranlaşmış, müxtəlif növ eroziyalara məruz qalmış, 50 min hektardan artıq torpaq çirkləndirilmişdir. Bundan əlavə 1,4 milyon hektardan çox əkin sahələrinin münbit qatına zərər vurulmuşdur. Xüsusilə Kür-Araz düzənliyində yerləşən özəlləşdirilmiş torpaqların şoranlaşması və su altında qalması ciddi narahatçılıq doğurur.

Təbii otlaqlarda mal-qaranın nəzarətsiz otarılması səbəbindən otlaqlar daimi tənəzzülə uğrayır. Təbii otlaqların böyük sahələri eroziyaya məruz qalmış və su basmışdır.

Torpaqların tənəzzülə uğraması prosesinin qarşısının alınması üçün mərhələli tədbirlərin görülməsi zəruridir. Bu tədbirlər torpaqlardan istifadə etmək haqqında əsasnamələrin qəbul edilməsini və onların həyata keçirilməsini, torpaqların tədqiqatını və müvafiq xəritələrin tərtib edilməsini, torpaqların sağlamlaşdırılmasına və torpaqların keyfiyyətinin yaxşılaşdırılmasına dair hazırlanmış tədbirlərin həyata keçirilməsini əhatə etməlidir. Bunlar aşağıdakılardan ibarətdir:

- mülkiyyət formasından asılı olmayaraq torpaqların təbii vəziyyətinin tənzimlənməsi üzrə qısamüddətli və uzunmüddətli proqramların və onun keyfiyyətinin müəyyən edilməsi üçün meyarların və əsasnamələrin hazırlanması;



- otlaqlardan istifadə edilməsi rejiminə, o cümlədən, otlaqlardan istifadə edilməsinin vergiyə cəlb olunmasına dair əsasnamələrin tətbiqi və onlara riayət olunmasına nəzarət mexanizmlərinin hazırlanması;
- gübrə və restisidlərdən istifadəyə dair əsasnamələrin və nəzarət mexanizminin işlənib hazırlanması;
- topraqların vəziyyətinin öyrənilməsi və torpaqların şoranlaşması vəziyyətini əks etdirən xəritələrin hazırlanması;
- meliorasiya tədbirlərinə ehtiyacı olan torpaqların iri miqyaslı xəritələrinin hazırlanması;
- Torpaq Kadastr xəritələrinin hazırlanması;
- qeyri-məhsuldar torpaqların müəyyən edilməsi və onların (təbii qoruqlar, yasaqlıqlar və sair) istifadəsinə dair təkliflərin verilməsi;
- şoranlaşmış, su altında qalmış və çirklənmiş torpaqların müəyyən edilməsi və onlardan istifadəyə dair təkliflərin verilməsi;
- torpaqların keyfiyyətinin qorunmasına və yaxşılaşdırılmasına dair tədbirlər kompleksinin və müvafiq mexanizmlərin həyata keçirilməsi;
- çirklənmiş və tənəzzülə uğramış torpaqların rekultivasiyası;
- zonalar üzrə kənd təsərrüfatı torpaqlarının gübrələnmə dövriyyəsinin və sistemlərinin öyrənilməsi;
- yerli üzvi və mineral gübrə yataqlarının müəyyən edilməsi və istismarı imkanlarının tədqiqi,

downloaded from KitabYurdu.org

gübrələrə olan tələbatın öyrənilməsi və onlardan istifadənin təkmilləşdirilməsi;

- yay və qış otlaqlarında ot örtüyünün hərtərəfli öyrənilməsi, yabanı və mədəni ot bitkiləri toxumlarının alınması və yayılması;
- yabanı və mədəni otların toxumlarının əsas keyfiyyət göstəricilərinin öyrənilməsi;
- şərti yararsız torpaqların dövriyyəyə cəlb edilməsi;
- meliorasiya işlərinin aparılması üçün ölkənin müxtəlif aqroiqtisadi zonalarında torpağın mühafizəsi üzrə qrupların yaradılması;
- çirklənmiş və tənəzzülə uğramış torpaqların meliorasiya və rekultivasiyası metodikasının tətbiqi;
- dağlıq və aran zonalarında erroziyaya qarşı tədbirlər kompleksinin hazırlanması və həyata keçirilməsi.

***Meliorasiya və irriqasiya sisteminin yenidənqurulması***. Azərbaycanda əkin altında olan torpaqların 90 faizi suvarılır. Ölkənin su ehtiyatları 31,2 milyard kub metr həcmində qiymətləndirilir. Bunlardan 12 milyard kub. metrə yaxını suvarma üçün istifadə edilir. Əkin altında olan torpaqların ümumi həcmindən 1,45 milyon hektarı suvarılır. Drenaj sistemləri isə yalnız 610 min hektar sahədə quraşdırılmışdır. Ümumi həcmi 21,5 milyon kub. metr olan 153 su anbarı, 8 min artezian quyusu, 1645 nasos stansiyası mövcuddur. Suvarma kanallarının ümumi uzunluğu 73,3 min km, drenaj xətlərinin uzunluğu – 33 min km. təşkil edir. Sahilyanı mühafizə qurğularının



ümumi uzunluğu 1700 kilometrdir. Torpaqların meliorasiyası və suvarılması sahəsində tədbirlər aşağıdakı istiqamətlərdə aparılmalıdır:

- suvarılan torpaqların meliorasiyasının, onların meliorasiya və irriqasiya avadanlığı ilə təchizatının yaxşılaşdırılması;
- suvarılan torpaqların su təchizatının yaxşılaşdırılması;
- çaylar üzərində su anbarlarının tikintisi, iri kanalların bərpası və daha müasir suvarma metodlarının tətbiqi vasitəsilə su ehtiyatlarının artırılması;
- çay sahillərinin bərpası və çayların gil və daşlardan təmizlənməsi vasitəsilə sahilyanı eroziyaya qarşı mübarizənin aparılması;
- özəl fermer təsərrüfatlarının inkişafı üçün suvarma işlərinin aparılmasına subsidiyaların ayrılması;

Növbəti tədbirlər aşağıdakılardan ibarətdir:

- təsərrüfatlara və bələdiyyələrə məxsus olan su obyektlərinin fəaliyyəti və maddi-texniki təchizatının təmin edilməsi, habelə suyun bölüşdürülməsi sistemlərinin istifadəsi və maddi-texniki təchizatının əsasları üzrə təsərrüfatdaxili obyektlərin əməkdaşlarının yenidən hazırlığı üçün proqramların hazırlanması.

Məsul təşkilatlar: Meliorasiya və Su Təsərrüfatı Komitəsi, Kənd Təsərrüfatında Özəl Bölmənin inkişafına Yardım Agentliyi;

- Su istehlakçıları Assosiasiyalarının ölkənin bütün rayonlarında yaradılmasına yardım göstərilməsi.

downloaded from KitabYurdu.org

Mənbə: Göstərilən xidmətlərdən əldə olunan vəsait. Dünya Bankı tərəfindən maliyyələşmə və texniki yardım.

Məsul təşkilat: Meliorasiya və Su Təsərrüfatı Komitəsi.

- suvarma və drenaj sistemləri infrastrukturunun yenidən qurulması və bərpası üzrə layihələr əsasında suvarma infrastrukturunun 11 ən əhəmiyyətli obyektinin tikintisi (2001-2010).

Məsul təşkilat: Meliorasiya və Su Təsərrüfatı Komitəsi.

Xanarxı kanalının layihələndirilməsi və tikintisi.

Mənbə: 9,4 milyon ABŞ dolları İslam İnkişaf Bankı tərəfindən verilmişdir.

Məsul təşkilat: Meliorasiya və Su Təsərrüfatı Komitəsi.

- Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasının 1-ci mərhələsi. Tikinti işlərinə yeni qazma və nəqliyyat-qaldırıcı avadanlığının alınması, suvarma kanallarının təmizlənməsi, su anbarı və SES-in tikintisi, habelə sahilyanı qurğuların möhkəmləndirilməsi və bərpası daxildir.

Mənbə: 42 milyon ABŞ dolları həcmində güzəştli kreditin ayrılması ilə əlaqədar Dünya Bankı ilə Saziş imzalanmışdır. 194,5 milyon ABŞ dolları həcmində güzəştli kreditin ayrılmasına dair Yaponiya ilə danışıqlar aparılır.

Məsul təşkilatlar: Meliorasiya və Su Təsərrüfatı Komitəsi, Maliyyə Nazirliyi.



Mil-Muğan baş kollektorunun tikintisi;

Mənbə: dövlət büdcəsi və beynəlxalq maliyyə təşkilatları.

Məsul təşkilat. Meliorasiya və Su Təsərrüfatı Komitəsi.

Vayxır su anbarının tikintisi.

Mənbə: dövlət büdcəsi və beynəlxalq maliyyə təşkilatları.

Məsul təşkilat. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti.

***Ərzaq istehsalı sahəsində fəaliyyət göstərən təsərrüfat subyektlərinə yardım***. Ərzaq istehsalı sahəsində fəaliyyət göstərən subyektlərin təsərrüfat fəaliyyətinin rentabelliyi hazırda aşağı səviyyədədir. Bu məsələnin həlli üçün hökumət kənd təsərrüfatına yardım tədbirləri paketinin həyata keçirilməsinə başlamışdır.

Hökumətin aqrar bölmədə siyasətinin əsas məqsədi investisiyaların səmərəliliyini artırmaq və digər məqsədyönlü tədbirlərin həyata keçirilməsi yolu ilə kənd təsərrüfatı məhsullarının istehsalında yüksək rentabelliyi təmin etməkdən ibarətdir.

Rentabelliyə və rəqabət qabiliyyətinə nail olmaq, dövriyyə kapitalını əldə etmək üçün ərzaq məhsulları istehsalçılarının modernləşdirməyə yönəldilmiş investisiyalara, habelə texniki və istehsal innovasiyalarına ehtiyacları vardır.

Ərzaq şəbəkəsinə yardımın iki mərhələdə həyata keçirilməsi nəzərdə tutulur. Keçid dövrünün birinci mərhələsində (2000-2004) ərzaq istehsalçılarına

downloaded from KitabYurdu.org

lazımi ehtiyatları yaratmaq üçün bir sıra güzəştlər verilir. Bu, ümumi ərzaq təhlükəsizliyinə nail olunmasına və ərzaq sektorunun inkişafına kömək etməlidir.

İkinci mərhələdə (2005-2010) bu güzəştlər tədricən ləğv olunur. Nəticədə rəqabət qabiliyyəti olmayan ərzaq müəssisələrinin tədricən bazardan çıxarılması, orta və iri ərzaq istehsalçılarının möhkəmləndirilməsi prosesi baş verir.

Aşağıdakı qüsamüddətli və ortamüddətli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

2001-2004-cü illərdə:

- kənd təsərrüfatı islahatçıları üçün neft məhsullarına güzəştli satış qiymətlərinin saxlanılması;

- ölkədə istehsal olunmayan kənd təsərrüfatı mallarının idxalı üçün güzəştli gömrük tariflərinin tətbiq edilməsi;

- istehsal olunan şərab və pivə məhsullarının aksiz dərəcələrini idxal edilən şərab və pivə məhsullarına tətbiq olunan aksiz dərəcələrinə uyğunlaşdırılması;

Məsul təşkilatlar: Maliyyə Nazirliyi, Vergilər Nazirliyi;

- yeyinti məhsulları sektorunda (anbarlar da daxil olmaqla) modernləşdirməyə və inkişafa yardım tədbirlərinin həyata keçirilməsi. Bu tədbirlər kənd təsərrüfatı məhsullarının emalı sahəsinin bərpasına və istehsalçı fermer təsərrüfatları ilə emal müəssisələri arasında əlaqələrin möhkəmləndirilməsinə kömək göstərəcəkdir.



Mənbə: Kənd Təsərrüfatında İslahatlara Dövlət Yardımı Fondu.

Məsul təşkilatlar: Vergilər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi;

- kənd təsərrüfatı maşın və avadanlığının lizinqi ilə məşğul olan özəl şirkətlərin yaradılması. Bu tədbirlər müvəqqəti vergi güzəştlərini, kənd təsərrüfatı maşın və avadanlıqlarının idxalının gömrük rüsumları üzrə güzəştlərin, eləcə də kreditlərin verilməsini nəzərdə tutur.

Mənbə: Kənd Təsərrüfatında İslahatlara Dövlət Yardımı Fondu.

Məsul təşkilatlar: Vergilər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi;

- yeyinti sənayesi məhsulları sahəsinə investisiyalar üzrə Kredit Təminatı Dövlət Fondunun yaradılması: Fond texnoloji modernləşdirmə üçün yeyinti sənayesinə investisiyaların qoyulması məqsədilə verilən kommersiya kreditlərinə təminat verəcək. Nəzərdə tutulur ki, Fond üzrə kommersiya banklarının iştirakının fəallaşmasına və kreditlər üzrə faizlərin azaldılmasına kömək etməlidir.

Mənbə: Kənd Təsərrüfatında İslahatlara Dövlət Yardımı Fondu.

Məsul təşkilatlar: Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi;

- fermer təsərrüfatlarına, eləcə aqrar sektorda orta və kiçik müəssisələrə konsaltinq və məlumat xidmətlərinin göstərilməsi. Bu xidmətlər fermer təsər-

downloaded from KitabYurdu.org

rüfatları və ümumilikdə kənd təsərrüfatı sektorunda işgüzar fəallığın artmasına kömək göstərəcəkdir.

Mənbə: dövlət büdcəsi və beynəlxalq maliyyə təşkilatları.

Məsul təşkilatlar: Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi;

- ixraca Yardım Fondunun və ticarətə kömək göstərəcək Agentliyin yaradılması.

Mənbə: beynəlxalq inkişaf təşkilatları.

Məsul təşkilatlar: Ticarət Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi;

- istehsalçıların səylərinin və resurslarının könüllü birləşməsi əsasında istehsal, birgə tədarük və satış, kredit və sair fəaliyyət növləri üzrə kooperativlərin yaradılması.

Məsul təşkilatlar: Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi;

- ərazi istehsal, emal, tədarük və satış, təchizat, maliyyə-kredit və s. kooperativlərinin yaradılması.

Məsul təşkilatlar: Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi;

2005-2010-cu illərdə:

- kənd təsərrüfatı istehsalçıları üçün güzəştli vergi rejiminin beşillik müddəti başa çatdıqdan sonra, yeni vergi rejiminin münasibliyi məsələsinə baxılması;

- büdcə gəlirlərinin vəziyyətini nəzərə almaqla daxilolmaların müəyyən hissəsinin ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə yönəldilməsi.



***Kredit təminatının yaxşılaşdırılması***. Fermer təsərrüfatlarına və emal müəssisələrinə kredit yalnız girov qoyulan əmlakın sığorta olunduğu halda verilir. Lakin yüksək sığorta tarifləri riskin səviyyəsini əks etdirərək fermer təsərrüfatlarının kredit almaq imkanlarını məhdudlaşdırır. 70-ə yaxın özəl sığorta şirkəti, eləcə də «Azərdövlətsığorta» Dövlət Sığorta Şirkəti bu növ kreditin məhsul sığortasını təklif edirlər.

Hökumətin kredit siyasəti kənd təsərrüfatı və emal müəssisələrinin kredit almaq imkanlarının genişləndirilməsinə yönəldilmişdir.

Borcların restrukturizasiyası, «Müflisləşmə haqqında» və «Girov haqqında» qanunların tətbiqi, eləcə də Kredit və Əmanət Assosiasiyalarının yaradılması kredit almaq imkanlarının genişləndirilməsinə yardım etməlidir.

Proqram çərçivəsində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- Müflisləşmə haqqında» Qanunun tətbiqi ilə bağlı təşkilati tədbirlərin həyata keçirilməsi.

Məsul təşkilat: Maliyyə Nazirliyi;

- «Girov haqqında» Qanunun tətbiqi ilə bağlı təşkilati tədbirlərin həyata keçirilməsi.

Məsul təşkilatlar: Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi;

- Kommersiya banklarının yenidən qurulması və özəlləşdirilməsi ilə bağlı təşkilati tədbirlərin həyata keçirilməsi.

downloaded from KitabYurdu.org

Məsul təşkilatlar: Milli Bank, Maliyyə Nazirliyi və beynəlxalq maliyyə təşkilatı;

- Beynəlxalq İnkişaf Assosiasiyasının banklararası avtomatik mübadilə sisteminin quraşdırılması (2001-2004);

- sənaye və kənd təsərrüfatı müəssisələrinin yenidən qurulması Agentliyi yaradılması (2001-2005). Agentlik müəssisələrin kredit və borc balanslarının tərtib edilməsi, borcların ödənilməsi üçün mülkiyyətin və aktivlərin satılmasına yardım edilməsi, restrukturizasiya planlarını razılaşdırmış müəssisələrə güzəştli kreditlərin ayrılması, konsaltinq xidmətlərinin göstərilməsi və restrukturizasiya prosesinə yardım edilməsi məsələləri ilə məşğul olacaqdır.

Məsul təşkilatlar: Maliyyə Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi;

- fermer təsərrüfatlarına, habelə aqrar bölmənin kiçik və orta müəssisələrinə əsasən uzunmüddətli kreditlərin ayrılması.

Məsul təşkilatlar: Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və İqtisadi İnkişaf Nazirliyi;

- kənd təsərrüfatının inkişafı və kreditləşdirilməsi üzrə Dünya Bankının Layihəsi çərçivəsində Kənd Kredit Birliklərinin yaradılması;

Məsul təşkilat: Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyi.

***Ərzaq məhsullarından istifadə və əhalinin sosial müdafiəsi sahəsində siyasət. Sağlam qidalanma və ərzağın keyfiyyətinin yaxşılaşdırılması.*** Doxsanıncı illərin əvvəllərində baş verən sosial-iqtisadi tənəzzül



əhalinin həyat səviyyəsinin aşağı düşməsinə və qidalanmanın qismən pisləşməsinə səbəb olmuşdur. Məhz buna görə də insan orqanizmində dəmir və yod mikroelementlərinin, eləcə də vitaminlərin çatışmazlığı halları müşahidə olunur. Məsələn, xörək duzunda yod çatışmazlığı nəticəsində dağ rayonlarında zob xəstəliyinin yayılması hallarına rast gəlinir. Deyilənləri əsas tutaraq qidalanma siyasətinin məqsədi tarazlaşdırılmış qidalanmanın, xüsusilə uşaqlar arasında kifayət qədər qidalanmama hallarının, yod və dəmir çatışmazlığı ilə bağlı xəstəliklərin azaldılması, habelə südəmər uşaqların Proq südü ilə yedizdirilməsi və digər tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Ərzaq məhsullarının keyfiyyəti və təhlükəsizliyi ölkədə istehsal olunan və xarici ölkələrdən gətirilən ərzaq məhsullarına vahid monitorinq əsasında nəzarətin tətbiqi ilə təmin oluna bilər.

Əhalinin qidalanmasının yaxşılaşdırılmasına nail olmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

- ərzaq məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarət mexanizminin yaradılması və tətbiq edilməsi;

- yerli ərzaq məhsullarının istehsalının, emalının və marketinqinin inkişafına nail olunması:

Bu məqsədlə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

2002-2004-cü illərdə:

downloaded from KitabYurdu.org

- ərzaq təhlükəsizliyinə və keyfiyyətə nəzarət laboratoriyalarının, o cümlədən Mərkəzi Gömrük Laboratoriyasının, yerlərdə gömrük laboratoriyalarının və ekspres diaqnostika laboratoriyalarının yaradılması və möhkəmləndirilməsi.

Mənbə: dövlət büdcəsi.

Məsul təşkilatlar: Dövlət Gömrük Komitəsi, Səhiyyə Nazirliyi və İqtisadi İnkişaf Nazirliyi;

- ərzaq məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin müasir üsul və metodlarının tətbiqi;

- bitkilərin mühafizəsi sahəsində bioloji metodların tətbiqi;

- karantin xidmət orqanlarının müvafiq avadanlıqla (o cümlədən, kompüterlərlə) təchiz edilməsi.

Məsul təşkilat: Kənd Təsərrüfatı Nazirliyi.

***Əhalinin sosial müdafiəsi tədbirləri***. Son illər qida məhsullarının istehlakında bir sıra struktur dəyişiklikləri baş vermişdir. Aparılan müşahidələr göstərir ki, qida məhsullarının istehlakında ilkin tələbat məhsullarının xüsusi çəkisinin artması ilə yanaşı, protein və yağlı məhsulların xüsusi çəkisinin bir qədər azalması müşahidə olunur. Hazırda istehlak olunan ərzaq məhsullarının enerji tutumunun adambaşına düşən orta günlük norması 2100 kilokalori təşkil edir. Taxıl istehlakının adambaşına düşən orta günlük norması 1998-ci ildə 150 kiloqram təşkil etmişdir.

Əhalinin sosial müdafiəsinə yönəldilmiş tədbirlər ünvanlı ödənişlərin (əlavə gəlirlərin) təmin



edilməsini, habelə gəlir gətirən fəaliyyətlə məşğul olmaq üçün yardım tədbirlərin həyata keçirilməsini özündə əks etdirir.

Ortamüddətli tədbirlər (2002-2010) aşağıdakılardan ibarətdir:

- pensiya təminatının minimum məbləğinin yaşayış minimumunun səviyyəsinə uyğunlaşdırılması.

Məsul təşkilatlar: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və İqtisadi İnkişaf Nazirliyi;

- minimum istehlak səbətində dəyişikliklərə uyğun olaraq əməyin ödənilməsinin minimum səviyyəsinin ildə bir dəfə müəyyən edilməsi.

Məsul təşkilatlar: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və İqtisadi İnkişaf Nazirliyi.

- hər iki ildən bir və ən azı 3000 ailəni əhatə edən ailə büdcəsinin öyrənilməsinin həyata keçirilməsi.

Mənbə: qeyri-dövlət təşkilatları və beynəlxalq inkişaf təşkilatları.

Məsul təşkilatlar: Dövlət Statistika Komitəsi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi.

***Sosial müdafiə mexanizmləri***. Sosial müdafiə mexanizmlərinin məqsədi əhalinin bütün rasionlar və fizioloji istehlak normalarına uyğun olaraq səmərəli və sağlam ərzaq məhsulları əldə etmək imkanlarının təmin edilməsi üçün minimum gəlirin əldə edilməsi imkanının yaradılmasıdır. Sonrakı vəzifələr isə aztəminatlı qruplara, gələcəkdə onları sərbəst təmin edə biləcək fəaliyyətə investisiya qoymaq imkanı əldə etmək üçün yardımın göstərilməsini nəzərdə tutur.

downloaded from KitabYurdu.org

Hökumət aztəminatlı əhalinin sosial müdafiəsini gücləndirmək üçün məqsədyönlü sosial yardımların, habelə pensiya və işsizlik müavinətlərinin artırılması sahəsində tədbirləri davam etdirəcəkdir.

2002-2010-cu illərdə:

- pensiya islahatı konsepsiyasına uyğun olaraq üç səviyyəli pensiya təminatı sisteminin yaradılması və tətbiq edilməsi;
- işsizlərin peşə hazırlığına yardım edən təbdirlərin həyata keçirilməsi;
- fərdi sahibkarlıq fəaliyyətinə başlayan işsizlərə birbaşa yardımın göstərilməsi, vergi siyasətinin yumşaldılması;
- ölkədə əhalinin məşğulluğunun, işsizliyin və natamam məşğulluğun dəqiq müəyyənləşdirilməsini təmin edən və beynəlxalq təcrübədə tətbiq olunan qaydalara keçməsi.

***Fövqəladə vəziyyətə hazırlıq***. Fövqəladə vəziyyətə hazırlığın məqsədi fövqəladə vəziyyət şəraitində əhalinin zərər çəkmiş təbəqələrinin operativ və vaxtlı-vaxtında ərzaq məhsulları ilə təmin edilməsindən ibarətdir.

Aqrar islahatlar prosesində statistik məlumatların toplanması sistemi əhəmiyyətli dərəcədə dəyişmişdir. Statistik məlumatların toplanması ilə bağlı əsas problemlər uçot obyektlərinin sayının artması, kənd təsərrüfatının strukturunda dəyişikliklərin baş verməsi ilə resursların məhdud olması ilə bağlıdır.

Ərzaq təhlükəsizliyinin məlumat sisteminin məqsədi ərzaq təhlükəsizliyi sahəsində siyasətin həyata keçirilməsi, aztəminatlı təbəqələrin ərzaq məhsulları ilə təmin edilməsi üçün bu sahədə vəziyyətin araşdırılmasını və müvafiq məlumatın əldə edilməsini nəzərdə tutur.



Bu məqsədlə aşağıdakıların həyata keçirilməsi nəzərdə tutur:

- Ərzaq təhlükəsizliyinin məlumat sisteminin (müşahidələr) yaradılması və inkişaf etdirilməsi;
- fəaliyyət planının hazırlanması və tələb olunan inzibati qurumun yaradılması (ofis avadanlığı və rabitə vasitələri ilə təchizat daxil olmaqla);
- əməkdaşların hazırlanması;
- məlumat göstəricilərinin və mənbələrinin müəyyən edilməsi;
- müvafiq makroiqtisadi və hüquqi göstəricilər üzrə, habelə ərzaq balansı, sosial və qidalanma göstəricilərinə dair məlumat bazasının yaradılması və inkişaf etdirilməsi;
- məlumatların təhlili və yayılması;

Maliyyə mənbələri: dövlət büdcəsi (istismar xərcləri) və Avropa Komissiyasının Ərzaq Təhlükəsizliyi Proqramı (texniki xərclər), Avropa Komissiyasının RESAL Proqramı tərəfindən texniki yardım.

Məsul təşkilatlar: Ərzaq Təhlükəsizliyi üzrə Dövlət Komissiyası, Dövlət Statistika Komitəsi və Kənd Təsərrüfatı Nazirliyi (nəzərə almaq lazımdır ki, 2004-cü ilin oktyabr ayından Meliorasiya və Su Təsərrüfatı Komitəsi, Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyi ləğv edilərək Kənd Təsərrüfatı Nazirliyinə verilmişdir).

downloaded from KitabYurdu.org

### *8.3. Yoxsulluğun azaldılmasına yönəldilmiş iqtisadi və sosial siyasət*

Yoxsulluq dünyanın bir çox ölkələrində olduğu kimi Azərbaycanda da cəmiyyətin davamlı inkişafı yolunda əsas maneədir. Bu baxımdan yoxsulluğun azaldılması hökumətin müəyyən etdiyi əsas prioritet məsələlərdən biri hesab edilir.

Bu günə kimi 191 dövlətin qoşulduğu yoxsul əhalinin sayının dünyada 2015-ci ilədək yarıya qədər azaldılması öhdəliyini əks etdirən Minilliyin Bəyannaməsini Azərbaycan Respublikası adından Ümummilli lider Heydər Əliyev 2000-ci ildə imzalamışdır. Bəyannamədə göstərilən problemlərin həlli istiqamətində 8 qlobal məqsəd, 18 konkret hədəf və bu sahədə irəliləyişlərin monitorinqinin aparılması üçün 48 göstərici müəyyənləşdirilmişdir. Minilliyin Bəyannaməsinə imza atmış digər dövlətlər kimi Azərbaycan da Minilliyin İnkişaf Məqsədlərinin (MİM) yerli şəraitə uyğunlaşdırılmasına başlamışdır. Hazırda bu məqsədlərə nail olmaq üçün zəruri siyasət tədbirləri və maliyyə vəsaitlərinin müzakirəsini davam etdirir. Ölkə üçün səciyyəvi MİM-nin formalaşdırılması üçün qlobal məqsədlər qismən yerli şəraitə uyğunlaşdırılmışdır. Demək olar ki, ölkəmiz MİM-nin müəyyən edilməsi istiqamətində mühüm irəliləyişə nail olmuşdur.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, yoxsulluğun azaldılması hazırda beynəlxalq ictimaiyyət qarşısında duran ümumbəşəri bir problemdir. Əgər əvvəllər yoxsulluq, əsasən, əhalinin gəlirlərinin səviyyəsi və onun ərzaqla təminatı ilə ölçülürdüsə, hazırda bu məfhum daha geniş məna kəsb edir. Bu gün yoxsulluğun azaldılması, eyni zamanda, əhalinin istehsal resurslarından, o cümlədən, torpaqdan, su ehtiyatlarından istifadə etməsi, habelə, işlə təmin olunması, təhsil almaq, səhiyyə xidmətlərindən faydalanmaq imkanlarının genişləndirilməsi, bütün səviyyələrdə kişilərlə qadınların hüquq bərabərliyinin təmin edilməsi, infrastruktur və kommunal xidmətlərə olan ehtiyacın ödənilməsi, sanitariya və gigiyena şəraitinin, habelə, ətraf mühitin yaxşılaşdırılması insan üçün layiqli həyat şəraitinin təmin edilməsi deməkdir.



Hazırda dünya ölkələrinin əksəriyyətində yoxsulluq probleminin həlli mühüm məsələ kimi qarşıya qoyulur. DB-nin hazırladığı Dünyanın İnkişafı haqqında məruzəyə (2000/2001) əsasən XXI əsrin başlanğıcında dünya əhalisinin demək olar ki, yarısının (2,8 milyard nəfər) gündəlik gəliri 2 ABŞ dollarından, 1,2 milyard nəfərin gündəlik gəliri isə 1 ABŞ dollarından aşağıdır. Doğulan hər 100 uşaqdan 6-sı bir yaşa, 8-i isə 5 yaşa çatanadək tələf olur. Məktəb yaşına çatmış hər 100 uşaqdan 23-ü təhsil almaq imkanından məhrumdur. Bu problemləri həll etmək üçün hazırda dünyanın 70-ə yaxın ölkəsində yoxsulluğun azaldılması üzrə strategiyanın hazırlanması prosesi gedir. Dünya ölkələrinin təcrübəsi göstərir ki, yoxsulluğun azaldılmasında makroiqtisadi sabitliyin əldə olunması və bazar prinsiplərinə əsaslanan iqtisa-

downloaded from KitabYurdu.org

diyyatın formalaşmasına yönəlmiş islahatların həyata keçirilməsi həlledici rol oynayır.

Dünyanın İnkişafı haqqında məruzədə yoxsulluğun azaldılması strategiyasının 3 əsas istiqaməti müəyyən edilmişdir:

1. İqtisadi imkanların yaradılması;
2. Hüquq və imkanların genişləndirilməsi;
3. Maddi təhlükəsizliyin artırılması.

İqtisadi imkanların yaradılması əldə olunan ümumi iqtisadi artımın bazasında əhalinin gəlir əldə etmə imkanlarının genişləndirilməsi tədbirlərini əhatə edir ki, bunun da təməlində iqtisadi islahatlar dayanır. Hüquq və imkanların genişləndirilməsi tədbirləri, əsasən, siyasi və sosial proseslərin əlaqələndirilməsi ilə bağlıdır. Burada başlıca məqsəd dövlət idarəçiliyinin, hüquq institutlarının səmərəliliyinin artırılmasından, vətəndaş cəmiyyəti ilə münasibətlərdə mövcud olan maneələrin aradan qaldırılmasından ibarətdir. Maddi təhlükəsizliyin artırılması əsasən, əhalinin iqtisadi və təbii fəlakətlərdən, əlillikdən, şəxsiyyətə qarşı zorakılıqdan qorunmasına, eləcə də bu risklərin azaldılmasına yönəldilmiş tədbirləri əhatə edir.

Qeyd olunan istiqamətlər üzrə səylərin birləşdirilməsi dünya ictimaiyyətinin diqqət mərkəzindədir. 2002-ci ilin avqust-sentyabr aylarında Yohannesburqda Davamlı İnkişaf üzrə Ümumdünya Toplantısında qeyd edilmişdir ki, yoxsulluğun azaldılması probleminin həllinin ağırlığı, əsasən, ölkələrin öz üzərinə düşsə də, bu istiqamətdə bütün səviyyələrdə səylər birləşdirilməli və əlaqələndirilməlidir. Bununla bərabər, yoxsulluğun azaldılması üzrə tədbirlərin hazırlanması yalnız hökumət və donor təşkilatlarının deyil, eyni zamanda vətəndaş cəmiyyətinin bütün üzvlərinin vəzifəsidir.



Yuxarıda göstərilən meyarlar baxımından yanaşsaq görərik ki, Azərbaycan Respublikasında da yoxsulluq problemi mövcuddur, həm də, onun bir sıra özünəməxsus cəhətləri də vardır. 80-ci illərin sonunda, 90-cı illərin əvvəlində SSRİ məkanında yaranmış siyasi böhran, formalaşmış təsərrüfat əlaqələrinin pozulması, Dağlıq Qarabağda başlayan separatçılıq hərəkatı, Azərbaycanın bütün bölgələrində tətillərin başlanması, nəticə etibarilə, əksər müəssisələrin fəaliyyətinin dayanmasına səbəb oldu. Həmin dövrdə respublikada ümumi daxili məhsulun istehsalı hər il orta hesabla 10-15% aşağı düşür, hiperinfilyasiya prosesi sürətlənirdi.

1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının sosial-iqtisadi həyatında köklü dəyişikliklər baş vermiş, bir ictimai-iqtisadi inkişaf modelindən digərinə keçidlə əlaqədar, mahiyyət etibarilə yeni, əvvəllər mövcud olmayan siyasi, institusional, hüquqi, iqtisadi, sosial və psixoloji xarakterli problemlər qarşıya çıxmışdır. Bir tərəfdən bu problemlərin təsiri altında ölkənin sosial iqtisadi tənəzzülü, digər tərəfdən isə, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, bir milyona qədər qaçqınlar ordusunun yaranması, respublikanın iqtisadi, siyasi, informasiya blokadasına alınması və ölkədə qeyri-sabit siyasi vəziyyətin yaranması əhali-

downloaded from KitabYurdu.org

nin həyat səviyyəsinin kəskin şəkildə pisləşməsinə səbəb olmuşdur.

1994-cü ildə atəşkəs əldə olunduqdan və ilk neft müqaviləsi imzalandıqdan sonra Azərbaycanda BVF və DB ilə sıx əməkdaşlıq şəraitində irimiqyaslı iqtisadi islahatlar başlandı. Bunun nəticəsində iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artmış, maliyyə vəziyyəti sabitləşmiş, iqtisadi artım təmin edilmiş, inflyasiya cilovlanmışdır.

Digər tərəfdən, ölkəmizdə dünyəvi dəyərlərə, demokratiya prinsiplərinə əsaslanan dövlət quruculuğu işlərinə başlanılmış, bu sahədə əhəmiyyətli uğurlar qazanılmışdır. Beləliklə, əldə edilmiş siyasi və makroiqtisadi sabitlik yoxsulluğun azaldılmasını Azərbaycan dövlətinin sosial-iqtisadi siyasətinin başlıca məqsədi səviyyəsinə qaldırmağa imkan vermişdir.

Məhz bu ali məqsədə nail olmaq, zəruri tədbirləri ardıcıl şəkildə həyata keçirmək üçün Azərbaycan hökuməti tərəfindən «2003-2005-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı» hazırlanmış və həmin sənəd Azərbaycan Respublikası Prezidentinin 20 fevral 2003-cü il tarixli 854 saylı Fərmanı ilə təsdiq edilmişdir.

Bu proqramda 225 məqsədli tədbirin reallaşdırılması nəzərdə tutulur.

Proqramda nəzərdə tutulmuş bütün tədbirlərin mövcud maliyyə imkanlarına uyğunluğu müvafiq maliyyə mənbələrinin Ortamüddətli Xərclər Strategiyasında (OMXS) nəzərə alınmış və tədbirlərin həyata



keçirilməsinə monitorinq nəzarəti üçün göstəricilər müəyyən edilmişdir. Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzdə Dövlət Proqramının (YAİİDP) hazırlanması zamanı qarşıya qoyulan məqsədlərin Birləşmiş Millətlər Təşkilatının Minilliyin Bəyannaməsində qarşıya qoyduğu məqsədlərə uyğunluğu da nəzərə alınmışdır.

YAİİDP 3 illik dövrü (2003-2005-ci illər) əhatə edir və hər il nəzərdə tutulmuş tədbirlərin icra vəziyyətinin monitorinqindən və onların səmərəliliyindən asılı olaraq, buraya müvafiq dəyişikliklər ediləcəkdir.

Proqramda Azərbaycandakı mövcud yoxsulluq səviyyəsi və onun səbəbləri təhlil edilmiş, yoxsulluğun azaldılması məqsədilə iqtisadiyyatda, sosial sahədə islahatların institusional dəyişikliklərin əsas istiqamətləri müəyyənləşdirilmiş, yoxsulluğa daha həssas olan əhali qruplarının, ilk növbədə, qaçqın və məcburi köçkünlərin üzləşdikləri problemlərin həllinin zəruriliyi ön plana çəkilmişdir.

YAİİDP-də nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi nəticəsində əhalinin gəlir əldə etmə imkanı artacaq, sosial müdafiə sistemi təkmilləşdiriləcək, müavinət və yardımların əhalinin daha çox ehtiyacı olan təbəqəsinə ünvanlı şəkildə çatdırılması, təhsilin və səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması təmin ediləcəkdir.

***Yoxsulluq üzrə strategiya***. Hökumət ölkədə mövcud olan yoxsulluğa və yaşayış səviyyəsinə dair

downloaded from KitabYurdu.org

məlumatlar əsasında, altı əsas strateji məqsədə istiqamətlənən yoxsulluğun azaldılması üzrə strategiya hazırlamışdır:

(I) gəlir əldə etmək imkanlarının artırılması üçün əlverişli mühitin yaradılması; (II) makroiqtisadi sabitliyin qorunub saxlanılması; (III) əsas səhiyyə və təhsil xidmətləri üzrə keyfiyyətin və həmin xidmətlərdən istifadə üçün bərabər imkanların yaxşılaşdırılması; (IV) infrastrukturun yaxşılaşdırılması (o cümlədən, yollar, kommunal xidmətlər, rabitə, melioRasiya və s.); (V) həssas qrupların daha səmərəli müdafiəsi üçün mövcud sosial müdafiə sistemində müvafiq islahatların həyata keçirilməsi; (VI) qaçqın və məcburi köçkün əhalinin həyat şəraitinin yaxşılaşdırılması.

***İqtisadi siyasət və yoxsulluğun azaldılması***. Yoxsulluğun azaldılması üzrə strategiya iqtisadi siyasətlə bağlı iki əsas vəzifənin yerinə yetirilməsini nəzərdə tutur. Birinci vəzifə, makroiqtisadi sabitliyi qoruyub saxlamaq üçün fiskal və pul-kredit siyasətindən çevik və ehtiyatla istifadə olunmasıdır. İkinci vəzifə, hökumət tərəfindən tarazlı iqtisadi artıma şərait yaradılmasıdır. Tarazlı iqtisadi artımın təmin olunması qeyri-neft sektorunun inkişafının təşviq edilməsində və xüsusilə, ölkənin Abşeron yarımadasından kənar regionlarında yeni iş yerlərinin yaradılmasında mühüm əhəmiyyət kəsb edir.

***Makroiqtisadi sabitlik***. Makroiqtisadi sabitliyin qorunub saxlanılması məqsədilə inflyasiyanın aşağı səviyyədə (2-3%) saxlanılması üçün MB müvafiq pul-kredit siyasətini həyata keçirməkdə davam edəcək,


dövlət xərcləri ortamüddətli perspektivdə davamlı və inflyasiyaya səbəb olmayan səviyyədə məhdudlaşdırılacaqdır. Hökumət əsas iqtisadi və maliyyə orqanlarını institusional cəhətdən daha da təkmilləşdirərək maliyyə planlaşdırmasını və ona nəzarətin səmərəliliyini artıracaqdır. İnstitusional dəyişikliklər büdcə prosesinin təkmilləşdirilməsini, o cümlədən xərclərdə və gəlirlərdə tarazlığı təmin edən və hökumətin xərc prioritetlərini müəyyənləşdirən OMXS-in hazırlanmasını təmin edəcəkdir. İnvestisiyalara dair təfsilatı əks etdirəcək DİP hazırlanacaqdır. Vergi və Gömrük Məcəllələrinin, eləcə də vergi və gömrük sistemlərinin təşkilati strukturunun və prosedurlarının təkmilləşdirilməsi, həmin sistemdə çalışan işçilərin potensialının inkişaf etdirilməsi vasitəsilə gəlirlərin idarəolunması yaxşılaşdırılacaqdır. Dövlət borclarının idarəolunması təkmilləşdiriləcək, dövlət zəmanətlərinin verilməsi məhdudlaşdırılacaq və onlar üzrə maliyyə nəzarəti gücləndiriləcəkdir.

***Tarazlı iqtisadi artım***. Hökumət tarazlı artıma şərait yaratmaq üçün üç əsas vasitədən – dövlət maliyyə siyasətindən, tənzimləmədən və özəlləşdirmə siyasətindən istifadə edəcəkdir. Bu vasitələr bəzi aparıcı sektorların işinin təkmilləşdirilməsinə – investisiya mühitinin yaxşılaşdırılmasına, işgüzarlıq və sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar üçün kredit əldə etmək imkanlarının genişləndirilməsinə, infrastrukturun, KOM-ların, eləcə də, regionların və kənd təsərrüfatının inkişaf etdirilməsinə, ətraf mühitin yaxşılaşdırılmasına, enerjinin istehsalı və paylanması sa-

downloaded from KitabYurdu.org

həsində islahatların həyata keçirilməsinə, eləcə də, turizmin təşviq edilməsinə kömək edəcəkdir.

Ümumi götürdükdə, gəlir və istehlakın aşağı səviyyəsi ilə səciyyələnən yoxsulluq, adətən, imkanların məhdudluğunu əks etdirir ki, bu da əmək bazarı və məşğulluq məsələləri ilə sıx bağlıdır. Belə ki, məşğulluq əhalinin işlə təmin olunması və müntəzəm gəlir əldə etməsi üçün imkan yaradır. Lakin imkanlar yalnız məşğulluq ilə məşdudlaşmır, o, eyni zamanda, əmlak sahibkarlığı ilə də bağlıdır. Torpaq əldə etmək və ondan gəlir mənbəyi kimi yararlanmaq imkanları buna misal ola bilər.

Gəlir və istehlak səviyyəsi mühüm amillər olsa da, onlar yoxsulluğu tam səciyyələndirə bilməzlər. Səhiyyə və təhsil üzrə olan göstəricilər də yoxsulluq səviyyəsinin mühüm göstəricilərindəndir. Yoxsulluğun bu iki aspekti bir-biri ilə sıx əlaqəlidir. Belə ki, savadsızlıq, xəstəlik, qida çatışmazlığı az gəlir əldə etməyə və yoxsulluğa gətirib çıxarır. Bu baxımdan, eyni sorğu məlumatlarından istifadə etməklə gəlir, istehlak, təhsil və səhiyyə səviyyələri arasında əlaqələri təhlil etmək ən optimal yol olardı. Lakin ETM-dən əldə olunan məlumatlar hələ ki, belə təhlilin aparılmasına imkan vermir. Buna görə də bəzən az gəlir ilə aşağı səviyyəli səhiyyə və təhsil arasında əlaqəni göstərmək üçün səhiyyə və təhsilə dair rəsmi göstəricilərlə yanaşı, digər mənbələrdən də istifadə olunur.

ETM-dən əldə edilmiş nəticələrə əsasən aşağıda qeyd olunan yoxsulluq səviyyəsi tender baxımından aydın təsəvvür yaratmır. Bununla belə, qeyd etmək



lazımdır ki, yoxsulluğun müxtəlif aspektləri qadın və kişilərə müxtəlif şəkildə təsir göstərir. Yoxsulluq, eyni zamanda, həssaslıq və müdafiəsizlik ilə bağlıdır. Həssaslıq və müdafiəsizlik yoxsulluğun işsizlik və xəstələnmək təhlükəsi kimi digər aspektləri ilə də əlaqəlidir.

2002-ci ilin əvvəlinə olan rəsmi məlumata görə, respublika əhalisinin 49 faizi kasıbçılıq həddində yaşamışdır.

Aparıcı ölkələrdə əhalinin hər bir nəfərinin payına düşən ümumi daxili məhsulun həcmi orta hesabla ildə 30 min dollara bərabər olduğu halda, Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən Azərbaycanda bu rəqəm təxminən 700 dollar təşkil edir. Göstərilən məbləği alıcılıq qabiliyyətinə uyğun bərabər nisbətdə götürsək, təxminən 3 min dollar alınır. Bu da o deməkdir ki, alınan rəqəm yenə də qabaqcıl ölkələrin orta göstəricisindən 10 dəfə azdır.

Son 10 ilin (1991-2000-ci illər) statistika məlumatlarının təhlili göstərir ki, istehlak edilmiş qida məhsullarının ümumi strukturunda ət və ət məhsulları, süd və süd məhsulları, balıq və balıq məhsulları kimi nisbətən qiymətli və faydalı növlərinin illik adambaşına istehlakının xüsusi çəkiləri az qala yarıya qədər azalmışdır. Bununla bərabər kartofun, tərəvəzin, meyvənin və giləmeyvənin adambaşına istehlakı 8 faizdən 30 faizə qədər artmışdır. Təhlil göstərir ki, çörəkdən (və qismən meyvə və tərəvəzdən) başqa qida məhsullarının bütün qalan növləri üzrə fizioloji istehlak normaları ölkəmizdə heç də tam təmin

downloaded from KitabYurdu.org

olunmur. Oxşar vəziyyət son illərdə də davam etməkdədir.

Göstərilən faktorlarla yanaşı qida məhsullarının istehlakı dinamikasına əhalinin urbanizasiyası və məcburi miqrasiyası da ciddi təsir göstərmişlər, nəticədə heyvandarlıq və bitkiçilik məhsullarının əsas istehsalçıları olan əmək qabiliyyətli kənd sakinlərinin sayı azalmışdır.

Əhalinin urbanizasiyası (həm təbii miqrasiya, həm də təcavüzkar Ermənistanın ölkə ərazimizin 20 faizini işğal etməsi ilə bağlı əksəriyyəti iri və orta şəhərlərdə müvəqqəti məskunlaşmış 1,0 milyona yaxın soydaşlarımızın zorən miqrasiyası), onun yaş və peşə tərkibinin dəyişməsi, keçid dövrünün acı kataklizmlərindən biri olan işsizliyin kəskin surətdə artması da qida məhsullarının istehlakı dinamikasına mənfi təsir göstərmişlər.

Urbanizasiya prosesinin intensivləşməsi özünü müxtəlif aspektlərdə büruzə vermişdir: bir tərəfdən, kənd əhalisinin şəhərlərə miqrasiyası davam etmişdir ki, bu da kənd təsərrüfatı məhsullarının bilavasitə istehsalçılarını nəzərə çarpacaq dərəcədə azaltmışdır, digər tərəfdən, həmin məhsulları istehlak edən ümumi əhalinin (həm şəhər, həm kənd) sayı artmışdır.

Düzdür, son 5-6 ildə kənd yerlərindən şəhərə əhali axını azalmış və bu meyl indi də davam edir. Bunun başlıca səbəbləri kimi torpaq islahatının uğurla həyata keçirilməsini, sahibkarlığın inkişafına dövlət tərəfindən ciddi dəstək verilməsini və bunların



nəticəsi olaraq kənd təsərrüfatının inkişafı imkanlarının genişlənməsini göstərmək olar.

Yoxsulluğun Azaldılması üzrə Strategiya iqtisadi siyasətlə bağlı iki əsas vəzifənin yerinə yetirilməsini nəzərdə tutur:

**Birinci vəzifə** makroiqtisadi sabitliyə nail olmaq üçün fiskal və pul-kredit siyasətindən çevik və ehtiyatlı istifadə olunması. Artıq bu məsələ ilə bağlı müxtəlif fəsillərdə məlumat verilmişdir. Qeyd edilmişdir ki, Ümummilli liderimiz H.Əliyevin ikinci dəfə Azərbaycana hakimiyyətə qayıtması və gördüyü tədbirlər nəticəsində 1995-ci ildən başlayaraq makroiqtisadi sabitlik əldə edilmiş və inkişaf başlamışdır.

**İkinci vəzifə** hökumət tərəfindən tarazlı iqtisadi artım üçün şəraitin yaradılmasından ibarətdir. İndiyə kimi əhaliyə edilən ödənişlər yoxsulluğun azaldılması üçün əsas vasitə hesab edilirdi. Lakin bir çox ədəbiyyatlarda qeyd edildiyi kimi əslində onlar, bütövlükdə yoxsulluğun azaldılması strategiyasında mühüm rol oynasa da əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəldilməsi kifayət deyil. Buna görə də respublika hökuməti ölkədə məşğulluq və gəlir əldə etmək imkanları yaratmaq məqsədilə əsas diqqəti sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə yönəldir.

Hökumət neft sektorunun inkişafı ilə yanaşı qeyri-neft sektorunun inkişafına da xüsusi diqqət yetirir. Eyni zamanda, hökumət yeni iş yerlərinin yaradılması və regional inkişafın təmin olunması məqsədilə tarazlı iqtisadi inkişafa nail olunması və qeyri-neft sektorunun inkişafının həvəsləndirilməsini zəruri

downloaded from KitabYurdu.org

hesab edir. Bu baxımdan qeyd etmək lazımdır ki, hökumət birbaşa iş yerlərinin açılmasını deyil, onun açılması üçün münbit şəraitin yaradılmasını həvəsləndirəcəkdir. Hazırda yeni iş yerlərinin stimullaşdırılması investisiya siyasəti, regional inkişafa dair proqramlar, özəlləşdirmə, maliyyə və bank sektorunun inkişaf etdirilməsi, KOM-ların inkişafının stimullaşdırılması kimi iqtisadi siyasətin müxtəlif aspektləri vasitəsilə həyata keçiriləcəkdir.

Müstəqilliyin bərpasından keçən dövr ərzində respublikamızda Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilən iqtisadi inkişaf strategiyasının ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində əldə edilmiş nailiyyətlərin miqyası və əhatə dairəsi xeyli genişlənmişdir.

Respublikamızın regionlarında iqtisadi potensialın tarazlı və proporsional inkişafının təmin edilməsi son nəticədə regionların müxtəlif makroiqtisadi göstəricilər üzrə xüsusi çəkisinin artmasına, sahibkarlıq fəaliyyətinin daha da sürətləndirilməsinə, yerli istehsalın inkişafına, yüksək məşğulluq səviyyəsinin təmin olunmasına və regionlarda yoxsulluğun azaldılmasına gətirib çıxarmışdır.

Muxtar respublikamızda da Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyasının reallaşdırılması istiqamətində həyata keçirilən irimiqyaslı tədbirlər öz nəticələrinə görə digər regionlara nisbətən xeyli yüksəkdir. Araşdırmalar göstərir ki, aparılan iqtisadi islahatlar bu-



rada sosial-iqtisadi inkişafın tələblərinə tam uyğun gəlməklə elmi əsaslar üzərində qurulmuşdur. Görülən genişmiqyaslı tədbirlər nəticəsində muxtar respublikamızda makroiqtisadi göstəricilər ildən-ilə yüksəlir. Təkcə 2006-cı ildə ÜDM istehsalı 26,6 faiz artmışdır.

Müstəqillik dövründə Naxçıvan Muxtar Resupblikasında yeni istehsal və emal müəssisələrinin yaradılması, sahibkarlığın müxtəlif formalarının, sosial və istehsal infrastrukturunun inkişafı və digər amillər əhalinin sosial təminatının yaxşılaşdırılmasına, rifahının daha da artırılmasına və ümumilikdə davamlı inkişafın təmin olunmasına geniş imkanlar açmışdır.

Ölkədə yoxsulluğun azaldılmasına yönəldilmiş sosial siyasət də muxtar respublikamızda çox müvəffəqiyyətlə həyata keçirilir.

Qeyd edildiyi kimi, son illərdə iqtisadi artımın tempi artmaqdadır. Lakin vətəndaşların həyat səviyyəsi, hələlik arzu olunan səviyyədə deyildir. Gəlirlərin bölgüsündə qeyri-bərabərliyin artması, Bakı və ölkənin digər regionları arasındakı yaşayış səviyyəsində fərqlərin dərinləşməsi öz həllini gözləyən problemlərdəndir.

İqtisadi siyasətdə başlıca istiqamət geniş əhali qruplarının gəlir gətirən fəaliyyətlə məşğul olmaq imkanının təmin edilməsi olduğu halda, sosial siyasətdə əsas məqsəd sosial siyasət tədbirləri vasitəsilə gəlirlərin yenidən bölgüsünün ədalətli şəkildə aparılmasının təmin edilməsidir. Əgər birinci istiqamət iqtisadiyyatda struktur dəyişikliklərinin aparılmasını, qeyri-

downloaded from KitabYurdu.org

neft sektorunun və regionların iqtisadi inkişafını təmin etməklə özəl sektorun daha da həvəsləndirilməsini nəzərdə tutursa, ikinci istiqamət geniş və iqtisadi baxımdan səmərəli sosial müdafiə sisteminin yaradılmasını tələb edir.

Yoxsulluğun azaldılması istiqamətində görülən təxirəsalınmaz vəzifələrdən biri sosial problemlərin həllidir. Əhalinin aztəminatlı təbəqəsinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsi pensiya və sosial yardım sahəsində islahatların aparılmasından ibarətdir. Bu dövr ərzində məcburi dövlət sosial sığorta haqları hesabına Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fonduna 12,3 milyon manat vəsait toplanmışdır ki, bu da ödənilən vəsaitin 52,1 faizini təşkil edir.

Ümumiyyətlə, son illər məcburi dövlət sosial sığorta haqlarının yığılmasında böyük irəliləyişlər nəzərə çarpır. Təkcə son iki ilin rəqəmlərinin təhlili göstərir ki, 2005-ci ilə nisbətən 2006-cı ildə Naxçıvan Muxtar Respublikası üzrə məcburi dövlət sosial sığorta haqlarının yığılması 29,2 faiz, o cumlədən, özəl sektorda 2,1 dəfə artım tempi qeydə alınmışdır. Belə yüksək artım tempinə nail olunması ilk növbədə Muxtar Respublika Ali Məclisi rəhbərliyinin özəl sektorun inkişafı üçün yaratdığı münbit şərait, sahibkarlığın inkişafına dövlət yardımı, habelə ilk növbədə bu sektora göstərilən daimi diqqət və qayğı nəticəsində baş vermişdir. Bütün bu proseslər son nəticədə milli gəlirin təkrar bölgüsü zamanı sosial xarakterli



ödənişlərin, pensiyaların məbləğini artırmağa imkan yaratmışdır. Pensiyalarla yanaşı, bu dövr ərzində əhalinin sosial qayğıya ehtiyacı olan təbəqəsinə müavinətlərin ödənilməsində dinamik artım müşahidə olunmuşdur.

Aztəminatlı ailələrə ünvanlı sosial yardımın ödənilməsi dövlətin sosial siyasətinin əsas prioritetlərindən biridir. Bununla əlaqədar qeyd etmək lazımdır ki, ölkənin regionlarında da məqsədyönlü işlər görülməkdədir.

Naxçıvan Muxtar Respublikasında 2006-cı ilin iyul ayından aztəminatlı ailələrə ünvanlı sosial yardım ödənilməyə başlanmışdır. Keçən dövr ərzində muxtar respublika ərazisində yaşayan 4160 ailəyə ünvanlı yardım təyin edilərək 6 ay ərzində 646 min manat həcmində müavinətlər ödənilmişdir. Yardımların aylar üzrə ödənişi aşağıdakı diaqramda verilmişdir.

downloaded from KitabYurdu.org

**Naxçıvan MR üzrə aztəminatlı ailələrə ünvanlı sosial yardımın ödənilməsi (2006-cı ilin müvafiq ayları üzrə, min manatla)**




Nəticə olaraq qeyd etmək lazımdır ki, dövlətin yeritdiyi iqtisadi və sosial siyasət bütövlükdə respublikada və onun tərkib hissəsi olan Naxçıvan MR-da çox uğurla həyata keçirilir, əhalinin həyat səviyyəsi yüksəlir, yoxsulluq isə getdikcə azalır.



# ƏDƏBİYYAT SİYAHISI

1. Abbasov A.B. Biznesin əsasları. Bakı: Nurlan, 2005.
2. Axundov M. Müəssisə iqtisadiyyatı. Bakı: Azərnəşr, 2002.
3. «Aqrar islahatların əsasları haqqında» Azərbaycan Respublikasının Qanunu.
4. Allahverdiyev H.V., Qafarov K.S., Əhmədov Ə.M. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: BDU, 2002.
5. Allahverdiyev M.M. Azərbaycanda işçi qüvvəsinin təkrar istehsalının bəzi məsələləri. Bakı, 1996.
6. Alıyev İ.H. Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi. Bakı, 2003.
7. Arzumanov V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya, Soyqırım, Qaçqınlıq. Bakı: Qartal, 1998, s.23.
8. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya, Soyqırım, Qaçqınlıq. Bakı: Qartal, 1998, s.23-24 və İ.Şopen. Исторический памятник состояния Армянской области и эпоху его присоединения к Российской империи. СПБ., 1952, с.542.
9. Ataşov B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı: Elm, 2005, s.93.
10. Azərbaycan iqtisadiyyatı: problemlər, perspektivlər. Bakı: Elm, 2002.

downloaded from KitabYurdu.org

11. Azərbaycan iqtisadiyyatı yüksəliş yollarında. Bakı: Elm, 2003.
12. Azərbaycan Respublikasının Konstitusiyası.
13. Azərbaycan Respublikasının Əmək Məcəlləsi.
14. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)».
15. «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
16. «Azərbaycanın demoqrafik göstəriciləri – 2006». Bakı, 2007.
17. «Azərbaycanın statistik göstəriciləri – 2006». Bakı, 2007.
18. «Azərbaycan rəqəmlərdə – 2006». Bakı, 2007.
19. «Azərbaycan Respublikası əhalisinin siyahıya alınması – 1999». Bakı, 2001.
20. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqrammı (2004-2008-ci illər)».
21. Азербайджан в цифрах 1990 году. Краткие статсборник. Баку: Госкомстат Азербайджана, 1991, с.273.
22. «Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkişafına dair Dövlət Proqramı (2006-1015-ci illər)».
23. Демографический энциклопедический словарь. М.: «Советская энциклопедия», 1985, с.12.



24. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı: Elm, 2005.
25. Əhmədov N.H. Naxçıvan əhalisinə dair. Naxçıvan tarixinin səhifələri. Bakı, 1996.
26. Əhmədov N.H. Azərbaycanda xarici iqtisadi əlaqələrin inkişafı və istehlak bazarının formalaşması. Bakı, 2005.
27. Əhmədov N.H. Regional ərzaq bazarı və onun formalaşması istiqamətləri. Bakı, 2005.
28. Əhmədov N.H. Azərbaycanda istehlak malları bazarının formalaşması və inkişaf problemləri. Bakı: Elm, 2007.
29. Əliyev A.Ə., Şəkərəliyev A.Ş. Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti. Bakı, 2002.
30. Əliyev M.T. Azərbaycan iqtisadiyyatının formalaşması və inkişaf problemləri. Bakı, 2002, s.249.
31. Həsənov P.T. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları. Bakı: Elm, 1998.
32. Xəlilov H.A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri. Monoqrafiya. Bakı, 2001, s.10.
33. Marks K., Engels F. Əsərləri. Cild 25, hissə 2, s.184-185.
34. Mehrəliyev E.Q. Azərbaycan Respublikasında demoqrafik proseslərin regional təhlili. Bakı: Elm, 2003.

downloaded from KitabYurdu.org

35. Məmmədov Z.S. XXI əsr: iqtisadi inkişafın nəqliyyat faktoru. Bakı, 2002.
36. «Məşğulluq haqqında» Azərbaycan Respublikasının Qanunu.
37. Muradov Ş.M. Naxçıvan Muxtar Respublikasının demoqrafik potensialı. Azərbaycan EA-nın xəbərləri. İqtisadiyyat seriyası. Bakı, 1999, № 1-4.
38. Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı: Elm, 2004, s.587.
39. Muradov Ş.M., Nadirov A.A., Nuriyev Ə.X. Naxçıvan statistik güzgüsündə (tarixi statistik məcmuə). Bakı: 1999, 125 s.
40. Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə (monoqrafiya). Bakı: Elm, 2000.
41. Население Закавказья. Всесоюзная перепись населения 1926 г. Краткие итоги. Изд-во Зак. ЦСУ. Тифлис, 1928, с.18.
42. Naxçıvan Muxtar Respublikası – 80. Bakı: Səda, 2004, s.61, 106, 55-56
43. Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri ilə əlaqədar Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarlar.
44. Naxçıvan MR DSK-nın materialları.
45. Naxçıvan ensiklopediyası. 2 cilddə. Naxçıvan, 2005.
46. Nuriyev Ə.X. Regional inkişafın dövlət tənzimlənməsinin aktual məsələləri. Azərbaycan iqtisadiyyatı: problemlər, perspektivlər. Bakı, 2004.



47. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı: Elm, 2007.
48. Первая Всеобщая перепись населения Российской империи 1897 г. (IX, XI, XIII cildlər); К.В.Мамедов. Демографическое развитие в Азербайджанской ССР. Баку, 1980, с.160.
49. Самедзаде Зияд. Этапы большого пути (экономика Азербайджана за полвека, её реали и перспективы). Баку, 2004, I том.
50. Sadıqov M.M., Balayeva E.A., Həmişəyeva Ş.Ü. Beynəlxalq valyuta – kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi. Dərslik. Bakı, 2003.
51. Salahov S.V. Transformasiya şəraitində aqrar sahənin dövlət tənzimlənməsi məsələləri. Bakı, 2000.
52. Yeni iş yerləri. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Statistik məcmuə. Bakı: «Səda» nəşriyyatı, aprel, 2008.
53. Zaqaytov İ.B. İqtisadiyyatın böhrandan çıxarılması və ərzaq balansı qanunu. Beynəlxalq elmi-praktik konfransın materialları. Oryol, 1996, s.52.

downloaded from KitabYurdu.org

# M Ü N D Ə R İ C A T

Müəllifdən …………………………..…………….. *3*
Giriş …………………………………..………… *9*

**I BÖLMƏ**
**İQTİSADİ ARTIM SÜRƏTİNƏ**
**VƏ DİNAMİK İNKİŞAFA MALİK**
**RESPUBLİKA**

**I Fəsil. Naxçıvan MR və onun inzibati ərazi bölgüləri ………….…………………………..** *15*
Regionun qısa xarakteristikası………………… *15*
1.1.Naxçıvan Muxtar Respublikası …………… *15*
1.1.1.Naxçıvan şəhəri…………………………. *17*
1.1.2.Şərur rayonu……………………………… *20*
1.1.3.Babək rayonu…………………………….. *21*
1.1.4.Culfa rayonu……………………………… *23*
1.1.5.Ordubad rayonu……………………….. *25*
1.1.6.Kəngərli rayonu………………………….. *27*
1.1.7.Şahbuz rayonu…………………………… *28*
1.1.8.Sədərək rayonu…………………………… *30*

**II BÖLMƏ**
**MÜSTƏQİLLİK İLLƏRİNDƏ**
**İQTİSADİYYATIN İNKİŞAFI**
**XÜSUSİYYƏTLƏRİ**

**II FƏSİL. Sənaye muxtar respublika iqtisadiyyatının aparıcı sahəsidir…………….……** *35*
2.1. 1992-1995-ci illərdə ölkəni bürüyən iqtisadi böhran, onun səbəbləri və çıxış yolları………. *35*
2.2. Naxçıvan MR-da sənayenin müasir vəziyyəti və inkişaf perspektivləri…………….. *44*



2.3 Sənaye siyasəti və rəqabətqabiliyyətliliyin yüksəldilməsinin regional problemləri………… *67*
**III Fəsil. Aqrar sektorun iqtisadiyyatı və inkişafını təmin edən amillər ……………………** *91*
3.1. Naxçıvan aqrar islahatların beşiyidir……. *91*
3.2. Naxçıvan MR-da keçid iqtisadiyyatı şəraitində aqrar sektorun vəziyyəti və inkişaf xüsusiyyətləri…………………………………… *124*
**IV Fəsil. Nəqliyyat sektoru beynəlxalq əlaqələr və iqtisadi inkişafda əsas amildir……………..** *149*
4.1 Yolların yaranmasına dair tarixə qısa bir baxış ……………………………………………….. *149*
4.2 Dəmir yolu nəqliyyatı …………………….. *157*
4.3 Avtomobil nəqliyyatı……………………… *167*
4.4 Hava nəqliyyatı…………………………… *183*
**V Fəsil. Naxçıvan Muxtar Respublikasında tikinti-quruculuq işləri geniş vüsət almışdır……………………………………………...** *193*
**VI Fəsil. Demoqrafik proseslər, məşğulluq və gender problemi…………………………………** *205*
6.1. Naxçıvan MR-da demoqrafik proseslərin müasir vəziyyəti………………………………. *205*
6.2. Naxçıvan MR-da məşğulluğun təmin olunması imkanları………………………….. *239*
6.3.Kiçik və orta biznesin inkişafının məşğulluq səviyyəsinə təsiri və tənzimlənməsinin təkmilləşdirilməsi …………………………………… *255*
6.4. Məşğulluq sahəsində gender problemi və onun regional həlli istiqamətləri ……………… *274*

downloaded from KitabYurdu.org

## III BÖLMƏ
## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN MÜASİR VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

**VII Fəsil. Naxçıvan gömrüyü inkişaf yollarında**……………………..…………………….. *287*
7.1. H.Əliyev və Azərbaycanda gömrük xidmətinin inkişafı………………………..……….. *287*
7.2. Naxçıvan MR-da gömrük sisteminin təşəkkülü, müasir vəziyyəti və gömrük nəzarətinin təşkili imkanları ……………………..…… *296*
7.3. Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi əlaqələrin tənzimlənməsində gömrük xidmətinin rolu………………………………… *315*
7.4. Gömrük siyasəti və onun təkmilləşdirilməsi istiqamətləri………………………………… *337*
**VIII Fəsil. Ölkənin ərzaq təhlükəsizliyi və onun regional aspektləri**…………………………….. *355*
8.1. Ölkənin ərzaq təhlükəsizliyinin müasir vəziyyəti……………………………………… *356*
8.2. Naxçıvan regionunun ərzaq təhlükəsizliyi üzrə Dövlət Proqramının reallaşması imkanları…………………………………………… *374*
8.3. Yoxsulluğun azaldılmasına yönəldilmiş iqtisadi və sosial-siyasət………………………. *407*
***Ədəbiyyat siyahısı***……………………………… *424*



**Nazim Əhmədov**

-----------------------------------------

**85**

**Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf**

***Çapa imzalanıb 23. 07. 2008. Kağız formatı 60x84 1/16.***
***Həcmi 27 ç.v. Sifariş 115. Sayı 500.***

---------------------------------------------------------------

downloaded from KitabYurdu.org

**Əhmədov Nazim Hidayət oğlu**

1947-ci il yanvarın 1-də Ordubad rayonunun Vənənd kəndində anadan olmuşdur. Orta məktəbi Vənənd kəndində bitirib. 1968-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirərək ali təhsil alıb.

1992-ci ildə Bakı Dövlət Universitetində namizədlik dissertasiyası müdafiə edərək iqtisad elmləri namizədi, 2006-cı ildən Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə iqtisad elmləri doktoru alimlik dərəcəsi alıb. 1995-ci ildən dosentdir. Naxçıvan MR Ali təhsil müəssisələrində çalışır.

8 kitabın və 150-yə yaxın elmi əsərin müəllifidir. Əsərləri bir çox xarici ölkələrdə, o cümlədən ABŞ, Rusiya, Türkiyə və İranda nəşr olunmuşdur.

downloaded from KitabYurdu.org